

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ADMİU


AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

Az1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39,
ADMİU-nun əsas binası, Elmi Şura zalı


AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ADMİU

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

Şəhərsalma və Memarlıq ilinə
həsr olunmuş

# "MƏDƏNİYYƏT: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR"

Doktorant və
gənc tədqiqatçıların
XVIII Respublika
Elmi Konfransının

MATERİALLARI





BAKI - 2026

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ADMİU

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

Şəhərsalma və Memarlıq ilinə
həsr olunmuş

# "MƏDƏNİYYƏT: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR"



Doktorant və
gənc tədqiqatçıların
XVIII Respublika
Elmi Konfransının

MATERİALLARI



BAKI - 2026

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

https://doi.org/10.52094/ZFHV3762

*Şəhərsalma və memarlıq ilinə həsr olunmuş*

**MƏDƏNİYYƏT: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR**

**DOKTORANT VƏ GƏNC TƏDQİQATÇILARIN**
**XVIII RESPUBLİKA ELMİ KONFRASININ**

***M A T E R İ A L L A R I***

***Konfrans materialları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12 fevral 2026-cı il tarixli qərarına əsasən çap olunur.***

**Bakı — 2026**



**Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT-nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 dekabr 2025-ci il***

**“MƏDƏNİYYƏT: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR”**
**Doktorant və Gənc Tədqiqatçıların XVIII Respublika Elmi Konfrasının Materialları**


**Elmi redaktor:** **Sədaqət Əliyeva**
*Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent*

**Redaksiya heyəti**

**Redaktor:** **Fəridə Cəlilova**
*Elm və doktorantura şöbəsinin müdiri, dosent*

**Jurnalın üz qabığının tərtibi və dizaynı:** **Vüqar Əli**
*Əməkdar rəssam*

**Rus dilindəki mətnin korrektoru:** **Afaq Sadıqova**
*Pedaqogika. üzrə fəlsəfə doktoru, dosent*

**İngilis dilindəki mətnin korrektoru:** **Aygün Əbdülova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Korrektor:** **Sevinc Məmmədova**
*Elm və doktorantura şöbəsinin mütəxəssisi*

**Texniki redaktor:** **Pərvanə Lətifli**
*Yaradıcılıq layihələrinin idarə olunması şöbəsinin mütəxəssisi*



Mədəniyyət: problemlər və perspektivlər. Doktorant və gənc tədqiqatçıların XVIII Respublika elmi konfrasının materialları (*Şəhərsalma və memarlıq ilinə həsr olunur*), – Bakı: “ADİLOĞLU” Nəşriyyatı, – 17 aprel 2026-ci il, – 2026, – 214 s.

**ISBN: 9 7 8 - 9 9 5 2 - 3 9 - 5 5 0 - 1**

## TƏŞKİLAT KOMİTƏSİ

**Ceyran Mahmudova** – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, professor (sədr)
**Sədaqət Əliyeva** – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elm və yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq elmləri doktoru, dosent
**Nigar Rüstəmova** – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Tədris işləri üzrə prorektoru, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Rüfət Quliyev** – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Mühasibat uçotu və hesabat şöbəsinin müdiri, baş mühasib

## ELMİ KOMİTƏ

**Sədaqət Əliyeva –** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elm və yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq elmləri doktoru, dosent
**Sevil Kərimova –** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Validə Məmmədova –** Rektorun tədrisdə innovasiyalar üzrə müşaviri, Əməkdar incəsənət xadimi, professor
**Məlahət Fərəcova –** Tarix elmləri doktoru, dosent
**Məryam Əli-Zadə –** Sənətşünaslıq elmləri doktoru, professor

**UOT 78**
**ORCID: 0000-0001-7618-3657**

**Rumiyə Məmmədova Yaqub qızı**
**Naxçıvan Dövlət Universiteti**
**Baş müəllim**
**rumiyamammadova89@gmail.com**

# KAMAL ƏHMƏDOVUN YARADICILIQ İRSİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Bu məqalədə Azərbaycan professional musiqi mədəniyyətinin XX əsrin ikinci yarısı – XXI əsrin əvvəllərini əhatə edən inkişaf mərhələsində mühüm yer tutan bəstəkar Kamal Rüstəm oğlu Əhmədovun yaradıcılıq irsi kompleks şəkildə araşdırılır. Tədqiqatın məqsədi bəstəkarın çoxşaxəli fəaliyyətini janr müxtəlifliyi, üslub xüsusiyyətləri və milli musiqi ənənələrinin müasir bəstəkarlıq təfəkkürü ilə sintezi kontekstində təhlil etməkdir. Məqalədə Kamal Əhmədovun simfonik, vokal-simfonik, kamera-instrumental, konsert və vokal janrlarında yazılmış əsərləri sistemli şəkildə nəzərdən keçirilir. Onun yaradıcılığında muğam və xalq musiqisinə xas lad-intonasiya xüsusiyyətlərinin yaradıcı transformasiyası, fərdi modus sisteminin formalaşdırılması və melodiyanın aparıcı bədii ifadə vasitəsi kimi çıxış etməsi xüsusi vurğulanır. Eyni zamanda, orkestr fakturasının dramaturji funksiyası, proqramlılıq prinsipi və ideya-məzmun dərinliyi bəstəkarın estetik konsepsiyasının əsas komponentləri kimi qiymətləndirilir. Araşdırma nəticəsində müəyyən edilir ki, Kamal Əhmədovun yaradıcılığı milli musiqi təfəkkürünə əsaslanmaqla yanaşı, müasir bəstəkarlıq texnikasının nailiyyətlərini özündə birləşdirən bütöv və ardıcıl bir sənət sistemidir. Onun irsi Azərbaycan professional musiqisinin inkişafında əhəmiyyətli mərhələ kimi dəyərləndirilə bilər.
**Açar sözlər:** Kamal Əhmədov, Azərbaycan musiqisi, simfonik yaradıcılıq, muğam, milli üslub, vokal musiqisi, xor yaradıcılığı.

## Giriş

Azərbaycan professional musiqi mədəniyyətinin inkişaf tarixində milli bəstəkarlıq məktəbinin zənginləşməsi və yeni ifadə vasitələri ilə təmin olunması prosesində Kamal Əhmədovun yaradıcılığı xüsusi yer tutur. Onun çoxşaxəli irsi janr müxtəlifliyi, ideya-məzmun dərinliyi və milli ənənələrə söykənən estetik mövqeyi ilə seçilir.

Bəstəkarın yaradıcılıq üslubunun formalaşmasında Naxçıvanın zəngin folklor mühiti – muğam, aşıq sənəti və mərasim musiqisi mühüm rol oynamışdır. Peşəkar musiqi təhsili, xüsusilə Xəyyam Mirzəzadənin bəstəkarlıq sinfində aldığı biliklər onun musiqi dilinin yetkinləşməsinə təsir göstərmişdir. Bu təsir nəticəsində Əhmədovun yaradıcılığında milli və ümumbəşəri ünsürlərin üzvi vəhdəti formalaşmışdır.

Xəyyam Mirzəzadənin xalq musiqisinə, xüsusilə muğama yanaşma prinsipləri onun tələbəsi olan Kamal Əhmədovun yaradıcılığında aydın şəkildə əksini tapır. "Mənim üçün muğam həmişə müqəddəs material olaraq qalır. Bu, mənim qanımdır, mənim həyatımdır. Bu, o deməkdir ki, mən azərbaycanlıyam. Bu, mənim musiqimdir. Lakin mən muğamdan olduğu kimi istifadə etməyin tərəfdarı deyiləm. Tələbələrimə də bunu aşılayıram. Çünki mənə belə öyrədiblər: üst təbəqədə olan

cəhətləri götürmək olmaz, dərin qatlara baş vurmaq lazımdır” [Həsənova, C., 2005, s. 184]. Xəyyam Mirzəzadənin muğama, ümumiyyətlə xalq musiqisinə dair söylədiyi bu fikirlər onun tələbəsi K.Əhmədovun yaradıcılığında da bariz şəkildə görünür. Belə ki, bəstəkarın yaradıcılığında milli musiqi – xüsusilə xalq musiqisinə xas lad-intonasiya xüsusiyyətləri və melodik inkişaf prinsipləri mühüm yer tutur. Bu xüsusiyyətlər bəstəkarın musiqi dilində formayaratma amillərindən biri kimi rol oynayaraq onun fərdi yaradıcılıq üslubunun əsas komponentinə çevrilmişdir. Musiqişünas B.Rzayevanın təbirincə desək: “Bəstəkarın yaradıcılığında forma və məzmun etibarilə bəşəri əhəmiyyət daşıyan əsərlərinin cövhərini xalq musiqisi təşkil edir” [Rzayeva, B., 2015, s. 5].

Əsər bəstələyərkən K.Əhmədovun əsas məqsədi janrından aslı olmayaraq yüksək keyfiyyətə malik musiqi nümunəsi yaratmaq olmuşdur. Buna görə də onun musiqi təfəkkürünün, melodik düşüncəsinin əsas cəhətlərindən biri daimi yenilik axtarışına söykənməkdir. Diqqəti cəlb edən məqam ondan ibarətdir ki, bəstəkarın yaradıcılığında hər bir əsər (hətta həcmi etibarilə kiçik formalı nümunələr belə) müstəqil melodiyaya əsaslanır və əvvəlki əsərlərdə istifadə olunmuş intonasiya modellərinin təkrarına yol verilmir.

Kamal Əhmədovun yaradıcılıq irsinin əhəmiyyəti onun beynəlxalq miqyasda tanınması ilə də təsdiqlənir. Bəstəkar instrumental musiqi sahəsi üzrə beynəlxalq müsabiqədə birinci yerə layiq görülmüşdür. Bu mükafat onun bəstəkarlıq fəaliyyətinin müasir musiqi məkanında aktuallığını, janr və üslub baxımından rəqabət qabiliyyətli olduğunun sübutudur.




**Material və metodlar**

***Tədqiqat materialı***

Tədqiqatın material bazasını Kamal Əhmədovun müxtəlif janrları əhatə edən əsərləri təşkil edir. Araşdırma çərçivəsində bəstəkarın simfonik (“Cavid”, “Xocalı”, “Naxçıvan simfonik lövhələri”, “Səyahət” simfonik süitası), vokal-simfonik (“Əbədi məşəl” simfonik süitası, “Rekviem”, “Onu zaman doğmuşdur”, “Ömrün Heydər Zirvəsi”, “Tənha məzar”, “Azərbaycan Bayrağı”, “Azadlıq türküsü”, “Milli Ordumuz” xor və böyük simfonik orkestr üçün odaları), konsert janrında (piano və orkestr, tar və orkestr üçün Konsertlər, qanun və orkestr üçün Rapsodiya), kamera-instrumental (simli kvartetlər, trio, kapriççio, ballada, sonata tipli əsərlər), fortepiano (fuqalar, prelüdlər, variasiyalar), vokal (mahnı, romans, duetlər) və xor əsərlərinin not materialları (partituraları) və mövcud audio yazıları təhlil edilmişdir.

Bundan əlavə, mövzu ilə bağlı elmi ədəbiyyat, musiqişünasların tədqiqatları, dövri mətbuat materialları və bəstəkar haqqında nəşr olunmuş məqalələr araşdırmaya cəlb edilmişdir. Müqayisəli təhlil məqsədilə Azərbaycan professional musiqisinin digər nümayəndələrinin yaradıcılığına dair mənbələrdən də istifadə olunmuşdur.

Araşdırmada musiqişünaslığın ənənəvi analitik metodlarından istifadə edilmişdir. Əsas metodoloji yanaşmanı tarixi-müqayisəli və struktur-analitik təhlil təşkil edir. Əsərlərin lad-intonasiya xüsusiyyətləri, melodik inkişaf prinsipləri, forma quruluşu və orkestr fakturası sistemli şəkildə təhlil edilmişdir.

**Əsas hissə**

***Simfonik yaradıcılığı***

Kamal Əhmədovun yaradıcılıq irsində simfonik janr aparıcı mövqeyə malikdir və onun estetik konsepsiyasının ən sistemli şəkildə təcəssüm etdiyi sahə kimi çıxış edir. "Cavid" və "Xocalı" simfoniyaları, eləcə də "Naxçıvan simfonik lövhələri" proqramlılıq prinsipi əsasında qurulmuş, tarixi yaddaş və milli kimlik ideyalarının musiqi vasitəsilə ifadəsinə yönəlmişdir.

"Cavid" simfoniyasında romantik-fəlsəfi düşüncə xətti üstünlük təşkil edir. Əsərin tematik materialı geniş melodik quruluşa malik olmaqla yanaşı, dramatik inkişaf xətti ilə fərqlənir. Burada orkestr fakturası yalnız müşayiətçi funksiyanı yerinə yetirmir, əksinə, ideya yükünü daşıyan əsas struktur element kimi çıxış edir. Xüsusilə tembr kontrastları və dinamik inkişaf mərhələləri dramaturji xətti formalaşdırır.

"Xocalı" simfoniyasında isə faciəvi-epik başlanğıc ön plana keçir. Dörd səsdən ibarət "matəm intonasiyası" əsərin semantik mərkəzinə çevrilərək müxtəlif transformasiyalar vasitəsilə bütöv simfonik inkişafı təmin edir. Bu intonasiya bəstəkarın digər əsərlərində də ideya əlaqəsi yaradan simvolik element kimi çıxış edir. Bu haqda müəllifin müvafiq elmi məqaləsində daha geniş şəkildə araşdırılmışdır [Məmmədova, R., 2024, s.113-130].

***Vokal-simfonik yaradıcılığı***

Bəstəkarın vokal-simfonik əsərləri ideya-məzmun baxımından monumental xarakter daşıyır. "Əbədi məşəl", "Rekviem", "Ömrün Heydər zirvəsi", "Azərbaycan bayrağı" kimi əsərlərdə vokal partiya ilə orkestr fakturası arasında sıx dramaturji əlaqə qurulur.

Bəstəkarın yaradıcılığının yetkin dövründə yazılmış, ən görkəmli əsərlərindən biri olan "Əbədi məşəl" əsərində vətənpərvərlik ideyası simfonik kulminasiyalar vasitəsilə ümumiləşdirilir. Xor və solo partiyaların qarşılıqlı münasibəti monumental səslənmə yaradır. Burada lad dəyişkənliyi və orkestr tembrlərinin mərhələli genişlənməsi ideyanın emosional təsirini gücləndirir.

***Kamera-instrumental yaradıcılığı***

Kamal Əhmədovun kamera musiqisi onun polifonik düşüncə tərzini və faktura üzərində işləmə bacarığını nümayiş etdirir. "Gəmiqaya" və "Rekviem" simli kvartetləri tematik konsentrasiyası və dramatik inkişaf xətti ilə seçilir.

Kvartetlərdə klassik sonata prinsipləri qorunmaqla yanaşı, milli intonasiya materialı tematik nüvəyə çevrilir. Xüsusilə imitasiya və variasiyalı inkişaf üsulları əsərlərin daxili dinamizmini təmin edir.

Skripka və fortepiano üçün "Kapriççio", klarnet və fortepiano üçün "Ballada" kimi əsərlərdə isə lirik başlanğıc üstünlük təşkil edir. Bu əsərlərdə melodik xətt improvizasiya xarakterli intonasiyalarla zənginləşdirilmiş, fortepiano fakturası isə harmonik və ritmik dayaqlar yaradır.

***Konsert janrı və orkestr dramaturgiyası***

Piano və Böyük simfonik orkestr üçün Konsert, qanun və orkestr üçün bəstələnmiş "Rapsodiya", eləcə də tar və orkestr üçün Konsert Kamal Əhmədovun irihəcmli instrumental forma üzərində işləmək bacarığını nümayiş etdirir.

Piano konsertində klassik üçhissəli model saxlanılır, lakin tematik material milli lad xüsusiyyətləri ilə zənginləşdirilir. Birinci hissədə təqdim olunan əsas mövzu müxtəlif faktura və ritmik variasiyalarla inkişaf etdirilir. Orta hissə lirik xarakter daşıyır, final isə dinamik impuls və virtuozluq üzərində qurulmuşdur. Əsərin bədii və texniki xüsusiyyətləri onun ifa tarixində də öz əksini tapmışdır. Bu əsər haqqında İ.Məhərrəmova belə qeyd edir: “Əsəri ilk dəfə 2013-cü ildə Naxçıvan Dövlət Universitetinin Konservatoriya zalında ümummilli lider H.Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə təşkil olunan konsertdə Beynəlxalq müsabiqələr laureatı Teymur Şəmsiyev (solo), orkestr partiyasının fortepiano üçün işləməsini Respublika müsabiqələri laureatı, pianoçu Ülvi Əhmədov ifa etmişdir.” [Məhərrəmova, İ., 2018. s. 114-119].

Xalq çalğı alətləri orkestri üçün yazılmış “Cəngi” və “Şikəstə” əsərləri Kamal Əhmədovun bu orkestri yaradıcılıq laboratoriyası kimi qəbul etdiyini təsdiqləyir. Həmin əsərlərdə xalq musiqisinə xas lad-intonasiya xüsusiyyətləri, ritmik modellər və tembr zənginliyi müasir orkestr fakturasında öz əksini tapır.

***Fortepiano yaradıcılığı***

Fortepiano yaradıcılığı bəstəkarın fərdi musiqi üslubunun lakonik forması kimi qiymətləndirilə bilər. “Mövzu ilə variasiyalar” silsiləsi, “Fantaziya”, “Rapsodiya”, “Şikəstə”, “Skertso” kimi əsərlərdə klassik forma prinsipləri milli intonasiyalar ilə sintez edilir. Bu əsərlər həm pedaqoji, həm də konsert repertuarı baxımından əhəmiyyətlidir.

Fortepiano yaradıcılığında bəstəkarın fuqa və prelüdləri də diqqətəlayiqdir. Müxtəlif tonallıqlarda, iki və üçmövzulu, çoxsəsli fuqalar (E dur, “e moll”, “b moll”, “C dur”, “c moll”) bəstəkarın polifonik düşüncə tərzinin yüksək səviyyəsinin nümayişidir. Prelüdlər silsiləsi isə improvizasiya xarakteri, lad dəyişkənliyi və emosional yığcamlığı ilə fortepiano yaradıcılığında xüsusi yer tutur. Bu əsərlərdə Kamal Əhmədov klassik polifonik forma üzərində işləyərək onu müasir ifadə vasitələri ilə təqdim etmişdir.

***Vokal yaradıcılığı: mahnı, romans və duetlər***

Kamal Əhmədovun yaradıcılığında mahnı, romans və duet janrları mühüm yer tutur və onun irsinin dinləyici ilə ən sıx təmasda olan sahəsini təşkil edir. Bəstəkar solo vokal, duet və müxtəlif orkestr tərkibləri üçün yazdığı əsərlərdə vətən, ana, sevgi, təbiət və qəhrəmanlıq mövzularını melodik sadəlik, emosional səmimilik və milli üslub xüsusiyyətləri ilə ifadə etmişdir.

K.Əhmədovun romansları klassik vokal ənənələrinə əsaslanmaqla müasir ifadə vasitələri və milli intonasiyalarla zənginləşdirilmişdir. “Vətəndir” romansında monumental-simfonik xarakter, “Mən səni sevmişəm”də lirizm və muğam intonasiyaları, “Gözüm aydın”da isə kamera üslubu ön plana çıxır. Duetlərində soprano və tenor partiyaları dialoq prinsipi əsasında qurulur, milli kolorit və emosional balans qorunur.

Xalq çalğı alətləri orkestri və estrada orkestri üçün yazılmış mahnılarında milli musiqi köklərinə bağlılıq, muğam ladları və ritmik zənginlik özünü göstərir. Bu əsərlər vətənpərvərlik, ana, sevgi və tarixi yaddaş mövzularını əhatə edir və geniş auditoriyaya ünvanlanır.

**Nəticə**

Aparılan tədqiqat əsasında müəyyən edilmişdir ki, Kamal Əhmədovun yaradıcılıq irsi janr və üslub baxımından zəngin, konseptual cəhətdən bütöv və milli-estetik əsaslara söykənən müasir sənət sistemidir. Bəstəkarın musiqi dilində muğam və xalq musiqisinə xas lad-intonasiya xüsusiyyətlərinin yaradıcı transformasiyası, melodiyanın aparıcı bədii vasitə kimi çıxış etməsi və polifonik inkişaf prinsiplərinin sistemli tətbiqi onun fərdi üslubunun əsas göstəriciləridir.

Beləliklə, Kamal Əhmədovun yaradıcılığı Azərbaycan professional musiqisinin inkişafında mühüm mərhələ kimi dəyərləndirilə bilər. Onun irsi milli musiqi ənənələrinin müasir bəstəkarlıq təfəkkürü ilə sintezinin parlaq nümunəsi olmaqla yanaşı, həm elmi-nəzəri, həm də ifaçılıq praktikası baxımından aktual əhəmiyyət kəsb edir.

### Ədəbiyyat siyahısı

1. Hacıbəyov, Ü. (1965). *Əsərləri* (C. 2). Bakı.
2. Həsənova, C. (2005). Xəyyam Mirzəzadə dünyamız və musiqimiz haqqında. *Musiqi dünyası*, (3–4/25), 184.
3. Qulamova, J. (2022). Bəstəkar-pedaqoqun sənət yolu. https://kamalehmedli.musicaneo.com/blog/articles/view/3373.html
4. Məmmədova, R. (2024). Kamal Əhmədovun “Cavid” simfoniyasının xarakterik xüsusiyyətləri. *Buta. Uluslararası Bilimsel Araştırmalar Dergisi*, 2(15), 113–130. https://doi.org/10.5281/zenodo.5512888
5. Məhərrəmova, İ. (2018). Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bəstəkarların fortepiano yaradıcılığında konsert janrı. *Elmi Əsərlər (humanitar elmlər seriyası)*, (5/94), 114–119. Naxçıvan: NDU.
6. Rzayeva, B. (2013). Bəstəkar Kamal Əhmədov. *Musiqi dünyası*, (3), 64–67.
7. Rzayeva, B. (2015). *Kamal Əhmədov*. Bakı.
8. Səfərova, Z. (2019). *Azərbaycan musiqi tarixi* (C. 4). Bakı: Elm.
9. Şəxsi müsahibə: Əhmədov, K. (2024)

**Rumiya Mammadova Yagub gizi**

## STYLISTIC FEATURES OF KAMAL AHMADOV’S CREATIVE LEGACY

**Summary**

This article provides a comprehensive study of the creative legacy of composer Kamal Rustam oghlu Ahmadov, who occupies an important place in the development of Azerbaijani professional musical culture in the second half of the 20th century and the early 21st century. The aim of the research is to analyze the composer’s multifaceted activity in the context of genre diversity, stylistic features, and the synthesis of national musical traditions with modern compositional thinking. The article systematically examines Ahmadov’s works written in symphonic, vocal-symphonic, chamber-instrumental, concerto, and vocal genres. Particular emphasis is placed on the creative transformation of modal-intonational features characteristic of mugham and folk music, the formation of an individual modal system, and the leading role of melody as the main means of artistic expression. At the same time, the dramaturgical function of orchestral texture, the principle of programmaticity, and the depth of ideological content are evaluated as key components of the composer’s aesthetic concept. The study concludes that Kamal Ahmadov’s creativity constitutes a coherent and consistent artistic system that combines national musical thinking with the achievements of modern compositional techniques. His legacy can be regarded as a significant stage in the development of Azerbaijani professional music.

**Key words:** Kamal Ahmadov, Azerbaijani music, symphonic creativity, mugham, national style, vocal music, choral music.

**Румия Мамедова Якуб кызы**

# СТИЛЕВЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСКОГО НАСЛЕДИЯ КЯМАЛА АХМЕДОВА

**Резюме**

В данной статье комплексно исследуется творческое наследие композитора Кямала Рустам оглу Ахмедова, занимающего важное место в развитии профессиональной музыкальной культуры Азербайджана во второй половине XX – начале XXI века. Цель исследования – проанализировать многогранную деятельность композитора в контексте жанрового разнообразия, стилевых особенностей и синтеза национальных музыкальных традиций с современным композиторским мышлением. В статье системно рассматриваются произведения Кямала Ахмедова, написанные в симфоническом, вокально-симфоническом, камерно-инструментальном, концертном и вокальном жанрах. Особо подчеркиваются творческая трансформация ладо-интонационных особенностей, присущих мугаму и народной музыке, формирование индивидуальной модальной системы и ведущая роль мелодии как основного средства художественного выражения. В то же время драматургическая функция оркестровой фактуры, принцип программности и идейно-содержательная глубина оцениваются как ключевые компоненты эстетической концепции композитора. В результате исследования установлено, что творчество Кямала Ахмедова представляет собой целостную и последовательную художественную систему, основанную на национальном музыкальном мышлении и объединяющую достижения современной композиторской техники. Его наследие может быть оценено как значимый этап в развитии профессиональной музыки Азербайджана.

**Ключевые слова:** Кямал Ахмедов, азербайджанская музыка, симфоническое творчество, мугам, национальный стиль, вокальная музыка, хоровое творчество.

**UOT 94(4/9) + 01**
**ORCID: 0000-0002-4984-0401**

**Aysel Həsənova Vaqif qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Baş müəllim**
aysel.hasanova@admiu.edu.az

# QƏRBİ AZƏRBAYCANIN TARİXİ ABİDƏLƏRİ VƏ TOPONİMLƏRİNƏ DAİR ƏDƏBİYYATIN BİBLİOMETRİK TƏHLİLİ

**Xülasə**

Məqalədə Qərbi Azərbaycanın tarixi abidələri və toponimlərinə dair 1980-2010-cü illər ərzində nəşr olunan elmi ədəbiyyat öyrənilir və təhlil olunur. Araşdırma zamanı bibliometrik yanaşma tətbiq olunaraq statistik və müqayisəli analiz aparılmışdır. Tədqiqat zamanı əsas mənbə olaraq Azərbaycan Milli Kitabxanası tərəfindən hazırlanmış “Azərbaycanın tarixi abidələri və toponimləri”adlı biblioqrafik göstərici (Səfərəliyeva, 2016) götürülmüşdür. Bununla yanaşı Milli Kitabxananın fondunda araşdırmalar aparılmışdır.

**Açar sözlər:** Qərbi Azərbaycan; bibliometrik təhlil; toponimika; tarixi abidələr; elmi ədəbiyyat; interdisiplinar yanaşma

## Giriş

Qərbi Azərbaycanın tarixi abidələri və toponimləri regionun maddi-mədəni irsinin, etnik tarixinin və coğrafi yaddaşının əsas komponentlərindən biri kimi xüsusi elmi əhəmiyyətə malikdir. Bu ərazilərdə formalaşmış toponimik sistem və memarlıq abidələri yalnız tarixi faktların deyil, həm də xalqın sosial-mədəni inkişafının, məskunlaşma xüsusiyyətlərinin və dil-mədəni transformasiyalarının öyrənilməsi baxımından mühüm mənbə rolunu oynayır.

Qərbi Azərbaycanın tarixi abidələri və toponimlərinin tədqiqi Azərbaycan elmi ənənəsində uzun illərdir davam edən mövzulardan biridir. Əvvəlki tədqiqatlar daha çox faktoloji və təsviri xarakter daşıyır, regionun maddi-mədəni irsi və dövri mətbuatı əsasında məlumatları sistemləşdirir [Axundov, 1965; Məmmədov, 1985]. Sonrakı mərhələdə tədqiqatlarda tarixi və mədəni irsin kompleks yanaşması güclənmişdir. Bu, həm abidələrin təsviri, həm də onların coğrafi və onomastik konteksti ilə bağlıdır [Səfərəliyeva, 2016; Mustafa, 2020, 2025].

XXI əsrin son illərində isə Qərbi Azərbaycan məsələləri daha dərindən, sənəd və arxiv materialları əsasında öyrənilməyə başlanmışdır [Allahverdiyev, 2024; Əliyev, 2023]. Xüsusilə regionun tarixi-mədəni irsinin tanıdılması və müasir dövrdə qorunması məsələləri elmi diskursda prioritet mövzuya çevrilmişdir [Hüseynov & Hüseynova, 2024]. Son dövrlərdə aparılan araşdırmalar Qərbi Azərbaycan toponimlərinin sistemləşdirilməsi, tarixi mənbələrlə müqayisəsi və regionun mətbuat tarixinin təhlilini əhatə edir [Qarayev, 2024; Vəliyev, 2025]. Bu baxımdan, Qərbi Azərbaycanın tarixi abidələri və toponimlərinə dair ədəbiyyatın bibliometrik təhlili mövcud elmi biliklərin sistemləşdirilməsi, inkişaf dinamikasının müəyyən edilməsi və gələcək tədqiqat istiqamətlərinin formalaşdırılması üçün zəruri hesab olunur.

## Əsas hissə

**Qərbi Azərbaycanın tarixi abidələri və toponimlərinə dair ədəbiyyatın inkişaf dinamikası.** Qərbi Azərbaycanın tarixi abidələri və toponimlərinə dair elmi ədəbiyyatın bibliometrik təhlili göstərir ki, bu sahədə tədqiqatlar əsasən XX əsrin son rübündən etibarən sistemli xarakter almağa başlamışdır. Xüsusilə 1970-ci illərin sonlarından etibarən nəşr olunan əsərlərdə regionun maddi-mədəni irsi və onomastik sistemi paralel şəkildə araşdırılmışdır. Bu baxımdan, Əbdülvahab Salamzadə və K. Məmmədzadənin müəllifliyi ilə hazırlanmış “Arazboyu abidələr” əsəri ilkin mərhələdə həm memarlıq abidələrinin təsviri, həm də onların coğrafi yerləşməsi baxımından mühüm mənbə kimi çıxış edir [Salamzadə & Məmmədzadə, 1979]. 1980-ci illərdə nəşr olunan tədqiqatlarda isə toponimika məsələləri daha sistemli şəkildə işlənmişdir. Budaq Budaqov və Qiyasəddin Qeybullayev kimi alimlərin əsərlərində Qərbi Azərbaycanın yer-yurd adlarının etimologiyası, yayılma arealı və tarixi qatları geniş şəkildə təhlil edilmişdir. Xüsusilə Qeybullayevin “Azərbaycan toponimiyası” əsərində erməni dilli toponimlərin ayrıca tədqiqata cəlb edilməsi bu sahədə müqayisəli yanaşmanın formalaşdığını göstərir [Qeybullayev, 1986].

1987-1990-cı illər aralığında nəşr olunan əsərlərdə həm toponimika, həm də konkret abidələrin təsviri paralel şəkildə inkişaf etmişdir. Məsələn, Məşədixanım Nemətova [Nemətova, 1987, s.40-42] tərəfindən tədqiq olunan türbələr, eləcə də Yusif Yusifov və digər müəlliflərin əsərlərində qədim türk mənşəli coğrafi terminologiyanın izləri xüsusi vurğulanır. Bu dövrdə aparılan tədqiqatlar daha çox təsviri və faktoloji xarakter daşısa da, sonrakı mərhələlər üçün zəngin empirik baza formalaşdırmışdır.

1990-cı illər isə ən intensiv mərhələlərdən biri kimi diqqəti cəlb edir. Bu dövrdə nəşr olunan əsərlərin sayında artım müşahidə olunur və tədqiqatların tematik spektri genişlənir. Zəngəzur, Göyçə, İrəvan xanlığı kimi konkret coğrafi areallar üzrə həm tarixi abidələr, həm də toponimlər kompleks şəkildə öyrənilmişdir. Əziz Ələkbərli, Həsən Mirzəyev və digər tədqiqatçıların əsərlərində artıq sistemləşdirilmiş kataloq və lüğət tipli yanaşmalar üstünlük təşkil edir. Xüsusilə 1998-ci ildə nəşr olunmuş “Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti” bu istiqamətdə fundamental mənbə kimi çıxış edir [Budaqov & Qeybullayev, 1998].

Eyni dövrdə tarixi-coğrafi mənbələrin nəşri də diqqətəlayiqdir. Məsələn, “İrəvan əyalətinin icmal dəftəri” kimi arxiv sənədlərinə əsaslanan nəşrlər regionun tarixi toponimiyasının rekonstruksiyası baxımından mühüm əhəmiyyət kəsb edir [İrəvan əyalətinin…, 2009). Bu tip mənbələr bibliometrik analizdə ilkin mənbələr kimi ayrıca qrup təşkil edir və sonrakı tədqiqatların metodoloji əsasını formalaşdırır.

2000-ci illərdən etibarən isə tədqiqatların həm kəmiyyət, həm də keyfiyyət baxımından yeni mərhələyə keçdiyi müşahidə olunur. Bu dövrdə nəşr olunan əsərlərdə toponimlərin sistemli təsnifatı, onların leksik-semantik xüsusiyyətləri və areal yayılması kimi məsələlər daha dərindən araşdırılır. İbrahim Bayramov və digər müəlliflərin əsərlərində toponimlərin struktur-semantik analizi aparılır, eyni zamanda onların tarixi transformasiyası izlənilir. Bununla yanaşı, Musa Urud kimi müəlliflərin əsərlərində tarixi abidələr və toponimlər kompleks şəkildə, tarixi, etnoqrafik və coğrafi kontekstdə təqdim olunur.

2005-2010-cu illər aralığında aparılan tədqiqatlar isə sahənin daha da ixtisaslaşdığını göstərir. Bu mərhələdə etnotoponimika, dialektologiya və onomastika kimi alt sahələr üzrə ixtisaslaşmış monoqrafiyalar meydana çıxır. Xüsusilə Qərbi Azərbaycan toponimlərinin sistemli tədqiqi, onların areal xüsusiyyətlərinin müəyyənləşdirilməsi və tarixi mənbələrlə müqayisəli təhlili bu dövrün əsas elmi istiqamətlərini təşkil edir.

**Qərbi Azərbaycanın tarixi abidələri və toponimlərinə dair ədəbiyyatın inkişaf trayektoriyası.** Araşdırma zamanı məlum olur ki, ən yüksək nəşr aktivliyi 1996-2000-ci illərə təsadüf edir. Bu dövrdə Əziz Ələkbərli [Ələkbərli, 2000], Budaq Budaqov və Qiyasəddin Qeybullayev [Qeybullayev, 1992] kimi tədqiqatçıların fundamental əsərləri meydana çıxmışdır. Ümumilikdə isə dinamika göstərir ki, sahə ilkin mərhələdən sistemli elmi istiqamətə doğru inkişaf etmişdir.

**Cədvəl 1. Nəşrlərin illər üzrə paylanması (1980-2010)**

| Dövr | Nəşrlərin sayı | Xüsusiyyət |
|---|---|---|
| 1980–1985 | 3 | İlkin təsviri tədqiqatlar |
| 1986–1990 | 8 | Toponimika və abidələrə marağın artması |
| 1991–1995 | 12 | Tarixi-coğrafi və etnik məsələlərin aktuallaşması |
| 1996–2000 | 20 | Pik mərhələ, sistemləşdirmə və lüğətlərin yaranması |
| 2001–2005 | 15 | Monoqrafik və regional tədqiqatların artması |
| 2006–2010 | 14 | İxtisaslaşmış tədqiqatların genişlənməsi |
| 2011–2013 | 6 | Sahənin sabitləşməsi və dərinləşməsi |

***Qeyd. Cədvəl müəllif tərəfindən tərtib edilmişdir***

Təhlil olunan ədəbiyyat yalnız kəmiyyət baxımından deyil, həm də mövzu müxtəlifliyi baxımından fərqlənir. Əsərlərin məzmununa əsasən onları əsas istiqamətlər üzrə qruplaşdırmaq mümkündür. Bu yanaşma sahənin hansı aspektlərinin daha çox öyrənildiyini və hansı istiqamətlərin üstünlük təşkil etdiyini müəyyən etməyə imkan verir.

**Cədvəl 2. Mövzu istiqamətləri üzrə bölgü**

| Mövzu istiqaməti | Nəşr sayı | Pay (%) |
|---|---|---|
| Toponimika (lüğət, etimologiya) | 18 | 32% |
| Tarixi abidələr və memarlıq | 10 | 18% |
| Tarixi-coğrafi tədqiqatlar | 12 | 21% |
| Etnik tarix və deportasiya | 8 | 14% |
| Kompleks (abidə + toponim) | 8 | 15% |

***Qeyd. Cədvəl müəllif tərəfindən tərtib edilmişdir***

Cədvəldən aydın olur ki, toponimika istiqaməti üstünlük təşkil edir. Bu sahədə xüsusilə İbrahim Bayramov [Bayramov, 2000] və Həsən Mirzəyev [Mirzəyev, 2003] kimi alimlərin tədqiqatları mühüm rol oynamışdır. Bununla yanaşı, kompleks yanaşmaların da artması göstərir ki, müasir mərhələdə abidələr və toponimlər artıq ayrı-ayrılıqda deyil, vahid tarixi-mədəni sistem kimi öyrənilir.

**Nəticə**

Aparılmış tədqiqat nəticəsində belə qənaətə gəlmək olar ki, Qərbi Azərbaycanın tarixi abidələri və toponimlərinə dair 1980-2010-cu illəri əhatə edən elmi ədəbiyyatın sistemli təhlilinə əsaslanaraq bu sahənin inkişaf dinamikasını, struktur xüsusiyyətlərini və elmi istiqamətlərini kompleks şəkildə müəyyən etməyə imkan verir.

**Ədəbiyyat siyahısı**

Axundov, N. (1965). *Azərbaycanda dövri mətbuat (1832-1920). Biblioqrafiya*. Bakı.

Allahverdiyev, C. (2024). *Qərbi Azərbaycan mətbuatı tarixi*. Bakı: Səda nəşriyyatı.

Bayramov, İ. (2000). *Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti*. Bakı: ADPU, AEA Beynəlxalq Münasibətlər İnstitutu.

Budaqov, B., & Qeybullayev, Q. (1998). *Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti*. Bakı: Oğuz eli.

Əliyev, İ. (2023). *Qərbi Azərbaycanın tarixi və mədəni irs*. Bakı: RAFPOLİQRAF.

Ələkbərli, Ə. (2000). *Qərbi Azərbaycan* (C. 1: Vedibasar mahalı, Vedibasar və Qarabağlar r-ları; O. Məmmədov, Məsl., V. Şadlinski, Red.). Bakı: Ağrıdağ.

*İrəvan əyalətinin icmal dəftəri* / AMEA, A.A. Bakıxanov ad. Tarix İnstitutu; layih. və ön söz. müəl. Y. Mahmudov; tərt. ed. T. Nəcəfli. (2009). Bakı: Çaşıoğlu.

Hüseynov, H., & Hüseynova, İ. (2024). Qərbi Azərbaycan ərazisinin tarixi-mədəni irsinin tanıdılması zamanın tələbi kimi. *Qərbi Azərbaycana Qayıdış II Respublika elmi konfransının materialları* (21–22 iyun). Naxçıvan.

Məmmədov İ. (1985) *Sovet Ermənistanında Azərbaycan kitabı. 1925-1985. Biblioqrafiya*. İrəvan.

Mustafa, N. (2020). *İrəvan şəhəri. Bakı - «Red N Line» MMC*

Mustafa, N. (2025). *Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar*. Bakı: Orxan NPM.

Mirzəyev, H. (2003). *Dərələyəz mahalının toponimləri və şivə sözləri*. Bakı: Ağrıdağ.

Nemətova, M. (1987). *Əsrlərin daş yaddaşı*. Bakı: İşıq.

Salamzadə, Ə., & Məmmədzadə, K. (1979). *Arazboyu abidələr*. Bakı: Elm.

Səfərəliyeva, G. (tərt.). (2016). *Azərbaycanın tarixi abidələri və toponimləri*. Bakı: Azərbaycan Milli Kitabxanası

Qarayev, E. (2024). *Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında)*. Bakı: Füyuzat.

*Qeybullayev, Q. (1986). Azərbaycan toponimiyası*. Bakı: Elm.

Qeybullayev, Q. (1992). *Qədim türklər və Ermənistan*. Bakı: Azərnəşr.

Vəliyev, Ə. (2025). *Qərbi Azərbaycan sənəd və mənbələrdə*. Bakı: MİMTA Fondu.

**Aysel Hasanova Vagif gizi**

**BIBLIOMETRIC ANALYSIS OF LITERATURE ON HISTORICAL MONUMENTS AND TOPONYMS OF WESTERN AZERBAIJAN**

**Summary**

The article studies and analyzes the scientific literature published in 1980-2010 on historical monuments and toponyms of Western Azerbaijan. During the research, a bibliometric approach was applied and a statistical and comparative analysis was conducted. The main source of the research was the bibliographic index “Historical monuments and toponyms of Azerbaijan” (Safaraliyeva, 2016) prepared by the National Library of Azerbaijan. In addition, research was conducted in the collection of the National Library.

**Key words:** Western Azerbaijan, bibliometric analysis, toponymy, historical monuments, scientific literature, interdisciplinary approach.

**Айсель Вагиф гызы Гасанова**

**БИБЛИОМЕТРИЧЕСКИЙ АНАЛИЗ ЛИТЕРАТУРЫ ПО ИСТОРИЧЕСКИМ ПАМЯТНИКАМ И ТОПОНИМАМ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА**

**Резюме**

В статье изучается и анализируется научная литература, опубликованная в 1980-2010 годах, по историческим памятникам и топонимам Западного Азербайджана. В ходе исследования был применен библиометрический подход, а также проведен статистический и сравнительный анализ. Основным источником исследования стал библиографический указатель «Исторические памятники и топонимы Азербайджана» [Сафаралиева, 2016], подготовленный Национальной библиотекой Азербайджана. Кроме того, исследования проводились и в фондах Национальной библиотеки.

**Ключевые слова:** Западный Азербайджан, библиометрический анализ, топонимия, исторические памятники, научная литература, междисциплинарный подход.

**UOT 069**

**Əli Abuzərov Eldar oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
abuzarow.fox@gmail.com

# İNTERPRETASİYA VƏ YA STİMULLAŞDIRMA: FRİMEN TİLDENİN PRİNSİPLƏRİNİN RƏQƏMSAL MUZEY OYUNLAŞDIRMASI ŞƏRAİTİNDƏ TRANSFORMASİYASI

**Xülasə**

Bu məqalə Frimen Tildenin muzey interpretasiyasının altı prinsipini rəqəmsal oyunlaşdırma kontekstində tədqiq edir. Tədqiqatın məqsədi interpretasiyanın (şəxsi təcrübə ilə əlaqə, düşüncənin stimullaşdırılması) hansı şərtlər altında davranış stimullaşdırılmasına (bal, səviyyə, reytinq) çevrildiyini müəyyən etməkdir. Analitik çərçivə kimi Tildenin prinsipləri əməliyyat meyarlarına çevrilir və rəqəmsal mühitdə sınaqdan keçirilir. Tədqiqatın nəticəsi göstərir ki, oyunlaşdırmanın bütün elementləri interpretasiyaya zərər vermir; müəyyən mexanizmlər Tildenin prinsiplərini ənənəvi muzey təcrübəsindən daha effektiv şəkildə həyata keçirə bilər. Məqalənin sonunda muzey praktikləri üçün tövsiyələr yer alır.

**Açar sözlər:** rəqəmsal mədəniyyət, muzey interpretasiyası, oyunlaşdırma, Frimen Tilden, istifadəçi təcrübəsi, interaktivlik.

Muzey sahəsinin sürətli rəqəmsallaşması ziyarətçinin mədəni irslə qarşılıqlı əlaqəsinin tamamilə yeni tipini yaradır. Mobil tətbiqlər, artırılmış reallıq, interaktiv ekspozisiyalar və muzey kvestləri auditoriyanı cəlb etmək və saxlamaq aləti kimi oyun mexanikasını yəni oyunlaşdırılmanı getdikcə daha fəal şəkildə istifadə edir. Bununla yanaşı, bu cür transformasiya hələ 1957-ci ildə Frimen Tilden tərəfindən formullaşdırılmış mədəni irsin interpretasiyası funksiyasının bu şəraitdə qorunub-saxlanılıb və ya saxlanılmadığı sualını da gündəmə gətirir.

Bu problemin aktuallığı bir-biri ilə kəsişən iki tendensiya ilə müəyyən edilir. Bir tərəfdən, rəqəmsal mədəniyyət ziyarətçilərdə dərhal geri əlaqə və oyun strategiyalarının təcrübə gözləntilərini formalaşdırır ki, bu da muzeyləri öz məhsullarına xallar, səviyyələr, nailiyyətlər və rəqabət elementləri inteqrasiya etməyə sövq edir. Digər tərəfdən, muzeyin əsas missiyası insanın sadəcə məlumat və ya əyləncə ilə deyil, məna ilə görüşünü təmin etmək, yəni interpretasiya nüvəsinin qorunmasını tələb edir.

Bu iki məntiq arasındakı dixatomiya bu məqalənin tədqiqat problemini təşkil edir. İşin məqsədi, Tilden prinsiplərinin rəqəmsal oyunlaşdırmada interpretasiyadan həvəsləndirməyə doğru necə və hansı şəraitdə sürüşdüyünü müəyyən etmək və muzey praktiklərinə bu balansı şüurlu şəkildə idarə etməyə imkan verən meyarlar hazırlamaqdır.

Azərbaycan muzey icması üçün isə bu problem, mədəniyyətin rəqəmsallaşdırılması üzrə dövlət proqramlarının icrası kontekstində xüsusi aktuallıq kəsb edir.

Frimen Tildenin klassik əsəri "İrsimizi interpretasiya edərkən" (Interpreting Our Heritage) əsərində muzey interpretasiyasının (təfsirinin) əsasını təşkil edən altı prinsip formullaşdırmışdır

[Tilden, F., 1957, s. 9]. Əsas metodoloji qovşaq rəqəmsal dizayn praktikasında tez-tez qarışdırılan iki anlayışın fərqləndirilməsidir.

İnterpretasiya (Tildenin işlətdiyi mənada) ziyarətçinin şəxsi təcrübəsi ilə əlaqə və müstəqil düşünməyə təhrik vasitəsilə mənanın açılmasıdır. İnterpretasiya faktların ötürülməsinə qədər qısılmır: onun məqsədi daxili rezonans yaratmaq, sual verməyə, adi olanı yenidən düşünməyə təşviq etməkdir.

Stimullaşdırma məqalədə analitik kateqoriya olub, diqqəti saxlamağa və davranışa cəlb etməyə yönəlmiş mexanikalardır (xallar, səviyyələr, reytinqlər). Bu kateqoriyalar mütləq əksliklər deyil, analitik həmrəyliyin qütbləridir: eyni mexanika dizayndan asılı olaraq ya interpretasiya aləti, ya da xalis stimullaşdırma ola bilər.

Rəqəmsal praktikaların tənqidi təhlili üçün Yan Boqostun [Bogost, I., 2007, s. 3] prosedur ritorikası konsepsiyasından istifadə olunur. Boqost iddia edir ki, oyun sistemləri qaydalar və mexanika vasitəsilə verbal nəql və ya rəvayətdən heç də az təsirli olmayaraq mübahisə edə və inandıra bilir. Muzey kontekstində bu o deməkdir ki, oyunlaşdırma öz strukturu ilə artıq ideoloji ismarıc daşıyır. Əgər sistem əlaqələrin başa düşülməsini yox, faktların toplanmasını mükafatlandırırsa, o, dolayısı ilə “bilik – siyahıdır” ismarıcını yayır. Əgər sistem tarixi kvestdə etik cəhətdən çətin bir qərarın qəbul edilməsinə görə mükafat verirsə, o, Tilden ruhunda təhrikedici (provokativ) yanaşmanı həyata keçirir.

Beləliklə, Boqostun prosedur ritorikası bizə oyunlaşdırılmış muzey məhsullarını oxumaq üçün alət verir: “onlar nə deyir” yox, “onlar ziyarətçi ilə nə edir”.

Tilden prinsipləri orijinal variantda canlı ekskursiya təcrübəsi üçün formalaşdırılıb və ölçmə alətlərini özündə ehtiva etmir. Rəqəmsal mühitin təhlili üçün konkret müşahidə olunan meyarlara çevirmək zəruridir. Şəxsi təcrübə, təhrik və narrativ rəqəmsal meyarlara çevrilir. Yəni çoxsəviyyəli müraciət reallaşır. Eyni zamanda sistemlilik məna itkisi olmadan miqyaslanmanı təmin edir.

Təhlil obyekti kimi muzey təcrübəsinin oyunlaşdırılmasına müxtəlif yanaşmaları təmsil edən üç müasir rəqəmsal məhsulu nəzərdən keçirək: Serbiyadakı Voyvodina Muzeyi üçün hazırlanmış “Museum eKnowAll l” tətbiqi (AR mobil tətbiqi), Basil və Eliza Gulandris Fondunun “Museum Adventure” tətbiqi (kviz elementləri olan audio-narrativ oyun) və Useeum platforması (muzeylər üçün çoxfunksiyalı platforma). Seçim üç faktorla şərtlənir: məhsulların ictimai əlçatanlığı, müxtəlif oyun mexanikalarının (AR qarşılıqlı əlaqə, səsli narrativlər, interaktiv tapşırıqlar və “xəzinə ovu”) mövcudluğu və müxtəlif hədəf auditoriyalara (uşaqlar, yaşlı ziyarətçilər, geniş ictimaiyyət) yönəldilməsi. Bu, spekulyativ rekonstruksiya deyil, real rəqəmsal təcrübələrin təsdiqlənə bilən təhlilini aparmağa imkan verir.

Müvafiq seçimin səbəbi, bu məhsulların ictimai əlçatanlığı, müxtəlif oyun mexanikalarının (AR qarşılıqlı əlaqə, səsli narrativlər, interaktiv tapşırıqlar və “xəzinə ovu”) mövcudluğu və müxtəlif hədəf auditoriyalara (uşaqlar, yaşlı ziyarətçilər, geniş ictimaiyyət) yönəldilməsidir.

“Museum Adventure” tətbiqi ziyarətçiyə Basil və Eliza Gulandris Fondunun kolleksiyasına orijinal səs mənzərələri və əsərlərdən və onların yaradıldığı dövrdən ilhamlanmış narrativlər vasitəsilə qərqolma təklif edir [5]. İstifadəçi marşrut üzrə irəliləyərək dinlədiyi materialda gizlənmiş suala cavab verir. Bu mexanika stimullaşdırma prinsipinə uyğun gəlir: ziyarətçi hazır faktlar almır, əksinə, emosional və eşitmə təcrübəsi əsasında mənasını müstəqil şəkildə yenidən qurur. Səs kompozisiyaları şəxsi təcrübə ilə əlaqə və bütün şəxsiyyətə müraciət prinsiplərini aktivləşdirir, bilik toplamaqdan çox, tamaşaçının “açıq ürəyinə” müraciət edir ki, bu da xüsusilə hədəf auditoriya üçün, yəni 65 yaşdan yuxarı insanlar və yüngül koqnitiv pozğunluğu olan şəxslər üçün vacibdir.

Eynilə, “Museum eKnowAll” l tətbiqinin AR elementləri istifadəçini tədqiqatçı rolunda mövqeləndirir: interaktiv tapşırıqlar (artefaktların bərpası, detalların axtarışı, animasiyalı personajlarla mini oyunlar) vasitəsilə ziyarətçi eksponatın hekayəsini qurur [6]. Rəqəmsal hekayə anlatımının şaxələnmiş ssenariləri həvəsləndirmə və narrativin bütövlüyü prinsiplərini aktivləşdirərək uşağı interpretasiyanın həmmüəllifinə çevirir.

“Useeum” platformasında böyüdüb-kiçiltmə və əlavə məlumat qatları imkanı ilə “bir obyektin hekayəsi” formatında reallaşdırılmış audiobələdçilər və rəqəmsal xəritələr əslində ənənəvi etiketin və ya klassik audiobələdçinin məntiqini təkrarlayır. Onlar məzmunlu material təqdim edir, lakin müstəqil mühakimə və ya emosional rezonans tələb etmir. Peşəkar hazırlanmış olsalar da, bu funksiyalar Tilden prinsiplərindən heç birini tam şəkildə aktivləşdirmir və neytral kimi qiymətləndirilir: onlar interpretasiyaya zərər vermir, lakin onun potensialını rəqəmsal mühitdə aça bilmir.

“Useeum” platformasında oyunlaşdırılmış tapşırıqlar (kvizlər, axtarış və ardıcıl hərəkətlərin yerinə yetirilməsi üzrə tapşırıqlar) davranış stimullaşdırılmasına doğru sürüşmə nümayiş etdirir [7]. İstifadəçi tapşırıqlar zəncirini uğurla başa çatdırmağa və marşrut üzrə irəliləməyə yönəldilmişdir ki, bu da çox vaxt “yerinə yetirilib yoxsa yerinə yetirilməyib” ikili məntiqinə endirilir. Boqostun prosedur ritorikası məntiqinə görə, bu cür mexanika muzey ziyarətinin mənasının əsərin dərindən dərk edilməsində deyil, “qənimətlərin” toplanmasında və səviyyələrin keçilməsində olmasını qeyri-aşkar şəkildə təsdiq edir. Oxşar effekt “Museum eKnowAll l” tətbiqinin ayrı-ayrı qapalı suallarında da müşahidə olunur ki, burada düzgün cavaba vurğu refleksiyadan üstün ola bilər.

Təhlil göstərir ki, oyunlaşdırmanın özü interpretasiyaya təhdid deyil. Çünki təhdidi yalnız mükafatın mənadan ayrıldığı tip yaradır. İnterpretasiya o zaman qorunur ki, mexanika anlayışın keyfiyyətinə əsaslansın, hekayənin bütövlüyünü və mənanın şəxsiləşdirilməsini təmin etsin. Təfsir o zaman qorunur ki,, mexanika qarşılıqlı əlaqəni “doğru/yanlış” məntiqinə endirsin, sürət və ya rəqabət təzyiqi yaratsın. Dizayn mənaya tabe olduqda rəqəmsal mühit Tilden prinsiplərini daha effektiv tətbiq edir.

Bu tədqiqat Tildenin klassik prinsiplərini rəqəmsal oyunlaşdırmaya tətbiq etmək məqsədilə əldə edilmiş analitik aləti konkret muzey məhsuluna tətbiq etmək cəhdi göstərmişdir. Nəticələr göstərir ki, rəqəmsal mühitdə interpretasiya və həvəsləndirmə arasındakı əlaqələr antaqonistik deyil, konfiqurasiya xarakteri daşıyır: nəticə oyun elementlərinin mövcudluğu faktı ilə deyil, mexanikanın dizaynı ilə müəyyən edilir.

Milli muzeylər üçün (məsələn, Qobustan və ya xalçaçılıq tarixi mövzularında) məzmun hazırlanarkən “mənalı oyunlaşdırmadan” (semantik oyunlaşdırma) istifadə edilməsi tövsiyə olunur. Tapılmış eksponatlara görə xal toplamaq əvəzinə, istifadəçiyə “mənaların rekonstruksiyası” mexanikası təklif edilməlidir. Məsələn, naxışların onların simvolik mənası ilə rəqəmsal uyğunlaşdırılması məqsədyönlü strategiya sayıla bilər. Bu, birbaşa olaraq Tildenin irsin ziyarətçinin şəxsi intellektual təcrübəsi ilə əlaqələndirilməsi prinsipini reallaşdırır.

Muzey oyunlaşdırması seçim qarşısındadır: sadələşdirmə aləti olmaq, yaxud dərindən anlayış üçün yeni medianın ifadə vasitələrini mənimsəmək. UX-kriteriyalarına çevrilmiş Tilden prinsipləri layihəçiyə ikinci qütbə doğru keçid imkanı verir. Gələcək tədqiqatlar bu meyarların istifadəçi testləri ilə təsdiqlənməsinə və müxtəlif kontekstlərdən olan oyunlaşdırılmış məhsulların müqayisəli təhlilinə yönəldilə bilər.

**Ədəbiyyat siyahısı**

1. Bogost, I. (2007). Persuasive Games: The Expressive Power of Videogames. Cambridge, Massachusetts London, England: The MIT Press
2. Falk, J. H., Dierking, L. D. (2000). Learning from Museums: Visitor Experiences and the Making of Meaning. Walnut Creek: AltaMira Press.
3. Simon, N. (2010). The Participatory Museum. Santa Cruz: Museum 2.0.
4. Tilden, F. (1957). Interpreting Our Heritage. Chapel Hill: University of North Carolina Press.
5. SevenElevenDev. (2025). Adventure in the Museum (Version 1.0) [Mobil tətbiq]. Google Play Store. URL: https://play.google.com/store/apps/details?id=com.sevenElevenDev.adventure_in_the_museum (Müraciət tarixi: 04.04.2026)
6. Zumoko. (2024). Museum eKnowall. https://www.zumoko.com/work/museum-eknowall (Müraciət tarixi: 04.04.2026)
7. Useeum. (2017). One app for all museums. https://useeum.com/institutions/ (Müraciət tarixi: 04.04.2026)

**Али Абузаров Эльдар оглу**

**ИНТЕРПРЕТАЦИЯ ИЛИ СТИМУЛИРОВАНИЕ: ТРАНСФОРМАЦИЯ ПРИНЦИПОВ ФРИМЕНА ТИЛДЕНА В УСЛОВИЯХ ГЕЙМИФИКАЦИИ ЦИФРОВЫХ МУЗЕЕВ**

**Резюме**

В данной статье исследуются шесть принципов музейной интерпретации Фримена Тилдена в контексте цифровой геймификации. Цель исследования – определить, при каких условиях интерпретация (связь с личным опытом, стимулирование мышления) трансформируется в стимуляцию поведения (бонусы, уровни, рейтинги). В качестве аналитической рамки принципы Тилдена преобразуются в операциональные критерии и апробируются в цифровой среде. Результат исследования показывает, что не все элементы геймификации наносят вред интерпретации; определенные механизмы могут реализовывать принципы Тилдена более эффективно, чем традиционный музейный опыт. В конце статьи содержатся рекомендации для музейных практиков.

**Ключевые слова:** цифровая культура, интерпретация, геймификация, Фримен Тилден, пользовательский опыт, интерактивность.

**Ali Abuzarov Eldar oghlu**

**INTERPRETATION OR STIMULATION: THE TRANSFORMATION OF FREEMAN TILDEN`S PRINCIPLES INTO THE GAMIFICATION OF DIGITAL MUSEUMS**

**Summary**

This article examines Freeman Tilden's six principles of museum interpretation within the context of digital gamification. The research objective is to determine under what conditions interpretation (connecting with personal experience, provoking thought) transforms into behavioural stimulation (points, levels, rankings). Tilden's principles are operationalised as analytical criteria and tested against a digital case study. Results indicate that not all gamification elements are harmful to

interpretation; certain mechanics can implement Tilden's principles more effectively than traditional museum practice. The article concludes with practical recommendations for museum practitioners.

**Key words:** digital culture, interpretation, gamification, Freeman Tilden, user experience, interactivity.

**UOT 008:31**

**Nəzrin Arixova Mobil qızı**
**Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**nazrin.axirova@admiu.edu.az**

# QLOBAL RƏQƏMSALLAŞMANIN MƏDƏNİ DƏYƏRLƏRİN TƏKAMÜLÜNƏ VƏ ŞƏXSİYYƏT İDENTİKLİYİNƏ TƏSİRİ

**Xülasə**

Məruzədə rəqəmsal məkana keçid prosesinin şəxsiyyətə və media mədəniyyətinə təsiri nəzərdən keçirilir. Qloballaşma və rəqəmsal transformasiya mərhələsində olan müasir dünyanın yeni meylləri təqdim olunur. Tədqiqatın məqsədi media mədəniyyəti və hipərməkanın təhlili, habelə virtual reallığın şəxsiyyətə təsirinin kommunikativ aspektlərinin müəyyən edilməsidir. Bu məqsədlə sözügedən problemə həsr olunmuş elmi işlər və məqalələr təhlil edilmiş, cəmiyyətdə baş verən proseslər əsasında müasir dəyişikliklər araşdırılmışdır. Məqalədə müxtəlif ölkələr arasındakı rəqəmsal uçurumun mövcudluğu, həmçinin internetdə və kütləvi informasiya vasitələrində informasiyanın saxtalaşdırılması problemi işıqlandırılır. Müəllif, yeni reallıqda şəxsiyyətin özgələşməsi və unikallığının itirilməsi proseslərinin qarşısını ala biləcək amil kimi mədəni irs və media irsinə istinad etməyi təklif edir.

**Açar sözlər:** media mədəniyyəti, mədəni irs, qloballaşma, rəqəmsallaşma, kiber məkan, mədəni dəyər.

Bu məqalədə rəqəmsal məkana keçid prosesinin fərdə və media mədəniyyətinə göstərdiyi təsir nəzərdən keçirilməkdədir. İşin tərkibində qloballaşma və rəqəmsal tranformasiya mərhələsində olan müasir dünyadakı yeni tendensiyalar təqdim olunur. Məqsəd media mədəniyyətini və kiber sahəni təhlil etmək, virtual reallığın şəxsiyyətə olan təsirinin kommunikativ tərəflərini aşkar etməkdir. Beləliklə, mövcud problemlə bağlı elmi işlərin və məqalələrin təhlili aparılmış, eyni zamanda cəmiyyətdə baş verən prosesləri əsas götürərək müasir dəyişikliklər tədqiq edilmişdir. Məqalədə müxtəlif ölkələr arasındakı rəqəmsal uçurumun mövcudluğu və internetdə, həmçinin kütləvi informasiya vasitələrində məlumat və informasiyaların saxtalaşdırılması problemi işıqlandırımaqdadır. Müəllif yeni reallıqda şəxsiyyətin özgələşməsinin və öz unikallığını itirməsinə gətirib çıxaran proseslərin qarşısını alan faktor kimi mədəni irsə, media irsinə arxalanmağı təklif edir.

Bu gün müasir dünya dedikdə kütləvi şəkildə istehlak, kütləvi kommunikasiya və reallıqdan virtual aləmə kütləvi və sürətli şəkildə keçidi başa düşə bilərik. Beləliklə bu, ilk növbədə bəşəriyyətin inkişafına yön və təkan verən qərb sivilizasiyası ilə sıx bağlıdır. Rəqəmsal transformasiya proseslərinin qlobal vüsət alması insan həyatının bütün sahələrinə, o cümlədən media mədəniyyəti, mədəni irs və ən başlıcası insanın özünə təsir edərək yeni insan tiplərinin yaranmasına gətirib çıxarır. Buna “homo digitalis” (rəqəmsal insan), “homo consumes” (istehlakçı insan) və “homo mobilis” (mobil insan) tiplərini misal göstərə bilərik [Толстокорова А.В., 2015, s. 732]. C. Strenger qeyd edilən tipləri özündə birləşdirən “homo globalis” terminini izah edərkən qeyd etmişdir ki, bu tip insanın dünyagörüşünün sərhədləri kəskin və dəqiq yox, elastik və dəyişkəndir. Müasir rəqəmsal texnologiyalar əvvəlki dövrlərlə müqayisədəistifadəçiləri informativ, kommunikativ proseslərə daha

dərindən və intensiv şəkildə cəlb edir. Bu baxımdan “yeni dünya sürətli şəkildə yeni dəyərlər və texnologiyaların toqquşması nəticəsində formalaşır” fikrini qeyd edən E. Tofflerlə razılaşa bilərik [Тоффлер Э., 2009, s. 21]. Bu dəyişkən dünyada müasir qlobal dəyişikliklərin əsasında dayanan və insanın həyat və yaradıcılığının bütün sahələrinə daxil olan informasiya və kütləvi kommunikasiya vasitələri güclü təsir gücünə malikdir. Müasir cəmiyyətin mədəniyyətinin xüsusi hissəsi kimi media mədəniyyəti kiber sahəyə keçidlə əlaqədar olaraq özünün yeni transformasiya mərhələsini yaşayır.

Beləliklə, bu məqalədə rəqəmsal məkanın mahiyyəti, onun kommunikasiya sahəsinə, ən əsası da media mədəniyyətinə və insan şəxsiyyətinə göstərdiyi təsiri təhlil edilir.

İnformasiya cəmiyyətinin tədqiqi ilə məşğul olan tədqiqatçıların sayı kifayət qədərdir. Mədəniyyət və media mədəniyyəti haqqında isə əsasən, R. Bart, D. Bell, V. Benjamin, J. Bodriyar, J. Delez, S. Jijek, H. Markuze, M. Maklüen, E. Toffler və başqaları yazmışdır. T.V. Nesterova internet-kommunikasiyaların riskli tərəflərini təhlil etmiş, A.V. Pryaxina və D.Ş. Boqdanova isə yeni texnologiya reallığında kommunikasiyanın xüsusiyyətlərini tədqiq etmişlər.

Müxtəlif müasir tədqiqatçıların işlərinin müqayisəsi və dünyada baş verən proseslərin analizi media və insanın rəqəmsal kommunikasiya dünyasına müasir keçid vəziyyətini fərqləndirən bəzi aspektləri daha yaxından araşdırmağa şərait yaratdı.

İlk növbədə “media” anlayışı termin olaraq ədəbiyyata XX əsrdə informasiya cəmiyyətində yaranmış kütləvi mədəniyyət anlayışının dəyişilmiş forması kimi daxil olmuşdu. Bunun nəticəsi olaraq elm adamları tərəfindən termini daha dəqiq izah edən açıqlama təklif edilmişdir. Bu gün “media mədəniyyəti” anlayışının bir-birini tamamlayan müxtəlif izahları mövcuddur. Məsələn, N.B. Kirillova media mədəniyyətini “insan tərəfindən mədəni-tarixi inkişaf prosesində yaranmış və ictimai şüurun formalaşması və şəxsiyyətin sosiallaşmasına gətirib çıxaran informativ və kommunikativ vasitələrinin toplusu” kimi izah edir [Кириллова Н.Б., 2008, s.14-15]. M.Q. Kaşkina isə “informasiya cəmiyyətinin xüsusi mədəniyyət növünü” qeyd edərək, onun inkişafının media mədəniyyətinə məxsus universal dilin formalaşması və təbliği ilə bağlı olduğuna xüsusi diqqət çəkmişdir. S. Jijek yazır ki, media mədəniyyəti – “mürəkkəb kommunikativ sistem və ümumilikdə bütöv bir sahədir və bu sistemə daxil olan insan özü də onun bir hissəsinə çevrilir” [Горелова Е.В., 2008, s. 14]. Beləliklə, media mədəniyyətinin bütün təriflərində ya açıq ya da dolayı şəkildə bu xüsusiyyətlər öz əksini tapmışdır: media mədəniyyətiinformasiya cəmiyyəti üçün xarakterik olan mədəniyyətin bir hissəsidir və kommunikativ tərəfi mövcuddur.

Media mədəniyyətinin məhsulu kütləvi informasiya vasitələrinin fəaliyyəti nəticəsində yaranan media reallıq və ünsiyyət mühitidir. Kompüter və rəqəmsal texnologiyaların, həmçinin yeni medianın inkişafı cəmiyyətin sosial-mədəni sferasını dəyişdi. Yeni mediaya sosial şəbəkələr, internet, KİV, axtarış sistemləri, bloq üçün platformalar və yeni yaranmış bloqçuluq və kontent – makerlik daxildir. Ümumilikdə “...“yeni media” anlayışının xüsusiyyətləri arasında bütün anlayışların həcmini əhatə edən əsas xüsusiyyət onun rəqəmsal mühit ilə olan əlaqəsidir”. Rəqəmsal mühit ilk növbədə informasiyanın rəqəsallaşdırılmasını nəzərdə tutur ki, bu da rəqəmsal mədəniyyəti formalaşdırır. Bəzi tədqiqatçılar rəqəmsal mədəniyyəti yeni media anlayışı ilə eyniləşdirsə də, digərlərinə görə bu anlayış daha genişdir. S.Y. Jitenyevin tərifinə görə, “rəqəmsal mədəniyyət, bir tərəfdən, mədəniyyət sahəsində rəqəmsal texnoloji proseslərin məcmusudur, digər tərəfdən isə mədəni informasiya məkanında insan münasibətlərini tənzimləyən dəyər, norma və qaydalar sistemidir” [Житенёв С.Ю., 2020, s.14]. “Kibermədəniyyət” və “kibersahə” kimi anlayışlar bu terminə yaxın olub, “rəqəmsal

mədəniyyət" anlayışının sinonimləri kimi çıxış edərək kompüter və rəqəmsal texnologiyalarla əlaqəni özündə əks etdirir.

A.Y. Demşina rəqəmsal məkanın paradoksundan danışarkən onun özündə materializm və idealizmi birləşdirdiyini qeyd edir, çünki subyektlərin hərəkəti eyni vaxtda həm virtual, həm də real aləmdə baş verir. Bunun nəticəsi olaraq biz kiber məkanda media mədəniyyətinin şəxsiyyətə göstərdiyi təsiri müşahidə edə bilərik.

Rəqəmsal media texnologiyalarla eksperiment aparmağa və yeni kommunikasiya modelləri yaratmağa imkan verir. Məqsəd ənənəvi mədəniyyət formalarını yenidən qavramaq, özünün təsir dairəsini genişlətmək və cəmiyyətdə və ərdin həyatında baş verən hadisələri yeni formalarda təqdim etməkdir. Lakin yeni imkanlar həm müsbət nəticələr, həm də dərk olunması və tənqidi təhlili tələb olunan mənfi tərəflər də yarada bilir. Kiber sahə ünsiyyət azadlığı və mədəni özünüifadə məkanı kimi təsəvvür edilsə də, o, belə olmaqdan çıxır. Əlbəttə ki, ümumiyyətlə nə vaxtsa belə bir xüsusiyyətə malik idisə.

Yeni reallıqda media mədəniyyətinin və kiber məkanın öxünəməxsusluğu onunla müəyyən olunur ki, virtual dünya real dünyanın simulyasiyasıdır. Bodriyar öz araşdırmalarında qeyd edir ki, real dünya hiperreallaşır, lakin bu hiperreallıq, əslində, reallığın aradan qalxması deməkdir. O zaman belə bir nəticəyə gəlmək olar ki, kiber məkan real dünyanı zəiflədərək müəyyən mənada onun yoxa çıxmasına zəmin yaradır. Bundan əlavə kiber məkan real institutlara birbaşa təsir göstərir. İnternet, kompüter texnologiyaları, sosial şəbəkələr, strim platormaları, xəbər saytları, messencerlər, axtarış sistemləri və naviqatorlar bizim həm şəxsi, həm də ictimai həyatımızın ayrılmaz hissəsinə çevrilib. Yaradılmış hiperreallıq real dünyanın məlumatlarını özünə çəkərək onu emal edir və "qara dəlik" kimi reallığın informasiya sahəsini təhrif edərək yeni məlumatlarla tamamilə yeni dünya nizmı formalaşdırır. "Media mədəniyyəti ikitərəli fəaliyyət göstərən bir fenomendir: bir tərəfdən o, bizim sivilizasiyamızın məhsuludur, digər tərəfdən isə bizim mədəniyyətimizi transformasiya edir" [Муромцева А.А., 2020, s. 423]. Rəqəmsallaşma həyatın bütün sahələrini əhatə etdiyindən virtuallaşma və simulyasiya prosesinin qlobal miqyasından rahatlıqla danışmaq olar. Virtual dünyada təbii olanla süni olan arasında fərq silinməyə başlayır. Müasir kütləvi informasiya vasitələri hiperreallığın nümayişinə fokuslanmışdır və biz artıq reallığın özü ilə deyil onu təsvir edən obraz, dil və simvollarla qarşılaşırıq.

"Əgər həddindən artıq texnolojiləşmənin məhsulu şüurun robotlaşmasıdırsa, insanın həddindən artıq sosio-mədəni-informativ fəaliyyətinin məhsulu onun şüurunun ideologiyalaşmasıdır" [Гордин А.И., 2021, s. 539]. Biz eyni zamanda bu hər iki tərəfin gücləndiyini müşahidə edə bilirik. Texnologiya vasitələrinin əlçatan olması və inkişafı hər növ məlumata daha asan çıxış imkanı yaradır: kitabxana arxivlərinin rəqəmsallaşdırılması, elektron elmi jurnalların yaranması, onlayn seminarlar şəxsi inkişaf üçün geniş baza formalaşdırır. Lakin reallıqda bu imkanlardan insanların nisbətən az hissəsi istifadə edir, çünki bunun üçün yüksək motivasiya və özünüidarəetmə potensialı tələb olunur. Əksər insanlar "zövq üçün informasiya" (R. Bartın "zövq verən mətn" anlayışının analogiyası kimi) yox, daha çox "əyləncə üçün informasiya" axtarır. Birinci halda insan məlumatı dərindən oxuyur, düşünür və onu biliyə çevirir. İkinci hal isə dərin düşünmə tələb etmir və yalnız qısa müddətli əyləncə ehtiyacını ödəyir. Bu şəkildə, qeyri-tənqidi informasiya istehlakı insanda təhlil qabiliyyətini zəiflədir və onu kütləvi informasiya vasitələrinin manipulyasiyalarına qarşı daha həssas edir. Sərhədsiz və maneəsiz informasiya istehlakının növbəti nəticəsi isə informasiyanın məqsədsiz toplanmasıdır. Toplanan məhsulun məzmununa görə yox, yalnız kolleksiyasında olsun deyə əldə edən kolleksioner

kimi insanlar informasiyanı elektron formada yükləyərək kompüter qovluqlarında saxlayırlar, lakin bu materialların oxunması və ya emalı üçün zaman ayıra bilmirlər. Beləliklə, informasiyanın əlçatanlığı onun dəyərsizləşdirilməsinə gətirib çıxarır.

Media mədəniyyəti hər birinin özünəməxsus ustanovkaları, dəyərləri, idealları olan fərdlər tərəfindən yaradılır. Fərd isə ətraf aləmi bu dəyərlərə uyğun şəkildə qavrayaraq öz baxışını virtual məkanda paylaşır. Onu da nəzərə almaq lazımdır ki, hər bir insan baş verən hadisələrin bütöv mənzərəsini görə bilmir və yalnız ona məlum olan tərəfini əks etdirir. Beləliklə, kompüter texnologiyalarının əlçatanlığı daha çox insanın ümumi mənzərənin yaranmasında iştirakını təmin edir, lakin yaranmış obraz fərdi ikirlərin proyeksiyasıdır. Əksəriyyət tərəfindən qəbul olunmuş müddəa hər zaman həqiqət demək deyil. Bəs dünyalar arasındakı sərhəd haradadır? Platonun məşhur mağarasında bu sərhəd ideyalar dünyası ilə maddi dünya arasından keçir. Bizim iziki olaraq mövcud olduğumuz real dünya ilə kiber məkan arasında maddi olaraq mövcud bir pəncərə var. Bu pəncərə həm də kiber məkana açılan bir keçid rolunu oynamaqdadır.

YUNESKO-nun 2005-ci il üçün hesabatında dünya əhalisinin yalnız 11 faizinin internetə giriş imkanının olduğu qeyd olunur. Üstəlik qeyd olunan 11 faizin 90 faizini inkişaf etmiş ölkələrdə yaşayan əhali təşkil edir. Dünya əhalisi arasında belə kəskin fərqin mövcudluğu inkişaf etmiş ölkələrin mədəniyyətlərinin media mədəniyyətində və rəqəmsal məkanda dünyanın qalan hissəsi ilə müqayisədə daha fərqli təmsilinə gətirib çıxarır. Lakin qeyd etmək lazımdır ki, hər hansı xalqın mədəniyyətini “ləğv etmək” mümkün deyil, o, rəqəmsal məkanda təmsil olunmasa belə, mövcud olmağa davam edir. Bəzi hallarda əksər mədəniyyətlərin internet texnologiyaları vasitəsilə mədəni obyektlərə çıxışının məhdud olması və digər mədəniyyətərin qeyri-bərabər şəkildə təqdim olunması ümumi mənzərəni təhrif edə bilir. Nəticədə, məlumatı əsasən internetdə, virtual məkanda axtarmağa alışmış gənc nəsildə natamam inormasiyanın formalaşmasına səbəb olur.

Qədim dövrlərdən bəri insanlar hekayələr danışır və onları nəsildən-nəsilə ötürürlər. Yazı mədəniyyətinin yaranması ilə “müəllif”, “müəlliflik hüququ” və “əqli mülkiyyət” anlayışları formalaşdır, lakin xalq yaradıcılığı yenə də öz mövcudluğunu davam etdirdi. İnternet məkanında isə “...ünsiyyətin elektronlaşmasının geniş yayılması ilə mətn öz sabitliyini itirir və şifahi xalq yaradıcılığındakı nağıl və ya mahnı asanlıqla dəyişdirilə bilir” [Strenger C., 2010, s. 168]. Son dövrlərdə süni intellektin inkişafı bu kimi problemlərin araşdırılması üçün daha ciddi səbəblər yaratmışdır. Yaradıcılıq artıq tək bir müəllifin məhsulu olmaqdan çıxır, çünki yeni vüsət almış texnologiyalar, eyni zamanda sosial şəbəkələr sayəsində hər bir əsərin və ya informasiyanın həmmüəllifləri meydana çıxmağa başlayır. O zaman qeyd etmək olar ki, mədəni irsin rəqəmsallaşdırılması müəlliflik məsələsini yeni şəkildə gündəmə gətirir. Tədqiqatçıların fikrincə, media öz nüfuzunu itirir, saxta xəbərər isə o qədər inandırıcı görünür ki, onları həqiqətdən ayırmaq çətin olur.

Media mədəniyyətinin təsiri və kiber məkana keçidin nəticəsi olaraq iki bir-birinə zidd proses eyni zamanda baş verir. Bir tərəfdən insanlar daha çox istehlaka yönəlir, digər tərəfdən isə şüurlu istifadə də artır. İnsanlar arasında milli, gender və yaş sərhədləri zəifləyir, onlar bir-birinə yaxınlaşır və texnologiyalar vasitəsilə dünyanın müxtəlif nöqtələrində olan şəxslər arasında ünsiyyət mümkün olur. Lakin bununla yanaşı bəşəriyyətin müəyyən dərəcədə eyniləşməsi, fərdiliyini itirməsi prosesi baş verir və gün keçdikcə daha çox insan cəmiyyətdən təcrid olunduğunun fərqinə varır.

“Cəmiyyət texnoloji mədəniyyət səviyyəsini yüksəldib, lakin eyni zamanda mənəvi mədəniyyətinə kifayət qədər diqqət yetirmirsə, bu, mənəvi dəyərlərin unudulmasına gətirib çıxara

bilər” [Кармин А.С. 2006, s. 59]. Yeni informasiya və kommunikasiya texnologiyaları media mühitini dəyişir və ənənəvi mədəniyyətlərə, cəmiyyətə təsir göstərir. Bu səbəbdən qloballaşan və virtual dünyada xalqların öz mədəni kimliklərini qoruması çox vacibdir. Mədəni irsin rəqəmsallaşdırılması ziddiyyətli proses olsa da, obyektiv olaraq həm də nəsillər arasında mədəni davamlılığı təmin edən çox zəruri bir prosesdir. S. Sontaqın da qeyd etdiyi kimi: “Hər yaddaş fərdi və təkrarolunmazdır – o insanla birlikdə ölür. Kollektiv yaddaş isə xatirə yox, razılıqdır; vacib olan da elə budur, və bu hər şeyin əslində necə baş verdiyini göstərir...” [Хорошилов Д.А.,2016, s. 79].

**Ədəbiyyat siyahısı**

1. Гордин А.И. Трансгуманизм как следствие возможной тотальной цифровизации образования (опыт психолого-педагогического анализа) [Текст] / А.И. Гордин, О.В. Гордина // Педагогика. Вопросы теории и практики. — 2021. — № 4. — С. 537–547.

2. Горелова Е.В. Информационная культура и ее роль в формировании личности [Текст]: автореф. дис. … канд. культурологии / Е.В. Горелова. — Киров, 2008. — 17 с.

3. Житенёв С.Ю. Новые информационные технологии и современная культура коммуникаций: состояние, определения и вопросы развития [Текст] / С.Ю. Житенёв // Цифровизация культуры и культура цифровизации: сборник материалов конференции. — М., 2020. — С. 12–19.

4. Кармин А.С. Философия культуры в информационном обществе: проблемы и перспективы [Текст] / А.С. Кармин // Вопросы философии. — 2006. — № 2. — С. 52–60.

5. Кириллова Н.Б. Медиакультура: Теория, история, практика [Текст]: учеб. пособие / Н.Б. Кириллова. — М.: Культура, 2008. — 494 с.

6. Муромцева А.А. Влияние киберкультуры на развитие личности в цифровом обществе [Текст] / А.А. Муромцева // Социально-культурная деятельность: материалы конференции. — Казань, 2020. — С. 419–424.

7. Толстокорова А.В. Человеческое измерение глобализации: модальные типы личности [Текст] / А.В. Толстокорова // Культура, личность, общество в современном мире: материалы конференции. — Екатеринбург, 2015. — С. 730–739.

8. Тоффлер Э. Третья волна [Текст] / Э. Тоффлер. — М.: АСТ, 2009. — 800 с.

9. Хорошилов Д.А. От социального познания — к эпистемологии общества (памяти Г.М. Андреевой) [Текст] / Д.А. Хорошилов // Национальный психологический журнал. — 2016. — № 3.

10. Strenger C. The Fear of Insignificance: Searching for Meaning in the Twenty-first Century. New York: Palgrave-Macmillan, 2010.

**Назрин Арихова Мобил гызы**

**ВЛИЯНИЕ ГЛОБАЛЬНОЙ ЦИФРОВИЗАЦИИ НА ЭВОЛЮЦИЮ КУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ И ЛИЧНОСТНОЙ ИДЕНТИЧНОСТИ**

**Резюме**

В данной статье рассматривается влияние процесса перехода к цифровому пространству на личность и медиакультуру. В работе представлены новые тенденции

современного мира, находящегося на этапе глобализации и цифровой трансформации. Целью является анализ медиакультуры и киберпространства, а также выявление коммуникативных аспектов влияния виртуальной реальности на личность. Таким образом, проведён анализ научных работ и статей, посвящённых данной проблеме, а также исследованы современные изменения на основе происходящих в обществе процессов. В статье освещается существование цифрового разрыва между различными странами, а также проблема фальсификации информации в интернете и средствах массовой информации. Автор предлагает опираться на культурное и медианаследие как на фактор, способный предотвратить процессы отчуждения личности в новой реальности и утраты её уникальности.

**Ключевые слова:** медиакультура, культурное наследия, глобализация, цифровизация, киберпространство, культурная ценность.

**Nazrin Arikhova Mobil gizi**

**THE INFLUENCE OF THE GLOBAL DIGITALIZATION ON THE PROGRESS OF CULTURAL VALUES AND THE PERSONAL IDENTITY**

**Summary**

This article examines the impact of the transition to digital space on the individual and media culture. It presents new trends in the contemporary world undergoing globalization and digital transformation. The aim is to analyze media culture and cyberspace, as well as to identify the communicative aspects of the influence of virtual reality on the individual. Thus, an analysis of scientific works and articles on this issue has been conducted, and contemporary changes have been studied based on ongoing social processes. The article highlights the existence of a digital divide between different countries, as well as the problem of information falsification on the Internet and in mass media. The author proposes relying on cultural and media heritage as a factor that can prevent processes of alienation of the individual in the new reality and the loss of their uniqueness.

**Key words**: media culture, cultural heritage, globalization, digitalization, cyberspace, cultural values.

**UOT 330.16.17**

**Ülkər Rzayeva Cəmil qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
ulkar.rzayeva@mail.ru

## İQTİSADİ MOTİVASİYA VƏ MƏNƏVİ DƏYƏRLƏR

**Xülasə**

Bu məqalədə iqtisadi motivasiya və mənəvi dəyərlər arasında qarşılıqlı əlaqə sosial-fəlsəfi və iqtisadi baxımdan təhlil olunur. Müasir cəmiyyətlərdə iqtisadi davranışın yalnız maddi maraqlarla deyil, həm də etik prinsiplər, sosial normalar və mənəvi dəyərlərlə müəyyən olunduğu əsaslandırılır. Məqalədə motivasiya anlayışının nəzəri əsasları, onun iqtisadi fəaliyyətə təsiri və mənəvi dəyərlərin bu prosesdə rolu geniş şəkildə araşdırılır. Tədqiqat nəticəsində müəyyən olunur ki, davamlı iqtisadi inkişaf yalnız maddi stimulların deyil, həm də mənəvi dəyərlərin möhkəmləndirilməsi ilə mümkündür. İqtisadi qərarların yalnız maddi faktorlarla deyil, eyni zamanda etik, sosial və mədəni dəyərlərlə də formalaşdığı göstərilmişdir. Məqalədə iqtisadi motivasiyanın fəlsəfi və sosial aspektləri, həmçinin mənəvi prinsiplərin iqtisadi fəaliyyətə inteqrasiyası müzakirə olunur. İqtisadi motivasiya və mənəvi dəyərlərin bir-birinə təsiri, cəmiyyətin inkişafında rolu və fərdin davranışına olan təsirləri araşdırılmışdır.

**Açar sözlər**: iqtisadi motivasiya, mənəvi dəyərlər, sosial davranış, iqtisadi etika, əmək motivasiyası, sosial məsuliyyət

**Giriş**

Müasir iqtisadi sistemlərdə insan davranışının izahı yalnız maddi maraqlar çərçivəsində məhdudlaşmır. İnsanların iqtisadi qərarlarını formalaşdıran həm də mənəvi, sosial və mədəni dəyərlərdir. Sosial-fəlsəfi yanaşmada, iqtisadi motivasiya cəmiyyətin ümumi inkişafı ilə sıx bağlıdır. Bu baxımdan iqtisadi davranışın təkcə maddi nəticələrinə deyil, həm də etik və mənəvi nəticələrinə diqqət yetirmək vacibdir. Müasir dövrdə iqtisadi fəaliyyətin etik standartlarla uyğunlaşdırılması, həm fərd, həm də cəmiyyət üçün uzunmüddətli fayda təmin edir. Qloballaşma, sosial dəyişikliklər və texnoloji inkişaf insan fəaliyyətinin motivlərini daha mürəkkəb və çoxşaxəli hala gətirmişdir. İqtisadi motivasiya insanların əmək fəaliyyətinə, istehlak qərarlarına və ümumilikdə iqtisadi münasibətlərə təsir edən əsas amillərdən biridir.

Lakin iqtisadi motivasiya yalnız maddi mükafatlarla deyil, həm də mənəvi dəyərlərlə sıx bağlıdır. Ədalət, dürüstlük, sosial məsuliyyət kimi prinsiplər iqtisadi qərarların qəbulunda mühüm rol oynayır. Bu baxımdan, iqtisadi davranışın daha dolğun təhlili üçün mənəvi faktorların nəzərə alınması vacibdir. Bu məqalənin məqsədi iqtisadi motivasiya ilə mənəvi dəyərlər arasındakı qarşılıqlı əlaqəni araşdırmaq və onların sosial-iqtisadi inkişafda rolunu müəyyən etməkdir.

*İqtisadi motivasiyanın nəzəri əsasları*

İqtisadi motivasiya insanların iqtisadi fəaliyyətə qoşulmasını və bu fəaliyyətdə aktiv iştirakını təmin edən daxili və xarici stimulların məcmusudur. Klassik iqtisadi nəzəriyyələrdə insan “rasional fərd” kimi qəbul edilir və onun davranışı maksimum fayda əldə etməyə yönəlmiş hesab olunur. İqtisadi motivasiyanın nəzəri əsasları fərdin iqtisadi fəaliyyətə yönəlməsini şərtləndirən çoxsəviyyəli amillərin elmi izahını əhatə edir və bu çərçivədə motivasiya yalnız maddi maraqların deyil, həm də

sosial mühitin, institusional strukturların və fərdi dəyərlərin qarşılıqlı təsiri kimi nəzərdən keçirilir. Müasir elmi yanaşmalar göstərir ki, iqtisadi qərarların formalaşmasında subyektin gözləntiləri, riskə münasibəti, sosial ədalət qavrayışı və psixoloji faktorlar mühüm rol oynayır. Bununla yanaşı, iqtisadi motivasiya mexanizmləri dinamik xarakter daşıyır və zamanla dəyişən iqtisadi şərtlərə, texnoloji inkişaflara və cəmiyyətin dəyər sistemində baş verən transformasiyalara uyğun olaraq yenidən formalaşır. Bu səbəbdən, iqtisadi motivasiyanın nəzəri təhlili yalnız statik modellərlə məhdudlaşmamalı, həm də adaptiv və davranış yönümlü yanaşmaları özündə birləşdirərək daha kompleks izah çərçivəsi təqdim etməlidir.

Neoklassik yanaşmada iqtisadi motivasiya əsasən maddi maraqlarla əlaqələndirilir. Bu modelə görə, fərdlər əmək haqqı, gəlir və digər maddi stimullar əsasında qərar qəbul edirlər. Lakin müasir yanaşmalar göstərir ki, bu model insan davranışını tam izah etmir.

Davranış iqtisadiyyatı göstərir ki, fərdlərin qərarvermə prosesi hər zaman tam rasional prinsiplərə əsaslanmır; əksinə, bu qərarlar çox vaxt emosional təsirlər, sosial mühit və mənəvi dəyərlərin təsiri ilə formalaşır. Bu yanaşma iqtisadi motivasiyanın daha geniş və kompleks aspektlər çərçivəsində tədqiq edilməsinin vacibliyini ortaya qoyur.

*Mənəvi dəyərlərin mahiyyəti və funksiyaları*

Mənəvi dəyərlər cəmiyyətin etik normalarını, sosial qaydalarını və fərdlərin davranış prinsiplərini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. Bu dəyərlər insanların yalnız şəxsi maraqlarını deyil, eyni zamanda ümumi ictimai rifahı nəzərə almasına şərait yaradır və onların sosial məsuliyyət hissini formalaşdırır.

Mənəvi dəyərlər cəmiyyətdə davranışın tənzimlənməsində mühüm rol oynayır, fərdlərin qəbul etdiyi qərarların etik çərçivədə olmasını təmin edir. Eyni zamanda, bu dəyərlər sosial münasibətlərin sabitliyini qoruyaraq insanlar arasında qarşılıqlı anlaşma və əməkdaşlıq mühitinin yaranmasına töhfə verir. Bununla yanaşı, mənəvi prinsiplər ictimai etimadın formalaşmasına zəmin yaradır və fərdlər arasında inamın möhkəmlənməsinə xidmət edir. Mənəvi dəyərlər sosial məsuliyyətin gücləndirilməsində də mühüm rol oynayaraq cəmiyyətin davamlı inkişafına töhfə verir.

İqtisadi fəaliyyət kontekstində mənəvi dəyərlər dürüstlük, şəffaflıq və ədalət kimi prinsiplər vasitəsilə özünü göstərir. Bu dəyərlər bazar münasibətlərinin sağlam inkişafına şərait yaradır.

İqtisadi motivasiya və mənəvi dəyərlərin qarşılıqlı əlaqəsi dedikdə İqtisadi motivasiya ilə mənəvi dəyərlər arasında qarşılıqlı və dinamik əlaqə mövcuddur və bu əlaqə fərdlərin iqtisadi davranışının formalaşmasında mühüm rol oynayır. Maddi stimullar insanların fəaliyyətə qoşulmasını təşviq edən əsas amillərdən biri hesab olunsa da, mənəvi dəyərlər həmin fəaliyyətin istiqamətini, məqsədini və keyfiyyət səviyyəsini müəyyən edən normativ çərçivə kimi çıxış edir [Maslow, 1970; Herzberg, 1966].

Məsələn, əmək haqqının artırılması qısa müddətli dövrdə işçinin məhsuldarlığını yüksəldə bilər, lakin təşkilat daxilində ədalət prinsiplərinin pozulması, etik normaların zəifliyi və qeyri-şəffaf idarəetmə mühiti bu motivasiyanın davamlılığını zəiflədə bilər. Bu isə göstərir ki, maddi stimullar təkbaşına uzunmüddətli effektiv nəticələr təmin etmir [Adams, 1965]. Əksinə, mənəvi dəyərlərin – xüsusilə ədalət, hörmət və etimadın – üstünlük təşkil etdiyi institusional mühitdə fərdlər daha yüksək məsuliyyət hissi ilə fəaliyyət göstərir və daha stabil məhsuldarlıq nümayiş etdirirlər [Sen, 1999; North, 1990].

Beləliklə, iqtisadi sistemlərin səmərəliliyi yalnız maddi resursların mövcudluğu ilə deyil, eyni zamanda mənəvi kapitalın – yəni cəmiyyətdə formalaşmış etimad, etik davranış və sosial məsuliyyət

səviyyəsinin – inkişaf dərəcəsi ilə də şərtlənir. Bu baxımdan, iqtisadi və sosial institutların dayanıqlılığı üçün maddi və mənəvi amillərin uzlaşdırılması zəruri hesab olunur.Müasir cəmiyyətdə iqtisadi davranışın etik aspektləri

Müasir cəmiyyətlərdə iqtisadi davranışın etik ölçüsü getdikcə daha çox aktuallaşır və iqtisadi fəaliyyət yalnız mənfəət əldə etmək məqsədi ilə deyil, eyni zamanda sosial və mənəvi məsuliyyət çərçivəsində qiymətləndirilir. Bu kontekstdə korporativ sosial məsuliyyət, ekoloji tarazlığın qorunması və etik idarəetmə prinsipləri müəssisələrin fəaliyyət strategiyalarının ayrılmaz tərkib hissəsinə çevrilmişdir [Carroll, 1991; Porter & Kramer, 2006]. Belə yanaşma iqtisadi subyektlərin yalnız qısa müddətli iqtisadi fayda deyil, uzunmüddətli sosial və ekoloji nəticələri də nəzərə almasını tələb edir.

Digər tərəfdən, müasir istehlakçı davranışında da əhəmiyyətli transformasiyalar müşahidə olunur. İstehlakçılar artıq məhsul və xidmətləri yalnız qiymət və keyfiyyət meyarlarına görə deyil, həm də onların istehsal şəraitinə, ətraf mühitə təsirinə və şirkətlərin sosial məsuliyyət səviyyəsinə əsasən qiymətləndirirlər [Kotler & Keller, 2016]. Bu isə bazar iştirakçılarını daha şəffaf və etik fəaliyyət göstərməyə təşviq edir və nəticə etibarilə rəqabət mühitində yeni standartların formalaşmasına səbəb olur.

Bununla yanaşı, korrupsiya, institusional qeyri-şəffaflıq və sosial bərabərsizliyin dərinləşməsi kimi hallar mənəvi dəyərlərin zəifləməsinin təzahürü kimi çıxış edir və iqtisadi sistemlərin effektivliyinə mənfi təsir göstərir [North, 1990; Transparency International, 2022]. Belə problemlər resursların səmərəsiz bölgüsünə, ictimai etimadın azalmasına və investisiya mühitinin pisləşməsinə gətirib çıxararaq ümumi iqtisadi inkişaf tempini zəiflədir. Buna görə də, iqtisadi davranışın etik aspektlərinin gücləndirilməsi davamlı və inklüziv inkişafın təmin olunmasının vacib şərtlərindən biri hesab olunur [Sen, 1999].

Əmək motivasiyasında mənəvi amillərin rolu müasir təşkilati davranış nəzəriyyələrində xüsusi əhəmiyyət kəsb edir və bu sahədə aparılan tədqiqatlar göstərir ki, motivasiya yalnız maddi stimullarla məhdudlaşmır. Əmək fəaliyyətində fərdlərin davranışına təsir edən əsas faktorlar sırasında iş mühitində mövcud olan ədalətlilik, qarşılıqlı hörmət və əməyin tanınması kimi mənəvi komponentlər mühüm yer tutur. Bu amillər işçilərin daxili motivasiyasını gücləndirərək onların işə bağlılığını və ümumi məhsuldarlıq səviyyəsini artırır [Herzberg, 1966; Deci & Ryan, 1985].

Empirik tədqiqatlar sübut edir ki, mənəvi motivasiya elementlərinin güclü olduğu təşkilatlarda işçi məmnuniyyəti daha yüksək olur, kollektiv daxilində əməkdaşlıq və komanda ruhu möhkəmlənir, eyni zamanda fəaliyyətin davamlılığı və uzunmüddətli məhsuldarlıq təmin edilir [Maslow, 1970; Robbins & Judge, 2017]. Bu baxımdan, müasir idarəetmə yanaşmaları yalnız əmək haqqı və maddi mükafatlandırma sistemləri ilə kifayətlənməməli, həm də mənəvi stimullaşdırma mexanizmlərini – o cümlədən tanınma, ədalətli münasibət və şəffaf idarəetmə prinsiplərini – inkişaf etdirməlidir.

Davamlı iqtisadi inkişafın təmin olunması da yalnız maddi resurslardan səmərəli istifadə ilə məhdudlaşmır, eyni zamanda mənəvi və etik prinsiplərin qorunmasını tələb edir. Bu kontekstdə “mənəvi iqtisadiyyat” anlayışı iqtisadi fəaliyyətin sosial məsuliyyət və etik normalar çərçivəsində həyata keçirilməsini nəzərdə tutur [Sen, 1999]. Belə yanaşmaya görə, iqtisadi qərarların qəbulu zamanı cəmiyyətin ümumi rifahı əsas prioritet kimi çıxış etməli, resursların istifadəsi gələcək nəsillərin maraqlarına zərər verməməli və iqtisadi fəaliyyət ümumbəşəri etik prinsiplərə uyğun şəkildə təşkil olunmalıdır [North, 1990].

Nəticə etibarilə, mənəvi amillərin əmək motivasiyasında və ümumilikdə iqtisadi sistemdə rolu yalnız sosial deyil, həm də iqtisadi səmərəlilik baxımından həlledici əhəmiyyət daşıyır və bu amillərin nəzərə alınması uzunmüddətli, sabit və inklüziv inkişaf modelinin formalaşmasına xidmət edir.

*Nəticə*

Aparılan təhlil göstərir ki, iqtisadi motivasiya və mənəvi dəyərlər bir-birini tamamlayan və qarşılıqlı təsir göstərən anlayışlardır. Maddi stimullar iqtisadi fəaliyyətin əsas hərəkətverici qüvvəsi olsa da, mənəvi dəyərlər bu fəaliyyətin istiqamətini və keyfiyyətini müəyyən edir.

Müasir cəmiyyətlərdə davamlı inkişafın təmin olunması üçün iqtisadi sistemlərdə etik prinsiplərin gücləndirilməsi zəruridir. Bu isə yalnız dövlət siyasəti ilə deyil, həm də fərdlərin və təşkilatların mənəvi məsuliyyəti ilə bağlıdır.

Beləliklə, iqtisadi inkişafın effektivliyi və davamlılığı mənəvi dəyərlərin iqtisadi motivasiya ilə inteqrasiyasından asılıdır.

**Ədəbiyyat siyahısı**

1.Herzberg, F. (1966). Work and the Nature of Man.
2.Deci, E. L., & Ryan, R. M. (1985). Intrinsic Motivation and Self-Determination in Human Behavior.
3.Maslow, A. (1970). Motivation and Personality.
4.Robbins, S. P., & Judge, T. A. (2017). Organizational Behavior.
5.Sen, A. (1999). Development as Freedom.
6.Adams, J. S. (1965). Inequity in Social Exchange.
7.North, D. (1990). Institutions, Institutional Change and Economic Performance.

**Улькер Рзаева Джамиль кызы**

## ЭКОНОМИЧЕСКАЯ МОТИВАЦИЯ И МОРАЛЬНЫЕ ЦЕННОСТИ

**Резюме**

В этой статье анализируется взаимосвязь экономической мотивации и моральных ценностей с социально-философской и экономической точки зрения. Обосновывается, что в современных обществах экономическое поведение определяется не только материальными интересами, но и этическими принципами, социальными нормами и моральными ценностями. Статья подробно рассматривает теоретические основы мотивации, её влияние на экономическую деятельность и роль моральных ценностей в этом процессе. Исследование показывает, что устойчивое экономическое развитие возможно не только благодаря материальным стимулам, но и через укрепление моральных ценностей. Показано, что экономические решения формируются не только под воздействием материальных факторов, но также с учётом этических, социальных и культурных ценностей. Обсуждаются философские и социальные аспекты экономической мотивации, а также интеграция моральных принципов в экономическую деятельность. Рассматривается взаимное влияние экономической мотивации и моральных ценностей, их роль в развитии общества и влияние на поведение индивида.

**Ключевые слова:** экономическая мотивация, моральные ценности, социальное поведение, экономическая этика, трудовая мотивация, социальная ответственность.

**Ulker Rzayeva Jamil gizi**

**ECONOMIC MOTIVATION AND MORAL VALUES**

**Summary**

This article analyzes the relationship between economic motivation and moral values from a socio-philosophical and economic perspective. It is argued that in modern societies, economic behavior is determined not only by material interests but also by ethical principles, social norms, and moral values. The article thoroughly examines the theoretical foundations of motivation, its impact on economic activity, and the role of moral values in this process. The study finds that sustainable economic development is achievable not only through material incentives but also through the strengthening of moral values. It is shown that economic decisions are shaped not only by material factors but also by ethical, social, and cultural values. The article discusses the philosophical and social aspects of economic motivation, as well as the integration of moral principles into economic activity. The mutual influence of economic motivation and moral values, their role in societal development, and their impact on individual behavior are explored.

**Key words**: economic motivation, moral values, social behavior, economic ethics, labor motivation, social responsibility.

**UOT 008; 316,7; 316,77.**
**ORCID: 0009-0004-4418-1736**

**Lalə Məcidova Ədalət qızı**
**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu**
**Doktorant**
**majidlala604@gmail.com**

# KİBER ZORAKILIĞA QARŞI MƏDƏNİYYƏTİN TƏNZİMLƏYİCİ ROLU

**Xülasə**

Məqalədə rəqəmsal texnologiyaların sürətli inkişafı şəraitində ortaya çıxan kiber zorakılıq problemi, onun əsas xüsusiyyətləri, müxtəlif formaları və cəmiyyətə göstərdiyi təsirlər araşdırılır. Sosial şəbəkələr və onlayn platformalar vasitəsilə həyata keçirilən bu zorakılıq növünün psixoloji nəticələri və xüsusilə gənclər üçün yaratdığı təhlükələr təhlil olunur. Eyni zamanda mədəniyyətin sosial tənzimləyici rolu, etik dəyərlərin əhəmiyyəti və rəqəmsal savadlılığın artırılmasının vacibliyi ön plana çəkilir. Məqalədə kiber zorakılığa qarşı mübarizədə mədəni və maarifləndirici yanaşmaların zəruriliyi əsaslandırılır, bu prosesdə təhsil sistemi, ailə institutu və digər sosial qurumların rolu xüsusi vurğulanır. Nəticə olaraq göstərilir ki, kiber zorakılıq problemi yalnız hüquqi mexanizmlərlə deyil, həm də mədəni və sosial yanaşmalar vasitəsilə effektiv şəkildə həll oluna bilər.

**Açar sözlər:** Kiber zorakılıq, rəqəmsal mədəni mühit, etik davranış prinsipləri, sosial platformalar, rəqəmsal savad, empatiya hissi, sosial məsuliyyətlilik.

Müasir dünyada rəqəmsal texnologiyaların dinamik inkişafı cəmiyyətin strukturuna və funksiyalarına əhəmiyyətli dərəcədə təsir göstərmişdir [Livingstone, S., & Smith, P.K. (2014). "Harms experienced by children in the digital environment". Journal of Child Psychology and Psychiatry, 55(6)]. İnformasiya və kommunikasiya vasitələrinin geniş yayılması insanların gündəlik fəaliyyətlərini, ünsiyyət üsullarını və sosial əlaqələrini əsaslı şəkildə dəyişdirmişdir. Xüsusilə sosial media platformalarının və müxtəlif onlayn xidmətlərin geniş istifadə olunması insanların coğrafi sərhədlərdən kənarda qarşılıqlı əlaqə qurmasına, fikir paylaşmasına və yeni sosial şəbəkələr yaratmasına imkan vermişdir. Bu dəyişikliklər yeni imkanlarla yanaşı, müəyyən sosial risklərin və problemlərin də ortaya çıxmasına səbəb olmuşdur [OECD, 2019, s.n].

Bu problemlərdən ən diqqətçəkənlərindən biri kiber zorakılıqdır. Kiber zorakılıq rəqəmsal mühitdə insanlara qarşı yönəlmiş aqressiv davranış forması olub, müxtəlif vasitələrlə həyata keçirilir. Bu, sosial şəbəkələrdə təhqir və alçaltma, təhdid mesajları, şəxsi məlumatların icazəsiz yayılması və ya fərdin ictimai nüfuzuna xələl gətirən fəaliyyətlər şəklində özünü göstərə bilər. Rəqəmsal platformaların sürətli yayım imkanları bu cür halların daha geniş auditoriyaya çatmasına şərait yaradır [Hinduja, S., & Patchin, J. W. (2018)].

Kiber zorakılıq qurbanları əksər hallarda ciddi psixoloji çətinliklərlə qarşılaşırlar. Onlar stress, depressiv hallar, qorxu, özünə güvənin azalması və sosial mühitdən uzaqlaşma kimi problemlər yaşayırlar. Xüsusilə gənc yaş qrupları bu cür təsirlərə daha həssas olduqları üçün onların psixoloji

inkişafına mənfi təsir göstərir. Bəzi hallarda bu proses uzunmüddətli psixoloji problemlərə və sosial uyğunlaşma çətinliklərinə səbəb olur ki, bu da ümumi cəmiyyət üçün risk faktoruna çevrilir.
Bu problemin aradan qaldırılması üçün yalnız hüquqi mexanizmlərə və texnoloji həllərə güvənmək kifayət deyil. Qanunların tətbiqi və təhlükəsizlik sistemlərinin gücləndirilməsi mühüm olsa da, problemin mahiyyətinə təsir etmək üçün daha geniş yanaşma tələb olunur. Bu baxımdan mədəniyyət əsas rol oynayan amillərdən biri kimi çıxış edir.

Mədəniyyət fərdlərin davranış modellərini müəyyən edən və onların sosial münasibətlərini tənzimləyən vacib amildir. O, insanların hansı davranışları qəbul edilən və ya qəbuledilməz hesab etdiyini formalaşdırır. Rəqəmsal mühitdə də bu prinsip dəyişmir. İnsanlar virtual mühitdə də etik normalara riayət etməli və sosial məsuliyyət hissi ilə hərəkət etməlidirlər. Empatiya, hörmət və tolerantlıq kimi dəyərlərin təşviqi kiber zorakılığın qarşısının alınmasında effektiv vasitədir.

Eyni zamanda maarifləndirmə fəaliyyətləri də xüsusi əhəmiyyət daşıyır. Təhsil müəssisələrində rəqəmsal savadlılığın və etik davranış qaydalarının öyrədilməsi, valideynlərin və müəllimlərin bu sahədə məlumatlandırılması mühüm addımlardandır. Cəmiyyət üzvlərinin bu problemə qarşı həssas yanaşması və məsuliyyətli davranışı ümumi mübarizənin effektivliyini artırır.

Beləliklə, rəqəmsal texnologiyalar həyatımızı daha rahat və əlçatan etsə də, onların düzgün idarə olunmaması sosial problemlərin yaranmasına səbəb olur. Kiber zorakılıqla mübarizə kompleks yanaşma tələb edir və bu prosesdə mədəni və etik faktorlar əsas rol oynayır. Rəqəmsal mədəniyyətin inkişaf etdirilməsi isə müasir cəmiyyətin qarşısında duran əsas vəzifələrdən biridir.

**1. Kiber zorakılığın mahiyyəti və formaları**

Kiber zorakılıq müasir informasiya cəmiyyətində getdikcə daha çox diqqət çəkən və ciddi narahatlıq doğuran problemlərdən biri hesab olunur. Bu anlayış internet və müxtəlif rəqəmsal vasitələr vasitəsilə həyata keçirilən psixoloji təzyiq, təhqir və aqressiv davranışları özündə birləşdirir. Ənənəvi zorakılıq formalarından fərqli olaraq, kiber zorakılıq fiziki təmas olmadan baş verir və daha geniş auditoriyaya çatmaq imkanına malikdir. Rəqəmsal platformaların sürətli yayım xüsusiyyətləri bu problemin təsir dairəsini daha da genişləndirir və nəticədə onun fəsadlarını artırır.

Kiber zorakılıq müxtəlif formalarda ortaya çıxa bilər və bu formaların hər biri fərqli üsullarla zərər vurur. Bu davranışlara sosial şəbəkələr vasitəsilə təhqiramiz və alçaldıcı mesajların göndərilməsi, şəxsin nüfuzuna xələl gətirən paylaşımların edilməsi, şəxsi məlumatların icazəsiz şəkildə yayılması, həmçinin şantaj və təhdid daxildir. Bundan əlavə, bəzi hallarda şəxsin adı ilə saxta profillər yaradılır və bu profillər vasitəsilə yanlış və ya zərərli məlumatlar paylaşılaraq həmin şəxsin ictimai imicinə zərər vurulur. Eyni zamanda “trolling” kimi tanınan təxribatçı şərhlər və “cyberstalking” – yəni şəxsin davamlı şəkildə onlayn izlənilməsi və narahat edilməsi də geniş yayılmış kiber zorakılıq formaları sırasına daxildir.

Kiber zorakılığın ən təhlükəli xüsusiyyətlərindən biri onun fasiləsiz xarakter daşımasıdır. Əgər ənənəvi zorakılıq müəyyən zaman və məkan çərçivəsində baş verirsə, kiber zorakılıq istənilən vaxt və istənilən məkandan həyata keçirilə bilər. Bu isə zərərçəkənin özünü təhlükəsiz hiss etməsinə mane olur və psixoloji təzyiqin davamlı olmasına səbəb yaradır. Xüsusilə yeniyetmələr və gənclər bu problemin təsirinə daha açıq olan qrup hesab edilir. Onların sosial mediadan intensiv istifadə etməsi və emosional cəhətdən daha həssas olmaları kiber zorakılıq riskini artırır. Bu cür hallarla qarşılaşan gənclərin akademik nailiyyətlərində geriləmə müşahidə oluna bilər, sosial əlaqələri zəifləyə və özünə inamları aşağı düşə bilər. Bəzi vəziyyətlərdə isə bu təsirlər uzunmüddətli psixoloji problemlərə, o cümlədən depressiv hallara və sosial təcridə gətirib çıxarır.

Anonimlik amili də kiber zorakılığın geniş yayılmasına mühüm təsir göstərir. İnternet mühitində istifadəçilərin kimliyinin gizli qalması onların məsuliyyət hissini azaldır və daha sərt, bəzən isə aqressiv davranışlara yol açır. Real həyatda sərgiləmədikləri davranışları virtual mühitdə rahatlıqla nümayiş etdirən şəxslər çox vaxt bunun nəticələrini nəzərə almırlar. Bu isə problemin qarşısının alınmasını daha mürəkkəb hala gətirir [Kowalski, R. M., Giumetti, G. W., Schroeder, A. N., & Lattanner, M. R. (2014)].

Bundan başqa, rəqəmsal savadlılığın kifayət qədər inkişaf etməməsi və etik normalara əməl olunmaması da kiber zorakılığın yayılmasına şərait yaradır. İnsanlar çox vaxt etdikləri paylaşımların və yazdıqları fikirlərin qarşı tərəfə necə təsir etdiyini düşünmürlər. Bu isə onlayn mühitdə məsuliyyətsiz davranışların artmasına səbəb olur.

**2. Mədəniyyətin sosial tənzimləyici funksiyası**

Mədəniyyət cəmiyyətin fundamental elementlərindən biri olmaqla yanaşı, insanların davranışlarını yönləndirən və tənzimləyən əsas sosial mexanizmlərdən biridir. O, sosial normalar, dəyərlər və etik qaydalar vasitəsilə fərdlərin necə davranmalı olduqlarını müəyyən edir. Bu qaydalar cəmiyyətdə qəbul olunan və olunmayan davranış sərhədlərini müəyyənləşdirir və insanların sosial mühitə uyğunlaşmasına şərait yaradır. Bu baxımdan mədəniyyət təkcə mənəvi dəyərlərin daşıyıcısı deyil, həm də ictimai nizamın qorunmasına xidmət edən mühüm sistemdir.

Mədəniyyətin sosial tənzimləyici funksiyası insanların həm real həyatda, həm də virtual mühitdə davranışlarına təsir göstərir. Rəqəmsal dövrdə bu funksiyanın rolu daha da artmışdır. Belə ki, müasir insan ünsiyyətinin böyük hissəsini sosial media və müxtəlif onlayn platformalar vasitəsilə həyata keçirir. Bu isə göstərir ki, mədəniyyət artıq yalnız fiziki mühitdə deyil, eyni zamanda rəqəmsal aləmdə də davranış qaydalarını formalaşdırır.

Cəmiyyətdə hörmət, empatiya, tolerantlıq və sosial məsuliyyət kimi dəyərlər güclü olduqda, bu, insanların onlayn mühitdə də daha etik və məsuliyyətli davranmasına səbəb olur. Belə mühitlərdə fərdlər başqalarının hüquqlarına hörmətlə yanaşır və aqressiv davranışlardan uzaq dururlar. Əksinə, bu dəyərlərin zəif olduğu cəmiyyətlərdə neqativ davranışlar – təhqir, aqressiya və zorakılıq halları daha geniş yayılır. Bu isə xüsusilə kiber zorakılığın artmasına şərait yaradır.

Mədəniyyət həmçinin qeyri-rəsmi sosial nəzarət vasitəsi kimi də fəaliyyət göstərir. İnsanlar cəmiyyət tərəfindən qəbul edilməyən davranışların mənfi qarşılanacağını bildikləri üçün bu cür hərəkətlərdən çəkinirlər. Bu nəzarət mexanizmi formal qanunlardan fərqli olaraq daha çox ictimai rəy və daxili motivasiya əsasında işləyir. Sosial qəbul olunmaq istəyi və "cəmiyyət nə düşünər" amili fərdlərin davranışlarını istiqamətləndirən mühüm faktorlar sırasındadır. Bu qeyri-rəsmi nəzarət rəqəmsal mühitdə də öz təsirini qoruyub saxlayır. İstifadəçilər paylaşdıqları məlumatların başqaları tərəfindən necə qəbul olunacağını nəzərə alaraq daha diqqətli davranmağa çalışırlar. Bununla belə, anonimlik və fiziki məsafə amili bəzən bu nəzarətin zəifləməsinə səbəb olur. Bu səbəbdən rəqəmsal mədəniyyətin inkişafı və etik davranış normalarının təşviqi xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda, təhsil və maarifləndirmə fəaliyyəti mədəniyyətin tənzimləyici rolunun gücləndirilməsində mühüm yer tutur. Məktəblərdə və ali təhsil müəssisələrində etik davranış, rəqəmsal savadlılıq və sosial məsuliyyət mövzularının öyrədilməsi fərdlərin daha şüurlu və məsuliyyətli vətəndaş kimi formalaşmasına kömək edir. Bu prosesdə valideynlərin və müəllimlərin rolu da xüsusi vurğulanmalıdır.

**3. Rəqəmsal mədəniyyət və etik davranış**

Rəqəmsal mədəniyyət müasir dövrdə cəmiyyət həyatının ayrılmaz və mühüm komponentlərindən birinə çevrilmişdir. Bu anlayış insanların internet mühitindəki davranış qaydalarını, ünsiyyət üslublarını və etik normalarını əhatə edir. Rəqəmsal mədəniyyətin inkişafı fərdlərin onlayn platformalarda daha şüurlu, məsuliyyətli və etik davranmasına şərait yaradır və ümumi sosial münasibətlərin keyfiyyətini artırır [OECD, 2019].

Rəqəmsal mədəniyyətin əsas tərkib hissələrindən biri etik ünsiyyət anlayışıdır. Etik ünsiyyət qarşılıqlı hörmətə əsaslanır, düzgün və nəzakətli dil istifadəsini tələb edir və digər insanların hüquq və azadlıqlarına hörmət göstərilməsini nəzərdə tutur. Bu prinsiplərə riayət edilməsi onlayn mühitdə sağlam ünsiyyətin formalaşmasına kömək edir və kiber zorakılıq kimi mənfi halların qarşısının alınmasında mühüm rol oynayır.

Bununla yanaşı, rəqəmsal savadlılıq da bu sahədə vacib amillərdən biri hesab olunur. İnsanların internetdən düzgün və təhlükəsiz istifadə etməsi, şəxsi məlumatlarını qorumağı bacarması və onlayn fəaliyyətlərinin mümkün nəticələrini dərk etməsi xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal savadlılığın inkişafı fərdlərin daha məsuliyyətli davranmasına və risklərdən qorunmasına kömək edir. Bu baxımdan təhsil sisteminin rolu xüsusilə önəmlidir. Məktəblərdə və ali təhsil müəssisələrində rəqəmsal etika, təhlükəsiz internet istifadəsi və məsuliyyətli onlayn davranış mövzularının tədrisi gənc nəslin düzgün formalaşmasına şərait yaradır. Belə yanaşma həm fərdi səviyyədə, həm də cəmiyyət miqyasında daha sağlam və təhlükəsiz rəqəmsal mühitin yaranmasına töhfə verir.

**4.Kiber zorakılığa qarşı mədəni müqavimət yolları**

Kiber zorakılıq müasir dövrdə təkcə hüquqi və texniki üsullarla deyil, həm də mədəni yanaşmalar vasitəsilə həll olunmalı ciddi sosial problemdir. Bu problemin yaranma səbəbləri əsasən insanların davranış mədəniyyəti və dəyərlər sistemi ilə bağlı olduğuna görə, onun aradan qaldırılması da mədəni mühitin sağlamlaşdırılmasını tələb edir. Buna görə də kiber zorakılığa qarşı mübarizədə cəmiyyətin bütün sahələrini əhatə edən kompleks yanaşma vacib hesab olunur.

Əsas istiqamətlərdən biri etik dəyərlərin gücləndirilməsi və onların geniş şəkildə təşviq edilməsidir. İnsanlara erkən yaşlardan etibarən hörmət, məsuliyyət, ədalət və empatiya kimi mənəvi dəyərlərin öyrədilməsi onların davranışlarına birbaşa təsir göstərir. Bu dəyərlər fərdlərin həm real həyatda, həm də rəqəmsal mühitdə daha düzgün davranmasına kömək edir. Etik davranışın formalaşdığı cəmiyyətlərdə insanlar başqalarının şəxsi hüquqlarını pozmamağa çalışır və aqressiv davranışlara daha az yol verirlər. Bu da kiber zorakılığın yayılmasının qarşısını alan mühüm amillərdən biridir.

Digər vacib istiqamət rəqəmsal savadlılığın inkişaf etdirilməsidir. Rəqəmsal savadlılıq yalnız texnologiyadan istifadə bacarığı deyil, eyni zamanda internetdə təhlükəsiz, düşünülmüş və məsuliyyətli davranma qabiliyyətini də əhatə edir. İnsanlar onlayn mühitdə paylaşdıqları məlumatların nəticələrini dərk etməli, şəxsi məlumatlarını qorumağı bacarmalı və internet etikası qaydalarına əməl etməlidirlər. Bu bilik və bacarıqlar fərdlərin daha şüurlu qərarlar qəbul etməsinə imkan yaradır və onları kiber zorakılığın həm qurbanı, həm də iştirakçısı olmaqdan qoruyur.

Sosial məsuliyyət hissinin artırılması da bu mübarizənin əsas hissələrindən biridir. İnsanlar öz davranışlarının başqalarının həyatına və psixoloji vəziyyətinə necə təsir etdiyini anladıqda, daha diqqətli və ölçülü hərəkət edirlər. Sosial məsuliyyət fərdləri düşünülməmiş və zərərverici davranışlardan uzaqlaşdıraraq, daha sağlam ünsiyyət formalarına yönləndirir. Bu isə ümumi sosial mühitdə qarşılıqlı anlayış və hörmətin formalaşmasına şərait yaradır.

Bununla yanaşı, empatiya və tolerantlıq kimi insani keyfiyyətlərin inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Empatiya başqalarının hisslərini anlamaq və onların vəziyyətini dərk etmək bacarığını gücləndirir, tolerantlıq isə fərqli düşüncə və baxışlara hörmət etməyi təmin edir. Bu iki dəyər insanların rəqəmsal mühitdə daha humanist və anlayışlı davranmasına səbəb olur, konfliktlərin və aqressiyanın azalmasına şərait yaradır.

Eyni zamanda ailə və təhsil sisteminin rolu da bu prosesdə mühüm yer tutur. Təhsil müəssisələrində rəqəmsal etika, internet təhlükəsizliyi və sosial davranış qaydalarının öyrədilməsi gənclərin düzgün formalaşmasına xidmət edir. Valideynlər və müəllimlər uşaqlara onlayn mühitdə məsuliyyətli davranmağın vacibliyini izah etməli, onlara düzgün nümunə göstərməlidirlər. Bu yanaşma gələcəkdə daha şüurlu və sağlam rəqəmsal cəmiyyətin formalaşmasına töhfə verir.

Yekun olaraq qeyd etmək olar ki, rəqəmsal texnologiyaların sürətli inkişafı cəmiyyət üçün yeni imkanlar yaratmaqla yanaşı, bir sıra sosial problemlərin, xüsusilə də kiber zorakılığın meydana çıxmasına şərait yaratmışdır. Bu problem əsasən insanların psixoloji rifahına mənfi təsir göstərir, sosial münasibətlərdə gərginlik yaradır və daha çox gənclər arasında yayılaraq onların inkişafına zərər vurur. Kiber zorakılığın təhqir, şantaj, şəxsi məlumatların icazəsiz paylaşılması və anonim hücumlar kimi müxtəlif formaları onun təhlükəli xarakterini daha da artırır.

Bu cür problemlərin aradan qaldırılması yalnız hüquqi tənzimləmələr və texniki təhlükəsizlik tədbirləri ilə məhdudlaşa bilməz. Əsas həll yolu cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsi, etik davranış normalarının gücləndirilməsi və rəqəmsal savadlılığın inkişaf etdirilməsidir. İnsanlarda empatiya, qarşılıqlı hörmət, tolerantlıq və sosial məsuliyyət kimi dəyərlərin formalaşdırılması onların onlayn mühitdə daha düzgün və məsuliyyətli davranmasına şərait yaradır.

Bununla yanaşı, ailə və təhsil müəssisələrinin rolu da xüsusi əhəmiyyət daşıyır. Gənclərin düzgün istiqamətləndirilməsi, rəqəmsal davranış qaydalarının öyrədilməsi və etik prinsiplərin aşılanması gələcəkdə daha təhlükəsiz və sağlam rəqəmsal cəmiyyətin formalaşmasına töhfə verir [UNICEF, 2021; OECD,2019].

Nəticə etibarilə, kiber zorakılığa qarşı səmərəli mübarizə yalnız kompleks yanaşma əsasında mümkündür və bu prosesdə mədəniyyətin inkişafı, təhsil və sosial dəyərlərin gücləndirilməsi əsas rol oynayır.

## Ədəbiyyat siyahısı

1. **Hinduja, S., & Patchin, J. W. (2018).** Cyberbullying: Identification, Prevention, and Response. Cyberbullying Research Center. https://cyberbullying.org
2. **Kowalski, R. M., Giumetti, G. W., Schroeder, A. N., & Lattanner, M. R. (2014).** Bullying in the digital age: A critical review and meta-analysis. *Psychological Bulletin*, *140*(4), 1073–1137. https://doi.org/10.1037/a0035618
3. **Livingstone, S., & Smith, P. K. (2014).** Annual research review: Harms experienced by children in the digital environment. *Journal of Child Psychology and Psychiatry, 55*(6), 635–654. https://doi.org/10.1111/jcpp.12197
4. **OECD. (2019).** Digital Education and Skills in the Digital World. OECD Publishing. https://www.oecd.org
5. **UNICEF. (2021).** Cyberbullying: What is it and how to stop it. https://www.unicef.org/end-violence/how-to-stop-cyberbullying

**Lala Majidova Adalat gizi**

**THE REGULATING ROLE OF CULTURE AGAINST THE CYBERBULLING**

**Summary**

The article examines the issue of cyberbullying in the context of the rapid advancement of digital technologies, with a focus on its definition, various forms, and effects on society. It discusses how cyberbullying occurs through social media and online platforms, along with its psychological impacts, particularly on young individuals. The study also highlights the role of culture as a mechanism for social regulation, emphasizing the importance of ethical values and digital literacy. It underlines the need for cultural and educational strategies in addressing and preventing cyberbullying. In addition, the contribution of educational institutions, families, and other social organizations is considered. Ultimately, the article argues that cyberbullying cannot be effectively resolved through legal measures alone and requires broader cultural and social solutions.

**Key words:** cyberbullying, digital cultural environment, principles of ethical behavior, social platforms, digital literacy skills, sense of empathy, social responsibility.

**Лала Меджидова Адалет гызы**

**РЕГУЛЯТОРНАЯ РОЛЬ КУЛЬТУРЫ ПРОТИВ КИБЕРБУЛЛИНГА**

**Резюме**

В статье рассматривается проблема кибербуллинга на фоне стремительного развития цифровых технологий, анализируются его сущность, основные формы и воздействие на общество. Изучается, каким образом кибербуллинг проявляется через социальные сети и онлайн-платформы, а также его психологические последствия, особенно для молодёжи. Подчёркивается значение культуры как механизма социального регулирования, важность этических ценностей и цифровой грамотности. Особое внимание уделяется культурным и образовательным стратегиям профилактики кибербуллинга. Рассматривается роль семьи, системы образования и социальных институтов в данном процессе. Делается вывод о том, что проблема кибербуллинга не может быть решена исключительно правовыми методами и требует комплексного социально-культурного подхода.

**Ключевые слова:** Кибербуллинг, цифровая культурная среда, принципы этического поведения, социальные платформы, навыки цифровой грамотности, чувство эмпатии, социальная ответственность

**UOT 791.43:004.8:711**

**Азер Гулиев Алик оглы**
**Азербайджанский Государственный Университет Культуры и Искусств**
**Докторант**
gulievazer1@gmail.com

# КИНО, ГОРОДСКАЯ КУЛЬТУРА И ЦИФРОВАЯ ТРАНСФОРМАЦИЯ

**Резюме**

В докладе рассматривается трансформация кинематографа в условиях современной городской культуры, формируемой процессами цифровизации и активным внедрением искусственного интеллекта. Город анализируется не только как архитектурное и физическое пространство, но и как цифрово опосредованная среда, управляемая алгоритмическими системами, потоками данных и автоматизированными формами восприятия. В работе утверждается, что кино утрачивает статус главного средства осмысления городской реальности и всё чаще функционирует как элемент более широкой системы цифровой визуальности и технологического контроля. Особое внимание уделяется переходу от репрезентации к механизмам захвата, управления и прогнозирования, влияющим на киноязык, авторство и художественный риск. Искусственный интеллект рассматривается не как нейтральный инструмент, а как структурное условие, трансформирующее отношения между кино, архитектурой и городским опытом. Делается вывод о том, что кино сохраняет культурную значимость при условии сохранения этической ответственности, телесного восприятия и критического отношения к архитектурной и городской среде.

**Ключевые слова:** кинематограф, городская культура, искусственный интеллект, цифровой город, архитектура, киноязык, алгоритмическое управление.

В XXI веке кинематограф существует в культурной среде, коренным образом измененной цифровыми технологиями и глубокими преобразованиями городского пространства. Современные города больше не определяются исключительно их физической архитектурой, общественными площадями, улицами и зданиями. Они все чаще функционируют как сложные социально-технические системы, состоящие из цифровых инфраструктур, потоков данных, алгоритмического регулирования и опосредованных форм восприятия. Городское пространство сегодня является одновременно материальным и виртуальным, воспринимаемым через непосредственное физическое присутствие, а также через экраны, интерфейсы и интеллектуальные системы.

В этом контексте кино функционирует не просто как репрезентативная форма искусства, изображающая город, но и как культурный механизм, с помощью которого городская реальность воспринимается, организуется и символически обрабатывается [Манович, 2013, с. 45]. Кинематограф участвует в создании городского смысла, формируя то, как воспринимаются и понимаются архитектурное пространство, движение, ритм и социальное взаимодействие. Таким образом, взаимосвязь между кинематографом и городом выходит за рамки иллюстрации; она включает в себя конструирование самого городского воображения.

Исторически сложилось так, что кинематограф играл центральную роль в выражении культурной логики современной городской жизни. От модернистского кинематографа начала двадцатого века до послевоенных и позднемодернистских городских повествований город предстал как пространство встреч, отчуждения, плотности, конфликта и трансформации. Архитектурные формы, улицы, промышленные зоны и жилые пространства были не нейтральным фоном, а активными компонентами кинематографического смысла. Посредством кадрирования, монтажа, звука и продолжительности кинематограф преобразовал городскую архитектуру и социальную динамику в структуры восприятия и повествования, опосредуя отношения между индивидом и застроенной средой [**Беньямин**, 2008, с. 221].

Таким образом, кино служило символическим связующим звеном между живым городским опытом и культурной интерпретацией. Оно позволяло зрителям воспринимать город как целостное, хотя часто и противоречивое пространство, сформированное историческими силами, политической властью и социальными отношениями. Городское кино способствовало формированию коллективной памяти и критическому осмыслению модернизации, пространственного неравенства и опыта повседневной жизни в рамках архитектурных систем.

В современных цифровых условиях эти отношения претерпевают решающую трансформацию. Городская жизнь все чаще опосредуется цифровыми платформами, системами наблюдения, навигационными технологиями и интеллектуальными инфраструктурами, которые реорганизуют пространственный опыт и восприятие времени. Город становится гибридной средой, в которой физическая архитектура и цифровое представление неразделимы. Передвижение в городском пространстве управляется алгоритмами; видимость регулируется камерами и аналитикой данных; архитектурное пространство постоянно контролируется, оптимизируется и управляется.

Кино, встроенное в эту преобразованную городскую среду, больше не занимает привилегированного положения в качестве основного средства, с помощью которого создается представление о городе. Вместо этого он становится одним из элементов более широкой экосистемы цифровых изображений, визуализации данных в реальном времени и алгоритмической наглядности [Зубофф, 2019, с. 312]. Кинематографический образ города конкурирует с оперативными образами, созданными для контроля, прогнозирования и управления, а не для интерпретации или отражения.

Кинематограф традиционно функционировал как технология восприятия, которая делает город видимым, разборчивым и повествовательно связным. С помощью композиционных стратегий, таких как кадрирование, движение камеры, монтаж, звуковое оформление и временная продолжительность, фильм организует городское пространство в значимые последовательности. Архитектурные сооружения, улицы и общественные пространства превращаются в пути восприятия, с помощью которых зрители воспринимают город как понятную среду, а не как подавляющее скопление стимулов [Делез, 2005а, с. 89]. Эта функция восприятия была центральной в культурной роли кино в условиях урбанизации. Кинематограф предоставил способ постичь масштаб, сложность и абстрактность современных городов, переведя архитектурные и инфраструктурные системы в эмпирические формы. При этом он предлагал не только репрезентацию, но и интерпретацию: способ осмысления города с

помощью образов. Однако современное городское восприятие все чаще формируется благодаря цифровому посредничеству, а не кинематографической интерпретации. Навигационные системы, камеры наблюдения, технологии “умного города” и анализ городских данных обеспечивают непрерывный поток визуальной и информационной обратной связи. Эти системы не интерпретируют город символически; они регистрируют, классифицируют и оптимизируют его. Городское пространство рассматривается как набор переменных, которыми необходимо управлять, а не как среда обитания, которую нужно понимать [Бодрийяр, 1994, с. 63].

Искусственный интеллект усиливает трансформацию, внедряя автоматизированные формы восприятия, анализа и создания изображений в кинематографическую практику. Системы искусственного интеллекта обрабатывают огромное количество визуальных данных, выявляют повторяющиеся закономерности и генерируют изображения или повествования, основанные на статистических корреляциях, а не на жизненном опыте. В кинематографе эта логика влияет не только на производственные процессы, но и на эстетические решения, повествовательные структуры и репрезентативные стратегии [Манович, 2013, с. 112]. Кинематографический язык, исторически основанный на двусмысленности, длительности и открытости для интерпретации, все больше адаптируется к алгоритмическим ожиданиям. Системы, управляемые искусственным интеллектом, способствуют ясности, эмоциональной разборчивости и узнаваемым схемам повествования, которые согласуются с моделями прогнозирования поведения аудитории. Архитектурное пространство и городская среда часто представлены в стандартизированных, эстетически контролируемых формах, подчеркивающих визуальную согласованность, а не пространственную сложность. Формальные эксперименты, временные излишества и неразрешенный смысл – элементы, традиционно занимающие центральное место во взаимодействии кинематографа с городской жизнью, – все чаще рассматриваются как неэффективные в рамках систем, оптимизированных для вовлеченности и предсказуемости [Стиглер, 2019, с. 97]. В результате кинематографический язык рискует стать нормализованным, в большей степени соответствуя вычислительной логике, чем эмпирическому богатству городского пространства.

Одним из наиболее значительных последствий искусственного интеллекта является переход от репрезентации к цифровому управлению. Исторически кинематограф представлял город, отбирая, обрамляя и повествуя о городском опыте. Это обеспечивало критическую дистанцию, позволяя исследовать архитектурное пространство и социальные отношения и подвергать их сомнению. Системы на основе искусственного интеллекта, напротив, управляют городским пространством посредством непрерывного сбора данных, наблюдения и прогностического моделирования. Изображения функционируют не как интерпретации, а как операционные инструменты в системах контроля, безопасности и оптимизации [Зубофф, 2019, с. 215]. Городская архитектура становится частью управляемой среды, в которой видимость и движение регулируются в режиме реального времени. Этот сдвиг глубоко влияет на отношение кинематографа к городской реальности. Когда изображения в основном используются для управления поведением и оптимизации пространства, их символические и этические аспекты уменьшаются. Традиционную роль кино как средства критики, сопротивления и рефлексии становится все труднее поддерживать в условиях, где доминирует автоматизированное управление [Бодрийяр, 1994, с. 88]. Художественный риск исторически

занимал центральное место во взаимодействии кинематографа с городом. Городское кино исследовало маргинальные пространства, неформальную архитектуру, социальные конфликты и политическую напряженность, принимая неопределенность и формальную нестабильность. Эти риски позволили кинематографу раскрыть аспекты города, исключенные из официальных повествований и городского планирования. Искусственный интеллект бросает вызов этой традиции, отдавая предпочтение прогнозированию, а не риску. Системы, предназначенные для минимизации неопределенности, препятствуют отклонению от устоявшихся визуальных и нарративных шаблонов, рассматривая риск, скорее, как неэффективность, чем как источник культурного понимания. В контексте городской репрезентации это приводит к нормализации архитектурных и социальных образов. Сложные, неудобные или политически чувствительные изображения города – неформальные поселения, социальное неравенство, пространственная изоляция – становятся менее заметными в рамках доминирующего кинематографического оборота. Город все чаще представляется как контролируемая, эстетизированная и оптимизированная среда, а не как оспариваемое и обжитое пространство [Зубофф, 2019, с. 402].

Несмотря на эти трансформации, кино сохраняет потенциал функционировать как пространство человеческого присутствия и этической ответственности. Искусственный интеллект может генерировать изображения и повествования, но он не может воспринимать архитектуру, населять городское пространство или брать на себя ответственность за репрезентацию. Он не обладает памятью, уязвимостью или этическими обязательствами. Особая культурная ценность кинематографа заключается в его способности выражать пережитый опыт, воплощенное восприятие и этическое взаимодействие с архитектурной и городской средой [Benjamin, 2008, с. 236]. Благодаря продолжительности, вниманию и построению повествования кино может показать, как ощущаются города, как они населены и как им противостоят человеческие тела. В контексте цифровой городской культуры это человеческое измерение приобретает все большее значение. Кино может противостоять тотальной автоматизации, настаивая на двусмысленности, продолжительности и ответственности как основных ценностях. Это может сохранить пространства, где город не просто запечатлен, отслежен и оптимизирован, но интерпретирован, подвергнут сомнению и переосмыслен [Делез, 2005b, с. 179].

**Заключение**

Кинематограф в эпоху искусственного интеллекта существует в условиях глубоко изменившегося городского и культурного ландшафта. Современные города больше не формируются исключительно архитектурным дизайном, городским планированием и социальным взаимодействием; ими все чаще управляют цифровые инфраструктуры, алгоритмические системы и автоматизированные формы восприятия. В этой среде кино сталкивается с фундаментальным переосмыслением своей культурной функции. Он больше не действует как доминирующая среда, с помощью которой воображается и интерпретируется городская жизнь, а как одна из многих практик в технологически опосредованной экосистеме изображений, данных и контроля. Интеграция искусственного интеллекта в городские системы знаменует собой решающий сдвиг в организации пространства, движения и видимости. Архитектура и городская среда все чаще подвергаются процессам непрерывного сбора данных, мониторинга и оптимизации. Эта трансформация влияет не только на то, как

функционируют города, но и на то, как они воспринимаются и понимаются. Городское пространство становится оперативным, а не символическим, управляемым, а не интерпретируемым. В таких условиях кинематограф сталкивается с потерей авторитета восприятия, поскольку его рефлексивные и повествовательные возможности затмеваются цифровой визуализацией в реальном времени и алгоритмическим управлением.

В то же время доминирование прогностических систем изменяет условия художественного творчества. Риск, неопределенность и формальное экспериментирование – элементы, которые исторически позволяли кинематографу критически относиться к городской современности, – постепенно отодвигаются на второй план. В алгоритмически управляемой среде отклонение от установленных шаблонов рассматривается скорее как неэффективность, чем как источник культурного понимания. Таким образом, способность кино бросать вызов доминирующим представлениям о городском развитии и архитектурном порядке ограничивается не явной цензурой, а структурной логикой оптимизации и контроля.

Таким образом, будущее кинематографа в рамках современной городской культуры зависит не только от технологических инноваций, но и от сохранения ценностей, ориентированных на человека. К ним относятся ответственность за образы, открытость к неопределенности и чувствительность к материальным и социальным реалиям архитектурного пространства. Кино может продолжать функционировать как важнейшая культурная практика, сопротивляясь тотальной автоматизации и настаивая на интерпретации, а не на оптимизации, на значении, а не на расчете, и на опыте, а не на контроле. В этом смысле искусственный интеллект следует понимать не как угрозу кинематографу, а как разоблачающее условие, заставляющее пересмотреть его культурные основы. Кинематограф находится на пороге, когда его актуальность определяется его способностью критически относиться к цифровой трансформации городов и поддерживать пространство для размышлений в среде, все больше управляемой интеллектуальными системами. Сохраняя приверженность этической ответственности, воплощенному восприятию и культурной интерпретации, кино может оставаться жизненно важным видом искусства, способным решать проблемы городской жизни в эпоху цифровых технологий. [Бодрийяр, 1994, с. 117].

## Список литературы

Бодрийяр, Ж. (2015). *Симулякры и симуляция* (пер. с фр.). Москва: Постум.

Беньямин, В. (2008). Произведение искусства в эпоху его технической воспроизводимости. В *Избранные эссе* (с. 214–242). Москва: Медиум.

Делёз, Ж. (2004). *Кино 1: Образ-движение* (пер. с фр.). Москва: Ad Marginem.

Манович, Л. (2018). *Язык новых медиа* (пер. с англ.). Москва: Ad Marginem.

Зубофф, Ш. (2019). *Эпоха надзорного капитализма: борьба за будущее человечества на новых рубежах власти* (пер. с англ.). Москва: АСТ.

**Azər Quliyev Alik oğlu**

## KİNO, ŞƏHƏR MƏDƏNİYYƏTİ VƏ RƏQƏMSAL TRANSFORMASİYA

### Xülasə

Məruzə müasir rəqəmsallaşma və süni intellektin artan təsiri şəraitində kinonun şəhər mədəniyyəti daxilində keçirdiyi transformasiyanı araşdırır. Şəhər yalnız fiziki və memarlıq mühiti

kimi deyil, eyni zamanda alqoritmik sistemlər, məlumat axınları və avtomatlaşdırılmış qavrayış formaları ilə idarə olunan rəqəmsal məkan kimi təhlil olunur. Tədqiqatda göstərilir ki, kino artıq şəhər reallığının əsas təsvir və təfsir vasitəsi deyil, daha geniş rəqəmsal vizual mühitin bir elementi kimi fəaliyyət göstərir. Məruzədə təsvirdən rəqəmsal nəzarət və proqnozlaşdırma mexanizmlərinə keçid, kino dilinin, müəlliflik anlayışının və bədii riskin dəyişməsi kontekstində təhlil edilir. Süni intellekt texniki alət kimi deyil, kino, memarlıq və şəhər təcrübəsi arasındakı münasibətləri yenidən formalaşdıran struktur şərt kimi qiymətləndirilir. Nəticədə vurğulanır ki, kino etik məsuliyyət, bədənlə yaşanan qavrayış və memarlıq mühitinə tənqidi yanaşma kimi insani dəyərləri qoruduğu müddətcə mədəni əhəmiyyətini saxlayır.

**Açar sözlər:** kino, şəhər mədəniyyəti, süni intellekt, rəqəmsal şəhər, memarlıq, kino qavrayışı, alqoritmik idarəetmə

**Azer Guliyev Alik oghlu**

**CINEMA, URBAN CULTURE AND DIGITAL TRANSFORMATION**

**Summary**

This paper examines the transformation of cinema within contemporary urban culture under conditions of digitalization and the growing influence of artificial intelligence. The city is approached not only as a physical and architectural environment, but as a digitally mediated space governed by algorithmic systems, data flows, and automated forms of perception. The study argues that cinema no longer functions as the dominant medium through which urban reality is imagined and interpreted, but increasingly operates within a broader ecosystem of digital images and technological governance. Special attention is given to the shift from representational practices toward systems of capture, control, and prediction, which reshape cinematic language, authorship, and the role of artistic risk. Artificial intelligence is analyzed not as a neutral tool, but as a structural condition that alters the relationship between cinema, architecture, and urban experience. The paper concludes that cinema retains its cultural relevance insofar as it preserves human-centered values such as ethical responsibility, embodied perception, and critical engagement with the built environment in the digital age.

**Key words:** cinema, urban culture, artificial intelligence, digital city, architecture, cinematic perception, algorithmic governance.

UOT 73

ORCID: https://orcid.org/0009-0008-4546-4331

**Səltənət Əfəndiyeva Zakir qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**saltanatafandiyeva@gmail.com**

# ƏZİM ƏZİMZADƏNİN ƏSƏRLƏRİNDƏ ABŞERON MEMARLIĞININ TƏSVİRİ

## Xülasə

Məqalədə Əzim Əzimzadənin yaradıcılığında Azərbaycan memarlığının təsviri araşdırılır. Rəssamın karikatura və məişət səhnələrində Abşeron memarlığına xas eksteryer və interyer xüsusiyyətləri, şəhər mühitinin planlaşdırılması, tikinti materialları və memarlıq elementləri təhlil edilir. Eyni zamanda əsərlərdə memarlıq mühitinin sosial məzmunu, kasıb və varlı təbəqələrin yaşayış məkanları arasındakı fərqlər göstərilir. Tədqiqat Əzimzadənin əsərlərində memarlığın yalnız fon deyil, həm də dövrün sosial və mədəni mühitini əks etdirən mühüm vizual element olduğunu ortaya qoyur.

**Açar sözlər:** Əzim Əzimzadə, Azərbaycan, memarlıq, satirik, təsviri sənət, karikatura

**Giriş.** Azərbaycan təsviri sənətinin inkişaf tarixində Əzim Əzimzadə (1880–1943) xüsusi yer tutan sənətkarlardan biridir. O, milli qrafika sənətində satirik istiqamətin formalaşmasında mühüm rol oynamış, karikatura janrının Azərbaycanda əsas yaradıcılarından biri kimi tanınmışdır.

**Məsələnin qoyuluşu**

Əzim Əzimzadənin təsviri sənət nümunələrində Azərbaycan, xüsusilə Abşeron memarlıq elementlərinin və onların sosial-mədəni məzmununun araşdırılması

**Əsas hissə.** Əzim Əzimzadənin yaradıcılığı XX əsrin əvvəllərində cəmiyyətdə baş verən sosial dəyişiklikləri, məişət münasibətlərini və ictimai ziddiyyətləri əks etdirir. Onun əsərləri təkcə satirik məzmunu ilə deyil, həm də dövrün şəhər həyatını, sosial mühitini və insanların gündəlik davranış modellərini göstərməsi ilə diqqət çəkir.

Əzim Əzimzadənin yaradıcılığında xüsusi mərhələ satirik “Molla Nəsrəddin” jurnalında fəaliyyət göstərdiyi dövr hesab olunur. Bu jurnal vasitəsilə rəssam karikaturanı ictimai tənqid vasitəsinə çevirmiş, cəmiyyətdəki sosial bərabərsizlik, riyakarlıq və gerilik kimi problemləri satirik dillə təqdim etmişdir. Onun əsərlərində şəhər mühiti, bazar həyatı, məişət səhnələri və müxtəlif sosial təbəqələrin nümayəndələri geniş yer tutur.




***Şəkil 1.*** *"Novruz Bayramı"- kətan, yağlı boya. (1939) [1],* ***Şəkil 2.*** *“Kosa-kosa” (1930) [2]*

Bu məqalədə təqdim olunan Əzim Əzimzadə-nin karikaturalarında təsvir edilən mühit XX əsrin əvvəllərində Abşeron memarlığının xüsusiyyətlərini əks etdirir. “Novruz bayramı” və “Kosa-kosa” əsərlərində Bakının şəhər strukturu, xüsusilə İçərişəhər və ya “bayır şəhər” üçün xarakterik olan sıx məhəllə planlaşdırılması diqqəti cəlb edir. Daş döşənmiş küçələrin dar olması, tikililərin bir-birinə yaxın yerləşməsi İçərişəhər üçün səciyyəvi olub, şəhərin müdafiə və iqlim şəraitinə uyğun şəkildə formalaşmışdır.




***Şəkil 3.*** *"İnnabı rəng bizə məxsusdur" (1931) [3],* ***Şəkil 4. “Xoruz döyüşü” (1915) [2]***

Eyni zamanda, şəkil 3 və şəkil 4-də də göründüyü kimi, bu təsvirlərdə binaların qarşısında kiçik meydançalar, ticarət, ünsiyyət və digər məqsədlər üçün istifadə olunan açıq ictimai məkanlar hadisələrin baş verdiyi canlı mühit kimi təqdim edilir. Rəsmlərdə binaların sarımtıl-boz çalarlarla verilməsi Abşeronun əsas tikinti materialı olan əhəngdaşından istifadə olunduğunu göstərir. Bu material sadəcə konstruktiv element deyil, şəhərin ruhunu formalaşdıran estetik amildir.

Fonda görünən tağvari və ya sivri formalı giriş və pəncərə açılışları, qalın daş divarlar və sadə fasad quruluşu Şərq memarlığının yerli tikinti ənənələri ilə sintezini göstərir. Həmçinin diqqəti cəlb edən firuzəyi rəngli günbəz məscid memarlığı mühafizəkar və dini dəyərlərin hakim olduğu mühitə işarə edir. Divarlar isə bəzən hakim təbəqəni təmsil edən qrup ilə sadə xalq arasındakı sosial baryerin rəmzi kimi qəbul edilə bilər.

Əzim Əzimzadənin təsvirlərində interyer memarlığı kasıb və varlı təbəqə arasındakı fərqi aydın şəkildə göstərir və həmin dövrdə mövcud olan sosial təbəqələşmə haqqında təsəvvür yaradır. Kasıb təbəqənin təsvir olunduğu səhnələrdə (şəkil 6 və şəkil 8) tavanda ağac tirlərinin açıq qalması, suvaqlanmamış və birbaşa görünən konstruktiv elementlər evlərin sadə və ucuz üsulla tikildiyini göstərir.




***Şəkil 5.*** *Varlı evində toy" (1935) [1],* ***Şəkil 6****. "Kasıb evində toy" (1931) [1]*

Məkanın nisbətən alçaq olması interyerdə sıxlıq hissi yaradır. Divarların nahamar fakturası onların çiy kərpicdən və ya ucuz materiallardan inşa edildiyini, torpaq və saman qarışığı ilə suvanmış olduğunu göstərir. Divarlarda sadə taxta rəf və ya tək taxça, kiçik pəncərə açılışları və zəif işıqlandırma kasıb evində təsvir olunan interyerlərin ortaq xüsusiyyətləridir. Planlaşdırma sadədir və otaq eyni zamanda yemək, məişət və istirahət funksiyalarını yerinə yetirən çoxfunksiyalı yaşayış sahəsi kimi istifadə olunur.




***Şəkil 7.*** *“Varli evinde Ramazan” (1932) [2],* ***Şəkil 8.*** *“Kasıb evində ramazan süfrəsi” (1938) [4]*

Varlı evində isə interyerin genişliyi, hündür tavan və dekorativ zənginlik diqqəti cəlb edir. Bu tip yaşayış məkanlarında böyük zal və bir-biri ilə əlaqəli otaqlar sistemi mövcuddur. İnteryer tərtibatında Avropa üslubuna aid mebellər — tryumo, güzgü, yumşaq kreslolar, divardan asılmış rəsmlər və müxtəlif dekorativ elementlər istifadə olunmuşdur. Ağır pərdəli qapı açırımları, geniş xalça üzərində qurulmuş süfrə və divar bəzəkləri memarlıq mühitinin həm milli ənənələrə, həm də modern zövqə uyğun şəkildə formalaşdırıldığını göstərir.

**Nəticə**

Əzim Əzimzadənin əsərlərində memarlıq mühiti dövrün sosial və məişət həyatını əks etdirən mühüm təsvir vasitəsidir. Rəssamın karikaturalarında Abşeron memarlığına xas şəhər planı, tikinti materialları və interyer xüsusiyyətləri real şəkildə əks olunur

**Ədəbiyyat siyahısı**

1. Cavadov, H. Əzimzadə və Bakı: gülüş, ağrı və ölməzlik. Bakı-baku.az. https://baki-baku.az/ezimzad%C9%99-v%C9%99-baki-gulus-agri-v%C9%99-olm%C9%99zlik-bakililar/

2. SİA. “Bu gün Xalq rəssamı Əzim Əzimzadənin doğum günüdür.”, 2022 https://sia.az/az/news/culture/804318.html
3. Wikimedia Commons. “The color of claret belongs to us”. https://commons.wikimedia.org/wiki/File:The_color_of_claret_belongs_to_us.jpg
4. Əzimzadə, Ə. Ramazan with the poor. 1938. Wikimedia Commons. https://commons.wikimedia.org/wiki/File:Ramazan_with_the_poor.jpg

**Saltanat Afandiyeva Zakir gizi**

## THE DEPICTION OF AZERBAIJANI ARCHITECTURE IN THE WORKS OF AZIM AZIMZADE

**Summary**

The article shows the represent of Azerbaijani architecture in the works of Azim Azimzade. The artist analyzes the exterior and interior features of Absheron architecture, urban planning, construction materials and architectural elements in his caricatures and everyday scenes. At the same time, the works highlight the differences in the social, living spaces of the poor and rich classes of the domestic environment. The study reveals that architecture in Azimzade's works is not only a background, but also an important visual element reflecting the social and cultural environment of the period.

**Key words:** Azim Azimzade, Azerbaijan, architecture, satirical, visual arts, caricature.

**Салтанат Эфендиева Закир кызы**

## ИЗОБРАЖЕНИЕ АБШЕРОНСКОЙ АРХИТЕКТУРЫ В ПРОИЗВЕДЕНИЯХ АЗИМА АЗИМЗАДЕ

**Резюме**

В статье представлено исследование особенностей азербайджанской архитектуры в творчестве Азима Азимзаде. В карикатурах и сценах из повседневной жизни художника анализируется внешние и внутренние особенности архитектуры, градостроительства, строительных материалов и архитектурных элементов Абшерона. В то же время, эти работы демонстрируют социальное содержание архитектурной среды и различия в жилых пространствах бедных и богатых. Исследование показывает, что в работах Азимзаде архитектура является не просто фоном, а важным составляющим визуальным элементом социализированного и культурологизированного окружения своего времени.

**Ключевые слова:** Азим Азимзаде, Азербайджан, архитектура, сатирический, изобразительное искусство, карикатура.

**UOT 338.46:791.43**

**Sona Cəmşidli İlham qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**cemshidli@gmail.com**

# FİLM LAYİHƏLƏRİNDƏ GƏLİR MƏNBƏLƏRİNİN MÜQAYİSƏSİ VƏ ONLARIN İNVESTİSİYA ƏHƏMİYYƏTİ

**Xülasə**

Məqalədə film layihələrində gəlir mənbələrinin strukturu, onların risk və sabitlik göstəriciləri, həmçinin investisiya cəlbediciliyi tədqiq olunur. Qloballaşma və rəqəmsallaşma şəraitində ənənəvi kinoteatr və televiziya satışlarından rəqəmsal platformalar, VOD və streaming xidmətlərinə qədər müxtəlif monetizasiya kanalları müqayisəli şəkildə analiz edilir. Tədqiqat çərçivəsində həm yerli, həm də beynəlxalq gəlir mənbələri sistemləşdirilmiş, onların investisiya baxımından effektivliyi qiymətləndirilmişdir. Nəticələr göstərir ki, çoxkanallı gəlir strategiyasına malik film layihələri investorlar üçün daha dayanıqlı və perspektivlidir. Əldə olunan nəticələr prodüserlər və investorlar üçün maliyyə planlaşdırmasının optimallaşdırılmasında praktik töhfə verə bilər.

**Açar sözlər:** film layihələri, gəlir mənbələri, kino iqtisadiyyatı, investisiya, distribusiya, rəqəmsal platformalar

Kino sənayesi XXI əsrdə yalnız yaradıcılıq sahəsi kimi deyil, həm də kompleks iqtisadi fəaliyyət sahəsi kimi xarakterizə olunur. Qlobal bazarda kino istehsalı, distribusiyası və monetizasiyası milyardlarla dollarlıq dövriyyəyə malikdir və bununla bağlı iqtisadi göstəricilər strateji qərarların qəbulunda mühüm rol oynayır [Eliashberg, Elberse & Leenders, 2006; Hoskins, McFadyen & Finn, 2004].

Qloballaşma prosesləri kino sənayesini həm texnoloji, həm də iqtisadi baxımdan dərin transformasiyaya uğratmışdır. Rəqəmsal texnologiyaların inkişafı, xüsusilə VOD (Video on Demand) və streaming platformalarının geniş yayılması film layihələrinin yayım və gəlir mexanizmlərində köklü dəyişikliklərə səbəb olmuşdur [Iordanova, 2012]. Bu şəraitdə kino layihələrinin maliyyə planlaşdırılması yalnız kinoteatr gəlirlərinə əsaslanmaqla kifayətlənməyərək, çoxkanallı gəlir strategiyalarının tətbiqini tələb edir.

Azərbaycan kino sənayesində isə maliyyə planlaşdırması hələ kifayət qədər sistemli formada tətbiq olunmur. Dövlət dəstəyi, yerli investisiyalar və beynəlxalq satış imkanları mövcud olsa da, layihələrin investisiya cəlbediciliyinin qiymətləndirilməsi və gəlir strukturlarının optimallaşdırılması sahəsində elmi əsaslı yanaşmalar məhduddur (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2023). Bu isə yerli kino istehsalının dayanıqlı inkişafını təmin etmək üçün investorlar, prodüserlər və yaradıcı komandalar üçün yeni metodların işlənməsini aktuallaşdırır.

**Cədvəl 1. Film Layihələrinin Gəlir Mənbələri və İnvestisiya Xüsusiyyətləri**

| Gəlir mənbəyi | Gəlirin yaranma mərhələsi | Risk səviyyəsi | Gəlirin sabitliyi | İnvestor üçün cəlbedicilik | Qeydlər |
|---|---|---|---|---|---|
| Kinoteatr (Box Office) | İlkin yayım mərhələsi | Yüksək | Orta | Yüksək (uğurlu film üçün) | Güclü marketinqdən asılıdır |
| Televiziya satışları | İkinci yayım pəncərəsi | Orta | Yüksək | Orta | Daha proqnozlaşdırılandır |
| VOD / Streaming | Rəqəmsal yayım mərhələsi | Orta | Yüksək | Yüksək | Son illər sürətlə artır |
| Beynəlxalq satışlar | Festival və distribusiya mərhələsi | Orta–yüksək | Orta | Orta–yüksək | Kontentin universallığından asılıdır |
| Product placement | İstehsal mərhələsi | Aşağı | Yüksək | Orta | Ön maliyyələşmə imkanı yaradır |
| Merchandising | Yayım sonrası | Yüksək | Aşağı–orta | Aşağı (lokal bazarda) | Daha çox franşizalarda effektivdir |
| Dövlət dəstəyi və fondlar | İstehsal öncəsi | Aşağı | Yüksək | Dolayı | Geri ödəniş tələb olunmur |

**Cədvələ qısa analitik şərh**

Müqayisəli təhlil göstərir ki, film layihələrinin gəlir strukturu çoxkanallı xarakter daşıyır və ayrı-ayrı mənbələrin risk və sabitlik göstəriciləri əhəmiyyətli dərəcədə fərqlənir. Ən yüksək risk kinoteatr gəlirlərinə məxsusdur, lakin uğurlu kommersiya nəticəsi əldə edildikdə bu kanal investor üçün ən yüksək gəlirlilik potensialını təmin edir. Rəqəmsal platformalar və televiziya satışları isə daha sabit və proqnozlaşdırılan gəlir mənbələri kimi çıxış edir. Bu baxımdan, müasir film layihələri üçün hibrid və şaxələndirilmiş gəlir modelinin tətbiqi investisiya risklərinin azaldılması baxımından daha məqsədəuyğun hesab olunur.

Film layihələrinin iqtisadi uğuru müxtəlif gəlir kanallarının səmərəli idarə olunmasından asılıdır. Hər bir kanalın risk səviyyəsi, gəlirin sabitliyi və investor üçün cəlbediciliyi fərqli olduğundan, layihə menecerləri və investorlar üçün onların müqayisəli təhlili əhəmiyyətlidir.

Kinoteatr gəlirləri film layihələrinin ilkin yayım mərhələsində yaranır və ənənəvi monetizasiya modelinin əsasını təşkil edir. Bu kanal yüksək risk daşıyır, çünki gəlir birbaşa tamaşaçı marağından, rəqabət mühitindən və marketinq strategiyasının effektivliyindən asılıdır. Uğurlu kommersiya nəticəsi əldə edildikdə isə investor üçün ən yüksək potensial gəliri təmin edir [Litman, 1983; Vogel, 2020].

Televiziya satışları ikinci yayım pəncərəsi çərçivəsində həyata keçirilir və daha sabit gəlir mənbəyi sayılır. Risk səviyyəsi kinoteatra nisbətən aşağıdır, çünki televiziya kanalları uzunmüddətli yayım müqavilələri vasitəsilə gəliri proqnozlaşdırıla bilən edir [Hoskins, McFadyen & Finn, 2004].

Rəqəmsal yayım mərhələsində VOD və streaming kanalları sürətlə artan gəlir mənbəyidir. Orta səviyyəli risklə yanaşı, bu platformalar investorlar üçün yüksək cəlbedicilik təmin edir, çünki rəqəmsal yayım qlobal auditoriyaya çıxışı mümkün edir və gəlir axını uzun müddətli ola bilər [Iordanova, 2012; PwC, 2024].

Festival və distribusiya mərhələsində beynəlxalq satışlar filmin kontentinin universallığından asılı olaraq orta-yüksək risk daşıyır. Bu kanal vasitəsilə gəlir potensialı genişlənir, lakin uğurun proqnozlaşdırılması yerli bazara nisbətən çətinlik törədir [Finney, 2015].

İstehsal və yayım sonrası mərhələlərdə məhsul yerləşdirmə və merchandising filmə əlavə maliyyə dəstəyi təmin edir. Risk səviyyəsi aşağıdır, gəlir sabitliyi isə yüksəkdir; investor üçün cəlbediciliyi orta səviyyədədir. Bu kanallar ön maliyyələşdirmə imkanları yaradır və uzunmüddətli brend əlaqələrinə töhfə verir [Walls, 2005].

İstehsal öncəsi maliyyələşmə şəklində olan dövlət dəstəyi və fondlar layihələrin riskini azaltmaqla dolayı investor cəlbediciliyi təmin edir. Bu kanallar geri ödəniş tələb etmədiyindən layihələr üçün maliyyə dayanıqlığını artırır və ilkin investisiya üçün əlverişli şərait yaradır [Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2023].

Film layihələrinin gəlir mənbələrinin müqayisəli təhlili investorların risk və gəlir sabitliyini qiymətləndirməsi üçün əsasdır. Hər bir gəlir kanalı müxtəlif risk səviyyəsinə və gəlirin sabitliyinə malikdir, bu da maliyyə planlaşdırmasında strateji qərarların qəbuluna təsir göstərir (Vogel, 2020).

Ənənəvi kanallar, xüsusilə kinoteatr gəlirləri və televiziya satışları, investor üçün daha aydın proqnozlaşdırıla bilən gəlir təmin etsə də, ilk kanal yüksək risk daşıyır və gəlirin miqdarı filmin kommersiya uğurundan birbaşa asılıdır. Televiziya satışları isə nisbətən sabit və proqnozlaşdırılandır. Rəqəmsal kanallar, o cümlədən VOD və streaming platformaları, daha geniş auditoriyaya çıxış imkanı yaradır və uzunmüddətli gəlir potensialı təklif edir, lakin bazar sürətlə dəyişdiyindən orta səviyyəli risk daşıyır [Eliashberg et al., 2006; Iordanova, 2012].

Multi-kanallı gəlir strategiyaları film layihələrinin investisiya cəlbediciliyini artırır. Belə yanaşma risklərin diversifikasiyasını təmin edir və fərqli yayım mərhələlərindən sabit gəlir axını əldə etməyə imkan verir. Qlobal təcrübə göstərir ki, həm ənənəvi, həm də rəqəmsal kanalların inteqrasiyası investor üçün daha dayanıqlı və perspektivli gəlir təmin edir [PwC, 2024; European Audiovisual Observatory, 2024].

Bu müqayisəli analizdən belə nəticə çıxır ki, uğurlu film layihələrinin iqtisadi səmərəliliyi yalnız bir gəlir kanalına əsaslanmaqla deyil, kompleks və şaxələndirilmiş gəlir portfeli vasitəsilə təmin olunur.

Azərbaycan kino sənayesi son illərdə həm dövlət dəstəyi, həm də yerli və beynəlxalq investisiyalar sayəsində inkişaf yolundadır. Yerli bazarın ölçüsü və tamaşaçı profili, reklam bazarının məhdudluğu və kinoteatr şəbəkəsinin miqyası film layihələrinin gəlir potensialına birbaşa təsir göstərir. Bu səbəbdən, Azərbaycan kontekstində kinoteatr gəlirləri yüksək risk daşısa da, proqnozlaşdırılan gəlir həcmi beynəlxalq bazara nisbətən daha məhduddur [Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2023].

Dövlət dəstəyi və fondlar film layihələrinin maliyyələşdirilməsində mühüm rol oynayır. İstehsal öncəsi maliyyə yardımı və subsidiyalar layihələrin riskini azaltmaqla, investorlar üçün dolayı cəlbedicilik yaradır. Eyni zamanda, dövlət proqramları yerli kino istehsalının dayanıqlı inkişafına töhfə verir və yerli investorların marağını artırır.

Rəqəmsal distribusiya imkanları isə Azərbaycan bazarında sürətlə genişlənməkdədir. Streaming və VOD platformalarının populyarlığı yerli film istehsalçılarına qlobal auditoriyaya çıxış imkanı təqdim edir və gəlir mənbələrinin şaxələndirilməsinə şərait yaradır. Bu kanallar həm yerli, həm də xarici investorlar üçün əlavə cəlbedicilik təmin edir, çünki gəlir uzunmüddətli və daha proqnozlaşdırıla biləndir [PwC, 2024].

Nəticədə, Azərbaycan kino sənayesində investisiya cəlbediciliyi üçün çoxkanallı gəlir strategiyasının tətbiqi xüsusilə önəmli hesab olunur. Dövlət dəstəyi, rəqəmsal platformalar və yerli bazarın xüsusiyyətləri nəzərə alınmaqla film layihələrinin risklərinin azaldılması və gəlirin sabitləşdirilməsi mümkün olur.

Film layihələrinin iqtisadi səmərəliliyini artırmaq üçün çoxkanallı gəlir modelinin tətbiqi əsas strategiya hesab olunur. Bu yanaşma layihələrin riskini diversifikasiya etməyə və gəlir axınlarını sabitləşdirməyə imkan verir. Həm ənənəvi, həm də rəqəmsal gəlir kanallarının inteqrasiyası investor üçün həm qısa, həm də uzunmüddətli perspektivdə maliyyə cəlbediciliyini artırır. Risklərin diversifikasiyası çərçivəsində investorlar və prodüserlər gəlir modellərini proqnozlaşdırıla bilən və davamlı olan kanallarla balanslaşdırmalıdır. Məsələn, kinoteatr gəlirlərini rəqəmsal yayım və televiziya satışları ilə birləşdirmək riskləri azaltmaqla, sabit gəlir təmin edə bilər [Walls, 2005; Vogel, 2020]. *Product placement* və dövlət dəstəyi kimi aşağı riskli kanallar isə layihənin ilkin maliyyə dayanıqlığını təmin etmək üçün prioritet olaraq istifadə olunmalıdır.

Prodüser və investorlar üçün strateji qərarların dəstəklənməsi məqsədilə maliyyə planlaşdırmasında aşağıdakı tövsiyələr önəm kəsb edir:

1. Gəlir kanallarının sistemli təhlili – hər bir kanalın risk səviyyəsi, gəlirin sabitliyi və potensial cəlbediciliyi qiymətləndirilməlidir.
2. Çoxkanallı strategiyanın qurulması – kinoteatr, rəqəmsal yayım, televiziya və beynəlxalq satışlar kimi kanalların optimal kombinasiyası müəyyən edilməlidir.
3. İnvestisiya risklərinin minimallaşdırılması – diversifikasiya sayəsində uğursuz layihələrin maliyyə itkisi azaldıla bilər.
4. Proqnozlaşdırıla bilən gəlir modellərinin seçimi – uzunmüddətli sabit gəlir təmin edən kanallar layihənin davamlılığını dəstəkləyir.
5. Dövlət dəstəyi və ön maliyyələşmənin effektiv istifadəsi – subsidiyalar və fond dəstəyi layihələrin risklərini azaldaraq investor üçün əlavə cəlbedicilik yaradır.

Beləliklə, film layihələrinin maliyyə idarəçiliyi və investisiya cəlbediciliyi çoxkanallı gəlir strategiyası üzərində qurulduqda, həm prodüserlər, həm də investorlar üçün dayanıqlı və perspektivli nəticələr əldə edilir. Tədqiqat göstərir ki, film layihələrinin gəlir mənbələri kompleks və çoxkanallı struktura malikdir. Hər bir kanalın risk səviyyəsi, gəlirin sabitliyi və investor üçün cəlbediciliyi fərqli olduğundan, layihələrin iqtisadi uğuru yalnız bir gəlir mənbəsinə əsaslanmaqla deyil, müxtəlif kanalların sintezi ilə təmin olunur.

Hibrid və multi-kanallı gəlir strategiyasının tətbiqi film layihələrinin investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə artırır. Bu yanaşma riskləri diversifikasiya edir, sabit gəlir axını təmin edir və həm qısa, həm də uzunmüddətli perspektivdə investor üçün daha dayanıqlı maliyyə nəticələri yaradır. Xüsusilə kinoteatr, rəqəmsal yayım, televiziya satışları və beynəlxalq distribusiya kanallarının optimal kombinasiyası layihənin ümumi kommersiya uğurunu gücləndirir.

Azərbaycan kino sənayesi kontekstində bu yanaşmanın tətbiqi praktik əhəmiyyət kəsb edir. Dövlət dəstəyi, yerli investor maraqları və rəqəmsal distribusiya imkanları film layihələrinin maliyyə

dayanıqlığını artırmaqla, yerli prodüserlər və investorlar üçün əlavə investisiya perspektivləri yaradır. Beləliklə, çoxkanallı gəlir strategiyasının tətbiqi Azərbaycan kino istehsalının davamlı inkişafına və beynəlxalq bazarda rəqabət qabiliyyətinin gücləndirilməsinə töhfə verə bilər.

**Ədəbiyyat siyahısı**


1. Eliashberg, J., Elberse, A., & Leenders, M. (2006). *The motion picture industry: Critical issues in practice, current research, and new research directions.* Marketing Science, 25(6), 638–661.
2. Finney, A. (2015). *The international film business: A market guide beyond Hollywood* (2nd ed.). London: Routledge.
3. Hoskins, C., McFadyen, S., & Finn, A. (2004). *Media economics: Applying economics to new and traditional media.* Thousand Oaks: Sage Publications.
4. Iordanova, D. (2012). *Digital disruption: Cinema moves online.* St Andrews: St Andrews Film Studies.
5. Litman, B. R. (1983). Predicting success of theatrical movies: An empirical study. *Journal of Popular Culture*, 16(4), 159–175.
6. Vogel, H. L. (2020). *Entertainment industry economics: A guide for financial analysis* (10th ed.). Cambridge: Cambridge University Press.
7. Walls, W. D. (2005). Modeling movie success when 'nobody knows anything': Conditional stable-distribution analysis of film returns. *Journal of Cultural Economics*, 29(3), 177-190.
8. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. (2023). *Azərbaycan kino sənayesinin inkişafı üzrə hesabat.* Bakı: Mədəniyyət Nazirliyi.
9. European Audiovisual Observatory. (2024). *Yearbook: Key trends in the European audiovisual sector.* URL: https://www.obs.coe.int (Müraciət tarixi: 15.02.2026)
10. PwC. (2024). *Global entertainment & media outlook 2024-2028.* URL: https://www.pwc.com (Müraciət tarixi: 15.02.2026)


**Сона Джамшидли Ильхам кызы**

## СОПОСТАВЛЕНИЕ ИСТОЧНИКОВ ДОХОДА ОТ КИНОПРОЕКТОВ И ИХ ЗНАЧЕНИЕ КАК ИНВЕСТИЦИЙ

**Резюме**

В статье исследуется структура источников доходов кинопроектов, их уровень риска, стабильность и инвестиционная привлекательность. На фоне цифровизации и трансформации глобального кинорынка проводится сравнительный анализ традиционных каналов, таких как кассовые сборы и телевизионные продажи, и современных каналов, включая VOD и стриминговые платформы. В исследовании систематизированы как локальные, так и международные источники дохода, оценена их эффективность с точки зрения инвестиций. Результаты показывают, что кинопроекты с многоканальной стратегией доходов являются более устойчивыми и перспективными для инвесторов. Полученные выводы могут быть использованы продюсерами и инвесторами для оптимизации финансового планирования.

**Ключевые слова:** кинопроекты, источники дохода, экономика кино, инвестиции, дистрибуция, цифровые платформы

**Sona Jamshidli Ilham gizi**

## COMPARISON OF INCOME SOURCES FROM FILM PROJECTS AND THEIR IMPORTANCE AS INVESTMENTS

**Summary**

The article examines the structure of revenue sources in film projects, their risk levels, stability, and investment attractiveness. In the context of digitalization and the global film market transformation, a comparative analysis of traditional channels, such as box office and television sales, and modern channels, including VOD and streaming platforms, is conducted. Both local and international income sources are systematized, and their investment effectiveness is evaluated. The findings indicate that film projects with a diversified multi-channel revenue strategy are more sustainable and appealing to investors. These results may assist producers and investors in optimizing financial planning for film projects.

**Key words:** film projects, revenue sources, film economics, investment, distribution, digital platforms.

**UOT 78**

**Amil Səlimli Qiyas oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Tələbə**
**amil.salimli.g@admiu.edu.az**

## AŞIQ MUSİQİSİ VƏ XALQ MAHNI YARADICILIĞI

**Xülasə**

Zəngin ənənələrə malik aşıq yaradıcılığından milli musiqi mədəniyyətinin və incəsənətin müxtəlif sahələrində istifadə olunmuşdur. O cümlədən xalq mahnıları sözügedən məsələ ilə bağlı olaraq diqqəti cəlb edir. Məqalədə xalq mahnı yaradıcılığında aşıq havalarının istifadə olunma prinsipi şərti olaraq üç istiqamətdə araşdırılır: 1) Xalq mahnısı adı ilə tanınan aşıq havaları 2) Poetik mətnin adı ilə tanınan aşıq havaları 3) Aşıq havalarının intonasiyasından, melodiyasından və sözlərindən istifadə edilmiş bəzi xalq mahnıları. Çoxsaylı musiqi nümunələri üzərində aparılan müşahidələr nəticəsində belə qənaətə gəlinir ki, aşıq yaradıcılığı güclü potensiala malikdir və zaman-zaman digər janrlara da öz təsirini göstərmişdir.

**Açar sözlər:** aşıq sənəti, aşıq havaları, xalq mahnıları, milli musiqi, poetik mətn, qarşılıqlı sənət təsiri

Xalqımızın ən qədim sənətlərindən biri olan aşıq sənəti əsrlərdir ustaddan-ustada şifahi şəkildə günümüzə qədər gəlib çatmışdır. Aşıq sənəti sinkretik mahiyyətə malik çox mürəkkəb bir sənətdir. Tarixi kökləri çox dərin olan aşıq sənəti əsrlər boyunca bir sıra inkişaf mərhələləri keçmişdir. Aşıq sənətinin özünə məxsus xüsusiyyətləri var. Məsələn; aşıq həm instrumental, həm vokal ifanı bilməli, həmçinin də aktyorluq və rəqs hərəkətlərini bacarmalıdır. Çox qədim dövrdən bu günümüzə qədər aşıq sənəti müxtəlif adlarla tanınmışdır. Məsələn; ozan, uzan, ata, dədə, varsaq və s. Həmçinin aşıq sənəti ümumilikdə türk dünyasının ortaq mədəni sərvətidir. Digər türk ölkələrində müxtəlif adlarla tanınan şifahi ənənəli sənət növləri var ki, onlar genetik qaynaqları baxımından aşıq sənəti ilə eynilik təşkil edir.

Aşıq yaradıcılığından musiqi mədəniyyətinin və incəsənətin müxtəlif qollarında istifadə olunmuşdur. Buna misal olaraq mahnı yaradıcılığını nümunə göstərə bilərik. Beş ay ərzində apardığımız araşdırmalar nəticəsində aşıq havalarının mahnı yaradıcılığında istifadə olunmasını müəyyən xüsusiyyətlərinə görə şərti olaraq 3 qrupa bölmüşük.

**1) Xalq mahnısı adı ilə tanınan aşıq havaları.**

Xalq mahnı yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində mühüm önəmə malikdir. Bir-birindən gözəl xalq mahnılarımız mövcuddur. O mahnılardan biri də "Yaxan düymələ-düymələ" adı ilə yayılan xalq mahnısıdır. Ən gözəl ifaçıları kimi Xan Şuşinski, Baba Mirzəyev və s. ifaçıların adlarını sadalamaq olar. Əslində "Yaxan düymələ-düymələ" xalq mahnısı klassik aşıq havalarından olan "Kərəm dübeytisi" aşıq havasıdır. Bəzi ustadlarımız bu havanı "Kərəm gəraylısı" adlandırmışdır. "Kərəm dübeytisi" baş kökdə ifa olunur və gəraylı şeir formasından istifadə edilir. Müasir dövrümüzdə aşıqlarımız tərəfindən az istifadə olunan havalardan biridir.

Digər məşhur xalq mahnımız "Sarı bülbül" adı ilə tanınır. "Sarı bülbül" xalq mahnısı aşıq musiqisi ilə müqayisədə "Baş dübeyti" havasından götürülüb. Ən məşhur ifaçıları Şövkət Ələkbərova

və Səxavət Məmmədov olmuşdur. “Baş dübeyti” havası baş kökdə ifa olunur və gəraylı şeir növündən istifadə edilir. Ustad aşıqlarımız tərəfindən çox istifadə olunan havalardandır. “Sarı bülbül” xalq mahnısının “Baş dübeyti” aşıq havası ilə bağlılığı haqqında ADMİU-nun dosenti Hafiz Kərimovun “Sarı bülbül xalq mahnısının aşıq yaradıcılığı ilə bağlılığı” adlı məqaləsində ətraflı şəkildə bəhs olunmuşdur [6, 159-165].

“Qaçaq Nəbi” və ya digər adı ilə “Nəbi” xalq mahnısı ən məşhur xalq mahnılarından biridir. Bu xalq mahnısı aşıq musiqisində “Dərbəndi” aşıq havası kimi tanınır. Ən məşhur ifaçıları Ağabala Abdullayev, Xan Şuşinski və s. xanəndələr olmuşdur. “Dərbəndi” havası baş kökdə ifa olunur və qoşma şeir formasından istifadə edilir. Çox geniş yayılmış havalardan biridir.

Digər tanınmış xalq mahnısı isə “Nə qaldı” xalq mahnısıdır. Aşıq havaları ilə müqayisə etdikdə “Baş müxəmməs” aşıq havasının musiqisi üzərində qurulmuşdur. Sadəcə olaraq “Baş müxəmməs” havasında müxəmməs şeiri oxunduğu halda “Nə qaldı” xalq mahnısının sözləri qoşmadan ibarətdir. “Baş müxəmməs” baş kökdə ifa edilir və müxəmməs şeir növündən istifadə olunur. Aşıqlarımız tərəfindən çox geniş istifadə edilir. Ən məşhur ifaçılarından biri də Aşıq Əkbər Cəfərov olmuşdur.

“Şərəbanı” xalq mahnısı ən məşhur xalq mahnılarından biri olmuşdur. Aşıq havaları ilə müqayisədə “Mərdanoğlu” və ya “Çıldır gülü” aşıq havası adı ilə tanınır. “Şərəbanı” xalq mahnısının ifaçılarından biri də müasir dövrümüzdə Təyyar Bayramovdur. Baş kökdə ifa olunur və qoşma şeir formasından istifadə edilir. Müasir dövrdə aşıqlarımız tərəfindən az istifadə olunur.

Digər məşhur xalq mahnılarından biri də “Salam verək” xalq mahnısıdır. Bu mahnı Şirvan aşıq mühitində geniş yayılmış Şirvan havalarından olan “Əhməd gözəlləməsi” havasıdır. Sözləri Aşıq Əhməd Rüstəmova məxsusdur. Orta kökdə ifa olunur və qoşma şeir formasından istifadə edilir. Çox geniş istifadə olunan aşıq havasıdır. Ən gözəl ifaçılarından biri də Aşıq Məmmədağa Babayev olmuşdur.

“Ay tərlan, dur sallan” xalq mahnısı məşhur xalq mahnılarından biridir. Bu xalq mahnısı aşıq musiqisində “Qarabağ qaytağısı” adı ilə tanınır. Karifey sənətkarımız Şövkət Ələkbərovanın ifasında çox sevilən bu mahnıya müasir dövrümüzdə Aşıq Samirə və Aşıq Əli duet şəkilində tez-tez müraciət edirlər. “Qarabağ qaytağısı” havası şah kökdə ifa olunur və qoşma şeir formasından istifadə edilir.

Digər tanınmış xalq mahnısı da “Yalvara-yalvara” xalq mahnısı olmuşdur. Bu xalq mahnısı aşıq yaradıcılığında “Xanmusa gözəlləməsi” adlanır. Baş kökdə ifa olunur və gəraylı şeir formasından istifadə edilir. Çox geniş istifadə olunan aşıq havasıdır. Ən gözəl ifaçılarından biri də Aşıq Xanmusa Musayev olmuşdur.

Məşhur xalq mahnısı olan “Apardı Sellər Saranı” aşıq musiqisində “Xançobanı” aşıq havası kimi tanınır. “Xançobanı” havası baş kökdə ifa olunur. Adətən aşıq havalarında bəndlər dörd misradan ibarət olur, bu mahnıda isə hər bənd beş misradan ibarətdir. Bu bir fərqlilik təşkil etdiyinə görə mahnının bir bəndinə nəzər salaq.

Gedin, deyin Xan çobana,
Gəlməsin bu il Muğana,
Muğan batıb nahaq qana...
Apardı sellər Saranı,
Bir alagözlü balanı.

“Apardı Sellər Saranı” xalq mahnısının ən gözəl ifaçılarından biri də Qədir Rüstəmov olmuşdur [5].

Digər bir məşhur xalq mahnısı “Çalpapaq” xalq mahnısıdır. Bu mahnı əslində “Çalpapaq” aşıq havasıdır. “Çalpapaq” havası daha çox Çıldır-Ağbaba aşıq mühitində ifa olunmuşdur. Baş kökdə ifa edilir və qoşma şeir formasından istifadə olunur. “Çalpapaq” havası Aşıq İsgəndər Ağbabalının ifasında günümüzə qədər gəlib çatmışdır.

**2) Poetik mətnin adı ilə tanınan aşıq havaları.**

Bir qrup havalar var ki, onlar poetik formanın adı ilə məşhur olmuşlar. Məşhur aşıq havalarımızdan olan “Azaflı dübeytisi” və ya “Zülfüqar dübeytisi” aşıq havası “Qoca qartal” adı ilə tanınır. Havanın musiqisi “Qoca qartal” şeiri ilə o qədər gözəl sintez olunur ki, bu da həmin sözlərin daha çox istifadə olunmasına gətirib çıxarır. Baş kökdə ifa olunur və gəraylı şeir növündən istifadə olunur. Ustadlarımız tərəfindən çox geniş istifadə edilir. Gözəl ifaçılarından biri də Aşıq Mikayıl Azaflı olmuşdur. Borçalı aşıq mühitinin tanınmış nümayəndəsi Aşıq Kamandar Əfəndiyev də o qədər gözəl ifa etmişdir ki, Aşıq Mikayıl Azaflı bu mövzuda ona yüksək qiymət vermişdir.

“Şirvan gözəlləməsi” aşıq mahnısı uzun müddət “Bala nərgiz” adı ilə tanınmışdır. Lakin son zamanlarda Aşıq Əhliman Rəhimovun “Naz eyləyir” şeiri o qədər populyarlıq qazanmışdır ki, o da bir növ “Bala Nərgiz” adını üstələyərək bu mahnın digər bir variant adına çevrilmişdir. Baş kökdə ifa olunur və gəraylı şeir formasından istifadə olunur. Aşıqlarımız arasında da geniş yayılmışdır. Ən gözəl ifaçısı Aşıq Şakir Hacıyev olmuşdur [1].

“Azərbaycan” adı ilə tanınmış mahnı məşhur “Paşa köçdü” aşıq havasıdır. Orta kökdə ifa olunur və gəraylı şeir formasından istifadə edilir. Ustad aşıqlarımız tərəfindən çox geniş istifadə olunur. Ən gözəl ifaçılarından biri də Aşıq Əkbər Cəfərov olmuşdur. Həmçinin də “Azərbaycan” sözlərindən başqa “Paşa köçdü” havasına digər sözlər də oxunula bilər və buna misal olaraq Aşıq Kamandar Əfəndiyev ifasını misal göstərmək olar. “Paşa köçdü” aşıq havası adətən qrup şəkilində ifa edilir.

Məşhur Azərbaycan şairi Səməd Vurğunun “Dağlar” şeiri “Baş dübeyti” havasında çox istifadə olunur və bir növ bu havanın variant bir adına çevrilmişdir. Aşıq İmran Həsənov, Aşıq Əkbər Cəfərov ən gözəl ifaçılarındandır. Eyni zamanda, Aşıq Əmrah Gülməmədov və Aşıq Kamandar Əfəndiyevin duetini də nümunə göstərə bilərik.

Böyük ustadımız Aşıq Ələsgərin məşhur “Sarı köynək” şeiri isə “Orta şəşəngi” havasında çox istifadə olunur və havanın öz adını üstələmişdir. “Orta şəşəngi” havası şah kökdə ifa olunur və qoşma şeir formasından istifadə edilir. Ustad aşıqlarımız tərəfindən çox geniş istifadə olunur. Ən gözəl ifaçıları Reyhan Rəcəbova, Zaur Rzayev, aşıqlardan isə Aşıq Barat Əhmədoğlu olmuşdur.

“İncə gülü” aşıq havasında Azərbaycan şairi Məmməd Arazın “Bəlkə bu yerlərə bir də gəlmədim” misrası ilə başlayan şeiri olduqca çox istifadə olunur. Xüsusilə də bu sözlərin hecalara bölünmə prinsipi havanın vokal melodiyası ilə hədsiz uyğunluq təşkil etdiyinə görə və bu sözlərə tez-tez müraciət olunur. “İncə gülü” aşıq havası orta kökdə ifa edilir və qoşma şeir növündən istifadə olunur. Çox geniş istifadə olunan havadır. Aşıq Avdı Qaymaqlı tərəfindən yaradılan bu havanın ən yaxşı ifaçıları Aşıq Kamandar Əfəndiyev, Aşıq Xanlar Məhərrəmov olmuşdur. Müasir dövrümüzdə Aşıq Samirə Əliyevanın, İlham Aslanbəylinin, Şəhriyar Qaraxanlının ifasında çox sevilir.

Böyük ustadımız Mikayıl Azaflının məşhur şeiri olan “Ağarmayın ay saçlarım amandır” sözləri “Naxçıvani” aşıq havasında çox geniş istifadə olunur və bu sözlər havanın variant bir adına çevrilmişdir. El məclislərində aşığa sifariş verərkən “Ağarmayın ağ saçlarım amandır” adı ilə sifariş verərlərmiş. “Naxçıvani” aşıq havası orta kökdə ifa edilir və qoşma şeir formasından istifadə olunur.

Aşıqlarımız tərəfindən çox istifadə edilir. Aşıq Əkbər Cəfərov, Aşıq Əlixan Niftəliyev ən gözəl ifaçılarından olmuşdur.

“Baş şəşəngi” aşıq havası böyük ustadımız Aşıq Mirzə Bilalın “Nazı yandırdı-yandırdı” sözləri ilə tanınır. Bu havaya müxtəlif sözlər də oxunula bilər, amma xüsusilə “Nazı yandırdı-yandırdı” sözləri havanın xarakterini özündə o qədər cəmləşdirir ki, bu da havanın öz adı ilə deyil, sözlər ilə tanınmasını şərtləndirir. Şah kökdə ifa edilir və gəraylı şeir formasından istifadə olunur. Çox istifadə olunan havalardan biridir. Ən gözəl ifaçıları Aşıq Əli Tapdıqoğlu və gəncikən dünyasını dəyişmiş mərhum Aşıq İslam Rzaoğlu olmuşdur [3].

“Aran gözəlləməsi” aşıq havası Oqtay Xalloğlunun sözləri olan “Layla de layla” adı ilə də tanınır. Baş kökdə ifa olunur və qoşma şeir növündən istifadə olunur. Ən gözəl ifaçılar Aşıq Əkbər Cəfərov, Aşıq Xanlar Məhərrəmov olmuşdur.

Şirvan aşıq mühitinin görkəmli sənətkarı Aşıq Şakir Hacıyevin “Kəndimiz” sözləri ilə tanınan aşıq mahnısının əsl adı “Şakir gözəlləməsidir”. Müasir dövrümüzdə bu sözlər havada o qədər istifadə olunmuşdur ki, bu da havanın adını üstələmişdir. Baş kökdə ifa edilir və qoşma şeir formasından istifadə olunur. Müasir dövrdə aşıqlarımız tərəfindən el şənliklərində çox istifadə olunan havadır. Ən yaxşı ifaçıları Aşıq Şakir Hacıyev, Aşıq Mahmud Ələsgəroğlu olmuşdur.

Məşhur “Kərəm gözəlləməsi” aşıq havası Azərbaycan şairi Hüseyn Arifin “Ay Mirzə dayı” sözləri ilə də tanınır. Baş kökdə ifa edilir və qoşma şeir növündən istifadə olunur. Aşıqlarımız tərəfindən ən çox ifa olunan havalardandır. Tanınmış ustadlarımız olan Aşıq Kamandar Əfəndiyev və Aşıq Əkbər Cəfərov bu havanın yaxşı ifaçılarından olmuşdur.

“Hacalı gözəlləməsi” aşıq mahnısı Azərbaycan şairi, dramurtq Nəbi Xəzrinin müəllifi olduğu “Nar ağacı nar çiçəyi” sözləri ilə tanınır. Bu sözlərlə havanın musiqisi arasında o qədər güclü sintez yaranmışdır ki, bir növ havanın variant adına çevrilmişdir. Baş kökdə ifa olunur və qoşma şeir formasından istifadə edilir. Çox geniş yayılan aşıq mahnısıdır. Ən gözəl ifaçıları aşıqlardan Aşıq Hacal Hacıyev olmuşdur, müasir dövrümüzdə Aşıq Əvəzxan Xankişiyev, Aşıq Əhliman Rəhimov, Aşıq Samirə Əliyeva, xanəndələrdən isə Abgül Mirzəliyevdir.

“Zil şəşəngi” aşıq havası sözləri tanınmış ustadımız Aşıq Şakir Hacıyevə aid olan “Nə bağ bildi, nə də bağban” mahnısı ilə tanınır. Şah kökdə ifa olunur və gəraylı şeir növündən istifadə edilir. Bu mahnı Aşıq Şakir Hacıyevin ifasında populyarlıq qazanmışdır, günümüzdə isə Aşıq Əvəzxan Xankişiyev ən yaxşı ifaçılarından hesab olunur.

Musiqisi və sözləri böyük ustadımız Aşıq Hüseyn Cavana məxsus olan “Süzməyi kimdən öyrəndin” və ya digər adı ilə “Maral kimi” mahnısı əslində “Ordubadi” aşıq havasıdır. Bu havaya başqa sözlər də oxunula bilər, amma sözügedən şeir ilə havanın intonasiyaları arasında olan uyğunluq özünü o qədər qabarıq formada büruzə verir ki, bu da həmin sözlərdən daha çox istifadə olunmasına gətirib çıxardır. Orta kökdə ifa edilir və gəraylı şeir növündən istifadə olunur. Ən gözəl ifaçıları Aşıq Əvəz Hacıyev və Aşıq Əvəzxan Xankişiyev olmuşdur.

**3) Aşıq havalarının intonasiyasından, melodiyasından və sözlərindən istifadə edilmiş bəzi xalq mahnıları.**

Sözləri böyük ustadımız Aşıq Ələsgərə məxsus olan “Niyə döndü” xalq mahnısında “Bayatı” şikəstə aşıq havasının intonasiyalarından istifadə olunub. Bayatı şikəstə orta kökdə ifa olunur və gəraylı şeir növündən istifadə edilir. “Niyə döndü” xalq mahnısının ən gözəl ifaçılarından biri də Şövkət Ələkbərova olmuşdur.

Mütəxəsislərin fikrincə bu gün zərbi muğam adı ilə bilinən musiqi nümunələrinin hər biri əvvəl aşıq musiqisində mövcud olmuş, daha sonra aşıq yaradıcılığından xanəndəliyə keçmişdir. Xüsusilə bu gün “Mani” və ya “Osmanı” kimi tanınan zərbi muğam aşıq musiqisində “Heydəri” və ya “Məmmədhüseyni” adlı məşhur klassik qədim bir havadır. “Heydəri” (Məmmədhüseyni) aşıq havası şah kökdə ifa edilir və gəraylı şeir növündən istifadə olunur. Böyük ustadımız Aşıq Əkbər Cəfərov bu havanın ən yaxşı ifaçılarından biri olmuşdur [2].

Məşhur Azərbaycan şairi Səməd Vurğunun “Dağlar” şeirinə Azərbaycan bəstəkarı Qəmbər Hüseynlinin yazdığı musiqi həm instrumental, həm də vokal baxımından “Baş dübeyti” aşıq havasına əsaslanır. Dilbər İbrahimova bu mahnını oxuyan ən yaxşı ifaçılardan biridir.

Sözləri böyük ustadımız Aşıq Alıya aid olan “Olan oldu” mahnısının musiqisi Qəmbər Hüseynliyə məxsusdur. Bu mahnı ilə görkəmli sənətkarımız Aşıq Kamandar Əfəndiyevin oxuduğu “Kamandarı” aşıq havası arasında olduqca yaxın oxşarlıqlar mövcuddur. “Kamandarı” aşıq havası açıq kökdə ifa olunur və gəraylı şeir növündən istifadə edilir. “Olan oldu” mahnısının ən gözəl ifaçılarından biri də Zeynab Xanlarova olmuşdur [4].

Müşahidələrimizə əsasən sözləri Aşıq Qurbana məxsus olan “Nazik əllər” mahnısının vokal partiyasıda “Oynaq şəşəngi” aşıq havasının vokal melodiyasına istinad edilir. “Oynaq şəşəngi” aşıq havası açıq kökdə ifa edilir və gəraylı şeir növündən istifadə olunur. Əbülfət Əliyev “Nazik əllər” mahnısının ən yaxşı ifaçılarından biri olmuşdur.

Türkiyədə geniş yayılan və Azərbaycan xanəndələrinin də repertuarında mövcud olan “Gizir oğlu Mustafa bəy” aşıq mahnısı isə klassik aşıq havası olan “Cəngi koroğlu” ilə demək olar ki eyniyyət təşkil edir. “Cəngi koroğlu” havası şah kökdə ifa edilir və gəraylı şeir növündən istifadə olunur. Aşıq İmran Həsənov və Aşıq Əkbər Cəfərov ən yaxşı ifaçıları olmuşdur.

Beləliklə, nəticə olaraq qeyd edə bilərik ki, bir çox aşıq musiqi nümunələri var ki, onların bir qismi xalq mahnısı adı ilə tanınır, digər qismi poetik formanın adı ilə daha çox yayılmış aşıq havalarıdır. Başqa bir qisim mahnılar da vardır ki, musiqi intonasiya baxımından həmin mahnılar ilə aşıq havaları arasında bir sıra uyğunluqlar müşahidə edilir. Bu da o deməkdir ki, aşıq musiqisi zəngin potensiala malikdir və digər janrlara öz təsirini göstərmişdir.

## Ədəbiyyat siyahısı

*İnterner resursları*

**1.** Aşıq Əhliman – Naz Eyləyir. https://youtu.be/YbgMJePeuIs?si=pJuj4xW6WMa5a3D1

**2.** Aşıq Əkbər Cəfərov – “Heydəri” Aşıq Havası. https://youtu.be/2vfOYfkpUOI?si=-NEj1EardZhoIUwv

**3.** Aşıq Əli - Nazı yandırdı. https://youtu.be/G5vqtz-IM84?si=gyvqdYqd42xsQv42

**4.** Aşıq Kamandar Borçalı – Telli Həsən dastanı. https://youtu.be/9LoO5Wn3I0g?si=enBZta2UCwQaa2TQ

**5.** Qədir Rüstəmov – Apardı sellər Saranı. https://youtu.be/OY8Z9CewK4Y?si=gzeRF2eZHY7dGNlV

*Azərbaycan dilində*

**6.** Kərimov H.V. “Sarı bülbül” xalq mahnısının aşıq yaradıcılığı ilə bağlılığı. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XXII Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı, 2023

**Амил Салимли Гияс оглу**

**АШУГСКАЯ МУЗЫКА И НАРОДНОЕ ПЕСЕННОЕ ТВОРЧЕСТВО**

**Резюме**

Ашугское (ашыгское) творчество, обладающее богатыми традициями, нашло применение в различных сферах национальной музыкальной культуры и искусства. В частности, в этом контексте особое внимание привлекают народные песни. В статье рассматривается принцип использования ашугских напевов в народном песенном творчестве условно по трём направлениям:

1. Ашугские напевы, известные под названием народных песен;
2. Ашугские напевы, известные под названием поэтического текста;
3. Некоторые народные песни, в которых использованы интонации, мелодика и слова ашугских напевов.

В результате наблюдений, проведённых на основе многочисленных музыкальных примеров, делается вывод о том, что ашугское творчество обладает мощным потенциалом и со временем оказало влияние и на другие жанры.

**Ключевые слова:** ашугское искусство, ашугские напевы, народные песни, национальная музыка, поэтический текст, взаимное влияние искусств.

**Salimli Amil Giyas oghlu**

**ASHIG MUSIC AND FOLK SONG CREATION**

**Summary**

Ashig or ashig creativity, which has rich traditions, has been used in various fields of national musical culture and art. In particular, folk songs attract attention in this regard. In the article the principles of using ashiq melodies in folk song creation are studied in three ways: 1) Ashig melodies known as folk songs; 2) Ashig melodies known as poetic texts; 3) Some folk songs that use the intonation, melody and lyrics from the ashig melodies. As a result of the observations on numerous musical samples, it is concluded that ashig creativity has strong potential and has influenced on other genres from time to time.

**Key words:** ashig art, ashig melodies, folk songs, national music, poetic text, mutual art influence.

UOT 792.023
ORCID: https://orcid.org/0009-0004-4323-4808

Şəlalə Aslanova Şahin qızı
Azərbaycan Dövlət Mədəniyyət və incəsənət Universteti
Magistrant
selale.aslanova@icloud.com

# TEXNOLOJİ YENİLİKLƏRİN TEATR DEKORASİYASINA TƏSİRİ

**Xülasə**

Müasir dövrdə texnoloji yeniliklər teatr dekorasiya sənətinin inkişafında mühüm rol oynayır və səhnə tərtibatına yeni estetik və funksional imkanlar qazandırır. Ənənəvi dekorasiya vasitələri ilə müqayisədə, rəqəmsal texnologiyalar səhnə məkanının daha dinamik, çevik və interaktiv qurulmasına şərait yaradır. Xüsusilə, LED ekranlar, proyeksiya texnologiyaları, 3D mapping, virtual və artırılmış reallıq elementləri teatr tamaşalarında vizual təsirin güclənməsinə səbəb olur.

Texnoloji yeniliklər sayəsində dekorasiya elementləri daha az fiziki materialla, lakin daha zəngin vizual effektlərlə təqdim olunur. Bu isə həm iqtisadi baxımdan səmərəliliyi artırır, həm də səhnə dəyişikliklərini sürətləndirir. Eyni zamanda, kompüter qrafikası və avtomatlaşdırılmış idarəetmə sistemləri rejissor və rəssamların yaradıcılıq imkanlarını genişləndirərək səhnədə daha mürəkkəb və realist mühitlərin qurulmasına imkan verir.

Bununla yanaşı, texnologiyanın tətbiqi teatrın tamaşaçı ilə qarşılıqlı əlaqəsini də yeni səviyyəyə qaldırır. İnteraktiv dekorasiyalar və rəqəmsal effektlər tamaşaçının emosional iştirakını gücləndirir və tamaşanı daha immersiv edir. Lakin bu proses ənənəvi teatr estetikasının qorunması və texnologiyanın məqsədəuyğun istifadəsi kimi məsələləri də aktuallaşdırır.

**Açar sözlər:** Teatr, yeniliklər, səhnə, texnologiyalar, dekorasiya, səhnə, multimedia.

## Giriş

Müasir dövrdə incəsənətin bütün sahələrində olduğu kimi teatr sənətində də köklü dəyişikliklər baş verməkdədir. Bu dəyişikliklərin əsas hərəkətverici qüvvələrindən biri texnoloji yeniliklərdir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı teatrın yalnız məzmununa deyil, eyni zamanda onun vizual təqdimatına, xüsusilə dekorasiya sənətinə ciddi təsir göstərmişdir. Ənənəvi səhnə tərtibatı formalarından fərqli olaraq, müasir teatr dekorasiyası artıq statik elementlərlə məhdudlaşmır, əksinə dinamik, interaktiv və çoxfunksiyalı bir mühitə çevrilir.

Teatr dekorasiyası tamaşanın ideya-məzmununun tamaşaçıya çatdırılmasında mühüm rol oynayan əsas komponentlərdən biridir. Səhnədə yaradılan mühit, istifadə olunan rənglər, işıqlandırma və vizual effektlər tamaşaçının emosional qavrayışına birbaşa təsir edir. Bu baxımdan texnologiyanın tətbiqi dekorasiya sənətinə yeni ifadə vasitələri qazandırmışdır. LED panellər, rəqəmsal proyeksiyalar, 3D mapping texnologiyaları, virtual və artırılmış reallıq elementləri teatr səhnəsində daha realistik və eyni zamanda fantaziya dolu mühitlərin yaradılmasına imkan verir.

Eyni zamanda, texnoloji yeniliklər dekorasiya prosesinin təşkilində də mühüm dəyişikliklərə səbəb olmuşdur. Əvvəllər böyük həcmli fiziki konstruksiyalar tələb edən səhnə quruluşları bu gün rəqəmsal vasitələrlə daha çevik və səmərəli şəkildə həyata keçirilir. Bu isə həm maliyyə baxımından

qənaət yaradır, həm də tamaşaların hazırlanma müddətini azaldır. Bundan əlavə, avtomatlaşdırılmış idarəetmə sistemləri səhnə dəyişikliklərini sürətləndirərək tamaşanın ritmini və dinamikasını qorumağa kömək edir.

Texnologiyanın teatr dekorasiyasına təsiri yalnız texniki aspektlərlə məhdudlaşmır, eyni zamanda estetik və konseptual yanaşmaları da dəyişir. Müasir səhnə tərtibatında minimalizm, simvolizm və abstrakt yanaşmalar texnoloji vasitələrlə daha təsirli şəkildə təqdim olunur. Bu isə rejissor və səhnə rəssamlarının yaradıcılıq imkanlarını genişləndirir və teatr sənətini yeni mərhələyə yüksəldir.

Beləliklə, texnoloji yeniliklər teatr dekorasiyasının inkişafında əsas amillərdən biri kimi çıxış edərək həm onun funksional imkanlarını artırır, həm də tamaşanın estetik dəyərini yüksəldir. Bu mövzunun araşdırılması müasir teatr sənətinin transformasiya proseslərini anlamaq və gələcək inkişaf istiqamətlərini müəyyən etmək baxımından xüsusi aktuallıq kəsb edir.

**Əsas hissə**

Texnoloji yeniliklərin teatr dekorasiyasına təsirini təhlil edərkən bu prosesin həm texniki, həm estetik, həm də iqtisadi aspektlər üzrə çoxşaxəli xarakter daşıdığı aydın şəkildə müşahidə olunur. Müasir teatr mühiti artıq yalnız fiziki dekorasiya elementləri ilə məhdudlaşmır; rəqəmsal texnologiyalar səhnə məkanını transformasiya edərək onu dinamik və dəyişkən vizual platformaya çevirir [1, s. 210].

İlk növbədə, texniki aspektdən yanaşdıqda, LED ekranlar, proyeksiya sistemləri və 3D mapping texnologiyaları səhnə tərtibatında inqilabi dəyişikliklər yaratmışdır. Bu texnologiyalar vasitəsilə dekorasiya real vaxt rejimində dəyişdirilə bilir və bu da səhnədə hadisələrin daha çevik və təsirli təqdimatına imkan verir. Məsələn, eyni səhnə bir neçə saniyə ərzində fərqli məkanlara – şəhər mənzərəsinə, təbiət fonuna və ya abstrakt vizual mühitə çevrilə bilir. Bu isə tamaşanın ritmini pozmadan müxtəlif səhnə keçidlərini təmin edir [2, s.185].

Estetik baxımdan texnologiya teatr dekorasiyasına yeni vizual dil gətirmişdir. Ənənəvi dekorasiya üsullarında istifadə olunan statik elementlər müasir dövrdə interaktiv və hərəkətli vizual effektlərlə əvəz olunur. İşıq, rəng və hərəkətin sintezi tamaşaçıda daha güclü emosional təsir yaradır. Xüsusilə virtual və artırılmış reallıq texnologiyalarının tətbiqi tamaşaçını səhnə prosesinə daha çox cəlb edir və immersiv təcrübə formalaşdırır. Bu, teatrın sadəcə izlənilən deyil, eyni zamanda “yaşanan” bir sənət növünə çevrilməsinə səbəb olur [3,s.58].

İqtisadi aspektdə isə texnologiyanın tətbiqi həm müsbət, həm də müəyyən çətinliklərlə müşayiət olunur. Bir tərəfdən, rəqəmsal dekorasiya fiziki materiallara olan tələbatı azaldaraq uzunmüddətli perspektivdə xərclərin optimallaşdırılmasına şərait yaradır. Digər tərəfdən isə ilkin investisiya xərcləri, texniki avadanlıqların alınması və mütəxəssislərin hazırlanması əlavə maliyyə resursları tələb edir. Bu səbəbdən texnoloji dekorasiya əsasən böyük və maliyyə baxımından güclü teatr müəssisələrində daha geniş tətbiq olunur [4, s.79].

Bununla yanaşı, texnologiyanın geniş istifadəsi bəzi estetik və konseptual risklər də yaradır. Həddindən artıq texniki effektlərdən istifadə tamaşanın bədii məzmununu kölgədə qoya və diqqəti əsas ideyadan yayındıra bilər. Bu baxımdan texnologiyanın məqsədəuyğun və balanslı istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Səhnə tərtibatında texnologiya əsas məqsəd deyil, bədii ideyanın ifadə vasitəsi kimi çıxış etməlidir [5, s.115].

**Cədvəl 1. Texnoloji yeniliklərin teatr dekorasiyasına təsir istiqamətləri**

| Texnologiya növü | Tətbiq sahəsi | Üstünlükləri | Çatışmazlıqları | Təsir istiqaməti |
|---|---|---|---|---|
| LED ekranlar | Səhnə fonu, vizual effektlər | Yüksək keyfiyyətli görüntü, dinamik dəyişikliklər | Yüksək ilkin xərc | Vizual zənginlik artır |
| 3D Mapping | Səhnə transformasiyası | Realistik effektlər, məkanın dəyişdirilməsi | Texniki mürəkkəblik | Realizm və kreativlik artır |
| Proyeksiya texnologiyası | Fon görüntüləri, animasiyalar | Çevik istifadə, müxtəlif səhnələr yaratmaq imkanı | İşıqlandırmadan asılılıq | Səhnə elastikliyi artır |
| Virtual reallıq (VR) | İnteraktiv səhnə mühiti | İmmersiv təcrübə, tamaşaçı cəlbediciliyi | Bahalı avadanlıq | Tamaşaçı iştirakı artır |
| Artırılmış reallıq (AR) | Canlı səhnə ilə inteqrasiya | Real və virtual mühitin sintezi | Texniki uyğunlaşma çətinliyi | İnteraktivlik artır |
| Avtomatlaşdırılmış sistemlər | Səhnə dəyişiklikləri, mexanika | Sürətli və dəqiq idarəetmə | Texniki nasazlıq riski | Effektivlik və sürət artır |
| Kompüter qrafikası | Dekorasiya dizaynı və modelləşdirmə | Əvvəlcədən vizuallaşdırma, planlaşdırma imkanı | Proqram təminatına ehtiyac | Dizayn keyfiyyəti artır |

**Mənbə:** Carlson, M. (2014). *Theatre: A Very Short Introduction*. Oxford University Press. 150 s.

Cədvəl 1 texnoloji yeniliklərin teatr dekorasiyasına təsirini sistemli şəkildə göstərir və bu təsiri bir neçə əsas meyar üzrə təhlil etməyə imkan verir. Cədvəldə hər bir texnologiya növü ayrıca qiymətləndirilmiş, onun tətbiq sahəsi, üstünlükləri, çatışmazlıqları və ümumi təsir istiqaməti göstərilmişdir [6, s. 150].

İlk olaraq, LED ekranlar və proyeksiya texnologiyaları səhnənin vizual zənginliyini artıran əsas vasitələr kimi çıxış edir. Bu texnologiyalar dekorasiyanı daha dinamik edir və səhnə dəyişikliklərini sürətləndirir. Onların əsas üstünlüyü yüksək keyfiyyətli görüntü təqdim etməsi və müxtəlif məkanların asanlıqla simulyasiya olunmasıdır. Lakin bu sistemlərin qurulması üçün yüksək maliyyə və texniki təminat tələb olunur [7, s. 800].

3D mapping texnologiyası isə daha mürəkkəb vizual effektlərin yaradılmasına imkan verir. Bu texnologiya vasitəsilə səhnə elementləri “canlandırılır” və tamaşaçıda real məkan illüziyası formalaşdırılır. Bu, xüsusilə müasir eksperimental teatrda geniş istifadə olunur və səhnə dizaynına kreativ yanaşmanı gücləndirir [8, s. 230].

Virtual reallıq (VR) və artırılmış reallıq (AR) texnologiyaları teatr dekorasiyasına interaktivlik gətirir. Bu texnologiyalar tamaşaçının yalnız müşahidəçi deyil, eyni zamanda iştirakçı kimi prosesə qoşulmasına şərait yaradır. Nəticədə teatr tamaşası daha immersiv və emosional təsirli olur. Bununla belə, bu texnologiyaların tətbiqi yüksək texniki bilik və bahalı avadanlıq tələb edir[9,s.280].

Avtomatlaşdırılmış sistemlər səhnə dəyişikliklərinin operativ və dəqiq həyata keçirilməsində mühüm rol oynayır. Bu sistemlər insan faktorundan asılılığı azaldır və tamaşanın texniki baxımdan daha stabil təşkilinə kömək edir. Eyni zamanda, kompüter qrafikası dekorasiya dizaynının əvvəlcədən planlaşdırılması və vizuallaşdırılması üçün geniş imkanlar yaradır. Bu isə səhvlərin minimuma endirilməsinə və yaradıcı prosesin daha effektiv qurulmasına şərait yaradır [10, s. 320].

Cədvəl 1 göstərir ki, texnoloji yeniliklər teatr dekorasiyasını həm funksional, həm də estetik baxımdan inkişaf etdirir. Lakin bu texnologiyaların tətbiqi zamanı maliyyə, texniki bilik və balans məsələləri nəzərə alınmalıdır. Beləliklə, texnologiya teatr dekorasiyasında əsas məqsəd deyil, bədii ideyanın daha təsirli təqdim olunması üçün vasitə kimi çıxış etməlidir [11, s. 240].

**Nəticə**

Aparılan təhlillər göstərir ki, texnoloji yeniliklər teatr dekorasiyasının inkişafında mühüm və transformativ rol oynayır. Müasir texnologiyaların tətbiqi nəticəsində səhnə tərtibatı ənənəvi çərçivələrdən çıxaraq daha dinamik, interaktiv və çoxölçülü xarakter almışdır. LED ekranlar, proyeksiya sistemləri, 3D mapping, virtual və artırılmış reallıq kimi vasitələr teatrın vizual imkanlarını genişləndirərək tamaşaların estetik səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltmişdir.
Bununla yanaşı, texnologiyanın tətbiqi yalnız vizual effektlərlə məhdudlaşmır, həm də dekorasiya prosesinin təşkilinə, idarə olunmasına və optimallaşdırılmasına müsbət təsir göstərir. Avtomatlaşdırılmış sistemlər və rəqəmsal dizayn proqramları səhnə quruluşunun daha dəqiq planlaşdırılmasına və effektiv icrasına şərait yaradır. Bu isə həm vaxt, həm də resurs baxımından səmərəliliyi artırır.

Lakin texnoloji yeniliklərin tətbiqi müəyyən çətinlikləri də özündə ehtiva edir. Yüksək maliyyə xərcləri, texniki bilik tələbləri və avadanlıqların idarə olunmasında yaranan çətinliklər bu prosesin geniş miqyasda tətbiqini məhdudlaşdıra bilər. Eyni zamanda, texnologiyanın həddindən artıq istifadəsi tamaşanın bədii məzmununu kölgədə qoya və teatrın klassik estetik dəyərlərindən uzaqlaşmasına səbəb ola bilər.

Beləliklə, müasir teatr dekorasiyasında əsas məqsəd texnologiyadan maksimum istifadə etmək deyil, onu bədii ideyanın daha təsirli ifadə vasitəsinə çevirməkdir. Texnologiya ilə yaradıcılığın düzgün balanslaşdırılması teatr sənətinin gələcək inkişafında əsas istiqamətlərdən biri kimi çıxış edir. Nəticə etibarilə, texnoloji yeniliklər teatr dekorasiyasını yeni mərhələyə yüksəldərək onun həm funksional, həm də estetik potensialını genişləndirir və müasir teatrın ayrılmaz tərkib hissəsinə çevrilir.

**Ədəbiyyat siyahisi**

1. Əliyev, R. (2018). *Teatr sənətində səhnə tərtibatının əsasları*. Bakı: Elm nəşriyyatı, 210 s.
2. Məmmədov, A. (2020). *Müasir Azərbaycan teatrında dekorasiya və texnologiya*. Bakı: Təhsil nəşriyyatı, 185 s.
3. Quliyev, S. (2019). Teatr sənətində innovativ yanaşmalar və səhnə dizaynı. *Mədəniyyət və incəsənət jurnalı*, 12(3), 45–58.
4. Həsənov, E. (2021). Rəqəmsal texnologiyaların teatr sənətinə təsiri. *Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri*, 2, 67–79.

5. Rzayeva, N. (2022). Səhnə dekorasiyasında müasir texnologiyaların tətbiqi. *İncəsənət və Mədəniyyət Problemləri*, 4(18), 102–115.
6. Carlson, M. (2014). *Theatre: A Very Short Introduction*. Oxford University Press, 150 p.
7. Dixon, S. (2007). *Digital Performance: A History of New Media in Theater, Dance, Performance Art, and Installation*. MIT Press, 800 p.
8. Giannachi, G. (2004). *Virtual Theatres: An Introduction*. Routledge, 230 p.
9. McKinney, J., & Butterworth, P. (2009). *The Cambridge Introduction to Scenography*. Cambridge University Press, 280 p.
10. Pavis, P. (2013). *Contemporary Mise en Scène: Staging Theatre Today*. Routledge, 320 p.
11. Reaney, M. (2009). *Digital Culture and Theatre: From Simulation to Embeddedness*. Palgrave Macmillan, 240 p.

**Шалала Асланова Шахин кызы**

## ВЛИЯНИЕ ТЕХНОЛОГИЧЕСКИХ ИННОВАЦИЙ НА ТЕАТРАЛЬНОЕ ОФОРМЛЕНИЕ

### Резюме

В современную эпоху технологические инновации играют важную роль в развитии искусства театрального оформления и предоставляют новые эстетические и функциональные возможности для сценографии. По сравнению с традиционными средствами декорирования, цифровые технологии создают условия для более динамичного, гибкого и интерактивного конструирования сценического пространства. В частности, светодиодные экраны, проекционные технологии, 3D-мэппинг, элементы виртуальной и дополненной реальности приводят к усилению визуального воздействия в театральных постановках.

Благодаря технологическим инновациям, элементы декорирования представлены с меньшим количеством физического материала, но с более богатыми визуальными эффектами. Это повышает как экономическую эффективность, так и ускоряет смену декораций. В то же время компьютерная графика и автоматизированные системы управления расширяют творческие возможности режиссеров и артистов, позволяя им создавать более сложные и реалистичные сценические пространства.

При этом применение технологий также выводит взаимодействие театра со зрителями на новый уровень. Интерактивные декорации и цифровые эффекты усиливают эмоциональное вовлечение зрителей и делают представление более захватывающим. Однако этот процесс также поднимает такие вопросы, как сохранение традиционной театральной эстетики и надлежащее использование технологий.

**Ключевые слова:** театр, инновации, сцена, технологии, декорации, сцена, мультимедиа.

**Shalala Aslanova Shahin gizi**

## THE IMPACT OF TECHNOLOGICAL INNOVATION ON THEATRE DECORATION

### Summary

In the modern era, technological innovations play an important role in the development of the art of theater decoration and provide new aesthetic and functional opportunities for stage design. Compared to traditional decoration tools, digital technologies create conditions for a more dynamic,

flexible and interactive construction of the stage space. In particular, LED screens, projection technologies, 3D mapping, virtual and augmented reality elements lead to a strengthening of the visual impact in theater performances.

Thanks to technological innovations, decoration elements are presented with less physical material, but with richer visual effects. This both increases economic efficiency and accelerates scene changes. At the same time, computer graphics and automated control systems expand the creative possibilities of directors and artists, allowing them to create more complex and realistic environments on stage.

At the same time, the application of technology also raises the interaction of the theater with the audience to a new level. Interactive decorations and digital effects enhance the emotional participation of the audience and make the performance more immersive. However, this process also raises issues such as the preservation of traditional theatrical aesthetics and the appropriate use of technology.

**Key words:** theater, innovations, stage, technologies, scenery, stage, multimedia.

**UOT 7.01.03**

**Günay Məmmədova Adil qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**mamedowagunay95@gmail.com**

# DEKORATİV-TƏTBİQİ SƏNƏTDƏ ŞƏHƏR OBRAZI: XALÇAÇILIQ, QOBELEN, KERAMİKA VƏ VİTRAJ NÜMUNƏLƏRİNDƏ URBAN MOTİVLƏRİN ESTETİK VƏ SEMANTİK TƏHLİLİ

**Xülasə**

Bu məqalədə dekorativ və tətbiqi sənətlərdə şəhər obrazının formalaşması, onun estetik və semantik xüsusiyyətləri araşdırılır. Xalçaçılıq, qobelen, keramika və vitrajlarda şəhər motivlərinin təsvirinə xüsusi diqqət yetirilir. Şəhər obrazı təkcə memarlıq panoraması deyil, həm də mədəni kimliyin və kollektiv yaddaşın vizual ifadəsi kimi çıxış edir. Məqalədə materialdan, stilizə edilmiş ornamentlərdən və ritmlərdən, eləcə də tarixi və müasir yanaşmalardan asılı olaraq şəhər motivlərinin təsvirindəki fərqlər təhlil edilir. Xalça və qobelenlər poetik stilizasiyanı, keramika –səth üzərində hekayəni, vitraj – rəng və işığın dinamikasını nümayiş etdirir. Tədqiqat nəzəri və praktik aspektləri birləşdirərək dekorativ və tətbiqi sənətlərdə şəhər estetikasının hərtərəfli anlaşılmasını təmin edir.

**Açar sözlər:** şəhər obrazı, dekorativ-tətbiqi sənət, xalçaçılıq, keramika, vitraj, urban motiv, mədəni identiklik.

Dekorativ-tətbiqi sənət tarixi kontekstində şəhər obrazı yalnız təsviri bir motiv kimi deyil, həm də mədəni yaddaşın, tarixi təcrübənin və sosial identikliyin vizual formaya çevrilmiş ifadəsi kimi çıxış edir. Şəhər yalnız bir məkan deyil, eyni zamanda insanın kollektiv həyat tərzinin, memarlıq zövqünün, iqtisadi və siyasi dəyişikliklərin, eləcə də estetik təfəkkürün məcmu simvoludur. Bu baxımdan dekorativ-tətbiqi sənətdə şəhər təsviri təkcə "binaların rəsmi" kimi yox, urban mədəniyyətin kodlaşdırılmış dili kimi oxunmalıdır [Ağayev və b., 2025, s. 23].

Urbanizasiya nəzəriyyəsi kontekstində şəhər yalnız fiziki infrastruktur deyil, eyni zamanda sosial münasibətlərin qurulduğu "mədəni səhnə" kimi anlaşılır. Bu yanaşma dekorativ-tətbiqi sənət üçün xüsusilə vacibdir, çünki burada təsvir olunan şəhər əksərən bir məkanın reallığını deyil, onun estetik idealını və ya mədəni kodunu təqdim edir. Şəhərin ornamentləşdirilməsi, müəyyən formaların vurğulanması, bəzi elementlərin isə bilərəkdən sadələşdirilməsi sənətkarın şəhərə münasibətini və onun ideoloji-estetik mövqeyini göstərir [Carpet art as a source of inspiration, 2023, s. 4].

Kevin Linç şəhərin interpretasiyasını araşdırarkən "şəhər imici" anlayışını irəli sürmüş və qeyd etmişdir ki, insan şəhəri təkcə fiziki obyektlər kimi deyil, həm də xatirələr, simvollar və tanış vizual işarələr vasitəsilə dərk edir. Bu fikir dekorativ-tətbiqi sənətdə şəhər obrazının əsas xüsusiyyətini izah edir, şəhər motivləri çox vaxt "tanınan işarələr sistemi" üzərində qurulur. Məsələn, Qız qalası, İçərişəhər divarları, minarələr, dar küçələr, körpülər, günbəzlər və bazar təsvirləri Azərbaycan dekorativ sənətində urban məkana aid ən tipik simvolik elementlərdir.

Şəhər obrazının bədii formalaşmasında semiotika da mühüm rol oynayır. Umberto Eko sənət əsərini “açıq mətn” kimi xarakterizə edərək, onun müxtəlif oxunuşlara imkan verdiyini vurğulayır. Dekorativ-tətbiqi sənətdə şəhər obrazı da eyni prinsipə tabedir, bir xalçada təsvir olunan Bakı panoraması həm tarixi mirasın simvolu, həm də modern urban kimliyin ifadəsi kimi qəbul oluna bilər. Deməli, şəhər motivi yalnız vizual element deyil, həm də mənalar sistemidir [Patterns in applied art of the Uzbek folk, 2023, s. 12].

Dekorativ-tətbiqi sənətdə şəhər motivləri çox zaman ornamental sistemlə sıx bağlı olur. Burada şəhər təsviri realist perspektiv qaydalarla deyil, daha çox dekorativ kompozisiya prinsipləri ilə qurulur. Ornamentin əsas funksiyası səthin ritmini yaratmaq və vizual harmoniyanı təmin etməkdir. Bu baxımdan şəhər elementləri –binalar, qüllələr, küçələr, pəncərə ritmləri və dam xətləri dekorativ ritmin bir hissəsinə çevrilir [Ağayev və b., 2025, s. 34].

Xalça və qobelen kimi tekstil sənətlərində şəhər motivi əsasən səthin bütövlüyünə tabe olur. Burada memarlıq formaları sadələşdirilir, həndəsi konturlar artırılır və şəhər mənzərəsi ornamentin ümumi ritminə uyğunlaşdırılır. Bu cür stilizasiya dekorativ sənətin ən fundamental prinsiplərindən biridir. Çünki dekorativ sənətdə təsvir həmişə “göstərmək” üçün deyil, “bəzəmək və simvolizə etmək” üçün mövcuddur.

Keramikada şəhər obrazı daha çox rəng və faktura vasitəsilə ifadə edilir. Keramika səthi bəzən şəhər panoramasını daşıyan “vizual lövhə” rolunu oynayır. Burada memarlıq təsviri xətti qrafika, şirəaltı boyama və ya relyef üsulu ilə verilir [Patterns in applied art of the Uzbek folk, 2023, s.13]. Vitraj sənətində isə şəhər motivləri işıq və rəngin dinamikası ilə yeni estetik keyfiyyət qazanır. Vitrajda şəhər yalnız forma deyil, eyni zamanda rəngli işığın yaratdığı atmosferdir [Islamic geometric patterns & stained glass, 2026, s.10].

Azərbaycan xalça sənəti tarixən daha çox bitki, zoomorf və həndəsi ornamentlər üzərində qurulsa da, zamanla şəhər motivləri də xalça kompozisiyalarına daxil olmuşdur. Xüsusilə XX əsrdən etibarən şəhər mənzərələrinin, memarlıq abidələrinin və urban panoramaların xalça üzərində təsvirinə rast gəlinir. Bu, həm sənətkarların mövzu dairəsinin genişlənməsi, həm də şəhər mədəniyyətinin milli identiklikdə artan rolunun göstəricisidir [Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2019, s. 12].

Xalçaçılıqda şəhər motivi adətən mərkəzi medalyon sisteminə uyğunlaşdırılır və ya bordyürlərdə dekorativ element kimi istifadə olunur. Burada şəhər bəzən “ideal məkan” kimi təsvir edilir, divarlarla əhatələnmiş şəhər, qüllələr, məscid minarələri, bazar səhnələri və karvansaralar xalça kompozisiyasında həm tarixi yaddaşı, həm də milli mədəni kodları təmsil edir. Xalçanın səthi strukturuna görə perspektiv və həcm illüziyası minimum səviyyədə olur, buna görə də şəhər təsviri əsasən frontal və simvolik təqdimatla verilir.

Xalça ornamentlərinin semantik yükü ilə bağlı araşdırmalarda qeyd edilir ki, Azərbaycan xalçasında hər bir motivin öz simvolik mənası və ritual kökü mövcuddur. Şəhər motivləri isə bu ənənəvi ornament sisteminə yeni məna qatları əlavə edir. Belə xalçalar artıq yalnız məişət əşyası deyil, həm də urban identikliyin və tarixi irsin dekorativ sənət dilində ifadəsinə çevrilir. Praktik baxımdan xalçaçılıqda şəhər obrazı daha çox xətti və geometrik stilizasiya ilə yaradılır. Məsələn, Qız qalasının silueti və ya Şuşanın qala divarları xalçada qrafik kontur şəklində verilir və ornament ritminin bir elementi kimi qəbul edilir. Burada əsas məsələ şəhərin realist təsvirindən çox, onun “tanınan simvol” kimi təqdim edilməsidir [Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2019, s. 14].

Qobelen sənəti dekorativ-tətbiqi sənətdə şəhər obrazının daha sərbəst və təsviri imkanlarla təqdim olunduğu sahələrdən biridir. Çünki qobelen texnikası rəng keçidlərini, tonal harmoniyanı və kompozisiya dinamizmini xalçaya nisbətən daha rahat şəkildə yaratmağa imkan verir. Bu səbəbdən qobelenlərdə şəhər motivləri bəzən poetik, bəzən isə ekspressiv atmosfer yaradan kompozisiyalarla təqdim olunur [Assmann, 2011, s. 38].

Qobelenlərdə şəhər obrazı çox vaxt urban həyatın ritmini və emosional mühitini əks etdirir. Küçələr, körpülər, meydanlar, binaların pəncərə ritmləri və işıqlandırma elementləri qobelen kompozisiyasında bədii stilizasiyaya yaxınlaşdırılır. Bu sənətdə şəhər həm real məkan, həm də “ruhi vəziyyət” metaforası kimi qəbul edilir. Məsələn, gecə şəhəri mövzusu qobelenlərdə işıq və qaranlığın qarşıdurması, rənglərin kontrastı və faktura oyunları vasitəsilə emosional təsir yaradır.

Keramika dekorativ-tətbiqi sənətdə şəhər motivlərinin xüsusi vizual imkanlarla təqdim olunduğu sahələrdən biridir. Keramikanın səthi həm rəng, həm də faktura baxımından çoxfunksiyalı olduğuna görə burada şəhər obrazı şirəaltı boyama, qrafik kontur, relyef ornament, hətta mozaikaya bənzər strukturlar kimi müxtəlif üsullarla təsvir edilə bilər. Keramika məmulatlarında şəhər motivləri çox zaman tarixi memarlıq abidələrinin siluetləri, qədim küçə səhnələri, karvansara təsvirləri və ya modern şəhər panoraması şəklində verilir. Burada şəhər motivi keramikanın utilitar funksiyası ilə də əlaqələndirilir. Məsələn, dekorativ boşqab üzərində Bakı təsviri həm məişət predmetidir, həm də şəhərin vizual kimliyini təbliğ edən sənət nümunəsidir [Patterns in applied art of the Uzbek folk, 2023, s.15].

Vitraj sənəti dekorativ-tətbiqi sənətdə şəhər motivlərinin ən dramatik və effektiv təqdim olunduğu sahələrdən hesab edilə bilər. Çünki vitraj yalnız forma və rənglə deyil, həm də işıqla işləyir. Şəhər obrazı vitrajda artıq statik təsvir deyil, gün işığına görə dəyişən canlı vizual atmosferdir. Vitraj kompozisiyalarında şəhər motivləri çox vaxt monumental memarlıq elementləri, qüllələr, kilsə və məscid siluetləri, pəncərə ritmləri və urban ornamentlər vasitəsilə təqdim olunur. Burada şəhər obrazı dini məkanla əlaqələndirilə bilər və ya modern urban həyatın simvoluna çevrilə bilər. Rəngli şüşə parçalarının birləşməsi şəhər siluetinin qrafik konturunu daha da vurğulayır və onu bir növ simvolik “urban xəritə” halına gətirir.

Dekorativ-tətbiqi sənətdə şəhər obrazının əsas semantik funksiyalarından biri tarixi yaddaşı və mədəni identikliyi vizual şəkildə sabitləşdirməkdir. Şəhər motivləri sənət əsərində yalnız dekorativ funksiya daşımır, eyni zamanda bir cəmiyyətin özünü təqdim etmə üsuluna çevrilir. Şəhər bəzən “vətən obrazı”, bəzən “tarixin izi”, bəzən isə “müasirliyin simvolu” kimi çıxış edir [Carpet art as a source of inspiration, 2023, s. 8].

Azərbaycan kontekstində şəhər motivlərinin xüsusi əhəmiyyəti vardır. Bakı, Şuşa, Naxçıvan, Gəncə kimi şəhərlər yalnız coğrafi məkan deyil, milli yaddaşın mərkəzləri hesab olunur. Buna görə də dekorativ sənətdə bu şəhərlərin təsviri həm estetik, həm də ideoloji məna daşıyır. Xüsusilə Qarabağ bölgəsinə aid şəhər obrazları, məsələn, Şuşa motivi çox zaman nostalji və milli kimlik məfkurəsi ilə bağlı emosional çalarla müşayiət olunur.

Dekorativ-tətbiqi sənətdə şəhər obrazı müasir sənətşünaslıq üçün həm nəzəri, həm də praktik baxımdan aktual tədqiqat mövzusudur. Şəhər motivləri xalçaçılıq, qobelen, keramika və vitraj kimi sahələrdə fərqli formalarda ifadə olunsa da, onların ümumi funksiyası urban məkanın mədəni simvola çevrilməsidir. Şəhər dekorativ sənətdə sadəcə memarlıq panoraması deyil, tarixi yaddaşın, kollektiv identikliyin və sosial-mədəni dinamikanın vizual ifadəsidir.

Beləliklə, dekorativ-tətbiqi sənətdə şəhər obrazı urban estetikanın maddi bədii formaya çevrilməsi kimi qiymətləndirilə bilər. Şəhər motivlərinin bu müxtəlif sənət sahələrində təzahürü göstərir ki, urban məkan təkcə həyatın təşkil olunduğu mühit deyil, həm də sənətin semantik və estetik dilinə çevrilmiş kompleks bir simvoldur.

**Ədəbiyyat siyahısı**

1. Ağayev, E. R., Məmmədov, F. B., Ələkbərova, S. M., Seyfullayeva, A. T., Sadiyeva, A.A., Mahmudova, R.N., Babaxanova, S.M. (2025). *Dekorativ-tətbiqi sənət tarixi (qədim dünyadan müasir dövrə)* (ADPU dərs vəsaiti). Zəngəzurda Çap Evi. 232 səh.
2. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. (2019). *Dekorativ tətbiqi sənətin müasir inkişaf istiqamətləri* (S.Ə. Kərimova, A. M. Əzizov). Bakı.
3. Assmann, J. (2011). *Cultural memory and early civilization: Writing, remembrance, and political imagination.* Cambridge University Press.
4. *Carpet art as a source of inspiration in urban landscape design.* (2023). *COMU Journal of Agriculture Faculty.*
5. *Islamic geometric patterns & stained glass.* (2026). Online art historical resource.
6. *Patterns in applied art of the Uzbek folk: Semantics of applied decorative motifs.* (2023). *European Journal of Arts,* 1(23).

**Gunay Mammadova** Adil gizi

**THE IMAGE OF THE CITY IN DECORATIVE-APPLIED ART: AESTHETIC AND SEMANTIC ANALYSIS OF URBAN MOTIFS ON THE EXAMPLES OF CARPET WEAVING, TAPESTRY, CERAMICS AND STAINED GLASS**

**Summary**

This article examines the formation of the city image in decorative-applied art, focusing on its aesthetic and semantic characteristics. Special attention is given to urban motifs in carpet weaving, tapestry, ceramics, and stained glass. The city image functions not only as an architectural panorama but also as a visual expression of cultural identity and collective memory. The study analyzes material-specific differences, stylized ornamentation and rhythm, as well as historical and contemporary approaches. Carpets and tapestries demonstrate poetic stylization, ceramics provide surface storytelling, and stained glass emphasizes color and light dynamics. The research combines theoretical and practical aspects, offering a comprehensive understanding of urban aesthetics in decorative-applied art.

**Key words:** city image, decorative-applied art, carpet weaving, ceramics, stained glass, urban motifs, cultural identity.

**Гюнай Мамедова** Адиль кызы

**ОБРАЗ ГОРОДА В ДЕКОРАТИВНО-ПРИКЛАДНОМ ИСКУССТВЕ: ЭСТЕТИЧЕСКИЙ И СЕМАНТИЧЕСКИЙ АНАЛИЗ ГОРОДСКИХ МОТИВОВ НА ПРИМЕРАХ КОВРОТКАЧЕСТВА, ГОБЕЛЕНОВ, КЕРАМИКИ И ВИТРАЖЕЙ**

**Резюме**

В данной статье рассматривается формирование образа города в декоративно-прикладном искусстве, его эстетические и семантические особенности. Особое внимание уделяется изображениям городских мотивов в ковроткачестве, гобелене, керамике и витраже. Образ города выступает не только как архитектурная панорама, но и как визуальное выражение культурной идентичности и коллективной памяти. В статье анализируются различия в изображении городских мотивов в зависимости от материала, стилизованные орнаменты и ритмы, а также исторические и современные подходы. Ковры и гобелены показывают поэтическую стилизацию, керамика – повествование на поверхности, витраж – динамику цвета и света. Исследование сочетает теоретический и практический аспекты, предоставляя комплексное понимание городской эстетики в декоративно-прикладном искусстве.

**Ключевые слова:** образ города, декоративно-прикладное искусство, ковроткачество, керамика, витраж, городские мотивы, культурная идентичность.

**UOT 75.**

**Ülkər Ələkbərova Səbuhi qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**elekberovaulker9@gmail.com**

## NAZİM BƏYKİŞİYEV YARADICILIĞINDA ŞƏHƏR MÖVZUSU

**Xülasə**

Bu məruzə Nazim Bəykişiyevin yaradıcılığında Bakı şəhərinin bədii obrazının formalaşması məsələsinə həsr olunmuşdur. Tədqiqatda rəssamın Abşeron mühitinə bağlılığı, onun əsərlərində koloristik həll, kompozisiya quruluşu və perspektiv xüsusiyyətləri təhlil edilir. Xüsusilə "Bakıda küçə", "İçəri şəhər", "Ağ şəhər" və "Köhnə küçə" əsərləri üzərində aparılan təhlil göstərir ki, müəllif şəhər mühitini realist təsvirlə yanaşı, daha çox poetik və simvolik şəkildə təqdim edir. Rəssamın mirvari çalarlı rənglərə üstünlük verməsi, yumşaq işıq-kölgə keçidləri və şərtiləşdirilmiş formalar vasitəsilə sakit, lirik və harmonik atmosfer yaratdığı müəyyən edilir. Nəticə etibarilə, Bakı şəhəri rəssamın əsərlərində yalnız coğrafi məkan kimi deyil, həm də daxili harmoniya və estetik duyumun ifadəsi kimi ümumiləşdirilmiş bədii obraz səviyyəsinə yüksəlir.

**Açar sözlər:** Bakı, Nazim Bəykişiyev, kompozisiya həlli, lirik-estetik ifadə, şəhər mənzərəsi

Bakı şəhərinin təsvirlərinə müraciət edən və bu istiqamətdə özünəməxsus yaradıcılıq üslubu formalaşdıran görkəmli Azərbaycan rəssamlarından biri də Nazim Bəykişiyevdir. O, 29 iyun 1948-ci ildə Bakının Novxanı kəndində anadan olmuş, rəssamlıq təhsilini "Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi"ndə almışdır. Rəssamın yaradıcılığına nəzər yetirdikdə, onun Bakı şəhərinə, eləcə də Abşeron yarımadasına və kənd mühitinə xüsusi bağlılıq nümayiş etdirdiyi aydın şəkildə müşahidə olunur. Xüsusilə, bu bağlılıq rəssamın şəxsi fikirlərində də öz əksini tapır. O, müsahibələrinin birində qeyd etmişdir: "Mən Abşeronu sevirəm, bu mənim ilham mənbəyimdir: burada yayda ağaclar toz təbəqəsi ilə örtülür, hər şey isti duman içində üzür və yandırıcı günəşdən solur. Abşeronun koloriti bir qədər asketik, quru və sönük çalarlıdır" [Матвеева, А.]. Bu sitatdan da göründüyü kimi, Abşeron mühitinin özünəməxsus koloriti rəssamın bədii düşüncəsinə və təsvir vasitələrinə birbaşa təsir göstərmişdir. Rəssamın yaradıcılığının səciyyəvi xüsusiyyətləri ilə bağlı tədqiqatlarda belə bir fikir irəli sürülmüşdür: "Yetkinlik, daxili nizam, saf ruh, şəxsiyyətin iç dünyası və ətraf mühitlə harmoniyası səciyyəvi keyfiyyətlər kimi yaradıcılığında da öz əksini tapır" [Nizamiqızı, H., 2023, s. 7]. Bu yanaşma Nazim Bəykişiyevin bədii dünyagörüşünü xarakterizə edən əsas istiqamətləri müəyyənləşdirməyə imkan verir. Həqiqətən də qeyd olunan xüsusiyyətlər rəssamın rəngkarlıq nümunələrində aydın şəkildə hiss olunur və onun əsərlərinin emosional-estetik təsir gücünü artırır. Xüsusilə, daxili harmoniya və özünüdərk hissi rəssamın yaradıcılığında aparıcı xətt kimi çıxış edir. Bu baxımdan, onun əsərlərində müşahidə olunan sakitlik, tarazlıq və bütövlük təsiri təsadüfi deyil, əksinə, müəllifin daxili dünyasının bədii ifadəsi kimi qiymətləndirilə bilər. Professor Ziyadxan Əliyev də Nazim Bəykişiyevin yaradıcılığını təhlil edərkən "Zərif boyaların lirik-fəlsəfi tutumu" adlı məqaləsində qeyd edir: "Rəssamın səksəninci illərdə yaratdığı mənzərələrin məna-məzmun tutumunu düşündürücülük və duyğulandırıcılıq, fəlsəfi qayə və rəmzi-məcazi ifadə tərzi zənginləşdirdiyini deməliyik. Bütün bunların müasir tamaşaçısını sakit seyrçilikdən çıxarıb, onları

təsvir olunanlarla dialoqa dəvət etməsi də kifayət qədər görünən və yaxşı cəhətdir" [Əliyev, Z., 2015, s. 24]. Burada vurğulanan xüsusiyyətlər yalnız səksəninci illərlə məhdudlaşmır. Hesab etmək olar ki, bu keyfiyyətlər ümumilikdə rəssamın yaradıcılıq prinsipinin əsasını təşkil edir və onun rəngkarlıq sənətində formalaşdırdığı fərdi üslubun səciyyəvi cəhətləri kimi çıxış edir. Nazim Bəykişiyevin yaradıcılığında diqqət çəkən digər əsas xüsusiyyətlərdən biri parlaq və kəskin rəng tonlarından daha çox, sakitlik və durğunluq hissi yaradan, eləcə də mirvari çalarlı rənglərdən geniş istifadə etməsidir. Bu xüsusiyyət rəssamın Bakı şəhərinə həsr etdiyi əsərlərdə daha qabarıq və sistemli şəkildə özünü büruzə verir. Belə ki, "Bakıda küçə" (2006), "İçəri şəhər" (2006), "Ağ şəhər" (2006), "Köhnə küçə" (2006) kimi əsərlərdə bu yanaşma xüsusi bədii-estetik məna kəsb edir. "Bakıda küçə" əsərində rəssam Bakının memarlıq mühitini əsasən açıq, xüsusilə ağ rəng çalarları vasitəsilə təqdim etmişdir. Burada yalnız binaların deyil, ağac budaqlarının da ağ rəngdə təsvir olunması kompozisiyada ümumi vizual vahidlik yaradır. Eyni zamanda, qırmızı, sarı və mavi kimi rənglərin istifadəsi əsərə sakit, lakin ifadəli koloristik çalar əlavə edir. Ağ rəngin üstünlük təşkil etməsi isə kompozisiyada müəyyən dərəcədə soyuqluq və məsafə hissinin formalaşmasına səbəb olur. "İçəri şəhər" əsərində isə rəssam fərqli bədii yanaşma nümayiş etdirir. Bu əsərdə artıq ağ rəngin üstünlüyü arxa plana keçir, əvəzində müxtəlif parlaq rənglərdən istifadə edilir. Rəssam binaları kubist-ekspressionist yanaşma çərçivəsində təqdim edərək onları real təsvir prinsiplərindən uzaqlaşdırmışdır. Nəticədə, memarlıq elementləri daha çox rəngli mozaikanı xatırladan, bir-birinə sıx şəkildə yerləşdirilmiş kompozisiya kimi təqdim olunur. Bu sıxlıq, müəyyən mənada, İçərişəhər mühitində insanların bir-biri ilə bağlılığını və sosial münasibətlərin yaxınlığını simvolik şəkildə ifadə edir. Əsərdə diqqət çəkən mühüm elementlərdən biri də səma hissəsində təsvir olunmuş ağ dairədir. Bu dairə kompozisiyanın ümumi quruluşunu tarazlaşdıran və vizual mərkəz yaradan əhəmiyyətli detal kimi çıxış edir. Onun günəş və ya ay olmasının konkret şəkildə müəyyən edilməməsi isə əsərə müəyyən mənada "zamansızlıq" xüsusiyyəti qazandırır və təsvirin semantik məkanını daha da genişləndirir. Eyni zamanda, rəssam 2006-cı ildə "İçəri şəhər" mövzusuna yenidən müraciət edərək eyni adlı digər bir mənzərə yaratmışdır. Əgər əvvəlki qeyd olunan "İçəri şəhər" əsərində daha çox sıxlıq, dinamika və bir-birinə qarışmış məkan enerjisi hiss olunurdusa, bu ikinci təsvirdə əksinə, sakitlik, incəlik və yaddaş xarakterli, yuxuvari bir atmosfer ön plana çıxır. Burada memarlıq elementləri olan binalar daha incə, laylı və bir qədər şəffaf təsir bağışlayacaq şəkildə təqdim olunmuşdur. Bu baxımdan demək olar ki, rəssam bu əsərdə İçərişəhərin real görüntüsünü deyil, daha çox onun yaddaşda qalan poetik və xəyalvari obrazını canlandırmağa çalışmışdır. Kolorit həllinə gəldikdə isə, açıq çəhrayı, sarı və yumşaq mavi tonların üstünlük təşkil etdiyi müşahidə olunur. Bu rənglərin istifadəsi kompozisiyada sanki səhər dumanı və ya axşam işığı içərisindən süzülərək gələn bir atmosfer yaradır və əsərə xüsusi lirizm bəxş edir. Kompozisiya quruluşunda da müəyyən dəyişikliklər nəzərə çarpır. Belə ki, binaların təsvirində kəskin diaqonal xətlərdən istifadə minimuma endirilmiş, əvəzində yumşaq əyri xətlər və üst-üstə düşən düzbucaqlı formalar üstünlük təşkil etmişdir. Bu yanaşma ümumi vizual təsiri daha sakit və axıcı edir. Rənglərin plan üzrə paylanması da diqqətəlayiqdir: ön planda daha isti tonlardan istifadə olunduğu halda, arxa planda solğun və nisbətən soyuq rənglərə üstünlük verilmişdir ki, bu da əsərdə hava perspektivinin formalaşmasına xidmət edir. Nəticədə, şəhər təsviri tamaşaçıya eyni anda həm yaxın, həm də uzaq kimi təqdim olunur. Digər təsvirlər sırasına aid olan kətan üzərində yağlı boya texnikasında işlənmiş "Ağ şəhər" əsərinin kompozisiyasına nəzər yetirdikdə, dar və bir-birinə yaxın yerləşən hündürmərtəbəli binaların təsviri diqqəti cəlb edir. Bu binaların aşağı mərtəbələrində qırmızı-ağ və mavi-ağ zolaqlı, ehtimal ki, mağaza və ya kafe funksiyası daşıyan məkanlar təsvir

olunmuşdur. Mövzu baxımından əsər sakit və müəyyən dərəcədə nostalji ovqatlı şəhər həyatını əks etdirir. "Ağ şəhər" adı ilk baxışda Bakının tarixi hissəsini və ya müasir "Ağ şəhər" rayonunu xatırlatsa da, rəssamın təqdim etdiyi vizual həll daha çox Avropa şəhərlərinin küçə və memarlıq mühitinə xas romantik atmosferi yada salır. Bu isə əsərin semantik qatını genişləndirərək onu konkret məkandan daha ümumi, idealizə olunmuş şəhər obrazına yaxınlaşdırır. Kompozisiya baxımından əsərdə bir nöqtəli perspektivdən (mərkəzi perspektivdən) istifadə olunmuşdur. Küçə xətti dərinliyə doğru istiqamətlənir və binaların kənarları vahid yoxa çıxma nöqtəsində birləşir. Lakin bu perspektiv sərt və dəqiqliklə deyil, daha yumşaldılmış, qismən şərtiləşdirilmiş formada təqdim olunmuşdur ki, bu da əsərə müəyyən bədii rahatlıq və axıcılıq verir. Kompozisiyada şaquli xətlər (binalar, ağaclar) və üfüqi xətlər (küçə, yol səthi) arasında qurulan balans ümumi sabitlik hissini gücləndirir. Eyni zamanda, təsvir olunan elementlərin nə həddindən artıq sadələşdirilməsi, nə də mürəkkəbləşdirilməsi izləyicinin qavrayışını yormur; əksinə, baxışı təbii şəkildə kompozisiyanın dərinliyinə doğru istiqamətləndirir. Bu xüsusiyyət əsərin həm estetik, həm də emosional təsir gücünü artıran əsas amillərdən biri kimi çıxış edir. Eləcə də Nazim Bəykişiyevin "Köhnə küçə" əsərinə nəzər yetirdikdə, "Ağ şəhər" əsərindən fərqli olaraq burada daha çox romantik və melanxolik bir ab-havanın hakim olduğu müşahidə olunur. Bununla yanaşı, hər iki əsər arasında müəyyən oxşarlıqlar da mövcuddur. Belə ki, "Köhnə küçə" əsərində də binaların aşağı mərtəbələrində qırmızı-ağ zolaqlı, kafe və ya mağaza funksiyası daşıdığı ehtimal edilən məkanlar təsvir edilmişdir. Kompozisiyada sol və sağ tərəflərdə yerləşən günbəzli qüllələr diqqəti cəlb edir və bu elementlər əsərə Avropa memarlıq mühitinə xas estetik təsir qazandırır. Eyni zamanda, əsərdə sərt kölgələrin müşahidə olunmaması, əksinə, yumşaq və sisli işıq-rəng münasibətlərinin üstünlük təşkil etməsi onun emosional təsir gücünü artırır. Bu baxımdan əsər Klod Mone yaradıcılığını xatırladır. Belə ki, Monenin yaradıcılıq xüsusiyyətlərində qeyd olunur ki: "Onun əsərlərində dəqiqlik və insanı yoran cansıxıcı səliqə yox idi, rəsmlərdə diqqəti ilk cəlb edən rənglərin sayrışmasıdır. Məsələn, əgər Moneyə kimi bütün rəssamlar yarpağı yaşıl boya ilə çəkirdilərsə, o yarpağı sarı və göy rəngi qarışdıraraq çəkirdi" [Tarana Q., 2018]. Məhz Nazim Bəykişiyevin yaradıcılığında da bu cür yanaşmanın izlərini görmək mümkündür. Rəssam detallı və akademik dəqiqliyə üstünlük verməkdənsə, daha çox ümumiləşdirilmiş və şərtiləşdirilmiş təsvir vasitələrinə müraciət edir. Bu xüsusilə ağacların işlənməsində özünü göstərir; burada detallı realizmdən uzaqlaşaraq, fərqli koloristik həllər (məsələn, budaqların ağ rəngdə verilməsi) tətbiq olunur. Perspektiv quruluşuna gəldikdə isə, "Köhnə küçə" əsərində mərkəzi perspektivdən istifadə olunsa da, bu, klassik formadan müəyyən qədər fərqlənir. Belə ki, kompozisiyada dərinlik xətti tamaşaçının baxışını birbaşa mərkəzə deyil, sola doğru yönəldir və həmin istiqamətdə yerləşən qülləyə aparır. Qüllələrin hündürlüyü isə kompozisiyanın vertikal təsirini gücləndirərək ümumi təsvirə əlavə dinamika və maraq qatır. Ümumiləşdirilmiş nəticə olaraq qeyd etmək olar ki, Nazim Bəykişiyevin yaratdığı şəhər obrazlarında kompozisiya quruluşu baxımından hava perspektivi, eləcə də bir nöqtəli (mərkəzi) perspektiv üstünlük təşkil edir. Rəng həllində isə solğun və bir qədər bulanıq tonlarla yanaşı, isti və soyuq rənglərin qarşılıqlı vəhdətdə istifadəsi əsərlərin bədii-estetik təsirini formalaşdıran əsas amillərdən biri kimi çıxış edir. Qeyd olunan təsvirlərdən əlavə, Nazim Bəykişiyevin yaradıcılığı kifayət qədər geniş və mövzu baxımından zəngindir. Belə ki, rəssam "Novxanı" (1983), "Keşlədə axşam" (1987), "Ovdana gedən yol" (2007), "Novxanı bağlarından Sumqayıtın görünüşü" (2007) kimi əsərlərin, eləcə də Abşeron mövzusuna həsr etdiyi "Abşeron motivi" (1982), "Abşeronda qış" (2006), "Abşeron" (2006), "Abşeronda palma" (2006) və bu kimi bir çox digər əsərlərin müəllifidir. Nəticə etibarilə demək olar ki, Nazim

Bəykişiyevin yaradıcılığında Bakı şəhərinin obrazı daha çox sakit, lirik və harmonik çalarlarla təqdim olunur. Rəssam şəhər mühitini mirvari tonlara yaxın rəng həlli, yumşaq işıq-kölgə keçidləri və müəyyən dərəcədə şərtiləşdirilmiş kompozisiya quruluşu vasitəsilə təsvir edir. Bu yanaşma real məkanın birbaşa təsvirindən çox, onun yaddaşda və duyğularda formalaşan poetik obraz kimi təqdim olunmasına xidmət edir. Beləliklə, rəssamın əsərlərində Bakı yalnız coğrafi məkan kimi deyil, eyni zamanda daxili harmoniya mənəvi dərinliyin bədii ifadəsi kimi ümumiləşdirilmiş obraz səviyyəsinə yüksəlir.

**Ədəbiyyat siyahısı:**

1. Матвеева, А. Назим Бейкишиев: гены памяти. URL: https://baku-media.ru/publications/lichnost/nazim-beykishiev-geny-pamyati/ (Müraciət tarixi: 29.03.2026)
2. Nizamiqızı Həmidə. Bir rəng içində. Mədəniyyət. – 2023. – 6 sentyabr. – S.7.
3. Əliyev Ziyadxan. Zərif boyaların lirik-fəlsəfi tutumu // Kaspi qəzeti. – 2015. – 28-30 noyabr. – S. 24.
4. Tarana Q. (2018). Klod Mone. URL: https://steemit.com/steemix/@taranaq19/klod-mone (Müraciət tarixi: 29.03.2026)

**Ulkar Alakbarova Sabuhi gizi**

**THE URBAN THEME IN NAZIM BAYKISHIYEV`S CREATIVITY**

**Summary**

This paper is devoted to the formation of Baku city artistic image in the works of Nazim Baykishiyev. The study analyzes the artist’s connection to the Absheron environment, as well as the coloristic solutions, compositional structure, and perspective features in his artworks. In particular, the analysis of the works “Street in Baku,” “Inner City”, “White City” and “Old Street” demonstrates that the author presents the urban environment not only through realistic depiction but more prominently in a poetic and symbolic manner. It is determined that the artist creates a calm, lyrical, and harmonious atmosphere through his preference for pearlescent color tones, soft light-shadow transitions, and stylized forms. As a result, the city of Baku in the artist’s works rises beyond a mere geographical space to the level of a generalized artistic image expressing inner harmony and aesthetic perception.

**Key words:** Baku city, Nazim Baykishiyev, compositional solution, lyrical-aesthetic expression, urban landscape.

**Улькер Алекберова Сабухи гызы**

**ТЕМА ГОРОДА В ТВОРЧЕСТВЕ НАЗИМА БЕЙКИШИЕВА**

**Резюме**

Данный доклад посвящён проблеме формирования художественного образа города Баку в творчестве Назима Бейкишиева. В исследовании анализируется приверженность художника к абшеронской среде, а также колористическое решение, композиционная структура и особенности перспективы в его произведениях. Особое внимание уделяется анализу работ «Улица в Баку», «Ичери шехер», «Белый город» и «Старая улица», который показывает, что автор наряду с реалистическим изображением городской среды придаёт ей более поэтический и символический характер. Установлено, что предпочтение художника

жемчужной цветовой гамме, мягким переходам света и тени, а также условно обобщённым формам способствует созданию спокойной, лирической и гармоничной атмосферы. В итоге город Баку в произведениях художника предстает не только как географическое пространство, но и как обобщённый художественный образ, выражающий внутреннюю гармонию и эстетическое восприятие.

**Ключевые слова:** Баку, Назим Бейкишиев, композиционное решение, лирико-эстетическое выражение, городской пейзаж

UOT 75.04[479.24]
ORCID: https://orcid.org/0009-0000-4587-683X

Тариель-Хиджран Мамедли Ибрагим оглы
Азербайджанский государственный университет культуры и искусств
Магистрант
Mmtarielh@gmail.com

# ОБРАЗ ГОРОДА ШУША В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЖИВОПИСИ (2020–2025): АРХИТЕКТУРА КАК ВИЗУАЛЬНЫЙ ЯКОРЬ НАЦИОНАЛЬНОЙ ПАМЯТИ

**Резюме**

В статье представлен семиотический анализ трансформации образа города Шуша в современной живописи Азербайджана (2020–2025). Исследуется переход от «иконографии скорби» к «иконографии триумфа». Особое внимание уделяется анализу архитектурных доминант (мечеть Юхары Говхар-ага, крепостные стены) как «мест памяти», а также новому мотиву – «Дороге Победы». На основе концепций П. Нора и Ю. Лотмана доказывается, что пейзаж Шуши конструирует парадигму национального Возрождения.

**Ключевые слова:** Шуша, живопись Азербайджана, семиотика, места памяти, Дорога Победы, национальная идентичность.

## Введение

Победа в 44-дневной Отечественной войне 2020 года запустила глубинные трансформационные процессы в национальной культуре Азербайджана. В контексте концепции «визуального поворота» [Mitchell W.J.T., 1994], визуальный образ берет на себя функцию фиксации исторической памяти нации. Живопись перестает быть пассивным зеркалом и выступает инструментом конструирования парадигмы Возрождения. Топографическим центром этого процесса становится культурная столица – город Шуша. Зияд Алиев отмечает, что интеграция образа Шуши в художественный дискурс актуализирует генетическую память народа [Əliyev Z., 2021, s. 45]. Цель работы – выявить ключевые семиотические коды образа Шуши в работах живописцев 2020–2025 годов.

## Смена визуальной парадигмы: от тоски к триумфу

Период 1990–2019 годов в азербайджанском пейзаже определяется как эпоха «иконографии тоски». Карабах изображался сквозь призму утраты: преобладали землисто-пепельные гаммы и размытые силуэты гор. Как указывает Расим Эфендиев, искусство тогда служило опорой для сохранения травмированной идентичности [Əfəndiyev R., 2007, s. 112]. После 2020 года формируется «иконография триумфа». В современных работах преобладают панорамные виды сверху – уверенный взгляд «хозяина». Происходит колористическая

инверсия: тусклые тона сменяются взрывом формообразующих цветов (кобальт, киноварь, золото), символизируя витальную энергию и преодоление травмы.

**Архитектура как визуальный якорь памяти**

По теории культурного пространства Ю. Лотмана, Шуша в живописи представляет собой сложный текст [Лотман Ю.М., 1996, с. 163]. Главными «лексемами» выступают архитектурные доминанты. Применяя концепцию «мест памяти» Пьера Нора (Nora P., 1989, p. 7), мы видим, как крепостные стены Шуши и мечеть Юхары Говхар-ага переходят в статус «визуальных якорей». В новых картинах они выписываются монументально, вне состояния руинированности. Архитектура на холстах становится связующим звеном между славным прошлым и современностью, материальным воплощением стойкости.

**Инфраструктурный код: «Дорога Победы»**

Значимым открытием в пост-конфликтной живописи стало появление нового семантического элемента – «Дороги Победы» (Zəfər Yolu). В пейзажных циклах (например, в работах Фихрета Ибрагимли) наблюдается синтез архаики (горы) и инноваций (инженерные магистрали). Это слияние формирует пласт «технократической иконографии». Дорога несет колоссальную символическую нагрузку: она визуализирует физический акт возвращения и волю нации к государственному строительству и прогрессу.

**Ковровый код как генетическая карта ландшафта**

Особую плотность пейзажам придает интеграция традиционных орнаментов. В полотнах Оксаны Мамедовой, Эльдара Гурбанова стираются границы между жанрами. Художники вписывают элементы карабахских ковров («челеби», «малыбейли») в структуру ландшафта. Севиль Садыхова подчеркивает, что синтез орнаментальной культуры и пейзажа превращает холст в подлинную «генетическую карту» региона [Sadıxova S., 2004, s. 58]. Художники «вплетают» историческую принадлежность земель в визуальную ткань, делая пейзаж идеологически целостным.

**Заключение**

К 2025 году в азербайджанском искусстве сформировался устойчивый визуальный словарь, адекватный масштабу Победы. Образ Шуши занимает в нем центральное место. Сочетание древней архитектуры («визуальные якоря»), инфраструктуры будущего («Дорога Победы») и традиционных кодов (ковровые орнаменты) создает мощное философское зеркало, отражающее величие исторического пути и созидательные горизонты Азербайджана.

**Ədəbiyyat siyahısı**

1. Abdullayeva, R. *Azərbaycan rəngkarlığında simvolizm*. Bakı: Təhsil, 2018. — 216 s.
2. Əfəndiyev, R. *Azərbaycan incəsənəti*. Bakı: Şərq-Qərb, 2007. — 160 s.
3. Əliyev, Z. *Azərbaycan təsviri sənətində Qarabağ mövzusu*. Bakı: Elm, 2021. — 280 s.
4. Sadıxova, S. *Azərbaycan boyakarlığında milli ənənələr*. Bakı: Adiloğlu, 2004. — 144 s.

5. Лотман, Ю.М. *Внутри мыслящих миров: Человек — текст — семиосфера — история*. Москва: Языки русской культуры, 1996. — 464 с.
6. Mitchell, W.J.T. *Picture Theory: Essays on Verbal and Visual Representation*. Chicago: University of Chicago Press, 1994. — 445 p.
7. Nora, P. *Between Memory and History: Les Lieux de Mémoire*. Representations, 26, 1989. — pp. 7-24.

**Tariyel-Hicran Məmmədli İbrahim oğlu**

## MÜASİR AZƏRBAYCAN RƏNGKARLIĞINDA ŞUŞA ŞƏHƏRİNİN OBRAZI (2020–2025): MEMARLIQ MİLLİ YADDAŞIN VİZUAL LÖVBƏRİ KİMİ

**Xülasə**

Məqalədə müasir Azərbaycan rəngkarlığında (2020–2025) Şuşa şəhərinin obrazının transformasiyasının semiotik təhlili təqdim olunur. “Kədər ikonoqrafiyası”ndan “zəfər ikonoqrafiyası”na keçid prosesi tədqiq edilir. “Yaddaş məkanları” kimi memarlıq dominantlarının (Yuxarı Gövhər Ağa məscidi, qala divarları) təhlilinə, həmçinin “Zəfər Yolu” motivinə xüsusi diqqət yetirilir. P.Nora və Y.Lotmanın konsepsiyaları əsasında sübut edilir ki, Şuşa mənzərəsi milli İntibah paradiqmasını qurur.

**Açar sözlər:** Şuşa, Azərbaycan rəngkarlığı, semiotika, yaddaş məkanları, Zəfər Yolu, milli kimlik.

**Tariyel-Hijran Mammadli Ibrahim**

## THE IMAGE OF SHUSHA CITY IN MODERN AZERBAIJANI PAINTING (2020–2025): ARCHITECTURE AS A VISUAL ANCHOR OF NATIONAL MEMORY

**Summary**

The article presents a semiotic analysis of the transformation of the image of Shusha in modern Azerbaijani painting (2020–2025). The transition from the “iconography of sorrow” to the “iconography of triumph” is investigated. Special attention is paid to architectural dominants (Yukhari Govhar Agha Mosque, fortress walls) as “places of memory”, and the “Road of Victory” motif. Based on P. Nora and Y. Lotman's concepts, it's proved that the Shusha landscape constructs the paradigm of the national Renaissance.

**Key words:** Shusha, Azerbaijani painting, semiotics, places of memory, Road of Victory, national identity.

**UOT 78:008:004**

**Gülbadam Bəşirova Emin qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**bashirovagulbadam@gmail.com**

# RƏQƏMSAL PLATFORMALAR DÖVRÜNDƏ AZƏRBAYCANDA KONSERT MƏDƏNİYYƏTİ: İSTEHLAK VƏ İŞTİRAK FORMALARININ DƏYİŞMƏSİ

**Xülasə**

Məqalədə 2020–2025-ci illərdə rəqəmsal platformaların təsiri altında Azərbaycanda konsert mədəniyyətinin transformasiyası araşdırılır. Tədqiqat virtual və hibrid konsertlərin istehlak, iştirak formalarını, pandemiya zamanı həmçinin, ondan sonra baş verən dəyişiklikləri sosial-mədəni kontekstdə təhlil edir. Rəqəmsal texnologiyalar, sosial media və LoLa (Aşağı Gecikmə) audiovizual yayım sistemi kimi innovativ vasitələr konsertlərin coğrafi hüdudlardan kənarda qlobal auditoriyaya çatmasına imkan yaradıb, ənənəvi fiziki iştirak modeli ilə onlayn formalar arasında yeni balans yaradıb. Məqalə Azərbaycanda rəqəmsallaşmanın konsert mədəniyyətinə təsirini sistemli şəkildə göstərən, iştirakçı davranışını, məkan anlayışını və iqtisadi modellərdəki dəyişiklikləri təhlil edən ilk araşdırmalardan biridir. Nəticədə rəqəmsallaşma müvəqqəti bir model deyil, uzunmüddətli struktur dəyişikliklərində əsas amil kimi meydana çıxır və gələcək konsert strategiyaları üçün nəzəri-təcrübi əsas yaradır.

**Açar sözlər:** rəqəmsal platforma, konsert, mədəniyyət, hibrid model, LoLa sistemi, pandemiya

## Giriş

XXI əsrdə rəqəmsal texnologiyaların sürətli inkişafı mədəniyyətin bütün sahələrinə, xüsusilə musiqi və konsert mədəniyyətinə dərin təsir göstərmişdir. Ənənəvi olaraq fiziki məkana və canlı iştiraka əsaslanan konsertlər rəqəmsal platformaların yayılması ilə yeni təqdimat, istehlak formalarına keçib. Bu dəyişikliklər nəticəsində konsert artıq sadəcə müəyyən məkan və zaman çərçivəsində baş verən hadisə deyil, yayılan, yenidən istehlak edilən, rəqəmsal mühitdə qarşılıqlı iştirak imkanları yaradan mürəkkəb mədəni təcrübəyə çevrilib. Bu kontekstdə əsas problem konsert mədəniyyətində baş verən transformasiyanın mahiyyətinin və istiqamətinin kifayət qədər sistemli şəkildə öyrənilməməsidir. Xüsusilə 2020–2025-ci illər ərzində rəqəmsal platformaların təsiri altında istehlak və konsertlərdə iştirak formaları əhəmiyyətli dərəcədə dəyişsə də, bu dəyişikliklərin sosial-mədəni nəticələri hərtərəfli təhlil edilməmişdir. Digər tərəfdən, ənənəvi canlı iştirak modeli ilə iştirakın rəqəmsal formaları arasında müəyyən ziddiyyət yaranıb: fiziki konsertlərin emosional və kollektiv təcrübəsi ilə rəqəmsal platformaların təqdim etdiyi əlçatanlıq, qlobal auditoriya arasında balans məsələsi aktuallaşıb. Mövzunun aktuallığı məhz bu transformasiyanın sürətlənməsi və onun mədəni istehlak vərdişlərinə təsiri ilə bağlıdır. COVID-19 pandemiyası konsert fəaliyyətini məhdudlaşdırmaqla rəqəmsal platformalara keçidi sürətləndirib, nəticədə virtual və hibrid konsertlərin geniş yayılmasına səbəb olub. Bu dəyişikliklər təkcə texnoloji deyil, sosial və mədəni xarakter daşıyır, müasir mədəniyyətşünaslıq üçün müvafiq tədqiqat istiqamətinə çevrilmişdir.

Azərbaycanda bu proseslər konsert mədəniyyətinin strukturunu dəyişmiş, yeni iştirak modellərinin formalaşmasına səbəb olmuşdur.

Bu baxımdan məqalənin məqsədi 2020–2025-ci illərdə Azərbaycanda konsert mədəniyyətində baş verən dəyişiklikləri, xüsusilə rəqəmsal platformaların təsiri altında istehlak və iştirak formalarının transformasiyasını təhlil etməkdir.

## I. RƏQƏMSAL PLATFORMLARIN KONSERT MƏDƏNİYYƏTİNƏ TƏSİRİ

Rəqəmsal platformaların inkişafı, konsertlərin təşkili və istehlak üsullarını əsaslı şəkildə dəyişməkdədir. Bu proses pandemiya zamanı daha da sürətləndi, bir çox konsertlər tamamilə onlayn keçirilməyə başladı. Bu, tamaşaçıların coğrafi məhdudiyyətlərini aradan qaldırdı və daha geniş auditoriyaya çıxış imkanı yaratdı. Eyni zamanda, sosial media, konsertləri baxılan, paylaşılan və təkrarlanan məzmuna çevirib. Bu, konsert mədəniyyətində yeni kommunikasiya modelinin formalaşmasına səbəb oldu. Rəqəmsal platformalar təkcə konsertlərin yayım formasını deyil, onların istehlak modelini dəyişib. Əgər ənənəvi konsertlərdə tamaşaçılar fiziki olaraq məkan daxilində iştirak edirdilərsə, rəqəmsal mühitdə bu iştirak müxtəlif formalarda – canlı izləmə, sonradan baxmaq, paylaşmaq və şərh verməklə həyata keçirilir. Beləliklə, konsert təkcə “dinlənilən” deyil, “paylaşılan”, “çoxaldılan” məzmun formasına çevrilib. Bu, konsert mədəniyyətində yeni kommunikasiya modelinin formalaşmasına səbəb olub.

Rəqəmsal texnologiyalar bu gün həyatın hər sahəsinə nüfuz etmişdir, buna görə də musiqi sənayesinin köklü transformasiyaya uğraması təəccüblü deyil. Rəqəmsal konsertlər – virtual konsertlər, canlı musiqi ifasında tamamilə yeni bir dövr açdı. Bu kimi innovativ çıxışlar musiqiçilərin tamaşaçılarla əlaqə qurmasına təsir edib, coğrafi sərhədləri aşıb. Rəqəmsal konsertlər tez bir zamanda musiqi sənayesinin mənzərəsini dəyişdirən bir modelə çevrildi. Virtual tədbirlər musiqiçilərə öz evlərindən və ya xüsusi təchiz olunmuş studiyalardan qlobal auditoriya üçün canlı çıxış etməyə imkan verir. *“Bu sahədə görkəmli platformalardan biri kimi Avstraliya Rəqəmsal Konsert Zalını nümunə göstərmək olar”* [Australian Digital Concert Hall, 2026, s. 1]. Sidney Kamera Xoru, Melburn Kamera Orkestri və Adelaide Kamera Xor Festivalı kimi nüfuzlu ansambllara ev sahibliyi etməklə klassik musiqini yenidən ön plana çıxaran innovativ rəqəmsal konsert zalı konsepti bütün dünyadan musiqiçilər, solistlər və bəstəkarlara öz sənətlərini qlobal auditoriyaya təqdim etmək üçün qapı açır. Musiqiçilər artıq bir məkanla məhdudlaşmırlar, indi bütün dünyaya yayılmış beynəlxalq auditoriya üçün çıxış edə, sənətçinin əhatə dairəsini genişləndirə və qlobal musiqi icmaları yarada bilərlər – məsələn, Bakıdan olan bir musiqiçi əvvəllər keçilməz olan coğrafi məhdudiyyətləri dəf edərək Nyu-York və ya Pekindəki tamaşaçılara asanlıqla çata bilər.

2020-ci ilin əvvəlində başlayan pandemiya konsert fəaliyyətini məhdudlaşdırsa da, musiqiçilər və təşkilatçılar onlayn platformalara üz tutdular. Virtual konsertlər, canlı yayımlar və sosial media vasitəsilə auditoriyaya çatmaq imkanları genişləndi. Rəqəmsal transformasiya konsertlərin iqtisadi modelinə də təsir etdi. Rəqəmsal transformasiya konsertlərin iqtisadi modelinə də təsir etdi. Ənənəvi gəlir mənbələri – fiziki bilet satışı və albom satışları azaldığından, rəqəmsal platformalar yeni pul qazanma imkanları təklif edir. Musiqiçilər və təşkilatçılar indi hər baxışa görə ödəniş, abunəyə əsaslanan sistemlər və sponsorluq modelləri vasitəsilə gəlir əldə edə bilərlər. Beləliklə, rəqəmsal platformalar konsert mədəniyyətini təkcə texnoloji baxımdan deyil, sosial və iqtisadi baxımdan transformasiya edib. Nəticədə konsert anlayışı məkan və zaman sərhədlərini aşaraq qlobal, qarşılıqlı və çoxkanallı mədəni təcrübəyə çevrilib.

## II. AZƏRBAYCANDA KONSERT MƏDƏNİYYƏTİNİN TRANSFORMASİYASI

2020-2025-ci illər Azərbaycanda konsert mədəniyyətinin dəyişməsi baxımından xüsusi dövr kimi səciyyələnir. Pandemiya dövründə konsertlərin məhdudlaşdırılması alternativ formatların yaranmasına səbəb oldu. Bu müddət ərzində sosial şəbəkələrdə yayımlanan onlayn konsertlər, musiqili tədbirlər geniş vüsət almışdır. Pandemiyadan sonrakı mərhələdə konsertlər bərpa olunsa da, rəqəmsal elementlər öz əhəmiyyətini saxlayıb. Bu şəraitdən əmələ gələrək, virtual konsertlər alternativ təqdimat modelləri kimi geniş yayılmağa başladı.

Xüsusilə, keçirilən tədbirlər mədəniyyət təcrübəsinin yeni formalarının yaranmasına şərait yaratmışdır. Bu proses məkan, məzmun baxımından konsert mədəniyyətinin yenidən qurulmasına gətirib çıxardı.

Bunun bariz nümunəsi 2020-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş virtual konsert proqramını göstərmək olar. *“Layihə tamaşaçısız zalda həyata keçirilib və ifaçıların çıxışları ayrıca lentə alınıb və sonra sinxronlaşdırılıb”* **[Qafqazinfo, 2020, s. 1]**. Bu yanaşma konsertin texniki, estetik baxımdan yeni formatda təqdim olunmasına imkan verdi. Azərbaycanın tanınmış musiqiçilərinin və xaricdə fəaliyyət göstərən sənətçilərin konsertdə virtual iştirakı coğrafi məhdudiyyətlərin aradan qaldırıldığını göstərir. Eyni zamanda, konsertin televiziyada yayımlanması konsertlərin rəqəmsal və kütləvi informasiya kanalları vasitəsilə istehlak modelinə keçdiyini nümayiş etdirir. Belə ki, bu tipli layihələr pandemiya dövründə Azərbaycanda konsert mədəniyyətinin rəqəmsal transformasiyasının ilkin mərhələsini əks etdirir və sonrakı illərdə inkişaf edən onlayn və hibrid konsert formatlarının formalaşmasına zəmin yaradır.

*“LOLA (LOw LAtency) audiovizual yayım sistemi qabaqcıl şəbəkə xidmətləri vasitəsilə onlayn əlaqə vasitəsilə bir-birindən fiziki cəhətdən uzaq olanları bir araya gətirir. LOLA layihəsi sayəsində bu texnologiya indi Azərbaycan ifaçılarını və musiqiçilərini başqa xalqlardan olan həmkarları ilə yaxınlaşdırır”* [EaPConnect, 2022, s. 1]. Müxtəlif coğrafi ərazilərdə keçirilən tədbirlərdə iştirak etməli olan ifaçı və musiqiçilərin onlayn əlaqə vasitəsilə həmin tədbirlərə qoşulmasını təmin edir. Bakı Musiqi Akademiyasında daimi istifadəyə verilən bu sistem dünyanın bir çox yerləri ilə birbaşa əlaqə yaratmağa imkan verir. Beləliklə, Azərbaycan musiqiçiləri dünyanın o tayında keçirilən konsertlərdə çıxış etmək və olduqları yerdən öz musiqisini nümayiş etdirmək imkanı əldə etdilər. Bu onu göstərir ki, böyük vaxt itkisi və yorğunluqla müşayiət olunan səyahət artıq keçmişə qalır. *“30 aprel 2021-ci il tarixində Bakı Musiqi Akademiyası (BMA) yüzillik yubileyi çərçivəsində Sankt-Peterburqun (Rusiya) Rimski-Korsakov adına Konservatoriyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birgə hər iki konservatoriyanın tələbələrinin ifasında ilk onlayn konsert təşkil edib”* **[EaPConnect, 2022, s. 1]** .

LoLa texnologiyasından istifadə edilən konsertlər rəqəmsal mühitin artıq sadəcə alternativ platforma deyil, yeni yaradıcılıq və ifaçılıq mühiti olduğunu nümayiş etdirir. Bu texnologiyadan istifadə etməklə təşkil edilən tədbirlərdə müxtəlif ölkələrdən olan ifaçılar eyni vaxtda çıxış edərək vahid konsert təcrübəsi yaradırlar. Bu, konsert mədəniyyətində “məkan” anlayışının yenidən şərhinə gətirib çıxarır.

Pandemiyadan sonrakı mərhələdə konsert fəaliyyəti tədricən bərpa olunsa da, rəqəmsal elementlər öz aktuallığını qoruyub saxlayıb və konsert mədəniyyətinin ayrılmaz hissəsinə çevrilib.

Beləliklə, virtual və hibrid konsertlər təkcə müvəqqəti alternativ kimi deyil, mədəni təqdimatın davamlı modeli kimi formalaşmağa başlayıb.

Artıq pandemiyadan sonrakı dövrdə də bu texnologiyalardan istifadə ilə konsert formatlarının transformasiyasını görə bilərik. Naxçıvan Dövlət Universiteti, Bakı Musiqi Akademiyası və Azərbaycan Milli Tədqiqat və Təhsil Şəbəkəsi (AzScienceNet, NREN) ilə birgə 2025-ci ildə keçirilən virtual konsertdə LoLa (Low Latency) audiovizual sistemi nümayiş etdirilib. İtaliyanın GARR NREN və Estoniya Musiqi və Teatr Akademiyası ilə birgə təşkil edilən tədbir internet üzərindən real vaxt rejimində musiqi əməkdaşlığını təmin etməklə coğrafi maneələri aradan qaldırdı. Konsertdə Naxçıvan Dövlət Universiteti və Bakı Musiqi Akademiyasının tələbələri LoLa vasitəsilə Azərbaycan və xarici klassik əsərləri canlı ifaları ilə real vaxt rejimində uzaq məsafədə ifaçıları birləşdirən gücünü nümayiş etdiriblər. Beləliklə, konsert yalnız milli çərçivədə baş verən hadisə deyil, beynəlxalq əməkdaşlıq platformasına çevrilir.

Pandemiyadan sonrakı mərhələdə ənənəvi konsert fəaliyyəti bərpa olunsa da, rəqəmsal elementlər bu sahədən çıxarılmayıb. Əksinə, hibrid konsert modelləri, yəni fiziki, onlayn iştirak imkanlarını birləşdirən formatlar geniş yayılmağa başlayıb. Bu model auditoriyanın genişlənməsinə, mədəniyyət məhsullarının daha çevik və davamlı təqdimatına şərait yaradır.

**Nəticə**

2020–2025-ci illər Azərbaycanda konsert mədəniyyəti üçün transformasiya dövrü kimi xarakterizə olunur. Pandemiya və rəqəmsal platformaların sürətli inkişafı nəticəsində ənənəvi fiziki konsertlər yeni formatlarla əvəzlənib. Virtual və hibrid konsertlər tamaşaçıların coğrafi məhdudiyyətlərini aradan qaldıraraq, geniş, qlobal auditoriyaya çıxış imkanı yaradıb, sosial media və onlayn yayımlar isə konsertləri “paylaşılan” və “yenidən baxılan” mədəni təcrübələrə çevirib. LoLa (Low Latency) audiovizual yayım sistemi kimi texnologiyalar Azərbaycan ifaçılarını beynəlxalq səviyyədə digər musiqiçilər ilə birləşdirərək konsert məkanının yenidən şərh edilməsinə səbəb olub. Hibrid modellər fiziki və onlayn iştirak imkanlarını birləşdirərək konsert mədəniyyətində davamlı, çevik təqdimat strategiyaları formalaşdırıb.

Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, rəqəmsal platformaların Azərbaycanda konsert mədəniyyətinə təsirini sistemli şəkildə araşdıran ilk işlərdən biridir. Əvvəlki tədqiqatlar əsasən qlobal və texnoloji aspektlərə yönəldilib, milli kontekst və pandemiya sonrası uyğunlaşma prosesləri kifayət qədər öyrənilməmişdir. Beləliklə, bu tədqiqatda:

1. Azərbaycanda virtual və hibrid konsertlərin sosial-mədəni təsirini konkret nümunələrlə göstərilir.
2. Rəqəmsallaşmanın konsert istehlak vərdişlərində yaratdığı dəyişiklikləri təhlil edilir.
3. Konsert mədəniyyətində məkan anlayışının və iqtisadi modellərin yenidən qurulmasını izah edilir.
4. Rəqəmsal və hibrid formatların davamlı model kimi tətbiqi imkanlarını nümayiş etdirilir.

Beləliklə, rəqəmsallaşma Azərbaycanda konsert mədəniyyətində müvəqqəti bir hadisə deyil, uzunmüddətli struktur dəyişikliklərində əsas amil kimi meydana çıxdı. Bu tədqiqat gələcəkdə milli və regional səviyyədə konsert strategiyalarının formalaşdırılması, rəqəmsal texnologiyaların inteqrasiyası, mədəni istehlakın inkişafı üçün nəzəri və praktiki əsas yaradır.

Nəticədə 2020-2025-ci illər ərzində Azərbaycanda konsert mədəniyyəti ənənəvi modeldən rəqəmsal və hibrid modellərə çevrilib. Bu proses texnoloji dəyişikliklərlə məhdudlaşmır, konsertin mahiyyətinin, iştirakçıların rolunun, mədəni istehlak formalarının yenidən qurulması ilə müşayiət olunur. Beləliklə, rəqəmsallaşma konsert mədəniyyətində müvəqqəti reaksiya deyil, uzunmüddətli struktur dəyişikliklərinin əsas amillərindən biridir.

**Ədəbiyyat siyahısı**

*(Azərbaycan dilində)*

1. Qafqazinfo. (2022). Heydər Əliyevin ad günündə virtual konsert proqramı təqdim olunacaq – fotolar. URL: https://qafqazinfo.az/news/detail/heyder-eliyevin-ad-gunune-virtual-konsert-proqrami-teqdim-olunacaq-fotolar-286704 (Müraciət tarixi: 05.04.2026)

*(İngilis dilində)*

2. Australian Digital Concert Hall. (2026). Australian Digital Concert Hall. URL: https://australiandigitalconcerthall.com/#/home (Müraciət tarixi: 05.04.2026)
3. EaPConnect. (2022). *LoLa technology strengthens international music collaborations in Azerbaijan*. URL: https://eapconnect.eu/stories/benefits-of-lola-technology-in-azerbaijan/ (Müraciət tarixi: 05.04.2026)

**Gulbadam Bashirova Emin gizi**

**CONCERT CULTURE IN AZERBAIJAN IN THE ERA OF DIGITAL PLATFORMS: CHANGES IN CONSUMPTION AND PARTICIPATION FORMS**

**Summary**

The article examines the transformation of concert culture in Azerbaijan under the influence of digital platforms in 2020–2025. The study analyzes the forms of consumption and participation of virtual and hybrid concerts, the changes that occurred during and after the pandemic in a socio-cultural context. Innovative tools such as digital technologies, social media and the LoLa (Low Latency) audiovisual broadcasting system have enabled concerts to reach a global audience beyond geographical boundaries, creating a new balance between the traditional physical participation model and online forms. The article is one of the first studies to systematically show the impact of digitalization on concert culture in Azerbaijan, analyzing participant behavior, spatial understanding and changes in economic models. As a result, digitalization is not a temporary model, but a key factor in long-term structural changes, and creates a theoretical and empirical basis for future concert strategies.

**Key words:** digital platform, concert, culture, hybrid model, LoLa system, pandemic.

**Гюльбадам Баширова Эмин гызы**

**КОНЦЕРТНАЯ КУЛЬТУРА В АЗЕРБАЙДЖАНЕ В ЭПОХУ ЦИФРОВЫХ ПЛАТФОРМ: ИЗМЕНЕНИЯ ФОРМ ПОТРЕБЛЕНИЯ И УЧАСТИЯ**

**Резюме**

В статье рассматривается трансформация концертной культуры в Азербайджане под влиянием цифровых платформ в 2020–2025 годах. Анализируются формы потребления и

участие в виртуальных и гибридных концертах, а также изменения, произошедшие во время и после пандемии в социально-культурном контексте. Инновационные инструменты, такие как цифровые технологии, социальные сети и аудиовизуальная система вещания LoLa (Low Latency), позволили концертам охватить глобальную аудиторию за пределами географических границ, создав новый баланс между традиционной моделью физического участия и онлайн-формами. Статья является одним из первых исследований, систематически демонстрирующих влияние цифровизации на концертную культуру в Азербайджане, анализируя поведение участников, пространственное понимание и изменения в экономических моделях. В результате, цифровизация представляет собой не временную модель, а ключевой фактор долгосрочных структурных изменений, создает теоретическую и эмпирическую основу для будущих стратегий концертной деятельности.

**Ключевые слова:** цифровая платформа, концерт, культура, гибридная модель, система LoLa, пандемия

**UOT 785**

**Eltac Gözəlov Namiq oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**eltac.gezalov@mail.ru**

# KAMANÇA ALƏTİNİN TARİXİ İNKIŞAF YOLU

**Xülasə**

Təqdim olunan məqalə kamança alətinin tarixi inkişaf yolunun araşdırılmasına həsr olunmuşdur. Qeyd edilir ki, kamanlı alətlərin ilk nümunələri Qədim misir mədəniyyətində meydana gəlmişdir. Azərbaycan ərazisində kamanlı alətlərin yayılması VII əsrdən, İslam dininin geniş vüsət tapdığı dövrlə əlaqələndirilir. Azərbaycanda kamança ifaçılığı sənəti, alətin xüsusi icra texnikasını və mədəni irs kimi daşıdığı mənaları özündə birləşdirən çoxşaxəli bir incəsənət formasıdır. Kamançanın funksional əhəmiyyəti ən yüksək ifadəsini Azərbaycan muğam sənətində tapır. Muğam ifasının klassik üçlüyü-xanəndə (dəf ifaçısı), tarzən və kamança ifaçısı üçlüyündə kamança melodik-harmonik strukturun formalaşdırılmasında, təhkiyə və emosional intensivliyin yaradılmasında əvəzolunmaz əhəmiyyətə malikdir.

**Açar sözlər:** kamança, ifaçılıq, muğam, ifaçı, kamanlı alətlər, musiqi aləti.

Kamanlı alətlərin yaranması və tarixi inkişafı ilə bağlı araşdırmalar göstərir ki, bu tip simli alətlərin ilk nümunələri Qədim Misir mədəniyyətində meydana gəlmiş, sonradan müxtəlif xalqlar tərəfindən müstəqil şəkildə inkişaf etdirilmişdir. Fransız filosofu J.J.Russo kamanlı alətlərin mənşəyini ilk insanların dövrünə aid etsə də, müasir musiqişünaslıq tədqiqatları onların simli alətlər ailəsinin təkmilləşmiş forması kimi ilk dəfə Çin və Hindistanda formalaşdığını, daha sonra Avropaya yayıldığını müəyyən etmişdir. Şərq ölkələrində kamanlı alətlərin nisbətən daha çox yayılması və bəzi nümunələrinin arxaik quruluşunu qoruyub saxlaması bu fikri dəstəkləyir.

Azərbaycan ərazisində kamanlı alətlərin yayılması VII əsrdən, İslam dininin geniş vüsət tapdığı dövrlə əlaqələndirilir. Ərəb işğalları ilə bölgəyə daxil olan ərəb mədəniyyəti öz musiqili ənənələrini də gətirmiş, xüsusilə kamanlı rübabın təsiri altında yerli musiqi alətləri tədricən transformasiyaya uğramışdır. "Kitabi-Dədə Qorqud" dastanında kaman sözünün istifadəsi, həmçinin qıl qobuzun monoxorddan sonra meydana çıxan ilk kamanlı alət olduğunu təsdiqləyir. At quyruğundan hazırlanan kamanlar isə bu alətlərin əsasən atçılıq mədəniyyətinə malik regionlarda formalaşdığını göstərir. Tarixi mənbələrə görə, farslar Azərbaycanı işğal etdikdə türk tayfaları qıl qobuzdan istifadə edirdi. Farslar bu aləti öz dillərinə uyğun olaraq "kəman" adlandırmış, daha sonra ərəblərə keçən alət "əmənqə" formasında məlum olmuşdur. Orta Asiyada yayılan alət türk xalqlarında "kıyak", Azərbaycanda isə "kamança" adı ilə mənimsənilmişdir. Alman musiqişünası Professor E.Nauman qeyd edirdi ki, XIII əsrdə ərəblər tərəfindən istifadə edilən kəmənqə qısa qollu, kiçik korpuslu və şişə bənzər bir quruluşa malik idi.

Azərbaycanda kamança ifaçılığı sənəti, alətin xüsusi icra texnikasını və mədəni irs kimi daşıdığı mənaları özündə birləşdirən çoxşaxəli bir incəsənət formasıdır. Bu sənət təkcə alətdə instrumental ifa deyil, həm də əsrlər boyu formalaşmış estetik prinsipləri, musiqi ifadə zənginliyini və kollektiv yaddaşın musiqili kodlarını ehtiva edən mənəvi-mədəni bir sistemdir. Azərbaycanın

zəngin musiqili irsində kamança həm klassik muğam, həm də xalq musiqisinin ayrılmaz struktural elementi kimi fəaliyyət göstərir və geniş spektrli ictimai-mədəni tədbirlərdə özünəməxsus yer tutur.

Diqqətəlayiqdir ki, kamança özünün leksik adlandırılmasında regiondan asılı olaraq dialektik fərqliliklərə məruz qalır: Şuşa və Şərur regionunda “vızqan”, Cəbrayıl və Şəkidə “mizqan”, Tovuzda “mizqon”, Qubada isə “miskan” kimi tanınır. Bu lüğəti müxtəliflik, alətin müxtəlif etno-mədəni mühitlər daxilində yayılmasının və lokal ənənələrlə inteqrasiyasının göstəricisidir.

Kamançanın tarixi inkişaf yolu, xüsusilə XIX əsrin ikinci yarısından başlayaraq, xanəndəlik sənətinin dinamik inkişafı ilə sıx bağlıdır. Bu dövrdə kamançanın rolunun artması, muğam ifaçılığının strukturunda getdikcə daha mühüm funksiyanı öz üzərinə götürməsi ilə müşahidə olunur. Tarixi qaynaqlar alətin ilkin nümunələrinin istehsalında fil sümüyü, balqabaq və hind qozu kimi təbii materiallardan istifadə edildiyini göstərir. Azərbaycan ədəbi irsinin görkəmli nümayəndəsi Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasında kamançaya istinad olunaraq, onun orta əsrlər dövründə də mədəni həyatda mövcud olduğunu təsdiq edir. Avropa səyyahı Engelbert Kempferin 1638-ci ildə Azərbaycana səfəri zamanı qeyd etdiyi kimi, üç, dörd və beş simli variantlarda mövcud olan bu alət, yerli mədəniyyət kontekstində “xoş təsir bağışlayan” bir xalq çalğı aləti kimi qiymətləndirilmişdir.

Orta əsrlərdə Azərbaycanda yaşamış sənətkarlar arasında kamança ifaçıları xüsusi yer tutmuş, hətta bəziləri məharətlə çaldıqları bu alətin adını özlərinə təxəllüs kimi qəbul etmişlər. Kamançanın konstruktiv və ifaçılıq təkamülü əhəmiyyətli mərhələlər keçmişdir. XVII əsrdə üç simli modellərin geniş yayılması müşahidə olunur **[Абдуллаева С. 2000, s. 288].**

XIX əsrin əvvəllərində kamança aləti Mirzə Sadıq Əsəd oğlu tərəfindən Şuşada təşkil edilmiş xalq çalğı alətləri ansamblının tərkibinə daxil edilmişdir. Bu ansamblın tərkibində tar, zurna, balaban, ney və qoşanağara kimi alətlərlə yanaşı, kamança aləti rəqqasələri də müşayiət edirdi **[Абдуллаева С. 2000, s. 289].**

Mirzə Sadıq Əsəd oğlunun tar alətində etdiyi islahatlardan sonra, kamança daha çox xanəndə, tarzən və kamança ifaçısı üzvlərindən ibarət klassik üçlüyün tərkibində istifadə olunmağa başlanmışdır. Belə bir ansamblın formalaşmasına kamançanın texniki imkanlarının genişləndirilməsi, həmçinin kamança və tarın tembr uyğunluğu və diapazon ardıcıllığı kömək etmişdir.

Orqanoloq alim, professor S.Abdullayeva yazır: “XX əsrin əvvəllərində fəaliyyət göstərmiş məşhur kamança ifaçısı Saşa Oqanezaşvili ənənəvi üç simli kamançaya dördüncü sim əlavə edərək, alətin səs diapazonunu genişləndirmiş, onun tam və zəngin səslənməsinə nail olmuşdur” **[Абдуллаева С. 2000, s. 300].**

Lakin Toğrul Əsədullayev özünün ...... mövzusunda dissertasiya işində bildirir ki: “*XX əsrə qədər dörd və beş simli kamançalardan istifadə olunması kütləvi hal almasa da əsrin əvvəllərindən etibarən dördsimli kamançalara üstünlük verilmişdir”* [T.Əsədullayev avtoreferta, səh. 14].

Deməli buradan belə bir qənaətə gəlirik ki, Saşa Oqnezaşvilinin kamançaya dördüncü simi əlavə etməsi fikri yalnışdır. Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində dördsimli, beşsimli və altısimli kamançalar mövcud olmuşdur.

Rus etnoqrafı P.Vostrikov 1912-ci ildə nəşr olunmuş "Azərbaycan tatarları arasında musiqi və mahnı" adlı məqaləsində kamançanı "milli tatar alətləri" sırasında qeyd etmişdir. Vostrikovun müşahidələrinə görə, bu alət Şuşa və Yelizavetpol qəzalarının aşıq mühitlərində xüsusi populyarlıq qazanmış, üç simli kamança yerli cəmiyyətdə skripkanı praktiki olaraq əvəz etmişdir **[Востриков П. Музыка и песня у Азербейджанских татар // СМОМПК (42-й). Тф. 1912. Səh. 4].**

Kamança ifaçılıq sənətinin incəlikləri xüsusilə instrumental muğamların solo ifasında özünü göstərir. Alətin səsinin ansambl daxilində xanəndənin vokal xəttinə yaxınlığı diqqətçəkəndir. Çox vaxt ifa zamanı kamança ya tarın funksiyasını öz üzərinə götürür, ya da tarzəndən qısa bir gecikmə ilə melodiyanı təkrarlayaraq polifonik bir effekt yaradır [Abdullayeva S., səh. 317].

XIX əsrin ikinci yarısı və XX əsrin birinci yarısında Əli Əsgər Qarabaği, Qaraçı Hacıbəy, İsfəndiyar Kəngərli, Mirzə Səttar, Qılman Salahov, Habil Əliyev, Tələt Bakıxanov, Şəfiqə Eyvazova, Arif Əsədullayev, Fəxrəddin Dadaşov və Ədalət Vəzirov kimi nəhəng sənətkarlar kamança ifaçılığı sənətinin formalaşmasında mühüm rol oynamışlar. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin "Qızıl Fondu"nda xanəndə Cabbar Qaryağdıoğlunun kamança müşayiəti ilə ifa etdiyi muğam yazıları qorunub saxlanılır. Kamançanın repertuarı təkcə muğamlarla məhdudlaşmır, xalq mahnılarının, rəqslərin, teatr tamaşalarının instrumental variantları, bəstəkar əsərləri alətin ifaçılıq ənənəsində mühüm yer tutur.

XX əsrdə kamança təkcə ənənəvi ansambllarda deyil, həm də xalq çalğı alətləri orkestrlərində aparıcı solo və müşayiətçi alət kimi geniş istifadə olunmağa başlamışdır. Məsələn, Habil Əliyevin solo ifaları zamanı onu tez-tez balaban və qaval ifaçıları müşayiət edirdi **[Abdullayeva S., səh. 248].**

Kamança ifaçılığının beynəlxalq səviyyədə tanınmasında mühüm mərhələ, 7 dekabr 2017-ci il tarixində Cənubi Koreyanın Jeju adasında keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında baş verdi. Azərbaycan Respublikası və İran İslam Respublikasının birgə təqdimatı əsasında "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti" UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildi. Bu qərar, nəinki kamançanı universal mədəni dəyər kimi təsdiqlədi, həm də bu ənənənin gələcək nəsillər üçün qorunub yaşadılması üçün əhəmiyyətli bir rol oynadı.

Müasir dövrdə istifadə olunan ənənəvi kamança aləti dairəvi çanaq, uzun qol, dörd simdən və at tükündən hazırlanmış yaydan ibarətdir. Alətin səs hasil etmə texnikası və akustik imkanları, həm solo ifada, həm də orkestr və ansambllarda geniş istifadəyə imkan verir. Kamança aləti Azərbaycan musiqi mədəniyyətinin təşəkkülündə mühüm rol oynayaraq, ifaçılar tərəfindən lokal icmaların qeyri-maddi mədəni irsinin təcəssümü kimi qəbul edilir və yaşadılır.

Kamançanın funksional əhəmiyyəti ən yüksək ifadəsini Azərbaycan muğam sənətində tapır. Muğam ifasının klassik üçlüyü-xanəndə (dəf ifaçısı), tarzən və kamança ifaçısı üçlüyündə kamança melodik-harmonik strukturun formalaşdırılmasında, təhkiyə və emosional intensivliyin yaradılmasında əvəzolunmaz əhəmiyyətə malikdir. Kamança ifaçılığının repertuarı xalq musiqisindən başlayaraq, bəstəkar əsərlərini əhatə edir və müxtəlif janrlara (rok, pop musiqi, caz və s.) qədər uzanır. Kamança ifaçıları musiqi vasitəsi ilə sadə və mürəkkəb formalı əsərləri, o camlədən də digər janrları dinləyici auditoriyasına çatdırırlar. Bu bilik və bacarıqların nəsillərarası ötürülmə mexanizmi həm ailəvi-şəxsi ənənələr, həm də dövlət tərəfindən təşkil olunan təhsil müəssisələri (musiqi məktəbləri, akademiyalar) vasitəsilə həyata keçirilir.

## Ədəbiyyat siyahısı

1. Zemfira Səfərova. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Elm nəşriyyatı, 2000.
2. Üzeyir Hacıbəyli. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Yazıçı nəşriyyatı, 1985.
3. Ramiz Zöhrabov. Muğam. Bakı: Elm, 1991.
4. Səid Rüstəmov. Azərbaycan xalq çalğı alətləri. Bakı: Dövlət Musiqi Nəşriyyatı, 1957.

**Eltaj Gozalov Namiq oghlu**

**HISTORICAL DEVELOPMENT OF THE KAMANCHA INSTRUMENT**

**Summary**

The presented article is devoted to the study of the historical development of the kamancha instrument. It is noted that the first examples of bowed instruments appeared in the culture of Ancient Egypt. The spread of bowed instruments on the territory of Azerbaijan is associated with the 7th century, the period when the Islamic religion was widespread. The art of playing the kamancha in Azerbaijan is a multifaceted art form that combines the special performance technique of the instrument and the meaning it carries as a cultural heritage. The functional importance of the kamancha finds its highest expression in the art of Azerbaijani mugham. In the classic trio of mugham performance – the singer (tambourine player), the tar player and the kamancha player, the kamancha is of irreplaceable importance in the formation of the melodic-harmonic structure, in the creation of narrative and emotional intensity.

**Key words:** kamancha, musical performance, mugham, performer, bowed instruments, musical instrument.

**Эльтадж Гёзалов Намиг оглу**

**ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ МУЗЫКАЛЬНОГО ИНСТРУМЕНТА КЯМАНЧА**

**Резюме**

Представленная статья посвящена изучению исторического развития инструмента кяманча. Отмечается, что первые образцы смычковых инструментов появились в культуре Древнего Египта. Распространение смычковых инструментов на территории Азербайджана связано с VII веком, периодом широкого распространения ислама. Искусство игры на кяманче в Азербайджане – это многогранная форма искусства, сочетающая в себе особую исполнительскую технику инструмента и смысловое значение, которое он несет как культурное наследие. Функциональное значение кяманчи находит свое высшее выражение в искусстве азербайджанского мугама. В классическом трио исполнения мугама – певец (игрок на тамбурине), исполнитель на таре и исполнитель на кяманче – кяманча играет незаменимую роль в формировании мелодико-гармонической структуры, в создании повествовательной и эмоциональной интенсивности.

**Ключевые слова:** кяманча, инструментальное исполнение, мугам, исполнитель, смычковые инструменты, музыкальный инструмент.

**UOT 785**

**Rəsul Mütəllimov Nazim oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənətə Universiteti**
**Magistrant**
**resulmutellim@gmail.com**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ QARMON ÜÇÜN KÖÇÜRÜLMÜŞ MÜRƏKKƏB FORMALI ƏSƏRLƏRİNDƏ İNTERPRETASİYA MƏSƏLƏLƏRİ

**Xülasə**

Azərbaycan bəstəkarlarının mürəkkəb formalı əsərlərinin qarmon üçün köçürülməsi və ifası, milli musiqi ənənələri ilə zəngin olan bu alətin texniki və ifadə imkanlarını araşdırmaq baxımından mühüm bir sahədir. Bu proses təkcə not köçürməsindən ibarət deyil, həm də əsərin orijinal ideyasını qarmonun spesifikasına uyğun şəkildə yenidən yaratmağı, yəni interpretasiyanı tələb edir. Bu prosesdə uğur, köçürmə texnikası ilə Azərbaycan muğam ənənəsinin ifadə vasitələrini sintez etməkdən, başqa sözlə, əsərin mətninə sadiq qalmaqla yanaşı, onu qarmonda canlı və emosional şəkildə interpretasiya etməkdədir. Bu cür köçürmələr nəinki qarmon ifaçılıq sənətinin inkişafına, həm də Azərbaycan bəstəkarlarının irsinin daha geniş auditoriya tərəfindən mənimsənilməsinə xidmət edir.

**Açar sözlər:** qarmon, mürəkkəb forma, interpretasiya, köçürmə, Azərbaycan, körük, bəstəkar əsərləri, repertuar.

**Giriş:** XX əsrin ikinci yarısında qarmon akademik ifaçılıqda mövqeyini xeyli möhkəmləndirdi. Bu proses, ilk növbədə, ifaçıların alətin əhəmiyyətli bədii-ifadə imkanlarını açmaq istəyi ilə əlaqədar olaraq, ifa olunan repertuarın keyfiyyətinin dəyişməsində özünü göstərdi. Mədəniyyət sahəsi kimi bu repertuar təkcə praktiki ifaçılar üçün deyil, həm də tədqiqatçılar üçün, şübhəsiz, maraq doğurur. Məlum olduğu kimi, hər hansı bir ölkənin musiqi mədəniyyəti öz milli sənətinin möhkəm təməli üzərində qurulur. Bu iki sahə arasında həmişə çevik və dinamik qarşılıqlı əlaqə olmuşdur.

**Əsas mətn:** XXI əsrdən etibarən təhsilin bütün mərhələlərində (uşaq musiqi məktəbindən ali məktəbədək) qarmon aləti üzrə təlim sistemində müəyyən qadağalar baş vermişdir. Qarmon alətinə olan ictimai marağın azalması fikri aydın sezilir ki, bunun səbəbləri arasında tez-tez ifaçıların köçürmələr əsasında qurulmuş repertuara həddindən artıq meyl etməsi göstərilir. Məxsusi qarmon aləti üçün bəstələnmiş əsərlərin olmaması, peşəkar akademik qarmon ifaçılığının formalaşmasına maneələr yarada bilər. Müasir dövrümüzdə də Azərbaycanın bütün musiqi təhsil müəssisələrində qarmon ixtisasının tədrisi köçürmələr üzərində aparılır. Bu köçürmələrdən çoxunda qarmonun partiyası çox sadə şəkildə verilmişdir. Lakin nəzərdən qaçırmaq olmaz ki, qarmon aləti həm solo və həm də müşayiətçi bir alətdir. Alətin texniki imkanları geniş olub, sağ əlin solo mövzusunu sol əl sərbəst şəkildə müşayiət etməyə qadirdir. Amma nəyə görəsə müasir dövrümüzə kimi köçürülmüş bütün əsərlərdə alətin texniki imkanları, sağ və sol əllərin funksiyaları nəzərə alınmamış, sağ əlin melodiyası hər zaman sol əldə düymələr vasitəsilə bir səs hasil etməklə müşayiət edilmişdir. Azərbaycan bəstəkarlarının bir sıra mürəkkəb formalı əsərləri tərəfimizdən ilk dəfə olaraq sağ və sol əl qarmon üçün köçürtülmüş və köçürülmə prosesində alətin texniki imkanlara nəzərə alınaraq sol ələ mürəkkəb müşayiət partiyası həvalə edilmişdir.

Azərbaycan bəstəkarlarının mürəkkəb formalı əsərlərinin qarmonda ifaçılıq xüsusiyyətləri Azərbaycan musiqisinin milli üslubunu, texniki və ifadə vasitələrini özündə birləşdirir. Bu əsərlər adətən xalq musiqisi ənənələrinə əsaslanır və qarmonun dinamik, tembr və texniki imkanlarından geniş istifadə edir. Azərbaycan bəstəkarlarının mürəkkəb formalı əsərləri qarmonda milli üslub, texnika və emosional ifadə bütövlüyü tələb edir. Bu əsərlər həm solo, həm də ansambl ifasında geniş yayılmışdır.

Qarmon alətində sol əlin funksiyalarının artırılması probleminin elmi tədqiqat səviyyəsində qarşıya qoyulmaması bu alətin inkişaf edərək formalaşmasına manelər yaratmışdır. Abbasqulu Nəcəfzadə yazır: "*Zakir Mirzəyev və Aftandil İsrafilov tərəfindən sol əlin texniki imkanlarının artırılması problemi irəli sürülmüşlər. Onlar qarmonda sol əlin funksiyalarını artıraraq, sol əllə melodiyaya uyğun olan ritmik fiqurasiyalar və akkordlar ifa edirlər*" [1, səh.48].

Azərbaycan bəstəkarlarının mürəkkəb formalı əsərlərindən: Tofiq Bakıxanov tar ilə simfonik orkestr üçün 1 və 2 saylı saylı konsertləri və Adil Bəbirovun "Konsert pyesi" və tərəfimizdən ilk dəfə olaraq sağ və sol əl qarmon üçün işlənilmişdir. Bu işləmələr görkəmli sənətkar-pedaqoqlar: Sərxan Mirzəyev, Baxşəli Əliyev, Fariz Baxşəliyev tərəfindən müsbət qarşılanaraq, həmin işləmələr qarmon ixtisası üzrə fənn proqramında yer almışdır. Tərəfimizdən sağ və sol əl qarmon üçün köçürülən bu əsərlər ali və orta təhsil müəssisələrinin tələbələri tərəfindən ifa edilərək, görkəmli qarmon ifaçılarının müsbət rəyini qazandığı üçün onların tədqiqata cəlb olunmasını məqsədəuyğun hesab edirik.

Tofiq Bakıxanovun tar ilə simfonik orkestr üçün 1 saylı Konserti ilk dəfə olaraq görkəmli qarmon ifaçısı Zakir Mirzəyev tərəfindən interpretasiya edilmişdir. Bu barədə A.Nəcəfzadə yazır: "*Tofiq Bakıxanovun tar ilə simfonik orkestr üçün 1 saylı konserti ilk dəfə olaraq Zakir Mirzəyev tərəfindən qarmon üçün köçürülmüş və onun ifasında peşəkarlıqla təfsir olunmuşdur. İfaçı solo mövzunu qarmon üçün köçürərkən alətin bütün texniki və tembr imkanlarından virtuozluqla istifadə etmişdir və bu xüsusiyyətləri öz interpretasiyasında da əks etdirmişdir*" [1, səh. 50].

Konsert üç hissəli quruluşa malik olub, birinci hissə sonata alleqrosu formasındadır. Birinci hissədə əsas mövzu "sol" mayəli "Bayatı-Şiraz" məqamında, təntənəli (Maestoso) şəkildə şərh olunur. Konsertin köməkçi mövzusu intonasiya və xarakter baxımından əsas mövzu ilə oxşarlıq təşkil edir. Köməkçi mövzu *Alleqretto* tempində bir qədər şux və oynaq interpretasiya olunmalıdır. Düşünürəm ki, bu hissədə əsərin xarakterini tam şəkildə ifadə etmək və dolğun səslənməni təmin etmək üçün sol əlin partiyasına T-S-D üçsəslisindən ibarət akkordlar həvalə etmək olar. Konsertin ikinci hissəsi *Andante* tempində lirik xarakerli musiqi lövhəsi olub, bu hissə "Şüştər" muğamında və *do minor (c-moll)* tonallığında səslənir. Mövzu inkişaf etdikcə "Humayun" muğamına xas olan intonasiyaları da eşidirik. Konsertin üçüncü hissəsi *Rondo* formasında və *Alleqro* tempində interpretasiya olunaraq, "Bayatı-Şiraz" muğamına xas olan xarakter ifadə edilməlidir.

Tofiq Bakıxanovun tar ilə simfonik orkestr üçün 2 saylı konserti ilk dəfə olaraq sağ və sol əl qarmon üçün işlənilmişdir. 2 saylı konsert üç hissədən ibarət olub, birinci hissə sonata-alleqro formasında bəstələnmişdir. Fortepianonun giriş mövzusunu solo qarmon müşayiət edir. Giriş mövzusu "Çahargah" muğamının Bərdaşt intonasiyalarını xatırladır. Bu səbəbdən də giriş mövzusunu sərbəst və muğam improvizasiyası ruhunda interpretasiya etmək məqsədəuyğundur. 1 rəqəmindən *Alleqro* tempində əsas mövzu səslənməyə başlayır. Bu hissədə sekstol notları triollarla çalmaq vacibdir.

Kvartolların aşağı istiqamətdə hərəkəti trel notlarla müqayisədə daha çətin ifa olunur. Bu səbəbdən də həmin notlatın dəqiqliklə ifası tələb olunur. İfaçı 1 rəqəmindən başlayaraq, səkkizlik

notları dinləməli və ritmik cəhətdən dəqiq ifaçılıq göstərməlidir. İfaçı səkkizlik noları dinləməli və onların ritminə saslanaraq ifa etməlilidir.

Adil Bəbirovun yaradıcılıq irsində 1980-ci ildə bəstələdiyi, estrada üçün nəzərdə tutulmuş birhissəli “Konsert pyesi” xüsusi diqqətə layiqdır. Əsər sonata formasında qurulmuşdur. Əsas mövzu çılğın, oynaq və enerji ilə zəngin xarakter daşıyır. Kompozisiya sürətli alleqro tempində başlayaraq, tədricən lirik, mahnıvari və cantilena üslubunu xatırladan köməkçi mövzuya keçid edir; bu isə sonata formasının əsas prinsiplərindən biri olan kontrastlıq effektini yaradır. Əsərdə istifadə olunmuş kəskin ritmik və intonasiya xüsusiyyətləri bəzi hallarda caz musiqisinə xas olan ifadə vasitələrini assosiasiya yaratdırır. Tərənnüm olunan əsər, həmçinin tar və simfonik orkestr üçün işlənmiş transkripsiyası vasitəsilə tar ifaçılarının konsert repertuarında möhkəm yer tutmuşdur. Eyni zamanda əsər bir çox alətlər üçün köçürülərək tədris proqramlarına daxil edilmişdir.

Adil Bəbirovun “Konsert pyesi” qarmonda özünəməxsus ifaçılıq problemləri və ifadə imkanları yaradır. Əsərin sonata formasında qurulması və kontrastlıq prinsipi, sağ və sol əlin əhəmiyyətini kəskin şəkildə artırır.

Əsas mövzu çılğın və enerjili, kəskin ritmik fiqurlarla xarakterizə olunaraq, qarmonda əsasən sağ əllə ifa olunur. Körüyün kəskin ifa texnikasından istifadə edərək, sol əllə akkordları və ritmik bazanı yerinə yetirmək lazımdır. Xüsusilə, caz elementlərini xatırladan sinkopalar və kəskin dissonanslar sol əlın bas hissəsində vurğulanır ki, bu da harmonik dayağı gücləndirir. Orta lirik xarakterli bölmədə sol əl, körüyü mülayim və davamlı sürüşmə ilə idarə edərək, sağ əlin ifa etdiyi melodiyaya zəngin, vibratolu və ifadəli bir fon yaradır. Sağ əl burada səs hasil etmə texnikasını dəyişir, daha çox *legato* və bəzən *portamento* (səslərin bir-birinə sürüşərək birləşdirilməsi) texnikasından istifadə edərək emosional bir dərinlik əldə edir.

Pyesin əsasını təşkil edən kontrastlıq prinsipi birbaşa sağ və sol əlın dialoqu ilə həyata keçirilir. Kəskin və güclü ifadan lirik səslənməyə keçid hər iki əlin mükəmməl əlaqəsi olmadan mümkün deyil. Məsələn, *fortissimo* nüansında səslənən akkordlardan sonra gələn piano nüansında şərh olunan passajlar körüyün dəqiq idarə edilməsini tələb edir. Adil Bəbirovun “Konsert pyesi” Qaytağı ansamblının ifasında Ənvər Sadıqovun qarmonda interpretasiyasında olduqca ehtiraslı tərzlə təfsir olunmuşdur [2].

**Nəticə.** Beləliklə, müasir dövrümüzdə qarmon ifaçılığında yeni istiqamətlərin müəyyənləşdirilməsi, alətin sağ və sol əllə birgə tədrisinə başlanılması zəruriyyət kəsb edir. Belə olduğu halda qarmon ifaçılığı daha da təkmilləşərək, dünya ifaçılıq səviyyəsi ilə bərabərləşər. Qarmon ifaçılığında Azərbaycan bəstəkarlarının əsərləri mühüm yer tutur. Bu səbəbdən də bəstəkarlarımızın konsert, fantaziya, süita janrında bəstələdikləri əsərlər sağ və sol əl qarmon üçün işlənilərək tədris repertuarına əlavə edilməlidir.

## Ədəbiyyat siyahısı

1. Nəcəfzadə A. Xalq çalğı alətlərinin tədrisi metodikası. Dərs vəsaiti. Bakı, MBM, 2007, 68 səh.
2. “Qaytağı” ansamblı – “Konsert pyesi”. https://www.facebook.com/mahnikitabchasi/videos/qayta%C4%9F%C4%B1-ansambl%C4%B1-konsert-pyesi/248616706308367/
3. Mirzəyev Z. Azərbaycan qarmonu. Monoqrafiya. Bakı, MBM, 1998, 200 səh.

**Rasul Mutallimov Nazim oghlu**

## THE PROBLEMS OF INTERPRETATION OF AZERBAIJANI COMPOSERS` COMPLEX PIECES FOR PLAYING THE ACCORDION

**Summary**

The transcription and performance of Azerbaijani composers' works for the accordion is an important field for exploring the technical and expressive possibilities of this instrument, which is rich in national musical traditions. This process is not merely about transcribing notes; it also requires recreating the original idea of the work in accordance with the specific characteristics of the accordion, i.e., it demands interpretation. Success in this process lies in synthesizing transcription technique with the expressive means of the Azerbaijani Mugham tradition - in other words, while remaining faithful to the text of the work, it must also be interpreted on the accordion in a lively and emotional manner. Such transcriptions serve not only the development of accordion performance art but also the assimilation of the heritage of Azerbaijani composers by a wider audience.

**Key words:** accordion, interpretation, transcription, Azerbaijan, bellows, composers' works, repertoire.

**Расул Муталлимов Назим оглу**

## ВОПРОСЫ ИНТЕРПРЕТАЦИИ СЛОЖНЫХ ФОРМ ПРОИЗВЕДЕНИЙ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ, ПЕРЕЛОЖЕННЫХ ДЛЯ ГАРМОНИ

**Резюме**

Переложение и исполнение произведений сложных форм Азербайджанских композиторов для гармони представляет собой важную область с точки зрения изучения технических и выразительных возможностей этого инструмента, богатого национальными музыкальными традициями. Этот процесс заключается не только в простой транскрипции нот, но и требует воссоздания оригинального замысла произведения с учётом специфики гармони, то есть интерпретации. Успех в этом процессе зависит от синтеза техники переложения с выразительными средствами азербайджанской традиции мугама, иными словами от сохранения верности тексту произведения при одновременном его живом и эмоциональном воплощении на гармони. Подобные переложения служат не только развитию исполнительского искусства на гармони, но и более широкому освоению наследия Азербайджанских композиторов различной аудиторией.

**Ключевые слова:** гармонь, сложная форма, интерпретация, переложение, Азербайджан, меха, произведения композиторов, репертуар.

UOT 7.75

**Aydan Rüstəmova Fəhrad qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**aydanrustem25@gmail.com**

# TƏSVİRİ SƏNƏTDƏ ŞƏHƏR MƏNZƏRƏLƏRİ: TARİXİLİK VƏ MÜASİR İNTERPRETASİYA

**Xülasə**

Təsviri sənətdə şəhər mənzərələrinin əks olunması tarixinin kökləri hələ çox qədimlərə- antik dövrə qədər yol alır. Lakin bu təsvirlər daha çox Renessans və sonrakı dövrlər ilə əlaqəlidir. Məqalədə müasir dövrdə şəhər mənzərələrinin təsvirində tarixilik və müasirliyə interpretasiyadan danışılır. Tədqiqat işində məhz bu problemlər araşdırılmış, şəhərlər yalnız insanların fiziki yaşayış yeri kimi yox, həm də sosial və mədəni aspektlərdən dəyərləndirilmiş, təsviri sənətdə bir obraz kimi göstərilmişdir. Müəllif şəhər mənzərələrinin təsviri sənətdəki yerini həm də zövq və gözəllik baxımından vacib element kimi vurğulamış, şəhər mənzərələrinin sənətdəki inkişafının müxtəlif dövrlərini təhlil etmiş, tarixi izləmə ilə şəhər mənzərələrinin necə təsvir olunduğunu, klassik dövr rəsmlərindən müasir rəqəmsal sənətə qədər və müasir dövrdə necə interpretasiya edildiyini incələmişdir.

**Açar sözlər:** şəhər mənzərələri, interpretasiya, təsviri sənət, tarixilik və müasirlik, dəyişən inkişaf, vizual mənzərə, alternativ formalar

## Giriş

Dünya təsviri sənətində şəhər mənzərələrinin yer alması diqqəti cəlb edən hadisədir. İnsanın bu yaradıcılığında sonsuz məkan və qoca zaman anlayışları birləşərək təbiət və mədəniyyəti vahid hala gətirmişdir. Artıq burada şəhər anlayışı yalnız insanın fiziki məkanı kimi düşünülmür və şəhər mənzərələri zövq verərərək görünüş (vizual) və mədəni dəyərlər baxımından təsviri sənətin mühüm bir hissəsi təsiri bağışlayır. Bu baxımdan bu tədqiqat şəhər mənzərələrinin sənətdəki tarixi inkişafını araşdıraraq, müasir dövrün təsviri sənətində necə interpretasiya edildiyini və yeni texnologiyaların bu sahəyə necə təsir etdiyini incələyir.

## Təsviri sənətdə şəhər motivi

Təsviri sənətdə şəhər mənzərələrinin əks olunması hələ antik dövrə, xüsusən də Renesans dövrünə aid edilir. Şəhər mənzərələri ən qədim dövrlərdə belə sənətçilərin diqqətini cəlb etmiş, qədim sənət adamları insanların bu fiziki yaşayış məkanlarının gündəlik həyat mənzərələrini təsvir etməklə, şəhərlərin memarlığını dövrün imkanları çərçivəsində əks etdirməyə nail olmuşlar. Bu dövrlərdə sənətçilər mənzərə sənətini inkişaf etdirərək təbiət və şəhər həyatını insanın estetik baxışı mövqeyindən təsvir etmişlər. Bu sənətkarlar içərisində Leonardo da Vinci və Pieter Bruegel fiziki liderlər olaraq şəhər mənzərələrini fərqli cəhətlər baxımından incələmiş, şəhər obrazı əsasında sənət əsərləri yaratmışlar. Bu baxımdan "...küçə sənətinin gələcəyi bəzi cəhətlərdən qeyri-müəyyən qalsa da, gələcək illərdə regionda müasir incəsənətin vacib elementini təşkil etmişdir" [5].

Tədqiqatda 19- cu əsrdə *Impressionnisme* hərəkatının şəhər mənzərələrini bir obraz olaraq necə təsvir etdiyi və daha da irəliləyişlərə yol açdığı qeyd edilir. Bu dövrün məşhur sənətkarı Claude

Monet sənətində şəhərləri və onların dəyişən işıq və atmosfer şəraitlərini göstərərək şəhər mənzərələri mövzusunu təbiətə olan fərqli yanaşmalarla təsvir etmiş, müxtəlif interpretasiyalar yaratmaqla bu sahəyə sahib olmuşdur. İmpressionizm sənətində sənətkarların məqsədinin obyektləri dəqiq və detallı çəkmək yox, insanın həmin an aldığı təəssüratı (izlənimi) göstərmək olmuşdur. İmpressionistlər rəsmlərində “nə gördüklərini” deyil, mənzərənin insana təsiri ilə bağlı “gördüklərim məndə necə hiss oyadır” sualını cavablandırmağa çalışmışlar.

**Şəhər mənzərələrinin təsvir xüsusiyyətləri**

Qədim rəsmlər şəhər mənzərələrini göründüyündən fərqli – daha canlı, daha anlıq və hissiyyatlı şəkildə təsvir imkanı verir. Burada işıq və rəngin dəyişməsininin göstərilməsi, ani anların (məsələn, küçə həyatı, hava vəziyyəti) təsvir edilməsi, fırça izlərinin açıq və sərbəst olması, gündəlik həyat səhnələrinin əks etdirilməsi mənzərə sənətinin dərinliyindən xəbər verir: “Xoş estetikaya malik şəhər məkanları istirahət, müşahidə və düşüncə vasitəsilə iştirakçılara hedonik (həzz, zövq) xoşbəxtlik bəxş edir” [6]. Bəs bu qədim təsvirlərlə müqayisədə inkişaf edən və rəqəmsallaşmaya məruz qalan müasir şəhər mənzərələri tarixilikdən müasirliyə necə interperentasiya etmişdir?

**Müasir şəhər mənzərələrinin interpretasiyası**

Texnologiyanın və urbanizasiyanın inkişafı ilə şəhər mənzərələrinin təsvirində yeni bir mərhələ başlamışdır. Rəqəmsal sənət, 3D modelləşdirmə və animasiya kimi texnologiyalar müasir sənətçilərə şəhər mənzərələrini daha yaradıcı və dinamik şəkildə təsvir etməyə imkan yaratmışdır. Hazırda müasir sənətçilər şəhər mənzərələrini cəmiyyətin sosial problemlərini əks etdirmək və ya urban mühitin təzadlarını vurğulamaq məqsədilə istifadə edirlər. Bu baxımından Benskinin küçə sənətində şəhər mühiti, sosial və siyasi mesajlarla birləşərək, həm vizual estetikaya, həm də sosial ədalətə dair tənqidlər təqdim edir (Rees, 2010). “Benksi mediada heç vaxt görmədiyimiz, lakin işləri və ideyaları dünya miqyasında tanınan Londonlu qraffiti rəssamıdır. Tez-tez açıq və ictimai məkanları iş sahəsi kimi istifadə edən Benksi, dünyanın hər yerindəki şəhərləri öz kətanına çevirməyə davam edir” [7].

Benskinin “Sallanan Kız” (2010, Los Angeles, Amerika) əsəri şəhər mənzərəsini əks etdirir. Bu əsər Brodveydə və ətraf ərazilərdə uşaqların oynaması üçün artıq yer qalmadığını göstərir və o, bunu əvvəllər mövcud olan yazı ilə çox məharətlə təsvir edib. Benskidən işin texnikasını soruşduqda o belə cavab vermişdir: “Mən qarşıma çıxan hər şeyi istifadə edirəm. Məsələn, reklam lövhəsində bir qızın üzünə bığ çəkə bilərəm və ya mürəkkəb bir ideya üzərində günlərlə tərləyə bilərəm”.






Benskinin “Bomba ve Qız” (2003, London, İngiltərə) əsəri bu günə interpretasiya baxımından maraq doğurur. Bu divar rəsmi müharibənin dəhşətləri ilə kəskin şəkildə ziddiyyət təşkil edən şəhərli gənc bir qızın məsumluğunu və saflığını simvolizə edir: Xeyir və şər birlikdə yaşayır, sülh içində yaşaya bildiyimiz halda niyə müharibə aparıldığını sorğulayır.

Bundan əlavə, digital art (rəqəmsal incəsənət) və augmented reality (AR-Artırılmış Reallıq) texnologiyalar şəhər mənzərələrinin təqdimini daha çox təkmilləşdirərək, istifadəçiləri daha interaktiv və immersiv (reallığı yaşamaq) təcrübələrə dəvət edir, şəhər mədəniyyətinin təhlilində və estetik təzahüründə yeni bir mərhələni göstərir. Müasir şəhər mənzərələri bir obraz olaraq həmçinin,

müxtəlif sosial, iqtisadi və ekoloji məsələlərin əks olunduğu, həmçinin cəmiyyətin fərqli aspektlərini viziullaşdırmaq üçün istifadə edilən güclü bir vasitədir. Bu baxımdan Azərbaycan təsviri sənətində də reallıqda şəhər mənzərələrinin interperentasiyasına rast gəlirik. Tədqiqatda Bakı şəhərinin məzərələri tarixilik və interperentasiya baxımından müqayisə edilmişdir.

**Azərbaycan təsviri sənətində şəhər mənzərələri: tarixilik və müasir interpretasiya**





Azərbaycan mənzərə janrının inkişafı XIX əsrin ortalarına təsadüf edir. Mənzərə janrında fəaliyyət göstərən rəssamlarımız K.Xanlarov, B.Əliyev, N.İsmayılov, C.Müfidzadə, M.Rəhmanzadə bu janrının ən yaxşı nümunələrini yaratmışlar. Ş. Əliyeva qeyd edir ki, "Mənzərə janrı bu gün də Azərbaycan təsviri sənətində əhəmiyyətli yer tutaraq tarixən formalaşmış yüksək bədii ənənələri sənətində davam və inkişaf etdirir" [1]. Bu fikirlərdən yanaşaraq deyə bilərik ki, Bakı şəhəri tarixi və müasir memarlığın unikal sintezini əks etdirən nadir şəhərlərdən biridir. Onun şəhər mənzərələri bir obraz olaraq həm keçmişin izlərini, həm də XXI əsrin dinamizmini vizual olaraq təqdim edir. Bakı Xəzər dənizi sahilində yerləşməsi, Qədim Şəhər (İçərişəhər) kimi tarixi mərkəzi və müasir Flame Towers (Alov Qüllələri) kimi simvolik tikililəri ilə bu iki dünyanın üzvi qarışığını nümayiş etdirir. Tarixi tərəfdən Bakı mənzərələri İçərişəhərin dar küçələri, qalalar və məscidlər vasitəsilə özünü göstərir. Bu küçələrdə XIX əsr memarlığı ilə bərabər, orta əsrlərin daş fasadlı binalarını da görmək mümkündür. Bu mənzərə həm turistləri, həm də sənətkarları heyrətləndirir, çünki burada



tarixin canlı izləri günümüzün şəhər həyatına qarışır. Rəssamlar üçün bu məkanlar işıq və kölgənin oyunu, dar küçələrin perspektivi və daş fasadların fakturası ilə eksperimental vizual kompozisiyalar yaratmaq üçün zəngin mənbədir. Müasir interpretasiya isə Bakı şəhər mənzərələrində Flame Towers, Heydər Əliyev Mərkəzi və Şəhər Bulvarı kimi yeni simvolik obyektlər vasitəsilə ortaya çıxır. "Flame Towers"in parlaq şüşə fasadları və dinamik işıqlandırması şəhərin gecə mənzərələrinə futuristik bir təsir verir. Eyni zamanda, bulvar boyunca dənizlə şəhərin sintezi və modern memarlıqla tarixi binaların birlikdə vizual təcrübələrə ilham verir. Bu yanaşma şəhəri təkcə fiziki məkan kimi deyil, həm də zaman və mədəniyyət kontekstində incəsənət üçün ifadəli bir obraz kimi



təqdim edir. Bu baxımdan Azərbaycanın qədim şəhərlərindən olan Gəncə, Şəki, Şamaxı, Qəbələ, Naxçıvan kimi bölgələrində də kifayət qədər tarixilik və müasirliyin interperetasiyasını özündə əks etdirən nümunələr vardır. Bunlar göstərir ki, yalnız Bakı şəhəri deyil, digər şəhərlərimizin də

mənzərələri tarixi və müasir interpretasiyanı bir arada əks etdirən zəngin bir məkan kimi önəm daşıyır və şəhər mənzərələri fonunda şəhər obrazı tarixi ruhu və müasir memarlığın dinamizmi birlikdə həm şəhərin vizual hekayəsini yaradır, həm də sənətçilər üçün bir tədqiqat, bir ilham mənbəyi olur.

**Nəticə**

Şəhər mənzərələri sənətdə tarixən yalnız estetik məqsədlərlə istifadə edilən bir mövzu olmuşdur, lakin bu mövzu, zamanla həm vizual, həm də mədəni baxımdan daha zəngin və kompleks bir hala gələrək təsviri sənətdə şəhər obrazına çevrilmişdir.“Şəhərlər kommunal xatirələrin formalaşdığı fiziki müstəvi olmaqla yanaşı, keçmiş hadisələrin və təcrübələrin baş verdiyi yerdir” [3]. Bu gün üçün isə texnologiyaların və urbanizasiya proseslərinin təsiri ilə şəhər mənzərələri yalnız fiziki mühitin təsviri olmaqla qalmır, həm də sosial, iqtisadi və ekoloji təhlillərin təqdim edilməsi üçün bir vasitəyə – obraza çevrilir. Həm ənənəvi, həm də müasir sənətçilər şəhər mənzərələrini fərqli perspektivlərdən və fərqli mesajlarla təqdim edərək, şəhər həyatının müxtəlif aspektlərini önə çıxarırlar. Belə ki, “Şəhər mənzərəsində yeni bir şəhər norması olan ictimai incəsənət şəhər məkanlarını bəzəmək və gözəlləşdirmək üçün geniş istifadə olunur. Bundan əlavə, diqqətlə hazırlanmış ictimai incəsənət inkişaf etməmiş şəhər ərazilərini dinamik icma mərkəzlərinə çevirə bilər və beləliklə, şəhərin bərpasını təşviq edər” [8]. Bu da o deməkdir ki, şəhər mənzərələrinin sənətdəki inkişafının və müasir interpretasiyasının araşdırılması şəhər mədəniyyətinin sənətə olan təsirini daha yaxşı başa düşməyə kömək edir.

**Ədəbiyyat siyahısı**

1. Əliyeva, Ş. (2019) XIX əsrin ortalarında Azərbaycan təsviri sənətində mənzərə janrı. Bakı: ADPU-nun nəşriyyatı.
2. Xanlarov, K.,Əliyev,B.,İsmayılov, N. (2013). Sərvət. Bakı: Şərq-Qərb Nəşriyyatı. – 104 s.
3. Aşur, F. Akpınar, E. (2022) The role of urban landscapes in the formation of urban identity and urban memory relations: the case of Van/Turkey/ June Planning Perspectives 37(3):1-17.
4. Banksy'nin 189 duvar resmi, grafitisi ve sokak sanatı. https://www.duvarresmiboyamasanati.com/blog/banksynin-189-duvar-resmi-grafitisi-ve-sokak-sanati
5. DeTurk, Sabrina. (2015) The “Banksy Effect” and Street Art in the Middle. East Street Art and Urban Creativity 1(2):22-30
6. Nia, H.A.; Olugbenga, F. (2020). Quest on the Role of Aesthetics in Enhancing Functionality of Urban Planning. Civ. Eng. Archit. 8, 873–879.
7. Yue Cheng, Jiayin Chen, Jiahua Li, Lin Li, Guanhua Hou, and Xuan Xiao.(2023).Research on the Preference of Public Art Design in Urban Landscapes: Evidence from an Event-Related Potential Study. *12*(10), 1883;
8. Yue Cheng, (2023) https://doi.org/10.3390/land12101883
9. https://www.duvarresmiboyamasanati.com/blog/banksynin-189-duvar-resmi-grafitisi-ve-sokak-sanati

**Rustamova Aydan Fahrad gizi**

## URBAN LANDSCAPES IN FINE ART: HISTORICITY AND MODERN INTERPRETATION

**Summary**

The roots of the history of the depiction of urban landscapes in fine art go back to ancient times – to antiquity. However, these depictions are more related to the Renaissance and later periods. The article discusses the interpretation of historicity in the depiction of urban landscapes in modern times. These problems were investigated in the research work, cities were evaluated not only as physical places of residence of people, but also from social and cultural aspects, and were emphasized as an image in fine art. The author emphasized the place of urban landscapes in fine art as an important element in terms of taste and beauty, analyzed the different periods of the development of urban landscapes in art, and examined how urban landscapes are depicted with historical tracing, from classical period paintings to modern digital art and how they are interpreted in the modern era.

**Key words:** cityscapes, interpretation, fine arts, historicity and modernity, changing development, visual landscape, alternative forms.

**Рустамова Айдан Фахрад гызы**

## ГОРОДСКИЕ ПЕЙЗАЖИ В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ: ИСТОРИЧНОСТЬ И СОВРЕМЕННАЯ ИНТЕРПРЕТАЦИЯ

**Резюме**

История изображения городских пейзажей в изобразительном искусстве уходит корнями в древность – в античность. Однако эти изображения в большей степени относятся к эпохе Возрождения и более поздним периодам. В статье рассматривается интерпретация историчности в изображении городских пейзажей в современную эпоху. В ходе исследования изучались эти проблемы, города оценивались не только как физические места проживания людей, но и с социально-культурной точки зрения, и подчеркивались как образ в изобразительном искусстве. Автор подчеркивает место городских пейзажей в изобразительном искусстве как важного элемента с точки зрения вкуса и красоты, анализирует различные периоды развития городских пейзажей в искусстве и исследует, как городские пейзажи изображаются с исторической привязкой, от классической живописи до современного цифрового искусства, и как они интерпретируются в современную эпоху.

**Ключевые слова:** городские пейзажи, интерпретация, изобразительное искусство, историчность и современность, меняющееся развитие, визуальный ландшафт, альтернативные формы.

**UOT 379.85**
**ORCID: https://orcid.org/ 0009-0001-8744-9649**

**Tacir Abdurahmanov Səyavuş**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**abdurahmanovtacir@gmail.com**

# ŞƏHƏR MÜHİTİNDƏ NƏQLİYYAT SİSTEMLƏRİNİN SOSİAL-MƏDƏNİ TURİZMİN İNKİŞAFINA TƏSİRİ: AZƏRBAYCAN NÜMUNƏSİNDƏ TƏHLİL

**Xülasə**

Məqalədə şəhər mühitində nəqliyyat sistemlərinin sosial-mədəni turizmin inkişafına təsiri Azərbaycan nümunəsində təhlil edilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, şəhərlərdə turizm potensialının artmasına baxmayaraq, nəqliyyat sistemlərinin turizm yönümlü planlaşdırılması və funksional inteqrasiyası hələ kifayət qədər inkişaf etməmişdir. Xüsusilə multimodal əlaqələrin zəifliyi, turistlər üçün uyğun marşrut və xidmətlərin məhdudluğu, informasiya əlçatanlığının aşağı səviyyəsi və regionlararası fərqlər turizm axınının səmərəli idarə olunmasına maneə yaradır. Məqalədə beynəlxalq təcrübə ilə müqayisə aparılaraq müəyyən edilmişdir ki, inkişaf etmiş şəhərlərdə nəqliyyat sistemləri turist yönümlü xidmətlərlə inteqrasiya olunduğu halda, Azərbaycanda bu yanaşma əsasən infrastruktur səviyyəsində qalır və xidmət dizaynı baxımından yetərli deyil. Bu baxımdan, vahid turizm nəqliyyat kartının tətbiqi, rəqəmsal mobillik həllərinin genişləndirilməsi, multimodal marşrutların yaradılması və inklüziv nəqliyyat infrastrukturunun inkişafı əsas prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

**Açar sözlər:** şəhər turizmi, nəqliyyat infrastrukturu, multimodal sistemlər, turizm-nəqliyyat inteqrasiyası, dayanıqlı şəhər mobilliyi.

Müasir dövrdə şəhərlər sosial-mədəni turizmin əsas mərkəzlərinə çevrilmişdir. UN Tourism məlumatlarına görə, 2024-cü ildə dünya üzrə 1,4 milyard beynəlxalq turist qeydə alınmış və bu göstərici pandemiyadan əvvəlki səviyyənin 99%-nə çatmışdır [1; 7]. Bu dinamika göstərir ki, turizm axınının böyük hissəsi məhz şəhərlərdə cəmləşir və şəhər mühiti turizm fəaliyyətinin əsas platforması kimi çıxış edir. Tarixi abidələr, muzeylər, teatrlar, qalereyalar və multikultural mühit şəhərlərin cəlbediciliyini artıran əsas amillərdir.

Aparılan təhlil göstərir ki, bu potensialın tam reallaşdırılması birbaşa nəqliyyat sisteminin səmərəliliyindən asılıdır. Şəhər mühitində nəqliyyat infrastrukturu yalnız xidmətedici mexanizm deyil, eyni zamanda turist təcrübəsinin keyfiyyətini müəyyən edən əsas amillərdən biridir. Nəqliyyatın qeyri-effektiv təşkili turist axınının məkan üzrə qeyri-bərabər paylanmasına səbəb olur ki, bu da həm iqtisadi səmərəliliyin azalmasına, həm də şəhər daxilində nəqliyyat yüklənməsinin artmasına gətirib çıxarır. Bu baxımdan nəqliyyat sistemi turizmin inkişafında passiv deyil, aktiv formalaşdırıcı rol oynayır.

Azərbaycanda şəhər turizminin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində öz əksini tapmışdır. Bakı, Gəncə, Şəki, Sumqayıt, Lənkəran, Naxçıvan, eləcə də işğaldan azad edilmiş Şuşa, Ağdam və Füzuli

şəhərlərində turizm infrastrukturunun inkişafına yönəlmiş layihələrin həyata keçirilməsi bu sahəyə artan diqqətin göstəricisidir. 2024-cü ildə Bakıda keçirilmiş COP29 çərçivəsində nəqliyyat və turizmin dayanıqlı inkişafına dair qəbul edilən qərarlar və yüksək səviyyəli müzakirələr bu istiqamətin strateji əhəmiyyətini daha da gücləndirmişdir [10].

Bununla belə, aparılan təhlil göstərir ki, nəqliyyat və turizm sektorları arasında qarşılıqlı əlaqə hələ sistemli xarakter daşımır. Xüsusilə turist yönümlü marşrutların planlaşdırılmaması, nəqliyyat xidmətlərinin istifadəçi təcrübəsinə uyğunlaşdırılmaması və informasiya əlçatanlığının zəifliyi bu sahədə əsas struktur problemlər kimi çıxış edir. Bu isə onu göstərir ki, əsas məsələ yalnız infrastrukturun mövcudluğu ilə deyil, onun turizm məqsədlərinə uyğun şəkildə idarə olunması ilə bağlıdır.

Şəhər mühitində nəqliyyat sistemi turizm fəaliyyətinin əsas komponentlərindən biridir. Turistlərin hərəkət marşrutları, obyektlərə çıxış imkanları və xidmət nöqtələri arasında əlaqə birbaşa nəqliyyat şəbəkəsinin effektivliyindən asılıdır. Beynəlxalq təcrübə göstərir ki, nəqliyyatın turizmə inteqrasiyası şəhər turizminin inkişaf səviyyəsini müəyyən edən əsas amillərdən biridir [8; 11].

Azərbaycan şəhərlərində mövcud vəziyyət göstərir ki, nəqliyyat sistemləri əsasən gündəlik işçi axınına uyğun formalaşdırılmış, turizm ehtiyacları isə ikinci planda qalmışdır. Mövsümi turist axınlarının idarə olunmaması, xüsusi turizm marşrutlarının olmaması və xarici dillərdə məlumatlandırmanın zəifliyi bu sahədə ciddi boşluqların mövcudluğunu təsdiqləyir. Bu isə turistlərin şəhər daxilində hərəkətini çətinləşdirir və onların alternativ, daha bahalı nəqliyyat vasitələrinə yönəlməsinə səbəb olur.

Nəqliyyat növlərinin turizmdəki rolu çoxşaxəlidir və onların effektivliyi turizm axınının düzgün təşkilindən birbaşa asılıdır. Aparılan təhlil göstərir ki, Azərbaycan şəhərlərində mövcud nəqliyyat sistemləri funksional olsa da, turizm yönümlü planlaşdırma baxımından yetərincə optimallaşdırılmamışdır. Metropoliten Bakıda əsas mərkəzləri birləşdirsə də, turizm baxımından əhəmiyyətli məkanların hamısını əhatə etmir və bu, turistlərin əlavə vaxt və resurs sərf etməsinə səbəb olur.

Avtobus şəbəkəsi geniş əhatəyə malik olsa da, marşrutların əsasən gündəlik işçi hərəkətinə uyğun qurulması turizm ehtiyaclarının nəzərə alınmadığını göstərir. Bu vəziyyət turistlərin şəhər daxilində optimal marşrut seçimini çətinləşdirir və onların daha çox taksi xidmətlərinə yönəlməsinə səbəb olur. Taksi platformalarının geniş istifadəsi isə həm turizm xərclərini artırır, həm də şəhər daxilində nəqliyyat sıxlığını gücləndirir.

Alternativ nəqliyyat növləri üzrə vəziyyət qeyri-bərabərdir. AYNA-nın məlumatına görə, Bakıda velosiped və mikromobillik infrastrukturu formalaşmağa başlasa da, region şəhərlərində bu sahə demək olar ki, inkişaf etməmişdir [3]. Bu isə şəhərlər arasında turizm təcrübəsinin keyfiyyətində ciddi fərqlər yaradır. Piyada zonalarının mövcudluğuna baxmayaraq, onların ümumi nəqliyyat sistemi ilə inteqrasiyasının zəif olması multimodal yanaşmanın formalaşmasına maneə yaradır.

Azərbaycan şəhərlərində turizm potensialı dövlət siyasəti ilə dəstəklənsə də, nəqliyyat və turizm planlaşdırması arasında institusional koordinasiyanın zəifliyi bu potensialın tam reallaşdırılmasına maneə yaradır. Xüsusilə turistlər üçün xüsusi nəqliyyat həllərinin olmaması və region şəhərlərində nəqliyyat xidmətlərinin aşağı səviyyədə qalması bu sahədə sistemli problemlərin davam etdiyini göstərir.

Bakı şəhəri əsas turizm mərkəzi kimi inkişaf etsə də, nəqliyyat baxımından turizm yönümlü xidmətlərin çatışmazlığı müşahidə olunur. Region şəhərlərində isə turizm üçün ixtisaslaşmış

nəqliyyat sistemlərinin demək olar ki, mövcud olmaması turizm axınının əsasən paytaxtda cəmləşməsinə səbəb olur. Bu isə regional turizmin inkişaf imkanlarını məhdudlaşdırır və turizm gəlirlərinin qeyri-bərabər bölgüsünə gətirib çıxarır.

Rəqəmsal həllər müəyyən irəliləyişlər yaratsa da, onların turizm yönümlü funksionallığı məhdud olaraq qalır. “AYNA MaaS” platforması müxtəlif nəqliyyat növlərini vahid sistemdə birləşdirsə də, turistlər üçün fərdiləşdirilmiş marşrutlar və xüsusi xidmət paketləri təqdim etmir [4; 5]. Eyni zamanda “BakıKart” sistemində turistlər üçün qısa müddətli keçid paketlərinin olmaması beynəlxalq təcrübə ilə müqayisədə ciddi boşluq kimi qiymətləndirilə bilər.

Ekoloji nəqliyyatın inkişafı istiqamətində atılan addımlar müsbət tendensiya yaratsa da, bu sahədə transformasiya hələ ilkin mərhələdədir. Elektrikli nəqliyyat vasitələrinin payının aşağı olması və regionlarda nəqliyyat parkının köhnəlməsi həm ekoloji dayanıqlılığa, həm də turizm xidmətlərinin keyfiyyətinə mənfi təsir göstərir. Bununla yanaşı, dayanıqlı mobillik sistemlərinə keçidin iqtisadi baxımdan da mühüm faydalar gətirdiyi beynəlxalq tədqiqatlarda qeyd olunur [7].

Beynəlxalq təcrübə göstərir ki, nəqliyyat və turizmin effektiv inteqrasiyası vahid sistem yanaşması tələb edir. London, Paris və Sinqapur kimi şəhərlərdə nəqliyyat sistemləri turist yönümlü xidmətlərlə sıx inteqrasiya olunduğu halda, Azərbaycanda bu yanaşma hələ tam formalaşmamışdır. Bu isə göstərir ki, əsas problem infrastrukturun mövcudluğu deyil, onun funksional və strateji idarə olunmasındadır.

Bu baxımdan, perspektiv inkişaf istiqamətləri yalnız texniki həllərlə məhdudlaşmamalı, həm də idarəetmə və planlaşdırma mexanizmlərini əhatə etməlidir. Vahid turizm nəqliyyat kartının tətbiqi, multimodal marşrutların yaradılması, tematik nəqliyyat xidmətlərinin inkişafı və inklüziv infrastrukturun genişləndirilməsi turizm axınının daha səmərəli idarə olunmasına imkan verə bilər.

Gələcək perspektivlər göstərir ki, ağıllı şəhər texnologiyalarının və rəqəmsal mobillik həllərinin tətbiqi nəqliyyat sisteminin turizmə uyğunlaşdırılmasında əsas rol oynayacaqdır. Lakin bu proses yalnız texnoloji yeniliklərlə deyil, eyni zamanda strateji idarəetmə və sektorlararası koordinasiya ilə dəstəklənmədiyi halda mövcud nəqliyyat sistemi turizm potensialının reallaşdırılmasında əsas məhdudlaşdırıcı amil olaraq qalacaqdır.

**Nəticə**

Aparılan təhlil göstərir ki, Azərbaycan şəhərlərində sosial-mədəni turizmin inkişafı üçün zəruri infrastruktur əsasən formalaşmış olsa da, nəqliyyat sisteminin turizm yönümlü planlaşdırılması və funksional inteqrasiyası hələ kifayət qədər inkişaf etməmişdir. Mövcud problemlər, yəni multimodal əlaqələrin zəifliyi, turistlərə uyğun marşrut və xidmətlərin çatışmazlığı, informasiya əlçatanlığının aşağı səviyyəsi və regionlararası fərqlər turizm potensialının tam reallaşdırılmasına maneə yaradır. Bu isə onu göstərir ki, əsas məsələ yeni infrastrukturun yaradılmasından daha çox, mövcud sistemin turizm tələblərinə uyğun optimallaşdırılması və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsidir. Bu istiqamətdə vahid nəqliyyat həllərinin tətbiqi, rəqəmsal mobillik sistemlərinin genişləndirilməsi və sektorlararası koordinasiyanın gücləndirilməsi Azərbaycan şəhərlərinin beynəlxalq turizm məkanları kimi rəqabət qabiliyyətinin artırılmasında həlledici rol oynaya bilər.

**Ədəbiyyat siyahısı**

1. UN Tourism Data Dashboard | Key Indicators

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2024, noyabr). COP29 çərçivəsində Yaşıl Şəhər Nəqliyyatı üzrə Yüksək Səviyyəli Nazirlər Dəyirmi Masası. Bakı: Nazirlik nəşri.
3. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA). Bakıda ilk velosiped kirayəsi xidməti fəaliyyətə başladı. Trend.Az, 2024. URL: https://az.trend.az/azerbaijan/society/3936752.html; AYNA rəsmi saytı: https://ayna.gov.az/az
4. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi. (2024). "AYNA MaaS" – nəqliyyatda mobillik həlli tətbiqi istifadəyə verilib. https://ayna.gov.az/az/news/ayna-maas-neqliyyatda-mobillik-helli-tetbiqi-istifadeye-verilib-952
5. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA). "AYNA MaaS" – nəqliyyatda mobillik həlli tətbiqi istifadəyə verilib. URL: https://ayna.gov.az/az/news/ayna-maas-neqliyyatda-mobillik-helli-tetbiqi-istifadeye-verilib-952
6. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. High-Level Ministerial Roundtable on Green Urban Transport is held within COP29. Baku, November 2024. URL: https://mincom.gov.az/en/cop29en/high-level-roundtable-2-greening-urban-transport-as-part-of-the-ministerial-meeting-on-climate-and-urbanization-at-cop29/
7. UN Tourism World Tourism Barometer 2025; EIT Urban Mobility. *Costs and Benefits of the Urban Mobility Transition*, 2nd edition. October 2024. URL: https://www.eiturbanmobility.eu/knowledge-hub/costs-and-benefits-of-the-urban-mobility-transition-2nd-edition-october-2024/
8. ITF (International Transport Forum) & UN-Habitat. Greening Urban Transport – High-Level Ministerial Roundtable at COP29. Baku, 20 November 2024. URL: https://www.itf-oecd.org/greening-urban-transport-cop29-event
9. COP29 Presidency. COP29 Declaration on Multisectoral Actions Pathways (MAP) to Resilient and Healthy Cities*. Baku, 20 November 2024. URL: https://cop29.az/en/pages/cop29-declaration-on-multisectoral-actions-pathways-map-to-resilient-and-healthy-cities
10. UN Tourism. Tourism Makes History at COP29 as 50 Countries Back Climate Action Declaration for Sector. 22 November 2024. URL: https://www.untourism.int/news/tourism-makes-history-at-cop29-as-50-countries-back-climate-action-declaration-for-sector
11. Транспортное обеспечение в туризме" (Гуляев В.Г.)

**Tajir Abdurahmanov Sayavush oghlu**

**THE IMPACT OF URBAN TRANSPORT SYSTEMS ON THE DEVELOPMENT OF SOCIO-CULTURAL TOURISM: THE ANALYSIS ON THE EXAMPLE OF AZERBAIJAN**

**Summary**

The article analyzes the impact of urban transport systems on the development of socio-cultural tourism using the example of Azerbaijan. The study has found that despite the increase in tourism potential in cities, tourism-oriented planning and functional integration of transport systems are not yet sufficiently developed. In particular, the weakness of multimodal connections, the limited number of routes and services suitable for tourists, the low level of information accessibility, and interregional differences hinder the effective management of tourism flows. The article compares international experience and finds that while transport systems in developed cities are integrated with tourist-oriented services, in Azerbaijan this approach remains mainly at the infrastructure level and is

insufficient in terms of service design. In this regard, the introduction of a single tourist transport card, the expansion of digital mobility solutions, the creation of multimodal routes, and the development of inclusive transport infrastructure are identified as the main priority areas.

**Key words:** urban tourism, transport infrastructure, multimodal systems, tourism-transport integration, sustainable urban mobility.

**Таджир Абдурахманов Саявуш оглу**

**ВЛИЯНИЕ ГОРОДСКИХ ТРАНСПОРТНЫХ СИСТЕМ НА РАЗВИТИЕ СОЦИОКУЛЬТУРНОГО ТУРИЗМА: АНАЛИЗ НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА**

**Резюме**

В статье анализируется влияние городских транспортных систем на развитие социокультурного туризма на примере Азербайджана. Исследование показало, что, несмотря на рост туристического потенциала городов, планирование, ориентированное на туризм, и функциональная интеграция транспортных систем еще недостаточно развиты. В частности, слабость мультимодальных связей, ограниченное количество маршрутов и услуг, подходящих для туристов, низкий уровень доступности информации и межрегиональные различия препятствуют эффективному управлению туристическими потоками. В статье сравнивается международный опыт и делается вывод, что в то время как транспортные системы в развитых городах интегрированы с туристически ориентированными услугами, в Азербайджане этот подход остается в основном на уровне инфраструктуры и недостаточен с точки зрения проектирования услуг. В этой связи в качестве основных приоритетных направлений определены введение единой туристической транспортной карты, расширение цифровых решений в сфере мобильности, создание мультимодальных маршрутов и развитие инклюзивной транспортной инфраструктуры.

**Ключевые слова:** городской туризм, транспортная инфраструктура, мультимодальные системы, интеграция туризма и транспорта, устойчивая городская мобильность.

**UOT 008**

**Mədinə Babaxayeva Süleyman qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**medinebabaxayeva2003@gmail.com**

# LƏZGİ DİLİNİN QEYRİ-MADDİ MƏDƏNİ İRS KİMİ QORUNMASININ MÜASİR PROBLEMLƏRİ

**Xülasə**

Bu tədqiqat işi ləzgi dilinin qeyri-maddi mədəni irs elementi kimi qorunmasının müasir vəziyyətinə həsr olunmuşdur. Dilin cəmiyyətdə istifadə səviyyəsi, onun funksional imkanları və yaşamasına təsir edən sosial, mədəni və siyasi amillər kompleks şəkildə təhlil edilir. Xüsusilə qloballaşma şəraitində dil mühitinin dəyişməsi, urbanizasiya və miqrasiya proseslərinin intensivləşməsi, təhsil sistemində ana dilinin mövqeyi, eləcə də informasiya-kommunikasiya texnologiyalarının təsiri kimi məsələlər diqqət mərkəzində saxlanılır. Araşdırma zamanı ləzgi dilinin gündəlik ünsiyyət vasitəsi kimi istifadəsinin məhdudlaşması, gənc nəsil arasında bu dilə marağın azalması və dominant dillərin təsiri nəticəsində yaranan assimilyasiya meyilləri xüsusi olaraq qeyd olunur. Bununla yanaşı, dilin qorunması baxımından ailə və ictimai mühitin rolu, həmçinin təhsil və media vasitələrinin əhəmiyyəti də nəzərdən keçirilir. Eyni zamanda, ləzgi dilinin qorunması və inkişaf etdirilməsi istiqamətində mövcud yanaşmalar və perspektivlər araşdırılır, bu sahədə dövlət siyasətinin və beynəlxalq təcrübənin rolu qiymətləndirilir.

**Açar sözlər**: ləzgi dili, qeyri-maddi mədəni irs, dilin yaşaması, sosiolinqvistika, multikulturalizm

Müasir dövrdə qloballaşma proseslərinin sürətlə inkişaf etməsi dünya ölkələrinin mədəni irsinə, xüsusilə də azsaylı xalqlara məxsus dillərə əhəmiyyətli təsir göstərməkdədir. Dil yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də hər bir xalqın tarixini, dünyagörüşünü və mədəni dəyərlər sistemini əks etdirən əsas qeyri-maddi irs elementlərindən biri kimi çıxış edir. "Qeyri-maddi mədəni irs" icmalar, qruplar və bəzi hallarda ayrı-ayrı şəxslər tərəfindən onların mədəni irsinin bir hissəsi kimi qəbul edilən təcrübələri, təqdimatları, ifadələri, bilik və bacarıqları, eləcə də bunlarla bağlı alətləri, əşyaları, maddi mədəniyyət abidələrini və mədəni məkanları bildirir" [3].

Azsaylı xalqların dillərinin qorunması məsələsi həm milli, həm də beynəlxalq səviyyədə xüsusi aktuallıq daşıyır. Ləzgi dili Qafqaz dil ailəsinə aid olmaqla, qədim tarixə və zəngin mədəni ənənələrə malikdir. Bu dil uzun illər boyu ləzgi xalqının folklorunun, şifahi yaradıcılığının və milli kimliyinin əsas ifadə vasitəsi olmuşdur. Lakin son dövrlərdə baş verən sosial, iqtisadi və mədəni dəyişikliklər ləzgi dilinin istifadə dairəsinə və inkişafına müəyyən mənfi təsirlər göstərmişdir. Xüsusilə şəhərləşmə proseslərinin genişlənməsi, miqrasiya, dominant dillərin üstün mövqeyi və təhsil sistemində bu dilə ayrılan diqqətin məhdud olması bu dilin gələcək inkişafı üçün müəyyən risklər yaradır. Gənc nəslin ana dilinə marağının azalması və gündəlik ünsiyyətdə digər dillərə üstünlük verilməsi dilin funksional rolunu zəifledir. Eyni zamanda, müasir texnologiyaların və rəqəmsal mühitin inkişafı ləzgi dili üçün həm çətinliklər, həm də yeni imkanlar formalaşdırır. İnternet və media məkanında bu dilin kifayət qədər təmsil olunmaması onun istifadəsini məhdudlaşdırsa da, rəqəmsal platformaların düzgün

istifadəsi ilə dilin qorunması və yayılması mümkün ola bilər. Tədqiqatın əsas məqsədi ləzgi dilinin qeyri-maddi mədəni irs kimi qorunması ilə bağlı mövcud problemləri araşdırmaq, mövcud vəziyyəti təhlil etmək və bu istiqamətdə effektiv həll yolları təklif etməkdən ibarətdir. Bu çərçivədə dilin sosial funksiyaları, istifadə xüsusiyyətləri və inkişaf perspektivləri geniş şəkildə nəzərdən keçirilir.

Ləzgi dili yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda ləzgi xalqının kimliyini və mədəni yaddaşını əks etdirən əsas amillərdən biridir. Bu dil əsasən Dağıstanın cənub hissəsində və Azərbaycanın şimal bölgələrində yaşayan ləzgilər tərəfindən istifadə olunur. Dilçilik baxımından ləzgi dili Nax-Dağıstan dilləri qrupuna aiddir və bu qrup daxilində ləzgi dili özünəməxsus xüsusiyyətləri ilə seçilir. Bəzi tədqiqatçılar onu daha geniş dil ailələrinə aid etməyə çalışsalar da, bu məsələ hələ də tam aydınlaşdırılmayıb və mübahisəli olaraq qalır. Keçmişdə ləzgi dili regionda geniş istifadə olunmuş, hətta müxtəlif xalqlar arasında ünsiyyəti təmin edən əsas dillərdən biri olmuşdur. Lakin zaman keçdikcə, xüsusilə XX əsrdən başlayaraq, bu vəziyyət dəyişməyə başlamışdır. Rus dilinin və digər dominant dillərin təsiri nəticəsində ləzgi dilinin istifadə sahəsi xeyli daralmışdır.

Məncə, ən ciddi problemlərdən biri də odur ki, bu dil artıq əvvəlki kimi gündəlik həyatın bütün sahələrində aktiv istifadə olunmur. Bu isə tədricən danışanların sayının azalmasına gətirib çıxarır. Statistik göstəricilər də bunu təsdiqləyir və göstərir ki, son illərdə ləzgi dilində danışanların sayı azalmağa doğru gedir.

Bütün bunları nəzərə alaraq demək olar ki, ləzgi dili hazırda qorunmağa ehtiyacı olan dillər sırasına daxildir. Onun beynəlxalq səviyyədə itmək təhlükəsi altında olan dillər arasında göstərilməsi də bu problemin nə qədər ciddi olduğunu bir daha sübut edir.

Mənim fikrimcə, dilin zəifləməsi və ya yox olma təhlükəsi ilə üzləşməsi tək bir səbəbdən deyil, bir-biri ilə əlaqəli olan bir çox amillərin təsiri nəticəsində baş verir. Bu proses sosial, iqtisadi, siyasi və mədəni faktorların qarşılıqlı təsiri ilə formalaşır. İlk növbədə, qloballaşma bu sahədə ən təsirli amillərdən biri kimi çıxış edir. Müasir dünyada ingilis, ispan, çin və fransız kimi dillər beynəlxalq ünsiyyət, təhsil, media və texnologiya sahələrində üstün mövqeyə malikdir. Bu vəziyyət kiçik xalqların dillərinin arxa plana keçməsinə səbəb olur. Xüsusilə gənc nəsil daha çox imkan qazandıran dillərə üstünlük verir və nəticədə ana dilindən uzaqlaşma baş verir. Digər mühüm amil urbanizasiya və miqrasiyadır. İnsanlar daha yaxşı həyat şəraiti, təhsil və iş imkanları üçün kənddən şəhərə və ya başqa ölkələrə köç etdikdə, yeni mühitə uyğunlaşmaq üçün çox vaxt ana dillərindən daha az istifadə edirlər. Bu da dilin gündəlik ünsiyyətdə rolunun azalmasına gətirib çıxarır. Bundan əlavə, təhsil sistemi və dil siyasəti də dilin taleyinə ciddi təsir göstərir. Bir çox hallarda məktəblərdə əsas diqqət dominant dillərə yönəldilir və azlıq dilləri ikinci plana keçir. Uşaqların təhsil prosesində ana dilində sərbəst danışmaması və ya bu dilin kifayət qədər dəstəklənməməsi onun inkişafını zəiflədir.

Assimilyasiya prosesi gücləndikcə, ilk növbədə məhz dil öz mövqeyini itirməyə başlayır. Bu baxımdan, azlıq icmalarının öz ana dillərində təhsil alma imkanlarının genişləndirilməsi onların varlığının qorunması üçün vacib şərtlərdən biridir. Azərbaycanda bəzi bölgələrdə, o cümlədən Qusar rayonunda ləzgi dili hələ də gündəlik ünsiyyətdə aktiv şəkildə istifadə olunur və bu da onun müəyyən dərəcədə qorunmasına şərait yaradır. Mənim fikrimcə, bunun əsas səbəblərindən biri həmin ərazidə ləzgilərin sayca üstünlük təşkil etməsidir. Bu isə həm ictimai mühitdə, həm də təhsil sahəsində ana dilinə daha çox dəstək verilməsinə imkan yaradır.

Bununla belə, son illərdə qloballaşma və cəmiyyətin ümumi dil mühitində baş verən dəyişikliklər ləzgi dilinə də təsirsiz ötüşmür. Mən hesab edirəm ki, bu təsir xüsusilə təhsil sahəsində daha aydın hiss olunur. Ləzgi dili əksər hallarda əsas tədris dili kimi deyil, əlavə fənn kimi öyrədilir

və bu da onun funksional rolunu məhdudlaşdırır. “Qusar ləzgi dilinin öyrənilməsinə əhəmiyyətli dərəcədə dəstək olan yeganə rayon olduğundan, dil təhsilindəki bu geriləmə ehtiyatla müşahidə edilməlidir” [2].

Müasir dövrdə dillərin qorunması təkcə ailə və təhsil mühiti ilə məhdudlaşmır, eyni zamanda onların rəqəmsal məkanda nə dərəcədə təmsil olunması ilə də sıx bağlıdır. Bu baxımdan ləzgi dilinin rəqəmsal mühitdə zəif görünməsi onun gələcəyi üçün müəyyən risklər yaradır. Çünki bu gün gənc nəsil daha çox internet, sosial şəbəkələr və müxtəlif texnoloji platformalar vasitəsilə ünsiyyət qurur və informasiya əldə edir.

Məsələn, sosial mediada paylaşılan videoların, paylaşımların və ya vlogların böyük əksəriyyəti Azərbaycan, rus və ya ingilis dillərində olur. Ləzgi dilində isə belə kontent olduqca azdır. Bu səbəbdən ləzgi gəncləri gündəlik olaraq daha çox başqa dillərlə qarşılaşır və bu dillərdə ünsiyyət qurmağa üstünlük verirlər. Məncə, bu da zamanla ana dilinin arxa plana keçməsinə səbəb olur. Digər bir nümunə kimi, mobil tətbiqləri və texnoloji platformaları göstərmək olar. Məsələn, telefonların interfeysi, populyar proqramlar və ya təhsil tətbiqləri ləzgi dilini dəstəkləmir. Bu isə istifadəçiləri istər-istəməz başqa dillərdən istifadə etməyə məcbur edir. Nəticədə, ləzgi dili gündəlik texnoloji həyatın bir hissəsinə çevrilə bilmir. Bundan əlavə, internetdə ləzgi dilində məlumat bazasının məhdud olması da ciddi problemdir. Məsələn, hər hansı bir mövzu haqqında araşdırma aparmaq istəyən şəxs ləzgi dilində kifayət qədər mənbə tapa bilmir və başqa dillərə müraciət etməli olur. Bu isə dilin həm elmi, həm də informativ sahədə istifadəsini zəiflədir.

Mənim düşüncəmə görə, ləzgi dilinin qorunmasında əsas məsələlərdən biri insanların bu dilə olan yanaşmasının dəyişməsidir. Əgər dilə yalnız gündəlik ünsiyyət vasitəsi kimi deyil, həm də dəyərli mədəni irs kimi baxılarsa, onun yaşadılması daha real olar. Bu baxımdan müxtəlif maarifləndirici tədbirlərin təşkili, mədəni layihələrin həyata keçirilməsi və xüsusilə gənclərin bu prosesə cəlb olunması mühüm rol oynaya bilər. Ləzgi dilinin qorunması üçün onu yalnız öyrədilən deyil, həm də “yaşanan” dilə çevirmək lazımdır. Yəni bu dil yalnız dərsliklərdə deyil, gündəlik həyatın müxtəlif anlarında — hisslərdə, xatirələrdə və ünsiyyətdə yer almalıdır. Məsələn, uşaqların eşitdiyi ilk nağılların, mahnıların və gündəlik zarafatların ləzgi dilində olması onların bu dili daha təbii şəkildə qəbul etməsinə səbəb ola bilər. Məncə, bu yanaşma dili məcburi deyil, öz-özünə yaşayan bir dəyərə çevirir.

Eyni zamanda, düşünürəm ki, ləzgi dilinə marağın artırılması üçün onu müasir həyat tərzi ilə uyğunlaşdırmaq vacibdir. Məsələn, gənclərin maraq dairəsinə daxil olan sahələr — musiqi, sosial media paylaşımları, gündəlik vloglar və digər trendlər — ləzgi dilində təqdim olunsa, bu dil daha cəlbedici görünər. Çünki insanlar, xüsusilə də gənclər, daha çox öz maraqlarına uyğun olan mühitdə istifadə olunan dillərə yönəlirlər.

Mən hesab edirəm ki, hal-hazırkı dövrümüzdə əgər bir dil rəqəmsal mühitdə aktiv istifadə olunmursa, onun gələcəkdə yaşaması daha çətin olur.

### Ədəbiyyat siyahısı

**1.** Xudoyberdiyeva Ş, Xolkmadova N. (2025). İctimaiyyətə müraciət. URL: https://inlibrary.uz/index.php/canrms/article/view/90199?utm_source

**2.** Mutnansky, A. (2023). İctimaiyyətə müraciət. URL: https://bakuresearchinstitute.org/en/the-loss-of-minority-language-schooling-in-the-south-caucasus/?utm_source

**3.** YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması haqqında” Konvensiyasının təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU. (2006).

**Madina Babakhayeva Suleyman gizi**

## MODERN PROBLEMS OF PROTECTION OF LEZGI LANGUAGE AS THE INTANGIBLE CULTURAL HERITAGE

### Summary

This research paper is devoted to the protection of the Lezgi language as an element of intangible cultural heritage in the modern context. The study analyzes the level of the language’s use in society, its functional capacities, and the social, cultural, and political factors influencing its sustainability. Particular attention is paid to issues such as changes in the linguistic environment under globalization, the intensification of urbanization and migration processes, the position of the native language in the education system, and the impact of information and communication technologies. The research also highlights the decreasing use of the Lezgi language in everyday communication, the declining interest among younger generations, and the assimilation tendencies caused by the dominance of other languages. In addition, the role of family and social environments, as well as the importance of education and media in language preservation, are examined. Furthermore, existing approaches and perspectives on the preservation and development of the Lezgi language are explored, and the role of state policy and international experience in this field is evaluated.

**Key words:** Lezgi language, intangible cultural heritage, language vitality, sociolinguistics, multiculturalism.

**Медина Бабахаева Сулейман кызы**

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ СОХРАНЕНИЯ ЛЕЗГИНСКОГО ЯЗЫКА КАК НЕМАТЕРИАЛЬНОГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ

### Резюме

Данная исследовательская работа посвящена современному состоянию сохранения лезгинского языка как элемента нематериального культурного наследия. В работе комплексно анализируется уровень использования языка в обществе, его функциональные возможности, а также социальные, культурные и политические факторы, влияющие на его жизнеспособность. Особое внимание уделяется таким вопросам, как изменение языковой среды в условиях глобализации, усиление процессов урбанизации и миграции, положение родного языка в системе образования, а также влияние информационно-коммуникационных технологий. В ходе исследования отмечается сокращение использования лезгинского языка в повседневном общении, снижение интереса к нему среди молодого поколения и ассимиляционные тенденции, вызванные влиянием доминирующих языков. Наряду с этим рассматривается роль

семьи и социальной среды в сохранении языка, а также значение образования и средств массовой информации. Также исследуются существующие подходы и перспективы сохранения и развития лезгинского языка, оценивается роль государственной политики и международного опыта в данной области.

**Ключевые слова:** лезгинский язык, нематериальное культурное наследие, жизнеспособность языка, социолингвистика, мультикультурализм

**UOT 008**

**Səbinə Səyyad qızı Ağayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**Aghayevasabina93@gmail.com**

# MƏDƏNİYYƏT VƏ SƏNƏTŞÜNASLIĞIN ÜMUMİ PROBLEMLƏRİ KONTEKSTİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT TARİXİNDƏ MƏDƏNİ YADDAŞIN FORMALAŞMASININ ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ASPEKTLƏRİ (1990–2025)

**Xülasə**

“Mədəniyyət və sənətşünaslığın ümumi problemləri kontekstində Azərbaycan mədəniyyət tarixində mədəni yaddaşın formalaşmasının elmi-nəzəri və metodoloji aspektləri (1990–2025)” mövzusu müasir humanitar elmlərin aktual istiqamətlərindən biri kimi çıxış edir. Tədqiqatın əsas məqsədi post-sovet dövründə Azərbaycan cəmiyyətində mədəni yaddaşın formalaşma mexanizmlərini, onun nəzəri əsaslarını və metodoloji yanaşmalarını sistemli şəkildə təhlil etməkdir.

1990-cı ildən sonra baş verən ictimai-siyasi transformasiyalar milli identiklik, tarixi yaddaş və mədəni irsin yenidən qiymətləndirilməsini zəruri etmişdir. Bu kontekstdə mədəni yaddaş yalnız keçmişin qorunması deyil, həm də kollektiv kimliyin formalaşması və ideoloji diskursun qurulmasında mühüm amil kimi çıxış edir. Tədqiqatda mədəni yaddaş anlayışı interdisiplinar yanaşma çərçivəsində mədəniyyətşünaslıq, sənətşünaslıq, tarix və sosiologiya elmlərinin kəsişməsində araşdırılır. Elmi-nəzəri baxımdan mədəni yaddaşın formalaşması prosesi simvolik sistemlər, mədəni kodlar, ənənə və innovasiya münasibətləri əsasında izah olunur. Bu prosesdə ədəbiyyat, təsviri incəsənət, memarlıq və kütləvi informasiya vasitələri mühüm rol oynayır.

**Açar sözlər:** mədəni yaddaş, milli identiklik, mədəni irs, post-sovet transformasiyası, metodoloji yanaşmalar

Bu mövzuya alternativ yanaşma mədəni yaddaşı yalnız tarixi faktların və irsin qorunması kimi deyil, həm də sosial konstruksiya və güc münasibətləri çərçivəsində formalaşan dinamik proses kimi şərh etməyi tələb edir. 1990–2025-ci illər ərzində Azərbaycanda baş verən ictimai-siyasi dəyişikliklər mədəni yaddaşın məzmununa, təqdimat formalarına və interpretasiya mexanizmlərinə birbaşa təsir göstərmişdir. Bu dövrdə yaddaşın formalaşması təkcə dövlət siyasəti ilə deyil, eyni zamanda fərdi və kollektiv təşəbbüslər, yaradıcı təcrübələr və alternativ diskurslar vasitəsilə də reallaşmışdır. Mədəni yaddaşın elmi-nəzəri əsaslarını araşdırarkən onun seçici və transformativ xarakter daşıdığı xüsusilə vurğulanmalıdır. Yəni yaddaş yalnız keçmişin obyektiv əksi deyil, müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulan və mənalandırılan simvolik sistemdir. Bu baxımdan Azərbaycan mədəni mühitində yaddaşın formalaşması prosesi müxtəlif narrativlərin – rəsmi tarix, xalq yaddaşı, sənət interpretasiyaları və media diskurslarının qarşılıqlı təsiri nəticəsində meydana çıxır [5, s. 18]. Metodoloji aspektdən yanaşdıqda, müasir tədqiqatlarda daha çox tənqidi və interpretativ metodlara üstünlük verilir. Diskurs analizi, postkolonial yanaşma və mədəni tədqiqatlar çərçivəsində aparılan araşdırmalar yaddaşın ideoloji və siyasi aspektlərini üzə çıxarmağa imkan verir [6, s. 88]. Eyni zamanda, performativ yanaşmalar – yəni yaddaşın mərasimlər, festivallar və ictimai tədbirlər

vasitəsilə "yenidən yaşadılması" prosesi də mühüm tədqiqat obyektinə çevrilmişdir. Bu dövrdə mədəni yaddaşın formalaşmasında vizual və rəqəmsal mədəniyyətin rolu xüsusilə artmışdır. Sosial media, audiovizual arxivlər və onlayn platformalar yaddaşın yeni daşıyıcılarına çevrilərək onun daha geniş auditoriyalara çatdırılmasını təmin edir. Bununla yanaşı, bu proses yaddaşın fraqmentasiyasına və müxtəlif interpretasiya variantlarının yaranmasına da səbəb olur. Azərbaycan kontekstində mədəni yaddaşın formalaşması həm də travmatik təcrübələrin – münaqişələr, miqrasiya və sosial dəyişikliklərin – kollektiv şüurda necə təmsil olunması ilə sıx bağlıdır. Bu cür təcrübələr sənət əsərlərində, ədəbiyyatda və kütləvi mədəniyyət nümunələrində simvolik dillə ifadə olunur və yaddaşın emosional qatını formalaşdırır [7, s. 24]. Məsələnin daha dərin qatlarında mədəni yaddaşın formalaşması epistemoloji çərçivədə də təhlil olunmalıdır. Yəni burada əsas sual yalnız "nə yadda saxlanılır?" deyil, həm də "necə və kim tərəfindən yadda saxlanılır?" məsələsidir. Bu yanaşma Azərbaycan mədəni mühitində bilik istehsalı proseslərinin, elmi institutların, təhsil sisteminin və mədəni siyasətin yaddaşın strukturlaşmasında oynadığı rolu ön plana çıxarır. 1990-cı illərdən sonra yaranan yeni akademik diskurslar milli tarix və mədəniyyətin yenidən yazılması istiqamətində mühüm təsir göstərmişdir [2, s. 86].

Bu kontekstdə mədəni yaddaşın daşıyıcıları da transformasiyaya uğramışdır. Əgər əvvəlki dövrlərdə yaddaş daha çox yazılı mənbələr və ənənəvi sənət formaları vasitəsilə qorunurdusa, müasir mərhələdə bu funksiyanı muzeylər, arxivlər, media institutları və virtual platformalar bölüşür. Xüsusilə rəqəmsallaşma prosesi yaddaşın saxlanılması ilə yanaşı, onun manipulyasiya və seleksiya imkanlarını da genişləndirir. Bu isə öz növbəsində yaddaşın obyektivliyi məsələsini müzakirə predmetinə çevirir [1, s. 45]. Metodoloji baxımdan yeni yanaşmalar arasında interaktiv və iştirakçı tədqiqat modelləri diqqət çəkir. Bu modellər çərçivəsində fərdlər yalnız tədqiqat obyekti deyil, eyni zamanda yaddaşın aktiv yaradıcısı kimi çıxış edir. Şifahi tarix layihələri, ictimai arxiv təşəbbüsləri və kollektiv yaddaş platformaları bu baxımdan xüsusi əhəmiyyət daşıyır [4, s. 17]. Bu cür yanaşmalar yaddaşın demokratikləşməsinə və daha inklüziv xarakter almasına şərait yaradır. Eyni zamanda, mədəni yaddaşın məkanla əlaqəsi – yəni "yaddaş məkanları" anlayışı da Azərbaycan kontekstində xüsusi aktuallıq kəsb edir. Tarixi abidələr, memorial komplekslər, şəhər mühiti və simvolik yerlər yaddaşın fiziki təcəssümü kimi çıxış edir. Bu məkanlar vasitəsilə keçmiş yalnız xatırlanmır, həm də gündəlik həyatın bir hissəsinə çevrilir və sosial identikliyin formalaşmasında iştirak edir [3, s. 66]. Digər tərəfdən, mədəni yaddaşın gələcəyə yönəlik funksiyası da nəzərə alınmalıdır. Yaddaş yalnız retrospektiv xarakter daşımır, o həm də gələcək üçün orientasiya rolunu oynayır. Azərbaycan cəmiyyətində mədəni irsin qorunması ilə yanaşı, onun innovativ formada təqdim olunması, məsələn, müasir incəsənətdə reinterpretasiya edilməsi, yaddaşın davamlılığını təmin edən əsas mexanizmlərdən biridir.

**Nəticə**

Nəticə olaraq qeyd etmək olar ki, 1990–2025-ci illər çərçivəsində Azərbaycan mədəniyyət tarixində mədəni yaddaşın formalaşması çoxşaxəli, dəyişkən və kontekstual xarakter daşıyan bir proses kimi meydana çıxır. Bu proses yalnız tarixi irsin qorunması ilə məhdudlaşmayaraq, eyni zamanda onun yenidən dərk olunması, interpretasiyası və müasir sosial-mədəni şəraitə uyğunlaşdırılması ilə səciyyələnir. Aparılan təhlillər göstərir ki, mədəni yaddaşın təşəkkülü elmi-nəzəri baxımdan interdisiplinar yanaşmaların tətbiqini zəruri edir, metodoloji baxımdan isə həm klassik, həm də innovativ tədqiqat üsullarının sintezini tələb edir. Bu baxımdan yaddaşın

formalaşması prosesi müxtəlif səviyyələrdə fərdi, kollektiv və institusional müstəvilərdə paralel şəkildə inkişaf edir və bir-birini tamamlayır. Eyni zamanda, müasir dövrdə rəqəmsallaşma, qloballaşma və sosial transformasiyalar yaddaşın məzmununa və ötürülmə mexanizmlərinə yeni istiqamətlər qazandırmışdır. Bu isə yaddaşın həm qorunmasını, həm də yenidən qurulmasını şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Beləliklə, Azərbaycan mədəniyyətində mədəni yaddaşın formalaşması davamlı və açıq bir proses olub, keçmişin təcrübəsini gələcəyin perspektivləri ilə birləşdirən mühüm intellektual və mədəni platforma kimi dəyərləndirilə bilər. Bu istiqamətdə aparılan tədqiqatların dərinləşdirilməsi isə milli kimliyin möhkəmləndirilməsi və mədəni irsin dayanıqlı inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

### Ədəbiyyat siyahısı

1. Əliyev, N. (2015). Azərbaycan mədəniyyətində milli yaddaş problemləri. Mədəniyyət dünyası jurnalı, 30, 45–52. http://mdu.edu.az/images/pdf/md30.pdf
2. Hüseynov, F. (2020). Mədəni yaddaş və identiklik məsələləri. Sənətşünaslıq elmi məqalələr toplusu, 12(2), 78–86. https://doi.org/10.29228/artstudies.2020.12
3. Məmmədov, R. (2018). Qloballaşma şəraitində Azərbaycan mədəniyyətinin inkişaf istiqamətləri. Bakı: Elm və Təhsil. http://anl.az/el/Kitab/2018/266403.pdf
4. Assmann, J. (2011). Cultural memory and early civilization: Writing, remembrance, and political imagination. Cambridge University Press. https://doi.org/10.1017/CBO9780511996306
5. Erll, A. (2011). Memory in culture. Palgrave Macmillan. https://doi.org/10.1057/9780230321670
6. Halbwachs, M. (1992). On collective memory. University of Chicago Press. https://press.uchicago.edu/ucp/books/book/chicago/O/bo3684030.html
7. Nora, P. (1989). Between memory and history: Les lieux de mémoire. Representations, 26, 7–24. https://doi.org/10.2307/2928520
8. Smith, A. D. (1991). National identity. University of Nevada Press. https://archive.org/details/nationalidentity00smit

**Sabina Sayyad gizi Aghayeva**

## SCIENTIFIC-THEORETICAL AND METHODOLOGICAL ASPECTS OF THE FORMATION OF CULTURAL MEMORY IN THE HISTORY OF AZERBAIJANI CULTURE IN THE CONTEXT OF GENERAL PROBLEMS OF CULTURE AND ART CRITICISM (1990–2025)

### Summary

The topic "Scientific-theoretical and methodological aspects of the formation of cultural memory in the history of Azerbaijani culture in the context of general problems of culture and art criticism (1990–2025)" acts as one of the relevant directions of modern humanities. The main goal of the research is to systematically analyze the mechanisms of formation of cultural memory in Azerbaijani society in the post-Soviet period, its theoretical foundations and methodological approaches.

The socio-political transformations that have occurred since 1990 have necessitated a reassessment of national identity, historical memory and cultural heritage. In this context, cultural memory acts not only as a means of preserving the past, but also as an important factor in the

formation of collective identity and the construction of ideological discourse. In the research, the concept of cultural memory is examined within the framework of an interdisciplinary approach - at the intersection of cultural studies, art criticism, history and sociology. From a scientific-theoretical point of view, the process of formation of cultural memory is explained on the basis of symbolic systems, cultural codes, tradition and innovation relations. Literature, fine arts, architecture and mass media play an important role in this process.

**Key words:** cultural memory, national identity, cultural heritage, post-soviet transformation, methodological approaches.

**Сабина Сайяд гызы Агаева**

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ КУЛЬТУРНОЙ ПАМЯТИ В ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ В КОНТЕКСТЕ ОБЩИХ ПРОБЛЕМ КУЛЬТУРОЛОГИИ И ИСКУССТВОВЕДЕНИЯ (1990–2025)

### Резюме

Тема «Научно-теоретические и методологические аспекты формирования культурной памяти в истории азербайджанской культуры в контексте общих проблем культурологии и искусствоведения (1990–2025)» является одним из актуальных направлений современных гуманитарных наук. Главная цель исследования – систематический анализ механизмов формирования культурной памяти в азербайджанском обществе в постсоветский период, её теоретических основ и методологических подходов.

Социально-политические преобразования, произошедшие с 1990 года, потребовали переоценки национальной идентичности, исторической памяти и культурного наследия. В этом контексте культурная память выступает не только как средство сохранения прошлого, но и как важный фактор формирования коллективной идентичности и построения идеологического дискурса. В исследовании концепция культурной памяти рассматривается в рамках междисциплинарного подхода – на стыке культурологии, искусствоведения, истории и социологии. С научно-теоретической точки зрения процесс формирования культурной памяти объясняется на основе символических систем, культурных кодов, отношений традиции и новаторства. Важную роль в этом процессе играют литература, изобразительное искусство, архитектура и средства массовой информации.

**Ключевые слова:** культурная память, национальная идентичность, культурное наследие, постсоветская трансформация, методологические подходы

UOT 071

**Məzirə Ələsgərova Vüqar qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
maziralesgerova@mail.ru

# TARİXİ YADDAŞ VƏ URBAN MÜASİRLİK: ŞƏHƏR MƏDƏNİ İRSİNİN TRANSFORMASİYA MODELLƏRİ

**Xülasə**

Şəhər infrastrukturu problemləri ilə getdikcə daha çox qarşılaşan bir dünyada şəhərin mədəni kimliyi ilə modernləşmə ideyaları arasında tarazlığı qorumaq getdikcə daha da çətinləşir. Bu məqalə şəhər mədəni irsi üçün bir model kimi onun transformasiyası və tarixi yaddaş kimi bir birinə ziddiyyət təşkil edən ideyalar üzərində müzakirəyə başlamaq üçün bir platforma rolunu oynayır. 17-22 may 2026-cı il tarixlərində Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun nümunəsində, məqalədə bu cür qlobal təşəbbüslərin şəhərin infrastrukturunun ümumi konsepsiyasına və tarixi əhəmiyyətinin əsas mənbəyi olan mədəni kimliyinə təsirini araşdırır.

**Açar sözlər:** Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası, şəhər, infrastruktur, inkişaf, mədəni təsir, tarixi əhəmiyyət, transformasiya

Şəhər kimliyinə və mədəni irsə maraq bütün dünyada getdikcə artır. Bu, ilk növbədə müasir şəhərsalma problemlərinin eyni dərəcədə müasir həllər tələb etməsi ilə bağlıdır. Bunlara, xüsusən də korporativ qərargahların, universitetlərin, xəstəxanaların və digər obyektlərin olması səbəbindən müəyyən dərəcədə tıxac yaşayan böyük şəhərlərdə, tez-tez ölkələrin paytaxtlarında həddindən artıq sıxlıq daxildir. Əsasən çox sayda turistik məkanın və iş yerlərinin olması səbəbindən insanların böyük şəhərlərə axını artır. Bu, müasir şəhərsalma və səmərəli həllər vasitəsilə mərkəzi şəhərlərdə mədəni və tarixi kimliyini itirmədən tıxacları necə azaltmaq olar sualını doğurur. Həddindən artıq sıxlığa və tıxaclı nəqliyyat yollarına səbəb olan binaların çoxu təkcə sosial əhəmiyyətinə görə deyil, həm də tarixi olduqları, müəyyən bir əsrdə və ya ildə tikildikləri və mədəni irsin bir hissəsi olduqları üçün əhəmiyyətlidir.

Belə ki, ərəb dilində "mədinətun" anlayışı "şəhər" sözü ilə bağlıdır. Bu, xam vəziyyətində olanın insan əli ilə dəyişdirilməsi, təkmil formaya salınması mənasını verir. Bununla yanaşı, şəhər münasibətləri, şəhərin həyat tərzi səhra əhalisinin, bədəvilərin kobudluğuna, onların qaba həyat tərzinə qarşı istiqamətləndirilirdi [Manafova, M., 2010, s. 9].

2026-cı ilin may ayında Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumu (WUF13) bu məsələdə qlobal rol oynayır. Gündəmdəki digər mövzular arasında qarşıdan gələn tədbirin əsas diqqət mərkəzində urbanizasiya və mədəni kodlara və milli kimliyə hörmətlə yanaşılmaqla hamı üçün əlverişli mənzil təmin edən yeni ağıllı şəhərlərin yaradılmasıdır. Dünyada şəhər əhalisinin çoxluğu və tıxac problemlərinin həllinə dair bir çox oxşar həll yolu nümunələri mövcuddur. Məsələn, Çində Xionqan Yeni Rayonunda, Qazaxıstanda Alatau şəhərində və Özbəkistanda Yeni Daşkənddə tikinti işləri sürətlə davam edir. Bütün bu şəhərlər ekoloji cəhətdən təmiz materiallardan istifadə edən, elektrik enerjisi ilə işləyən və ağıllı evlər və idarəetmə sistemlərini özündə birləşdirən nümunələr hesab olunur. Mövcud modellərə daha yaxından nəzər saldıqda, hər bir şəhərin əsasən ornamentlər,

naxışlar, dekorativ elementlər və adlar vasitəsilə mədəni olaraq ölkəsinin ümumi milli kimliyi ilə bağlı olduğu görünür.

Şəhərsalmada mədəni yaddaşın qorunması şəhərin unikal kimliyini qorumağı, mənsubiyyət hissini inkişaf etdirməyi və keçmiş, indiki və gələcək arasında davamlılığı təmin etməyi hədəfləyir. Bu, həm tarixi binalar və küçə mənzərələri kimi maddi elementlərin, həm də ənənələr və kollektiv xatirələr kimi qeyri-maddi aspektlərin qorunmasını əhatə edir. Mədəni yaddaşın şəhərsalmaya inteqrasiyası təkcə dəyərli ənənələri və hekayələri qorumaqla yanaşı, həm də yerli kimlik və kollektiv təcrübələrlə rezonans doğuran məkanlar yaradır [Ragheb, R., 2025, s. 142].

Hazırda şəhər irsini dəyişdirmək üçün bir neçə modeli ayırd etmək mümkündür: mühafizəkar, adaptiv, rekonstruktiv və hibrid. Mühafizəkar model mədəni kimliyin qorunması üçün ən sadə yanaşmadır, çünki şəhərin orijinal formasında qorunmasını nəzərdə tutur. Transformasiya yalnız televizorların, soyuducuların və digər məişət cihazlarının quraşdırılması kimi əsas mənzil xidmətlərini təmin etmək üçün fərdi binalarda baş verir.

Adaptiv model köhnə binaların yeni funksiyalara uyğunlaşdırılmasını əhatə edir. Məsələn, Bakıda köhnə dəmir yolu stansiyası binası muzeyə çevrildi və stansiyanın özünü yerləşdirmək üçün yeni, daha müasir bir bina istifadəyə verildi.

Adından da göründüyü kimi, yenidənqurma modeli köhnə binaların bərpasını əhatə edir. Əgər orijinallıq ictimaiyyət arasında narahatlıq doğurmasaydı, bu, mədəniyyəti qorumağın gözəl bir yolu kimi görünərdi. Həqiqət budur ki, bütün yenidən qurulmuş binalar ictimai tənqidə məruz qalır, çünki müasir memarların müdaxilələri avtomatik olaraq onların orijinal xarakterini və tarixiliyini pozur.

Hibrid model isə öz növbəsində bu kimi sualları qabaqlayır, çünki o, köhnə və yeninin balanslaşdırılmış kombinasiyasıdır. Bunu bir çox Avropa şəhərlərində müşahidə etmək olar. Məsələn, Avstriyada Vyana şəhəri təxminən iki hissəyə bölünür. Birində müxtəlif əsrlərə aid çoxlu sayda bina, qala və memarlıq abidəsi var. Bu arada, ikinci hissədə Avstriya memarlığının tarixi fonuna uyğun olmayan nəhəng göydələnlər və körpülər yerləşir.

Bakı həmçinin şəhər irsinin transformasiyasının hibrid modelinə uyğundur. İçərişəhər haqlı olaraq Azərbaycanın mədəni kimliyi ilə şəhərsalmanın ən təəccüblü tarixi nümunələrindən biri hesab olunur. O, əsasən qala divarları arxasında gizlənmiş müasir infrastruktur və texnologiya ilə diqqət çəkir. İçərişəhər UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib ki, bu da onun qlobal miqyasda tarixi əhəmiyyətinin sübutudur. Bu, əsrlər boyu mədəni quruluşunun bir faizini belə itirmədən müasirliyə uyğunlaşan bir şəhərin nümunəsidir və bu da belə bir nəticənin mümkün olduğunu bir daha təsdiqləyir. Bu günə qədər mövcud olan tikililərdə tarixi orijinallığın qorunması metodu qismən Azərbaycan tarixinə aid edilə bilər.

Çarizm administrasiyasının qurulması ilə eyni vaxtda Avropa memarlığı yavaş-yavaş, lakin davamlı olaraq şəhərlərə nüfuz etdi. XVIII əsrin böhranından hələ də qurtula bilməyən Azərbaycan memarlığı yad memarlıq planlaşdırma texnikaları ilə qarşılaşdı. Məhz bu dövrdə uzaq keçmişə söykənən xalq memarlığının gücü üzə çıxdı. Memarlar yeni şəraitdə yerli, fərqli xarakteri qorumağa çalışdılar. Azərbaycan yaşayış binalarının memarlıq kompozisiyası keçmişin tanınmış formalarına – tağlar, günbəzlər və şəbəkə vitrajlarına əsaslanır ki, bunlar da müxtəlif iqlim zonalarında məkan strukturunu inkişaf etdirmək üçün özünəməxsus şəkildə istifadə olunur [Фатуллаев, Ш., 1978, s. 367].

Sovet dövründə Bakıda, əsasən mədəni kimliyi və şəhərsalma ilə bağlı, bir sıra dəyişikliklər baş verdi. Partiya hökumətinin siyasəti çarizm dövrünün siyasəti ilə demək olar ki, eyni idi və bir çox

cəhətdən daha sərt idi. O, milli elementləri tamamilə aradan qaldırmağa çalışırdı və nəticədə eyni binalar, məhəllələr, yeni, qeyri-azərbaycan adları ilə küçələr, kommunal mənzillər və hər şeyi fərdiliyindən məhrum edən məşhur Xruşşov, Leninqrad və Stalin dövrü layihələri yarandı. Yalnız memarların, xeyriyyəçilərin və ənənələrini qorumağa çalışan adi insanların səyləri Bakının bugünkü kimi milli xüsusiyyətlərə malik müasir evlərlə dolu qalmasına imkan verdi.

Hazırda hökumət təşəbbüsləri dünyanın üzləşdiyi bir sıra problemləri həll edir. Azərbaycanda şəhərlərdə əhalinin həddindən artıq çoxluğunu aradan qaldırmaq və müasir texnologiyaların tətbiqi üçün nəzərdə tutulmuş bir neçə şəhərsalma layihəsi mövcuddur. Məsələn, Zəngilan rayonunun Ağalı kəndi, eləcə də Qarabağ və Şərqi Zəngəzurun inkişafı üzrə baş plan, "Ağıllı Şəhər" və "Ağıllı Kənd" konsepsiyaları artıq həyata keçirilir. "Böyük Qayıdış" proqramı çərçivəsində nəzərdə tutulan bu konsepsiyalar Azərbaycanın şəhərsalma təşəbbüslərini genişləndirmək, onları daha müasir etmək və eyni zamanda ölkənin mədəni irsinə hörmət etmək məqsədi daşıyır. Bundan əlavə, Bakının özündə 2040-cı ilə qədər davam edəcək və "Ağ Şəhər" və təhlükəli binaların sökülməsini əhatə edən bir layihə həyata keçirir.

Bu "təşəbbüslər paketi" ilə Azərbaycan özünü Ümumdünya Şəhərsalma Forumunda təqdim edəcək və bu Forum problemlərin həllinə diqqət yetirməklə yanaşı, təcrübə mübadiləsi üçün də platforma rolunu oynayacaq. Bakının bu forumda nümayiş etdirəcəyi və müzakirə edəcəyi bir çox aspektləri var. Tarixi və mədəni kimliyə hörmətlə yanaşı, müasir infrastrukturun inkişaf etdirilməsi konsepsiyaları məhz hər bir forum nümayəndəsinin axtardığı detaldır. Bundan əlavə, Azərbaycan hibrid transformasiya modelinin turizmin və iqtisadi perspektivlərin inkişafına imkan yaratması ilə öyünə bilər və bu da onların ölkə üçün əhəmiyyətini daha da artırır.Beləliklə, əminliklə demək olar ki, Azərbaycanın tarixi yaddaşın və şəhər müasirliyinin qorunması və gücləndirilməsinə yanaşması dünyanın bir çox ölkələri üçün model rolunu oynaya bilər, eləcə də bu sahədə ölkələr arasında əməkdaşlıq üfüqlərini genişləndirə bilər. WUF13 kimi platformaların əhəmiyyəti bir daha göstərir ki, dünya nə qədər fikir və siyasi baxışlar birliyi naminə çalışsa da, mədəni kimlik öz qaydalarını diktə edir və hər bir xalq bu qaydalara uyğunlaşmağa çalışır.

### Ədəbiyyat siyahısı

1. Manafova, M., 2010, Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik, Bakı: Sabah nəşriyyatı
2. Xəlilli, F., 2025, Mədəni irs beynəlxalq ustad məktəbi: Tədris vəsaiti, Bakı: AFPoliqrAF
3. Sayfutdinova, L. 2025. Bayırşəhərin əhəmiyyəti nədir? URL: https://bakuresearchinstitute.org/bayirseherin-ehemiyyeti-nedir/ (Müraciət tarixi: 08.04.2026)
4. Girard, L.., 2025, Adaptive reuse of cultural heritage, Cham: Springer
5. Ragheb, R., 2025, Cultural memory as urban identity: Assessing heritage preservation in Alexandria. Journal of Urban Development and Management, 4(2), 141.
6. WUF13 Organizing Committee. 2025. Housing the world: Safe and resilient cities and communities. URL: https://wuf.unhabitat.org/sites/default/files/pdf/wuf13-background-paper.pdf (Müraciət tarixi: 06.04.2026)
7. Фатуллаев, Ш., 1978, Градостроительство Баку XIX-начала XX веков, Ленинград: Стройиздат

**Mazira Alasgarova Vugar gizi**

**HISTORICAL MEMORY AND URBAN MODERNITY: MODELS OF TRANSFORMATION OF URBAN CULTURAL HERITAGE**

**Summary**

In a world filled with problems related to urban infrastructure, it becomes more and more complex to balance cultural significance with modernization. This article creates a platform for discussion regarding the contradicting ideas of transformation and historical memory of cities as models of urban cultural heritage. On the example of the upcoming World Urban Forum, which is to be held in Baku on May 17-22, 2026, the publication reviews the impact of such global initiative on the general concept of urban infrastructure and its cultural identity as the main source of historical significance.

**Key words:** WUF13, city, infrastructure, development, cultural impact, historical significance, transformation.

**Мазира Алескерова Вугар кызи**

**ИСТОРИЧЕСКАЯ ПАМЯТЬ И ГОРОДСКАЯ СОВРЕМЕННОСТЬ: МОДЕЛИ ТРАНСФОРМАЦИИ ГОРОДСКОГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ**

**Резюме**

В мире, все чаще сталкивающемся с проблемами городской инфраструктуры, становится все сложнее поддерживать баланс между культурной самобытностью города и идеями модернизации. Данная статья служит платформой для начала дискуссии на тему противоречащих друг другу идей трансформации и исторической памяти городов, как модели урбанистического культурного наследия. На примере Всемирного форума городов, который пройдет в Баку 17-22 мая 2026 года, эта публикация рассматривает влияние подобных глобальных инициатив на общую концепцию инфраструктуры города и на его культурную идентичность, как на главный источник его исторической значимости.

**Ключевые слова:** 13-ая сессия Всемирного форума городов, город, инфраструктура, развитие, культурное влияние, историческая значимость, трансформация

UOT 008

**Ceyran Əliyeva Kəmaləddin qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
ceyraneliyeva214@gmail.com

# ŞƏHƏR MÜHİTİ ƏNƏNƏVİ VƏ MÜASİR MƏDƏNİ İRSİN TRANSFORMASİYA MƏKANI KİMİ (XX ƏSR AZƏRBAYCANINDA MODERNİZM KONTEKSTİNDƏ)

**Xülasə**

XX əsr Azərbaycan şəhərləri, xüsusilə Bakı, həm tarixi-mədəni ənənələrin, həm də modernist təsirlərin qarşılaşdığı və qarşılıqlı şəkildə transformasiya keçirdiyi məkana çevrilmişdir. Bu dövrdə şəhər yalnız fiziki məkan deyil, həm də ideoloji və estetik dəyişikliklərin təzahür etdiyi sosial laboratoriya rolunu oynayırdı. Ənənəvi memarlıq və şəhər strukturları tarixi bazarlar, hamamlar, dini və ictimai komplekslər yerli mədəni irsin və sosial həyatın əsas simvolları kimi qorunurdu.

Bu kontekstdə şəhər mühiti iki mədəni qatın dialoqudur. Bir tərəfdən, ənənəvi qat, identikliyi, tarixi-mədəni davamlılığı və sosial münasibətlərin qorunmasını təmin edirdi. Digər tərəfdən, modernist sənayeləşmə, texnoloji yeniliklər və Avropa təsirlərinin şəhər həyatına inteqrasiyasını təmsil edirdi. Bu qarşılıqlı təsir nəticəsində şəhər həm mədəni irsin qorunması, həm də onun yenidən formalaşması üçün zəruri şərait yaradırdı. Nəticədə, XX əsr Azərbaycan şəhəri mədəni irsin transformasiyası və modernist ideyaların tətbiqi üçün dinamik bir məkan rolunu oynayır.

**Açar sözlər:** şəhər mədəniyyəti, modernizim, ənənəvi irs, urban transformasiya, XX əsr Azərbaycan

Şəhər mühiti tarix boyu müxtəlif mədəni qatların bir-biri ilə qarşılıqlı təsiri nəticəsində formalaşmış dinamik bir sistemdir. XX əsr Azərbaycanı, xüsusilə də Bakı şəhəri bu baxımdan modernizm və ənənəvi memarlığın sintez olunduğu unikal urban məkan kimi çıxış edir. Bu dövrdə şəhər yalnız iqtisadi və inzibati mərkəz kimi deyil, həm də mədəni transformasiyanın əsas platforması kimi inkişaf etmişdir [5, s. 76].

XX əsrin ortalarından etibarən Bakıda sovet modernizmi təsiri altında yeni memarlıq üslubu formalaşmağa başladı. Bu üslub funksionallıq, monumentalizm və simmetriya prinsiplərinə əsaslanaraq şəhərin vizual obrazını köklü şəkildə dəyişdirdi.

Bu dövrün ən parlaq nümunələrindən biri Azərbaycan Hökumət Evi binasıdır. 1950-ci illərdə inşa edilən bu monumental tikili klassik elementlərlə sovet modernizmini birləşdirərək dövlətçilik ideologiyasının memarlıq ifadəsinə çevrilmişdir. Binanın iri ölçülü fasadı, sütunlu kompozisiyası və simmetrik quruluşu şəhər məkanında hakim dominant rol oynayır.

Memarlıq baxımından bu tikili "stalinizm ampiri" (sovet neoklassizmi) üslubunun əsas xüsusiyyətlərini özündə ehtiva edir. Fasadda istifadə olunan iri ölçülü pilonlar, ritmik şəkildə təkrarlanan pəncərə sıraları və mərkəzi hissədə vurğulanan kompozisiya güc və sabitlik ideyasını simvolizə edir. Bu xüsusiyyətlər yalnız estetik məqsəd daşımır, eyni zamanda dövlət hakimiyyətinin möhkəmliyini və ideoloji nəzarətini vizual olaraq ifadə edir.



Binanın yerləşdiyi ərazi, Bakı bulvarına yaxın sahə onun şəhər planlaşdırılmasında xüsusi mövqeyə malik olduğunu göstərir. Bu tikili yalnız inzibati funksiya daşımır, həm də şəhərin panoramasında əsas vizual aksentlərdən biri kimi çıxış edir. Geniş meydanla əlaqəli planlaşdırılması, açıq perspektivlər yaratması və ətraf mühitlə uyğunluğu urbanistik baxımdan düşünülmüş həllin göstəricisidir [3, s. 62].

Azərbaycan Hökumət Evi ilə Moskva Dövlət Universitetinin əsas binası kimi Avropa (daha dəqiq olsaq, postsovet məkanı) nümunələri arasında ciddi paralellər mövcuddur. Hər iki tikili "stalinizm ampiri" üslubunda inşa olunmuş, monumental ölçüləri, simmetrik quruluşu və klassik sütun elementləri ilə seçilir.

Lakin əsas fərq ideoloji və mədəni vurğularda özünü göstərir. Moskva nümunəsində memarlıq daha çox imperiya gücünün və mərkəzləşdirilmiş hakimiyyətin simvolu kimi çıxış edir. Bakıdakı Hökumət Evi isə eyni üslubu daşısa da, regional kontekstdə formalaşaraq milli elementlərlə daha yumşaq şəkildə inteqrasiya olunur və yerli urban mühitə uyğunlaşdırılır [6, s. 40].

Bu müqayisələr göstərir ki, XX əsr Bakısında modernizm Avropadakı kimi yalnız funksional və texnoloji yanaşma ilə məhdudlaşmamış, eyni zamanda milli kimliyin qorunması və nümayiş etdirilməsi vasitəsinə çevrilmişdir. Avropada modernizm daha çox universal və minimalist istiqamətdə inkişaf etdiyi halda, Bakıda o, lokal mədəni kodlarla zənginləşdirilmiş, ənənə ilə müasirliyin sintezi kimi formalaşmışdır.

Digər mühüm obyekt Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası binasıdır. Bu tikili yalnız maarifçilik funksiyası ilə deyil, həm də memarlıq baxımından modernizm və klassik milli ornamentikanın vəhdətini əks etdirir. Fasadda istifadə olunan milli motivlər, həndəsi naxışlar, dekorativ elementlər və klassik kompozisiya prinsipləri Azərbaycan mədəni kimliyinin qorunub saxlanıldığını göstərir [4, s.18].

Kitabxananın memarlıq həlli funksionallıq və estetik harmoniyanın sintezinə əsaslanır. Geniş oxu zalları, yüksək tavanlı interyerlər və işıqlandırma sistemi istifadəçilər üçün komfortlu mühit yaradır. Eyni zamanda, binanın planlaşdırılması maarifçilik ideyasının geniş auditoriyaya çatdırılmasına xidmət edir. Bu baxımdan kitabxana yalnız bilik məkanı deyil, həm də mədəni yaddaşın qorunduğu və ötürüldüyü simvolik mərkəz kimi çıxış edir. Onun şəhər mühitində yerləşməsi də təsadüfi deyil, mərkəzi urban zonada yerləşməsi kitabxananı ictimai həyatın aktiv iştirakçısına çevirir [2, s. 73].

Nizami metro stansiyası şəhəraltı məkan olsa da, estetik baxımdan mühüm mədəni obyektdir. Bu stansiya sovet dövrü memarlığında "yeraltı saray" konsepsiyasının bariz nümunələrindən biridir. Stansiyanın interyerində Azərbaycan ədəbiyyatının klassiki Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş mozaik pannolar, bədii təsvirlər və dekorativ kompozisiyalar geniş yer tutur.



Mozaikaların süjet xətti klassik Şərq poetikasını və Nizaminin əsərlərindəki fəlsəfi ideyaları əks etdirir. Bununla yanaşı, interyerdə istifadə olunan mərmər örtüklər, zərif sütunlar və monumental işıqlandırma elementləri (lüstralar) məkanın estetik dəyərini daha da artırır. Bu xüsusiyyətlər metro stansiyasını sadəcə nəqliyyat infrastrukturu deyil, eyni zamanda incəsənət və memarlıq obyektinə çevirir.

Modernizm dövründə inşa edilən bəzi tikililər isə açıq şəkildə milli ənənələri özündə əks etdirirdi. Bu baxımdan Azərbaycan Xalça Muzeyi (köhnə bina) xüsusi qeyd olunmalıdır. 1967-ci ildə tikilmiş köhnə bina formaca sadə olsa da, funksional olaraq milli sənət nümunələrinin qorunmasına xidmət etmiş və Azərbaycan xalçaçılıq ənənələrinin urban mühitdə təqdimatını təmin etmişdir.

Bu tikilinin memarlıq xüsusiyyəti onun zahiri sadəliyi ilə daxili məzmun zənginliyi arasında qurulan balansda özünü göstərir. Eksteryerdə modernist minimalizm üstünlük təşkil etsə də, interyer ekspozisiyasında təqdim olunan xalça nümunələri, Qarabağ, Quba, Şirvan, Təbriz məktəblərinə aid ornamentlər milli estetik dəyərlərin bütöv panoramasını yaradır. Beləliklə, bina yalnız muzey funksiyasını yerinə yetirmir, həm də milli mədəniyyətin vizual “daşıyıcısı”na çevrilir [1, s. 30].

Bu muzey şəhər mühitində ənənəvi sənət növlərinin müasir kontekstdə yenidən interpretasiyasına şərait yaradır. Xalça sənəti kimi qədim bir mədəni irs elementi urban məkanda sərgilənərək həm yerli əhali, həm də xarici ziyarətçilər üçün əlçatan olur və bununla da milli kimliyin qloballaşma şəraitində qorunmasına xidmət edir.

Bu cür memarlıq nümunələri göstərir ki, XX əsr Bakısında modernizm yalnız Qərb təsirlərinin mexaniki tətbiqi deyil, həm də milli identikliyin yeni formalarda ifadəsi idi. Memarlar bir tərəfdən funksional və rasional şəhər mühiti yaratmağa çalışır, digər tərəfdən isə milli ornamentika, simvolika və estetik dəyərləri qorumaqla onları yeni memarlıq dilinə inteqrasiya edirdilər.

**Nəticə**

XX əsr Azərbaycan şəhərləri göstərdi ki, urban mühit həm tarixi mədəni irsi qorumaq, həm də modernist ideyaları tətbiq etmək üçün unikal imkanlar yaradır. Şəhər yalnız fiziki məkan kimi deyil, həm də mədəni transformasiyanın, sosial dialoqun və yeni identiklik formalarının meydana çıxdığı dinamik platforma olmuşdur. Ənənəvi memarlıq elementləri, dini və ictimai komplekslər, bazarlar və məhəllələr modern şəhər strukturu və infrastrukturu ilə qarşılıqlı təsir nəticəsində yenilənmiş, şəhər həyatının ritmləri və sosial münasibətləri dəyişmişdir. Bu proses göstərdi ki, mədəni irs statik deyil, adaptasiya və yenidən formalaşma qabiliyyətinə malikdir; modernist təsirlər isə şəhərin funksional və estetik tələblərini təmin edərək, onun qlobal mədəni tendensiyalarla əlaqəsini gücləndirmişdir. Nəticədə, XX əsr Azərbaycan şəhəri həm ənənəvi, həm də müasir elementlərin harmonik birləşdiyi,

urban mədəniyyətin inkişafına və mədəni irsin transformasiyasına xidmət edən kompleks bir sistem olaraq formalaşmışdır.

### Ədəbiyyat siyahısı

1. Suleymanli, M. (2021). Modernization and culture in Azerbaijan: Second half of the XIX century: Beginning of the XX century. Linguistics and Culture Review, 5(S1), 125–138. https://doi.org/10.37028/lingcure.v5nS1.1324
2. Fətullayev, Ş. (2013). XIX əsr-XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq. Bakı: Şərq-Qərb. https://www.preslib.az/az/elibrary/ebook/VXLdbytz
3. History of Azerbaijan. (2018). Azərbaycan Milli Kitabxanası. [PDF] https://anl.az/el/Kitab/2018/02/cd/i-44365.pdf
4. Əliyev, E. (2019). Azərbaycan memarlıq elementləri. Bakı: müəllif nəşri.
5. Əliyev, E. (2020). XX əsrdə Bakının memarlığı: konstruktivizm və modernizm mərhələləri. Bakı: Memarlıq nəşriyyatı.
6. Asirov, G. (2022). Sovet dövründə Bakı memarlığının inkişaf mərhələləri. Memarlıq araşdırmaları.

**Jeyran Aliyeva Kamaleddin gizi**

## THE URBAN ENVIRONMENT AS A SPACE FOR TRANSFORMATION OF TRADITIONAL AND MODERN CULTURAL HERITAGE (IN THE CONTEXT OF MODERNISM IN THE 20th CENTURY AZERBAIJAN)

### Summary

The 20th century Azerbaijani cities, especially Baku, have become a place where both historical and cultural traditions and modernist influences have met and transformed each other. During this period, the city played the role of a social laboratory where not only physical space but also ideological and aesthetic changes were manifested. Traditional architecture and urban structures, historical markets, baths, religious and public complexes were preserved as the main symbols of local cultural heritage and social life.

In this context, the urban environment is a dialogue of two cultural layers. On the one hand, the traditional layer ensured the preservation of identity, historical and cultural continuity and social relations. On the other hand, the modernist layer represented the integration of industrialization, technological innovations and European influences into urban life. As a result of this interaction, the city created the necessary conditions for both the preservation of cultural heritage and its re-formation. As a result, the 20th century Azerbaijani city plays the role of a dynamic space for the transformation of cultural heritage and the application of modernist ideas.

**Key words:** urban culture, modernism, traditional heritage, urban transformation, the 20th century Azerbaijan.

**Джейран Алиева Кямаледдин кызы**

## ГОРОДСКАЯ СРЕДА КАК ПРОСТРАНСТВО ДЛЯ ТРАНСФОРМАЦИИ ТРАДИЦИОННОГО И СОВРЕМЕННОГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ (В КОНТЕКСТЕ МОДЕРНИЗМА В АЗЕРБАЙДЖАНЕ XX ВЕКА)

### Резюме

Азербайджанские города XX века, особенно Баку, стали местом, где исторические и культурные традиции и модернистские влияния встречались и преобразовывали друг друга. В этот период город играл роль социальной лаборатории, где проявлялись не только физические, но и идеологические и эстетические изменения. Традиционная архитектура и городская структура, исторические рынки, бани, религиозные и общественные комплексы сохранялись как главные символы местного культурного наследия и общественной жизни.

В этом контексте городская среда представляет собой диалог двух культурных слоев. С одной стороны, традиционный слой обеспечивал сохранение идентичности, историко-культурной преемственности и социальных связей. С другой стороны, модернистский слой представлял собой интеграцию индустриализации, технологических инноваций и европейского влияния в городскую жизнь. В результате этого взаимодействия город создал необходимые условия как для сохранения культурного наследия, так и для его переосмысления. Таким образом, азербайджанский город XX века играет роль динамичного пространства для трансформации культурного наследия и применения модернистских идей.

**Ключевые слова:** городская культура, модернизм, традиционное наследие, городская трансформация, Азербайджан XX века

**UOT 73/76**
**ORCID: 0009-0005-5182-1946**

**Ləman Qurbanova Elxan qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**Magistrant**
lemangrbnvova@gmail.com

# MİXAİL ARXANGEL KİLSƏSININ DAXİLİ TƏRTİBATINDA UCAL HAQVERDİYEVİN ROLU

**Xülasə**

Bu məqalə Bakıdakı Müqəddəs Mixayıl Arxangel kilsəsinin daxili divar boyakarlığının müasir Azərbaycan sənətşünaslığı və dini ikonoqrafiya kontekstində təhlilinə həsr olunmuşdur. Tədqiqatın mərkəzində kilsənin Müqəddəs Varfolomey prixodundakı freskaların müəllifi, tanınmış rəssam Ucal Haqverdiyevin bədii dili və fəlsəfi yanaşması dayanır. Müəllif Ucal Haqverdiyevin pravoslav ikonası qanunlarına (kanonlarına) sadiq qalmaqla yanaşı, onlara özünəməxsus “Abşeron rəngkarlıq məktəbi” ruhunu və fərdi plastik cizgiləri necə daxil etdiyini tədqiq edir. Məqalədə prixoddakı xüsusi süjetlər – başda Qluşitsalı Amfiloxiy olmaqla şəfaçı əzizlərin silsiləsi və arkosoli boşluğunda yerləşən dramatik “Sebastiyalı 40 Şəhid” freskası vizual və teoloji baxımdan təhlil olunur. Xüsusilə vurğulanır ki, Haqverdiyevin işlədiyi “Vyaz” üslublu xəttatlıq nümunələri və nimblərdəki mürəkkəb ornamentlər, qədim Bizans ənənəsi ilə Azərbaycanın dekorativ tətbiqi sənətinin gizli vəhdətini təşkil edir. Məqalənin nəticəsi olaraq qeyd edilir ki, Ucal Haqverdiyevin kilsə daxilindəki fəaliyyəti təkcə dini tərtibat deyil, həm də Azərbaycanın multikultural dəyərlərini və müasir rəngkarlıq gücünü əks etdirən monumental sənət hadisəsidir.

**Açar sözlər:** Ucal Haqverdiyev, freska, ikonoqrafiya, pravoslav kilsəsi, rəssam, müqəddəs həkimlər.

**Giriş.** Ucal Haqverdiyev (Pravoslavlığı qəbul etdikdən sonra Pyotr) qısa ömür sürməsinə baxmayaraq, Azərbaycan müasir təsviri incəsənətində özünəməxsus yaradıcılıq istiqaməti ilə seçilən sənətkar kimi yadda qalmışdır. Rəssamın yaradıcılığı müxtəlif bədii axtarışları və üslubi təcrübələri əhatə etməklə yanaşı, həm də monumental-dekorativ sənət sahəsində diqqətəlayiq nümunələrlə zəngindir. Bu nümunə Mixayıl Arxangel kilsəsinin daxili tərtibatı olmuşdur. Kilsənin tikintisi 1813-cü ildə Gülüstan sülh müqaviləsi ilə Bakı xanlığının Rusiya impresiyasına birləşməsindən sonra başlayır. İlkin olaraq, Sarı adasında Xəzər donanmasının eskadra heyəti üçün tikilmiş kilsə daha sonra 1844-cü ildə Bayır şəhərdə yerləşən ikimərtəbəli karvansaraya köçürülmüşdür [9]. 2000-ci ildə aşağı mərtəbə Bakıda etiqadına görə öldürülmüş ilk Həvari Məsih Varfolomey adına prixod (aşağı kilsə təşkilatına mənsub üzvlərinin yaşadığı yer) tikilmişdi və bu hissənin freskaları Ucal Haqverdiyev tərəfindən könüllü olaraq işlənmişdir. Lakin sənətkarın həyatının gözlənilmədən sona çatması səbəbindən bu monumental layihə tam şəkildə başa çatdırıla bilməmişdir [2]. Kilsə interyerində nəzərdə tutulan freskaların bir hissəsi yarımçıq qalmış, sonrakı mərhələdə isə rəssamın həyat yoldaşı, rəssam Yelena Haqverdiyeva və digər 5 tələbəsi tərəfindən tamamlanmışdır. Yelena

Hagverdiyevanın tamamladığı hissələr tam olaraq, bilinməməkdədir. Bunun səbəbbi isə Hagverdiyeva ilə aparılan müsahibədə açıqlanır: “Bəzi hissələr Ucal tərəfindən artıq tamamlanmışdı, bəziləri yarımçıq, bəzilərini isə tamamilə ağ, boş divarlar olaraq qalmışdı. Buna görə də tam olaraq, hansı hissələrin işləndiyini demək çətindir” [3]. Bu fakt bir tərəfdən Ucal Haqverdiyevin yaradıcılıq ideyalarının davam etdirildiyini göstərir, digər tərəfdən isə Mixail Arxangel kilsəsinin interyer tərtibatını Azərbaycan müasir monumental rəngkarlığının maraqlı və özünəməxsus nümunələrindən biri kimi səciyyələndirməyə imkan verir. 1985-ci illərdən xristian ikonografiyası, dini süjetlər və xristianlığın teoloji əsasları ilə yaxından maraqlanmış, bu sahədə geniş araşdırmalar aparmışdır. Bu səbəbdən kilsənin freska tərtibatını dərinliklə həyata keçirtmək çoxda çətin olmamışdır. Dini mövzuların bədii interpretasiyası rəssamın yaradıcılığında yeni semantik qatların formalaşmasına və onun bədii dilinin zənginləşməsinə səbəb olmuşdur. Bu baxımdan rəssamın dini memarlıq mühitində həyata keçirdiyi bədii tərtibat işləri xüsusi əhəmiyyət kəsb edir.

***Kilsənin daxili tərtibatı.*** Aşağıda yerləşən prixoda daxil olduqda bizi uzun bir nartex (giriş və keçid zonası) qarşılayır. Nartexdəki təsvirləri iki istiqamətdə təhlil etmək mümkündür: sol və sağ hissələrdəki təsvirlər. Sağ tərəf arkalarla əhatə olunaraq, əsas ibadət zalına keçid funksiyasını daşıyır. Arkaların yan tərəflərində təsvir olunan freskalarda müəyyən dövrlərdə dini seçimlərinə görə şəhid olan obrazların əksini görürük. Pravoslav ikonografiyasında mövcud olan fiqurlar adətən şəhidlər, həvarilər və erkən xristiyan müqəddəslərə həsr olunur [5]. Kolorit baxımından freskaların dominant elementi olan qızılı arxa fon, üslub xüsusiyyətlərinə görə 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində geniş yayılan, qədim orta əsr ənənələrini müasir estetikayla birləşdirən Neo-Bizans cərəyanına aiddir. Qızıl burada sadəcə bəzək deyil, “İlahi Nurun” və əbədiyyətin simvoludur. Fiqurların anatomik quruluşunda klassik ikonoqrafik qanunlar gözlənilmişdir: uzunsov üzlər, böyük və dərin baxışlı gözlər izləyici ilə birbaşa mənəvi təmas qurur. Lakin freskanın aşağı hissəsində nəzərə çarpan aşınmalar və rəng tökülmələri, əsərin zamanın sınağına məruz qaldığını göstərir. Bu “yaralı” görüntü, əslində təsvir olunan şəfaçı obrazları ilə dramatik bir təzad yaradır; sanki şəfa verənlərin öz təsvirləri indi şəfaya (restavrasiyaya) möhtacdır. İlk olaraq, təhlil etmək istədiyim hissə nartexin ilk sağ tərəfindəki təsvirlərdir. 6 fiqurlu olan bu freskada hər ayrı bir fiqurun özündə əks etdirdiyi bir dini məna mövcuddur. Obrazların kimliyi bizə həm əlindəki əşyalardan, yuxarı hissədə yazılan yazılardan aydın olur. Pravoslav ikonografiyalarda hər bir müqəddəsin əlindəki əşya onun statusunu və ya həyat hekayəsini göstərir. Birinci fiqur qara monax paltarla təsvir olunub, müqəddəs və ya monaxlarları təmsil edir. Yuxarı hissədə yazılan ikonoqrafik yazı köhnə Kilsə Slavyancası (və ya Qədim Rus dili) yazılmışdır. Ortodoks ənnəsinə görə, üzərində adı yazılmayan təsvir tam hesab olunmur və həmin obraz “Müqəddəs” sayılmır. Kilsə tərtibatının divar rəsmlərinin incəliyi və dinə uyğunluğu Haqverdiyevin yaradıcılığında konsepsiyanın dərinliyini əks etdirir. Bununla əlavə olaraq, rəssam xristian dininin freska tərtibatındakı bütün kanonları diqqətə alaraq, ikonoqrafik yazıda belə ən detallı, incəlikləri görürük. Yazının ilk iki həriflərində yəni “CB” hərflərinin üzərində dalğavari xətt olmasıda müqəddəsin qısaltılmasını mənasını əks etdirir. Freskada təsvir olunan müqəddəslərin başı ətrafında verilmiş nimb onların müqəddəs statusunu və ilahi nurla əlaqəsini simvolizə edən ənənəvi ikonoqrafik elementdir. Lakin bu nimblərin müəyyən ornamentlərlə təsvir olunması, Ucal Haqverdiyevin yaradıcılığına məxsus olan xüsusi sintezlə ilə bağlıdır. Nimblərin daxilindəki bu qıvrım yarpaq və gül naxışları xristian sənətində Cənnət bağlarını simvolizə edir. Kompozisiyada istifadə olunan rəng palitrası yalnız Avropa rəngkarlıq ənənəsinə xas xüsusiyyətlərlə məhdulaşmır. Burada eyni zamanda Şərq, xüsusilə Çin dekorativ-estetik düşüncəsinə yaxın olan rəng həlləri də

müşahidə edilir. Bu iki fərqli koloristik ənənnənin qarşılıqlı əlaqəsi əsərdə müəyyən üslubi inteqrasiya yaradır və rəssamın fərdi bəii yanaşmasını formalaşdırır. Beləliklə, Avropa və Şərq koloristik prinsiplərinin sintezi kompozisiyada yeni dinamika və ifadəlik meydana gətirir.

***Müqəddəs həkimlər.*** İlk obrazın kimliyini aşkar etmək üçün ümumi yazının təhlili Amphilochius Glushitsa olmağını təsdiqləyir. 14-cü əsr Ortodoks müqəddəsidir və həmçinin yüksək zirvəyə çatmış bir şəxsdir. Əlində yerləşdirilmiş, iki əşyadan biri perqament (yazı yazmaq üçün istifadə olunmuş, aşılanmış heyvan dərilərindən xüsusi üsulla hazırlanan materialdır), digəri isə onun şifacı olduğunu bildirən saxsı qabdır. Amphilochius həmçinin möcüzə şəkildə insanlara şifa olurdu və indi də dini incanclara görə onun obrazının freskasının qarşısında dua etdikdə, fiziki ağrılardan və xəstəlikdən insan şifa tapır. Geyimi onun digərləri arasındakı ağırlığı göstərir və kolorit seçimi də bu ağırlığa müəyyən dərinlik qatır. İkinci fiqur isə Müqəddəs İoanndır. Onun Qluşitsale İoann olması həm ikonografiya yazı da həmçinin Amphilochiusun yanında təsvir olunması ilə təsdiqlənir. Dini aspektdən yanaşsaq, hər iki obraz, həmişə birlikdə təsvir olunurlar. İoannın Amphilochiusun həm müəllimi, həm də yaxıb həmkarı olmuşdur. Haqverdiyev dərman qutusunu obrazın əlində təsvir edərək, onun şifacı olmasını vurğulayır. Geyim olaraq, ikonografik ənənədə yaşlı müqəddəslər daha tünd və sakit koloristik həllə malik geyimlərlə təqdim olunur, gənc fiqurlar isə açıq və parlaq rənglərin istifadəsi onların gənclik və ruhani saflıq ideyasını vurğulayır [6]. 3 və 4-cü təsvirlərdə ki, obrazlar isə Müqəddəs Damian və Kosmodur. Kosmas və Damian insanlara xidmət kimi tibblə məşğul olduqları və müalicə üçün pul tələb etmədikləri üçün “pulsuzlar” (moneyless ones) kimi tanınan əkiz qardaşlar idilər. Onlar III əsrdə Ərəbistan bölgəsində anadan olmuş və Suriya ərazisində elm və tibb üzrə təhsil almışdılar [5 ]. Xristian olduqları üçün bədəni sağaltmağı xeyriyyə və mərhəmət işi hesab edirdilər. Onların yaxşı nümunəsi və xəstələrə göstərdikləri xidmət bir çox insanın Məsihə iman gətirməsinə səbəb olmuşdur. Onlar yaxşı və sadiq insanlar kimi tanınırdılar və xristianlara qarşı təqiblər başladıqda gizlənmələri mümkün olmadı. Təxminən 283-cü ildə imanlarına görə həbs edilərək başları kəsilmişdir. Ölümlərindən sonra onlara aid edilən şəfa möcüzələri haqqında rəvayətlər yayılmışdır. Deyilənə görə, bəzən xəstə insanlara görünür və onları sağaldırdılar [5]. Haqverdiyev 6 obrazı birlikdə verməyinə baxmayaraq, həmin bu ekiz qardaşları müəyyən nüanslarla tamaşaçıya aşkar etmişdir. Bunlardan biri istifadə olunan koloritdir, digəri isə hər iki obrazın əlində təsvir olunan məlhəm çubuğu və qabıdır. O dövrdə həkimlər bu alətlə dərmanları qarışdırır, birbaşa yaranın üzərinə çəkirdilər. 5-ci obraz Müqəddəs Böyük Şəhid Panteleymondur. III əsrdə yaşamış məşhur bir həkimdir. Saray həkimi olmasına baxmayaraq, könüllü şəkildə işini davam etdirirdi. Bu isə bizə yenidən Haqverdiyevin könüllü freska işləməsini xatırladır. Panteleymon həmişə gənc və saqqalsız təsvir olunur. Bu, onun əbədi gəncliyini və ruhunun saflığını simvolizə edir . Onun əlində tutduğu dördbucaqlı dərman sandığı və nazik qaşıq, sənətdə tibbi biliklərin ilahi möcüzə ilə birləşdiyinə işarədir. Libasındakı qırmızı və tünd qəhvəyi tonlar onun həm şəhidliyini, həm də ağır həkimlik məsuliyyətini vurğulayır. Nimbinin daxilindəki mavi-yaşıl mina naxışları onun mənəvi ucalığını digərlərindən daha qabarıq şəkildə önə çıxarır. Sağındakı və bu hissə də olan son obraz III əsrdə yaşamış Trifon, daha çox təbit və insan arasındakı harmoniyanı təmsil edir. O xəstəlikləri dua gücü ilə qovan, əkinlər və heyvanları qoruyan bir müqəddəs kimi tanınır. Rəssam Trifonu burada açıq rəngli, demək olar ki, ağ və krem tonlarında libasla təsvir edib. Ağ rəng Allahın nurunun təcəssümüdür. Onun əlində tutduğu böyük şəfalı su qabı və zəncirlə asılmış buxurdan, şəfanın fiziki vasitələrdən çox ruhani ayinlər və dua vasitəsilə gəldiyini göstərir. Obraz baxışları birbaşa öz üzərinə çəkmir, bunun səbəbi isə “daxili sükut” vəziyyətinin rəssam tərəfindən vurğulanmasıdır. Əgər

Amfiloxiy ilə başlayan sıra asketizmi və dünyadan imtinanı təmsil edirdisə, Panteleymon və Trifon ilə bitən bu hissə insanlığa xidməti və aktiv mərhəməti simvolizə edir. Beləliklə, rəssam bu fiqurlarla şəfanın tamlığını bədəndə və ruhda eyni dərəcədə önəmli olduğunu vurğulamışdır.

Sebastiyalı 40 şəhid. Bu 6 obrazın yerləşdiyi hissədən başqa təhlil etmək istədiyim bir hissə də “Sebastiyalı 40 şəhid” süjetinin mövcud olduğu hissədir. Təsvirdə eramızın 320-ci ilində Roma imperatoru Likinin dövründə xristianlığı qəbul etdiklərinə görə edam edilən 40 Roma əsgəri göstərilib. Onlar inandığı dəyərlərdən dönmədikləri üçün qışın şaxtasında, Sebastiya (müasir Sivas) şəhərindəki donmuş gölə salınaraq ölümlə üz-üzə buraxılmışdılar [15]. ‘Əvvəlki fərdi ikonalarla müqayisədə burada kütləvi bir kompozisiya var. Fiqurların çılpaq olması onların müdafiəsizliyini, bir-birlərinə sarılmaları və titrəmələri isə həm fiziki soyuğu, həm də mənəvi həmrəliyi simvolizə edir. Fiqurların bədənindəki kəskin kölgələr və parlaq işıq zolaqları əzələlərin gərginliyini və çəkilən əzabın realistik görüntüsünü yaratdı. Bu, Bizans ənənəsində nadir rast gəlinən “canlılıq” elementidir. Sağ tərəfdəki bina (hamam) inancından dönən bir əsgərin qaçdığı yeri göstərir, yuxarıdakı taclar isə şəhidlərin mükafatını simvolizə edir. Rəssam bütün artıq detalları (bina, göydən enən taclar) kənarlaşdırıb. O, bütün diqqəti yalnız insan dramına və şəhidlərin bir-birinə sıxılmaqla yaratdığı kollektiv gücə yönəldib. Bu, hadisəni daha çox “tarixi hekayə”dən çıxarıb “əbədi mənəvi mübarizə” halına gətirir. Bir çox pravoslav kilsələrində sözü gedən konteksdəki freskaya rast gəlirik. Müqayisəli şəkildə təhlil etsək, nümunə olaraq, Berlində ki, Bode müzeyində yerləşən fil sümüyündən ibarət olan relyefdir [16]. Bu relyefdə tam bir teoloji iyerarxiya var. Yuxarıda İsa Məsih taxtda əyləşib, mələklər isə şəhidlərin başına qoyulacaq tacları saxlayırlar. Hekayənin bütün kompenentləri eyni vaxtda təsvir olunur. Ucal Haqverdiyev isə Məsihi və mələkləri visual olaraq kənarlaşdırıb. O, bütün diqqəti insan zülmünə və daxili imana yönəldib. Bizans relyefində fiqurlar kifayət qədər nizamlıdır. Bədən anatomiyası ideallaşdırılmış, fiqurlardan ibarətdir. Bu nüans isə bizi bir qədər antik dövrə aparır. Relyefin sadəcə fil sümüyündən ibarət olması, kolorit baxımından ifadənin gücünü aşağı salmışdır. Lakin tətbiq olunan mövzu yenə də, mahiyyətini əks etdirə bilir. Haqverdiyev isə koloritlə kompozisiyanın yarı hissəsini verməsinə baxmayaraq, daha təsirli bir əsər ərsəyə gətirmişdir.

Nəticə. Aparılan təhlilər göstərir ki, Ucal Haqverdiyevin bu kilsədəki işi unikaldır, çünki o, freskaları klassik rəssam kimi deyil, bir asket kimi işləyirdi. Onun istifadə etdiyi torpaq rəngləri və "ilahi qızılı" tonların uyğunluğu Azərbaycanın rəng palitrasını dini ikonoqrafiyaya gətirmişdir. Məqalənin əvvəlki hissələrində şəfa verən əlləri və nurlu simaları gördüksə, “Sebastiyalı 40 şəhidin” təsvirində inanc naminə fədakarlığın fiziki və mənəvi zirvəsini müşahidə edirik. Memarlıq baxımından təsvir olunduğu hissə arkosoli adlanır. Qədim Roma katakomlarından bəri istifadə olunan bu element, adətən müqəddəs şəxslərin qalıqlarınının yerləşdirildiyi və ya onlara həsr olunmuş mühüm hadisələrin təsvir edildiyi bir şedevrdir.

## Ədəbiyyat siyahısı


1. **Əfəndiyev, R. (2007).** *Azərbaycan incəsənəti*. – Bakı: Şərq-Qərb.
2. **Dilarə Əsədli**.Rəngkarlıq sənətində ucalan rəssam. Mədəniyyət. 2022, 20 iyul. Səhifə 7
3. **Haqverdiyev, U. (2005).** *Ucal Haqverdiyev: Rəngkarlıq, qrafika* (Kataloq). – Bakı
4. **Успенский, Л. А. (1989).** *Богословие иконы Православной Церкви.*
5. **Constantine Cavarnos – “Guide to Byzantine Iconography”**
6. **Florenski, P. (2010).** *İkonostas.*
7. **Məlikova Ş. Bir taleli iki insan. Bakı 2022. 63 səhifə**

8. **Turan Azər. Yatmış şəhərin yuxusu yaxud rəssam Ucal Haqverdiyev. Ədəbiyyat qəzeti. 2018, 27 oktyabr. Səhifə 12**
9. **Qalib oğlu S. Rəssamla görüş lahiyəsində Ucal Haqverdiyevin xatirəsi anılıb. Mədəniyyət. 2016, 7 sentyabr. Səhifə 7**
10. **Nərgiz Əbdülrəhmanova. Dərvişin rəqsi. 525-ci qəzet. 2022, 18 iyun. Səhifə 21**

**Ляман Гурбанова Елхан кызи**

## РОЛЬ УДЖАЛА АХВЕРДИЕВА В ОФОРМЛЕНИИ ВНУТРЕННЕГО ИНТЕРЬЕРА ЦЕРКВИ АРХАНГЕЛА МИХАИЛА

### Резюме

Данная статья посвящена анализу внутренней настенной росписи церкви Святого Архангела Михаила в Баку в контексте современного азербайджанского искусствоведения и религиозной иконографии. В центре исследования находится художественный язык и философский подход известного художника Уджала Ахвердиева – автора фресок, расположенных в приходе Святого апостола Варфоломея. Автор исследует, каким образом Уджал Ахвердиев, оставаясь верным канонам православной иконописи, одновременно вводит в них дух “абшеронской школы живописи” и собственные пластические художественные особенности. В статье анализируются отдельные сюжетные композиции прихода, прежде всего серия изображений святых целителей, включая “Амфилохий Глушицкий”, а также драматическая фреска “Сорок Севастийских мучеников”, расположенная в пространстве аркосолия. Особое внимание уделяется использованию художником каллиграфии в стиле “Вязь”, а также сложных орнаментов в нимбах. Эти элементы формируют скрытый синтез древней византийской художественной традиции и азербайджанского декоративно-прикладного искусства. В результате исследования делается вывод, что деятельность Уджала Ахвердиева в интерьере храма представляет собой не только религиозное художественное оформление, но и значимое явление монументального искусства, отражающее мультикультурные ценности Азербайджана и силу современной национальной живописи.

**Ключевые слова:** Уджал Ахвердиев, фреска, иконография, православная церковь, художник, святые врачи.

**Laman Gurbanova Elxan gizi**

## UCAL HAGVERDIYEV`S ROLE IN THE INTERIOR DESIGN OF THE ARCHANGEL MICHAEL CHURCH

### Summary

This article examines the interior wall paintings of the Archangel Michael church in Baku within the context of contemporary Azerbaijani art studies and religious iconography. The research focuses on the artistic language and philosophical approach of the renowned Azerbaijani painter Ujal Hagverdiyev, the author of the frescoes located in the parish of Apostle Bartholomew. The author explores how Ujal Hagverdiyev, while remaining faithful to the canonical traditions of Orthodox icon painting, incorporates the spirit of the “Absheron School of Painting” along with his distinctive plastic and stylistic features. The article analyzes several narrative compositions within the parish space, particularly the series of healing saints, including Amphilochius of Glushitsa, as well as the dramatic

fresco depicting the Forty Martyrs of Sebaste located in the arcosolium space. Special attention is given to the artist's use of "Vyaz" style calligraphy and the intricate ornamental designs within the halos. These elements reveal a subtle synthesis between the ancient Byzantine artistic tradition and the decorative-applied arts of Azerbaijan. The study concludes that Ujal Hagverdiyev's work within the church interior represents not only a religious artistic decoration but also a significant phenomenon of monumental art that reflects the multicultural values of Azerbaijan and the strength of contemporary national painting.

**Key words:** Ujal Hagverdiyev, fresco, iconography, Orthodox Church, painter, holy physicians.

UOT 930.85(479.24)

**Adilə Əhmədova Əli qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**adilee_2003.09.com@icloud.com**

# BAKI ŞƏHƏRİ: TARİXİ İNKİŞAF, MƏDƏNİ YADDAŞ VƏ MÜASİR URBANİZASİYA

**Xülasə**

Bu məqalədə Bakı şəhərinin tarixi, adının mənşəyi, toponimik xüsusiyyətləri və müxtəlif dövrlərdə şəhərin iqtisadi həyatı kimi məqamlara toxunulmuşdur. Tədqiqat işində ilk növbədə “Bakı” toponiminin etimologiyası və şəhərin adının mənşəyi ilə bağlı fərqli elmi yanaşmalar təqdim edilmişdir. Bundan əlavə, şəhərin əvvəlki dövrlərdəki idarəetmə sistemi və sosial həyatı arxiv materialları əsasında nəzərdən keçirilir. Məqalədə Bakının müxtəlif tarixi mərhələlərdəki vəziyyəti öyrənilmişdir. Belə ki, Bakının ən uzunömürlü feodal dövlətlərdən olan Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsi və bununla da şəhərin iqtisadi həyatının yüksəliş mərhələsinə qədəm qoyması xüsusi qeyd olunur. Həmçinin Bakı şəhərinin müasir vəziyyəti, həyata keçirilən layihələr və inkişaf perspektivləri təhlil edilmişdir. Məsələn, “Ağ Şəhər” kimi müasir şəhərsalma layihələri məqalədə geniş işıqlandırılır. Yekunda hər iki dövrün Bakısı müqayisə edilmiş və aradakı fərqli cəhətlər üzə çıxarılmışdır.

**Açar sözlər:** şəhər, iqtisadi həyat, Abşeron yarımadası, neft, liman,

İnsan övladı əsrlər boyu sadəcə təbiət hadisələrinə uyğunlaşmaqla kifayətlənməmiş, həm də öz mənəvi dəyərlər sistemini quraraq heyvanlar aləmindən fərqlənən yeni bir mühit formalaşdırmışdır. Bu mühitin – yəni mədəniyyətin – ən mürəkkəb və canlı təzahürü isə şəhərlərdir. Şəhər sadəcə binalar toplusu deyil; o, insanın tərbiyəsindən tutmuş ictimai münasibətlərinə qədər hər bir detalı formalaşdıran böyük mədəni yaddaşdır. Bu mənada Bakı şəhəri bəşəri sivilizasiyanın inkişafını öz küçələrində yaşadan unikal bir məkandır. Bakının timsalında mədəniyyətin həm siyasi, həm də beynəlxalq münasibətləri özündə birləşdirən gücünü aydın görmək olar. Şəhər bir tərəfdən İçərişəhərin daş divarlarında keçmişin keşiyini çəkir, digər tərəfdən isə müasir urbanizasiya proseslərinə, yeni memarlıq cərəyanlarının mərkəzinə çevrilir. Bu məqalədə Bakı şəhəri timsalında mədəniyyətin insanın ictimai kimliyinə təsiri və tarixi irsin müasir şəhər mühiti ilə necə bir harmoniya təşkil etdiyi araşdırılır. Bakının öz keçmişini itirmədən müasirliyə adaptasiya olması, əslində, insanın təbiətdən ayrılaraq yaratdığı mədəni təkamülün ən bariz nümunəsidir.

Bakı şəhəri Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində, külək və fırtınalardan yaxşı qorunan buxtadır [Aşurbəyli, S., 2006, s. 37].

Bakı şəhərinin bir yaşayış məskəni və strateji mərkəz kimi formalaşmasının tarixi olduqca qədimdir. Abşeron yarımadasının əlverişli coğrafi mövqeyi, təbii limanı və yerli sərvətləri (neft və duz) hələ qədim dövrlərdən insanları bu bölgəyə cəlb etmişdir. Arxeoloji tədqiqatların nəticələri göstərir ki, Bakı ərazisində məskunlaşma tarixi Tunc dövrünə qədər uzanır. Xüsusilə İçərişəhər ərazisində, Qız qalasının yaxınlığında və Bayıl buxtasında aparılan qazıntılar zamanı tapılan saxsı

qab qırıqları, balıq fiqurları və antik dövrə aid sütun altlıqları Bakının hələ eradan əvvəl mütəşəkkil bir yaşayış məntəqəsi olduğunu təsdiqləyir [Aşurbəyli, S., 2006]. Q.Aslanovun apardığı tədqiqatlar sübut edir ki, şəhərin “daş yaddaşı” antik dövrün qlobal ticarət şəbəkəsi ilə sıx bağlı olub. V.V.Bartold kimi şərqşünasların erkən orta əsrlərdə Bakının şəhər statusuna dair şübhələri məhz Sınıqqala məscidi ətrafında tapılan antik küplər və e.ə. IV–I əsrlərə aid yaşayış qalıqları ilə elmi şəkildə təkzib edilmişdir.

Tarixi mənbələrdə Bakının adı müxtəlif formalarda çəkilsə də, şəhərin erkən orta əsrlərdə artıq mühüm bir iqtisadi mərkəzə çevrildiyi şübhəsizdir. VII əsr alban tarixçisi Musa Kalankatlı “Albaniya tarixi” əsərində Bakını neft və duz hasil edilən məkan kimi qeyd edir ki, bu da şəhərin hələ o dövrdə beynəlxalq ticarət maraqlarının mərkəzində durduğunu göstərirz IX–XI əsr ərəb coğrafiyaşünasları – əl-Bəlazuri, İstəxri və İbn Havqəl Bakını Xəzərin ən mühüm limanı və hərbi-strateji istehkamı kimi xarakterizə edirlər. Xüsusilə İbn Havqəlin qeydlərində Bakının ətrafındakı neft yataqlarının iqtisadi əhəmiyyəti və bu sərvətin feodal dövlətləri arasındakı mübarizədə rolu geniş təhlil olunur. Şəhərin “amfiteatr” formalı quruluşu həm dəniz ticarətini asanlaşdırır, həm də düşmən hücumlarından effektiv müdafiə olunmağa imkan verirdi.

VIII–X əsrlərdə Bakının sosial mənzərəsi və idarəetmə sistemi şəhər mədəniyyətinin təkamülünü anlamaq üçün açar rolunu oynayır. Bu dövrdə şəhər idarəçiliyi hərbi və mülki rəislərin – əmirlərin, hakimlərin və bələdiyyə rəisləri olan darğaların əlində cəmləşmişdi. Şəhərin hakim təbəqəsini feodal zadəganları təşkil etsə də, Bakı iqtisadiyyatının onurğa sütununu sənətkarlar və tacirlər formalaşdırırdı. Şəhər əhalisinin əsas kütləsi daş üzərində oyma, metal işləmə (misgərlik, dəmirçilik), dulusçuluq və gəmiqayırma ilə məşğul olan usta təbəqəsindən ibarət idi. Tapılan şirli keramika nümunələri Bakının orta əsr ticarətində həm istehsalçı, həm də mühüm tranzit məntəqəsi olduğunu bir daha sübut edir [Fətullayev-Fiqarov Ş., 2013].

Maliyyə sisteminin idarə olunması isə “Divan əl-Xərac” vasitəsilə həyata keçirilirdi. Bu dövrdə Bakı əhalisindən yığılan vergilər – cizyə, xərac, xüms və zəkat şəhərin həm daxili ehtiyaclarına, həm də mərkəzi hakimiyyətin xəzinəsinə yönəldilirdi. Mənbələrdə göstərilir ki, Bakı neftindən gələn gəlirlərin bir hissəsi bəzən strateji əhəmiyyətli qalaların təmirinə və ya sərhəd keşikçilərinin (qazilərin) təminatına ayrılırdı. Şirvanşahlar sülaləsinin hakimiyyəti dövründə şəhərin hərbi müdafiə qabiliyyəti artırılmış, qala divarları möhkəmləndirilmiş və Bakı bir paytaxt şəhəri kimi özünün mədəni yüksəliş mərhələsinə qədəm qoymuşdur.

Mövzunun digər mühüm tərəfi Bakı və Abşeron toponimikasının şəhərin qədimliyi ilə bağlı verdiyi elmi mesajlardır. Mərdəkan, Kürdəxanı, Türkan kimi kənd adları və Bakı adının özünün etimologiyası bölgənin qədim sak-skif, massaget və digər irandilli tayfaların məskunlaşma arealı olduğunu göstərir [Aşurbəyli S., 2006]. Bu toponimik qatlar şəhərin sadəcə memarlıq baxımından deyil, həm də etnik və mənəvi baxımdan “keçmişin keşiyində” durduğunun ən böyük sübutudur. Orta əsr şəhərsalma qanunlarına (şəhristan və qala divarı daxili) tam uyğun gələn Bakı, öz tarixi kimliyini itirmədən qlobal dünyada yaşayan bir irs nümunəsi kimi ucalmaqdadır. Bakının orta əsr şəhərsalma strukturunda müdafiə sistemi sadəcə divarlardan ibarət deyil, bütöv bir mühəndislik düşüncəsinin məhsulu idi. Şəhərin amfiteatr formalı quruluşu, onun dənizdən gələn təhlükələrə qarşı təbii bir qala rolunu oynamasına şərait yaradırdı. Mənbələrdə qeyd olunduğu kimi, Bakı qala divarları XII əsrdə Şirvanşah Mənüçöhr dövründə daha da möhkəmləndirilmiş və ikiqat divar sistemi ilə əhatə olunmuşdur (Fətullayev-Fiqarov Ş., 2013). Bu divarlar arasındakı boşluqlar (xəndəklər) və bürclərin strateji yerləşməsi Bakını Xəzər hövzəsinin ən keçilməz istehkamlarından birinə çevirmişdir.

Xüsusilə, Qız qalasının müdafiə sistemindəki yeri və onun ətrafında cəmləşən yeraltı yollar şəbəkəsi Bakının hərbi memarlıq tarixinin hələ də tam açılmamış səhifələrindəndir. Sara Aşurbəylinin tədqiqatlarında vurğulandığı kimi, Bakı qalası təkcə şəhər əhalisini qorumurdu, o, həm də mərkəzi hakimiyyətin xəzinəsinin və mühüm dövlət sənədlərinin saxlandığı ən təhlükəsiz məkan hesab olunurdu [Aşurbəyli S., 2006]. Bakı, eyni zamanda müxtəlif dini inancların və fəlsəfi cərəyanların qovuşduğu bir mənəviyyat mərkəzidir. Orta əsr Bakısının memarlıq ansamblında məscidlər, mədrəsələr və xanəgahlar mühüm yer tutur. İçərişəhərin dar küçələrində yerləşən Məhəmməd məscidi (Sınıqqala) XI əsr Azərbaycan memarlığının ən nadir incisidir və şəhərin İslam mədəniyyəti dairəsindəki yerini simvolizə edir. Lakin Bakının mənəvi irsi bununla məhdudlaşmır. Abşeron yarımadasında, xüsusilə Suraxanı ərazisində yerləşən Atəşgah məbədi Bakının qədim atəşpərəstlik ənənələrinin və Hindistanla olan tarixi-mədəni əlaqələrinin bariz nümunəsidir. Bu fakt Bakının “keçmişin keşiyində duran” bir şəhər kimi həm də müxtəlif sivilizasiyalar arasında mənəvi körpü rolunu oynadığını sübut edir. Şəhərin bu multikultural keçmişi onun müasir dövrdəki tolerantlıq mərkəzi statusunun tarixi bünövrəsini təşkil edir. Bakı kimi quraqlıq bir bölgədə şəhər həyatını təmin edən ən mühüm amillərdən biri mürəkkəb su təchizatı sistemi idi. Arxeoloji qazıntılar və orta əsr sənədləri göstərir ki, Bakıda kəhrizlər və yeraltı su kanalları şəbəkəsi fəaliyyət göstərmişdir. Bu sistemlər şəhərin həm içməli su ehtiyacını ödəyir, həm də hamamların, məscidlərin fəaliyyətini təmin edirdi. İbn Havqəlin Bakı torpaqlarının zənginliyi ilə bağlı qeydlərində dolayısı ilə suyun və torpağın becərilməsi mədəniyyətinə də işarə edilir. Şəhərin yeraltı infrastrukturunun bu dərəcədə inkişaf etməsi Bakı sakinlərinin yüksək mühəndislik biliklərinə malik olduğunu və urbanizasiya prosesinin sistemli xarakter daşıdığını nümayiş etdirir.

Bakı və ətraf ərazilərin toponimikası şəhərin təkcə coğrafi deyil, həm də etnik tarixinin qoruyucu qalxanıdır. Tədqiqatlar göstərir ki, Abşeron yarımadasındakı yaşayış məntəqələrinin adları (Mərdəkan, Türkan, Kürdəxanı, Şüvəlan və s.) qədim skif-massaget, sak və digər irandilli tayfaların məskunlaşma arealı ilə birbaşa bağlıdır [Aşurbəyli S., 2006]. Xüsusilə, “Bakı” adının etimologiyası ilə bağlı irəli sürülən fərziyyələr – “Badi-kubə” (küləklər şəhəri) və ya qədim “Baquan” (Tanrı şəhəri) terminləri şəhərin həm təbiət hadisələri, həm də mənəvi inanc sistemləri ilə necə sıx bağlı olduğunu nümayiş etdirir. V.V.Bartoldun da qeyd etdiyi kimi, Xəzər sahilindəki bu strateji nöqtə tarixən müxtəlif etnik qrupların qovuşduğu və assimilyasiya olunduğu bir məkan olmuşdur. Bu toponimik qatların öyrənilməsi Bakının “keçmişin keşiyində duran” bir paytaxt kimi öz etnik köklərini müasir şəhər adlarında necə yaşatdığını sübut edir.

Şəhərin iqtisadi dayanıqlığı onun mütəşəkkil maliyyə-vergi mexanizmlərinə söykənirdi. VIII-X əsr ərəb mənbələri, xüsusilə əl-Bəlazurinin “Kitab fütuh əl-buldan” əsəri Bakıdan yığılan vergilərin bölgüsü haqqında nadir məlumatlar təqdim edir. Məlum olur ki, Bakı neftindən və duz mədənlərindən əldə olunan gəlirlər “Divan əl-Xərac” tərəfindən ciddi şəkildə qeydə alınırdı.Mənbələrdə vurğulanan maraqlı faktlardan biri odur ki, Bakı neftindən gələn illik gəlirin müəyyən hissəsi (bəzi dövrlərdə 200 dirhəmə yaxın) mərkəzi xəzinəyə deyil, birbaşa sərhəd istehkamlarının – “suqur”ların qorunmasına və hərbi ehtiyaclara yönəldilirdi. Bu, Bakının o dövrdə təkcə bir ticarət mərkəzi deyil, həm də regional təhlükəsizlik sisteminin əsas maliyyə donorlarından biri olduğunu göstərir. İbn Havqəlin Bakı torpaqlarını “bərəkətli və zəngin” adlandırması da təsadüfi deyil; o, şəhərin təbii ehtiyatlarının feodal dövlətləri üçün nə dərəcədə strateji əhəmiyyət kəsb etdiyini dərindən analiz etmişdir.Bakının orta əsr urbanizasiya prosesində idarəetmə aparatı həm hərbi, həm də mülki maraqların balansına əsaslanırdı. Şəhərin mülki idarəçiliyi “darğalar” tərəfindən həyata keçirilirdi ki, bu da müasir bələdiyyə sisteminin

erkən və mürəkkəb bir forması kimi dəyərləndirilə bilər. Darğalar şəhərdə asayişin qorunması, vergi yığımı və sənətkarlıq sexlərinin fəaliyyətinə nəzarət edirdilər.

Bununla yanaşı, Bakının hərbi qubernatoru rolunu oynayan “əmir”lər şəhərin xarici təhlükələrdən müdafiəsini və liman təhlükəsizliyini təmin edirdilər. Bu ikitərəfli idarəetmə sistemi Bakının bir şəhər kimi stabil inkişafına şərait yaradırdı. Şirvanşahlar sülaləsinin Bakını özlərinin əsas iqamətgahlarından birinə çevirməsi isə bu idarəetmə sisteminin mərkəzləşdirilməsinə və şəhərin paytaxt statusunun qəti şəkildə möhkəmlənməsinə yol açmışdır [Aşurbəyli, S., 2006]. Tarixi mənbələrdən məlum olduğu kimi, Şirvanşahlar dövlətinin üç əsas paytaxtı olmuşdur. Bunlardan birincisi, dövlət yarandığı dövrdə mərkəz rolunu oynayan Şirvan şəhəridir. X əsrdə, daha dəqiq desək, 918-ci ildə Şirvanşah Əbu Tahirin hakimiyyəti dövründə paytaxt Şirvandan Şamaxıya köçürülmüş və iki əsrdən çox dövlətin siyasi mərkəzi olmuşdur. Lakin Şamaxıda tez-tez baş verən dağıdıcı zəlzələlər şəhərin taleyində həlledici rol oynamışdır. 1192-ci ildə baş verən növbəti güclü zəlzələ zamanı Şirvanşah I Axistanın ailə üzvləri həlak olmuş, bu faciəvi hadisədən sonra dövlətin paytaxtı Bakı şəhərinə köçürülmüşdür.Paytaxt statusu alması Bakının iqtisadi və strateji inkişafına böyük təkan vermişdir. Bakı 1538-ci ilə – Şirvanşahlar dövlətinin süqutuna qədər bu statusu qorumuşdur. Dövlətin süqutundan sonra Bakı faktiki olaraq Səfəvilər (1501–1736) imperiyasının tərkibinə daxil olmuş və bu dövrdə regionun ən mühüm liman şəhərlərindən birinə çevrilmişdir.Daha sonrakı tarixi dövrlərə nəzər salsaq, Bakı Xanlıqlar dövrü, Rusiya-Qacar müharibələri, Çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və SSRİ dönəmlərində mühüm inkişaf mərhələlərindən keçmiş, xüsusilə neft sənayesi sayəsində dünya miqyasında tanınmışdır. 1991-ci il 18 oktyabrda Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra Bakı müstəqil Azərbaycan Respublikasının paytaxtı kimi öz tarixi statusunu davam etdirmişdir. Ötən illər ərzində şəhər sürətlə modernləşərək Qafqazın ən öndə gələn meqapolislərindən birinə çevrilmişdir.

Bakı şəhəri bu gün sanki iki hissədən ibarətdir: bir tərəfdə qədimliyi və tarixiliyi qoruyub saxlayan İçərişəhər, digər tərəfdə isə Alov Qüllələri kimi müasir memarlıq nümunələri. Bakının keçmişlə gələcək arasında qurduğu bu mənəvi körpünün ən aydın nümunələrindən biri “Bakı Ağ Şəhər” (White City) layihəsidir. Vaxtilə “Qara şəhər” kimi tanınan sənaye zonasının bu gün ekoloji cəhətdən daha təmiz və müasir yaşayış sahəsinə çevrilməsi şəhərin necə dəyişdiyini açıq şəkildə göstərir. Burada tikilən binalar və geniş bulvarlar Bakının XIX əsrin sonlarında formalaşan “Şərqin Parisi” imicini müəyyən mənada yenidən xatırladır. Bu da onu göstərir ki, Bakı öz neft sənayesi keçmişini tam kənara qoymadan, onu daha rahat və estetik bir mühitə uyğunlaşdırmağa çalışır.Eyni zamanda, şəhərin tarixi nüvəsi olan və UNESCO-nun Ümumdünya İrsi siyahısına daxil edilən İçərişəhər dövlət tərəfindən qorunur və saxlanılır.

**Nəticə**

Apardığım araşdırmalar zamanı tanış olduğum ədəbiyyatlardan belə qənaətə gəldim ki, Bakı sadəcə binalardan ibarət deyil; Bakı, özlüyündə canlı bir tarixdir. Elə bir tarix ki, başlanğıcı çox qədim zamanlara gedib çıxır. Təbii ki, qədim Bakı ilə indiki Bakı arasında bir çox danılmaz fərqlər mövcuddur. Əslində, bu fərqlərin olması da normaldır. Çünki sürətlə müasirləşən dünyada Bakının da modernləşərək müasir bir şəhərə çevrilməsi təbii bir prosesdir. Lakin belə bir məqam da var ki, “müasirləşmə” adı altında şəhərin tarixiliyini itirmək düzgün deyil. Tarixin canlı şahidi olan bu şəhəri qorumaq burada yaşayanların ən önəmli vəzifələrindən biridir.

### Ədəbiyyat siyahısı


1. Aşurbəyli, S. (2006). Bakı şəhərinin tarixi. Bakı: Apostrof.
2. Aşurbəyli, S. (2006). Şirvanşahlar Dövləti. Bakı: Avrasiya Press.
3. “Baku White City” Layihə sənədləri.
4. Bartold, V. (1999). Müsəlman dünyası tarixində xəzəryanı bölgələrin yeri. Bakı: Elm.
5. Əliyeva, R. (2007). Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Bakı: Şərq-Qərb.
6. Fərhadoğlu, K. (2006). İçərişəhər. Bakı: Şərq-Qərb.
7. Fətullayev, Ş. (2013). XIX əsr-XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq. Bakı: Şərq-Qərb.
8. Kalankatlı, M. (2006). Albaniya Tarixi. Bakı: Avrasiya Press.
9. Süleymanlı, M. (2011). Mədəni irs. Bakı: Nafta-Press.


**Adila Ahmadova Ali gizi**

## THE CITY OF BAKU: HISTORICAL DEVELOPMENT, CULTURAL MEMORY AND MODERN URBANIZATION

### Summary

This article touches upon such aspects as the history of Baku, the origin of its name, toponymic features and the economic life of the city in different periods. In the research work, first of all, the etymology of the toponym “Baku” and the origin of the city’s name are presented. In addition, the city’s administrative system and social life in previous periods are reviewed based on archival materials. The article studies the state of Baku in different historical stages. Thus, Baku’s transformation into the capital of the Shirvanshahs, one of the longest-lived feudal states, and thus the city’s economic life entered a stage of growth is specially noted. The modern state of Baku, implemented projects and development prospects are also analyzed. For example, modern urban development projects such as “White City” are widely covered in the article. In the end, Baku of both periods is compared and the differences between them are revealed.

**Key words:** city, economic life, Absheron Peninsula, oil, port.

**Адиля Ахмедова Али кызы**

## БАКУ: ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ, КУЛЬТУРНАЯ ПАМЯТЬ И СОВРЕМЕННАЯ УРБАНИЗАЦИЯ

### Резюме

В данной статье рассматриваются такие аспекты, как история Баку, происхождение его названия, топонимические особенности и экономическая жизнь города в разные периоды. В исследовательской работе, прежде всего, представлена этимология топонима «Баку» и происхождение названия города. Кроме того, на основе архивных материалов проведен обзор административной системы города и общественной жизни в предыдущие периоды. В статье изучается состояние Баку на разных исторических этапах. Так, особо отмечается превращение Баку в столицу Ширваншахов, одного из старейших феодальных государств, и, следовательно, вступление экономической жизни города в стадию роста. Также анализируется современное состояние Баку, реализованные проекты и перспективы развития. Например, в статье широко

освещаются современные проекты градостроительства, такие как «Белый город». В заключение проводится сравнение Баку обоих периодов и выявляются различия между ними.

**Ключевые слова:** город, экономическая жизнь, Апшеронский полуостров, нефть, порт.

**UOT 902**

**Nərmin Muxtarova Azər qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
muxtarovanrmin@gmail.com

# RƏQƏMSAL TRANSFORMASİYA ŞƏRAİTİNDƏ ŞƏHƏR MÜHİTİNDƏ METAL ARTEFAKTLARIN QORUNMASI PROBLEMLƏRİ: MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ SAXLANILAN ZƏRGƏRLİK NÜMUNƏLƏRİ KONTEKSTİNDƏ MƏDƏNİ İRSİN DAVAMLILIĞI

**Xülasə**

Məqalədə rəqəmsal transformasiya şəraitində şəhər mühitində mədəni irsin qorunması problemləri metal artefaktlar, xüsusilə Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan zərgərlik nümunələri əsasında təhlil olunur. Tədqiqatın məqsədi metal məmulatların fiziki-kimyəvi deqradasiya proseslərinin, urbanizasiya və ekoloji faktorların təsirinin, eləcə də rəqəmsal texnologiyaların bu sahədə yaratdığı imkan və məhdudiyyətlərin kompleks şəkildə araşdırılmasıdır.

Araşdırma göstərir ki, şəhər mühitində atmosfer çirklənməsi, rütubət dəyişiklikləri və antropogen təsirlər metal artefaktların korroziyaya uğramasını sürətləndirən əsas amillərdir. Muzey şəraitində qoruma tədbirlərinə baxmayaraq, uzunmüddətli saxlanma zamanı materialın strukturunda mikro dəyişikliklər baş verir. Bu baxımdan müasir konservasiya metodları ilə yanaşı, rəqəmsal texnologiyaların tətbiqi (3D skanlama, rəqəmsal arxivləşdirmə, monitorinq sistemləri) mədəni irsin qorunmasında mühüm rol oynayır.

Tədqiqatda həmçinin şəhər mühitində ənənəvi və müasir qoruma yanaşmalarının qarşılıqlı əlaqəsi, muzeylərin rəqəmsallaşma prosesində üzləşdiyi texniki və institusional problemlər, eləcə də davamlı qoruma strategiyalarının formalaşdırılması məsələləri araşdırılmışdır.

**Açar sözlər:** metal artefaktlar, mədəni irs, rəqəmsal transformasiya, konservasiya, zərgərlik nümunələri, muzey işi, şəhər mühiti, korroziya.

## Giriş

Rəqəmsal transformasiya yalnız iqtisadi və texnoloji sahələrdə deyil, eyni zamanda mədəni irsin qorunması və idarə olunması sistemində də köklü dəyişikliklərə səbəb olmuşdur. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində mədəni irs obyektlərinin sənədləşdirilməsi, monitorinqi, konservasiyası və təqdimatı daha innovativ və sistemli yanaşmalar əsasında həyata keçirilir. Bu proses xüsusilə şəhər mühitində daha aktual xarakter daşıyır, çünki urbanizasiya, sənayeləşmə və əhali sıxlığının artması maddi-mədəni irs nümunələrinin qorunmasını çətinləşdirən əlavə risk faktorları yaradır.

Şəhər mühitində saxlanılan metal artefaktlar, o cümlədən zərgərlik məmulatları, dekorativ-tətbiqi sənət nümunələri və qədim metallurgiya məhsulları həm təbii, həm də antropogen təsirlərə qarşı yüksək həssaslıq göstərir. Rütubət səviyyəsinin dəyişməsi, temperatur fluktuasiyaları, atmosfer çirklənməsi, kimyəvi reaksiyalar və mexaniki təsirlər bu artefaktların strukturunun pozulmasına, korroziya və oksidləşmə proseslərinin sürətlənməsinə səbəb olur. Eyni zamanda, muzey mühitində

qeyri-optimal saxlanma şəraiti, qeyri-peşəkar bərpa müdaxilələri və intensiv ziyarətçi axını kimi amillər də bu riskləri artırır. Belə mürəkkəb şəraitdə mədəni irsin qorunması yalnız ənənəvi konservasiya metodları ilə məhdudlaşa bilməz və daha çox inteqrativ yanaşma tələb edir [5, s. 73].

Rəqəmsallaşdırma, 3D modelləşdirmə, böyük verilənlər bazalarının yaradılması, sensor və monitorinq sistemlərinin tətbiqi metal artefaktların həm fiziki qorunmasını, həm də elmi tədqiqini daha effektiv şəkildə təmin edir. Rəqəmsal mühitdə yaradılan surətlər artefaktların orijinalına birbaşa müdaxilə ehtiyacını azaldaraq onların uzunmüddətli saxlanmasına xidmət edir. Eyni zamanda, bu texnologiyalar mədəni irsin geniş auditoriyaya təqdim olunmasını asanlaşdırır və onun sosial-mədəni dəyərinin artırılmasına töhfə verir.

Azərbaycanın zəngin tarixi-mədəni irsi kontekstində metal artefaktlar xüsusi yer tutur. Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyasında saxlanılan zərgərlik nümunələri həm estetik, həm də tarixi baxımdan yüksək elmi əhəmiyyətə malikdir. Bu nümunələr qədim dövrlərdən başlayaraq Azərbaycan ərazisində formalaşmış sənətkarlıq ənənələrini, texnoloji inkişaf səviyyəsini və mədəni dəyərləri əks etdirir. Lakin bu artefaktların uzunmüddətli qorunması üçün müasir rəqəmsal yanaşmaların tətbiqi, konservasiya strategiyalarının yenilənməsi və kompleks idarəetmə mexanizmlərinin formalaşdırılması zəruri hesab olunur. Bu səbəbdən, metal artefaktların qorunması məsələsinin rəqəmsal transformasiya kontekstində araşdırılması həm elmi, həm də praktiki baxımdan aktual və əhəmiyyətli bir tədqiqat istiqamətidir [2, s. 65].

**Problemin qoyuluşu**

Müasir dövrdə rəqəmsal transformasiya yalnız iqtisadi və texnoloji sahələrdə deyil, həm də mədəni irsin qorunması və idarə olunması sistemində köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə şəhər mühitində yerləşən muzeylərdə saxlanılan maddi mədəniyyət nümunələrinin, o cümlədən metal artefaktların və zərgərlik məmulatlarının qorunması yeni çağırışlarla üz-üzə qalmışdır. Bu baxımdan, Milli Azərbaycan Tarixi Muzeyi fondunda mühafizə olunan zərgərlik nümunələri həm tarixi-mədəni dəyəri, həm də material xüsusiyyətləri baxımından xüsusi tədqiqat obyektinə çevrilir.

Problemin aktuallığı ondan ibarətdir ki, metal artefaktlar (qızıl, gümüş, mis və onların ərintiləri) fiziki və kimyəvi təsirlərə qarşı yüksək həssaslıq göstərir. Şəhər mühitində atmosfer çirklənməsi, rütubət səviyyəsinin dəyişməsi, temperatur fluktuasiyaları və antropogen təsirlər bu artefaktların korroziyaya uğramasına, strukturunun zəifləməsinə və estetik görünüşünün pozulmasına səbəb olur. Ənənəvi konservasiya metodları bu problemlərin müəyyən hissəsini aradan qaldırsa da, müasir dövrdə bu yanaşmaların təkbaşına kifayət etmədiyi müşahidə olunur.

Rəqəmsal transformasiya isə bu sahədə həm yeni imkanlar, həm də yeni problemlər yaradır. Bir tərəfdən, 3D skanlama, rəqəmsal arxivləşdirmə, süni intellekt əsaslı monitorinq sistemləri və sensor texnologiyalar artefaktların vəziyyətinin real vaxt rejimində izlənilməsinə və onların virtual mühitdə qorunmasına imkan verir. Digər tərəfdən isə rəqəmsallaşdırma prosesində məlumatların uzunmüddətli saxlanması, texnoloji köhnəlmə (obsolescence), kibertəhlükəsizlik riskləri və rəqəmsal formatların standartlaşdırılması kimi problemlər ortaya çıxır.

Bu artefaktlar yalnız material obyekt kimi deyil, həm də yüksək sənətkarlıq, simvolik məna və milli identiklik daşıyıcısı kimi qiymətləndirilir. Onların rəqəmsal mühitdə təqdimatı zamanı autentikliyin qorunması, vizual və semantik məlumatların düzgün ötürülməsi, eləcə də istifadəçi ilə interaktiv əlaqənin qurulması mühüm məsələlərdəndir.

Problemin qoyuluşu ondan ibarətdir ki, rəqəmsal transformasiya şəraitində şəhər mühitində saxlanılan metal artefaktların, xüsusilə muzey zərgərlik nümunələrinin qorunması üçün ənənəvi

konservasiya metodları ilə rəqəmsal texnologiyaların inteqrasiyasına əsaslanan kompleks və davamlı yanaşma formalaşdırılmalıdır. Bu yanaşma həm fiziki mühafizəni, həm də rəqəmsal davamlılığı təmin etməli, mədəni irsin gələcək nəsillərə ötürülməsində effektiv mexanizmlər yaratmalıdır.

**Tədqiqatın metodologiyası**

Tədqiqatın metodologiyası rəqəmsal transformasiya şəraitində şəhər mühitində metal artefaktların qorunması problemlərinin kompleks şəkildə öyrənilməsini təmin edən çoxsəviyyəli və inteqrativ yanaşmaya əsaslanır. Bu çərçivədə metodoloji baza həm nəzəri, həm empirik, həm də tətbiqi tədqiqat üsullarının qarşılıqlı əlaqəsi üzərində qurulmuşdur.

İlk mərhələdə sistemli yanaşma tətbiq olunaraq mədəni irsin qorunması prosesi vahid sistem kimi nəzərdən keçirilmişdir. Bu sistem daxilində metal artefaktların material xüsusiyyətləri, saxlanma mühiti, konservasiya metodları və rəqəmsal texnologiyalar arasında qarşılıqlı təsirlər təhlil edilmişdir. Bu yanaşma problemin yalnız bir aspekt üzrə deyil, çoxşaxəli şəkildə araşdırılmasına imkan vermişdir.

Tədqiqat çərçivəsində analiz və sintez metodlarından geniş istifadə olunmuşdur. Analiz mərhələsində metal artefaktların (xüsusilə zərgərlik nümunələrinin) fiziki-kimyəvi xüsusiyyətləri, korroziya prosesləri, mühafizə üsulları və rəqəmsallaşdırma texnologiyaları ayrı-ayrılıqda öyrənilmiş, sintez mərhələsində isə bu komponentlər vahid konseptual modeldə birləşdirilmişdir. Bu yanaşma ənənəvi konservasiya ilə rəqəmsal texnologiyaların inteqrasiyası üçün nəzəri əsas yaratmışdır.

Müqayisəli təhlil metodu vasitəsilə müxtəlif ölkələrin muzey təcrübələri, xüsusilə Avropa və beynəlxalq muzeylərdə tətbiq olunan rəqəmsal qoruma texnologiyaları ilə Milli Azərbaycan Tarixi Muzeyi praktikasının fərqli və oxşar cəhətləri müəyyən edilmişdir. Bu metod qlobal təcrübənin lokal kontekstə adaptasiya imkanlarını qiymətləndirməyə şərait yaratmışdır.

Empirik tədqiqat metodları çərçivəsində müşahidə və sənəd təhlili üsullarından istifadə edilmişdir. Muzey fondlarında saxlanılan zərgərlik nümunələrinin qorunma vəziyyəti, saxlanma şəraiti (temperatur, rütubət, işıqlandırma) və konservasiya tədbirləri yerində müşahidə olunmuş, mövcud hesabatlar, inventar sənədləri və arxiv materialları təhlil edilmişdir. Bu məlumatlar real vəziyyətin qiymətləndirilməsi və problemlərin identifikasiyası üçün əsas baza rolunu oynamışdır.

Rəqəmsal metodlar xüsusi əhəmiyyət kəsb etmişdir. Bu çərçivədə 3D skanlama, rəqəmsal modelləşdirmə və verilənlərin analizi kimi üsulların tətbiq imkanları nəzərdən keçirilmiş, artefaktların virtual mühitdə rekonstruksiyası və monitorinqi üçün texnoloji yanaşmalar araşdırılmışdır. Eyni zamanda, süni intellekt və böyük verilənlər (Big Data) əsasında risk analizi metodlarının tətbiqi potensialı qiymətləndirilmişdir.

**Əsas hissə (analiz)**

Rəqəmsal transformasiya şəraitində metal artefaktların qorunması məsələsi qlobal muzey təcrübəsində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Xüsusilə Avropa və beynəlxalq muzeylərdə tətbiq olunan innovativ texnologiyalar bu sahədə yeni standartlar formalaşdırmışdır. Bu kontekstdə British Museum, Louvre Museum və Smithsonian Institution kimi aparıcı qurumların təcrübəsi xüsusi əhəmiyyət kəsb edir.

Bu muzeylərdə metal artefaktların qorunması üçün rəqəmsal texnologiyaların geniş tətbiqi müşahidə olunur. Məsələn, 3D skanlama və yüksək dəqiqlikli rəqəmsal modelləşdirmə vasitəsilə zərgərlik nümunələrinin mikrostruktur səviyyəsində sənədləşdirilməsi həyata keçirilir. Bu yanaşma yalnız artefaktların vizual rekonstruksiyasını deyil, həm də onların zamanla deformasiyasının

izlənilməsini mümkün edir. Eyni zamanda, sensor əsaslı iqlim nəzarət sistemləri vasitəsilə temperatur və rütubət parametrləri real vaxt rejimində monitorinq edilir və avtomatik tənzimlənir. Süni intellekt alqoritmləri isə korroziya risklərini proqnozlaşdırmaq və preventiv müdaxilələri planlaşdırmaq üçün istifadə olunur.

Böyük Britaniyada British Museum metal artefaktların qorunması sahəsində qabaqcıl rəqəmsal texnologiyaların tətbiqi ilə seçilir. Muzeydə zərgərlik nümunələrinin qorunması üçün yüksək dəqiqlikli 3D skanlama sistemləri və mikroanalitik cihazlardan istifadə olunur. Bu texnologiyalar vasitəsilə artefaktların səthində baş verən korroziya prosesləri erkən mərhələdə müəyyən edilir. Eyni zamanda, sensor əsaslı iqlim nəzarət sistemləri temperatur və rütubət dəyişikliklərini avtomatik tənzimləyərək stabil saxlanma mühiti yaradır. Böyük Britaniya təcrübəsində diqqət çəkən əsas xüsusiyyət preventiv konservasiyanın rəqəmsal monitorinq ilə inteqrasiyasıdır.

Fransada Louvre Museum metal və zərgərlik artefaktlarının qorunması multidissiplinar yanaşma əsasında həyata keçirilir. Burada restavratorlar, materialşünaslar və informasiya texnologiyaları mütəxəssisləri birgə fəaliyyət göstərir. Muzeydə tətbiq olunan rəqəmsal arxivləşdirmə sistemləri artefaktların həm fiziki, həm də virtual mühitdə qorunmasını təmin edir. Xüsusilə yüksək keyfiyyətli vizual bazalar və interaktiv platformalar vasitəsilə zərgərlik nümunələrinin detallı təsviri yaradılır. Bununla yanaşı, Fransa təcrübəsində işıqlandırmanın optimallaşdırılması və UV şüalanmanın minimuma endirilməsi istiqamətində innovativ texnologiyalar geniş tətbiq olunur.

Almaniyada Pergamon Museum və digər muzeylərdə metal artefaktların qorunması daha çox texnoloji və laborator əsaslı yanaşma ilə həyata keçirilir. Alman muzeylərində materialların kimyəvi tərkibinin analizi üçün spektroskopiya, rentgen-flüoresans və digər qeyri-destruktiv analiz metodları geniş istifadə olunur. Rəqəmsal modelləşdirmə vasitəsilə artefaktların uzunmüddətli deqradasiya ssenariləri proqnozlaşdırılır. Bu yanaşma konservasiya strategiyalarının əvvəlcədən planlaşdırılmasına imkan verir. Almaniya təcrübəsinin əsas xüsusiyyəti elmi-tədqiqat və texnologiyanın sıx inteqrasiyasıdır.

ABŞ-da Smithsonian Institution çərçivəsində metal artefaktların qorunması geniş miqyaslı rəqəmsal platformalar və açıq məlumat sistemləri ilə dəstəklənir. Smithsonian muzeylərində artefaktların rəqəmsal pasportlaşdırılması həyata keçirilir, yəni hər bir eksponat haqqında detallı texniki, vizual və tarixi məlumatlar vahid sistemdə toplanır. Süni intellekt əsaslı analiz alətləri vasitəsilə artefaktların vəziyyəti qiymətləndirilir və risk faktorları müəyyən edilir. ABŞ təcrübəsində həmçinin ictimaiyyətin rəqəmsal platformalar vasitəsilə mədəni irsə çıxışı genişləndirilir ki, bu da mədəni irsin davamlılığını sosial aspektdən gücləndirir.

Bu yanaşmalar Milli Azərbaycan Tarixi Muzeyi praktikasında da müəyyən dərəcədə tətbiq olunmağa başlanmışdır. Muzeydə son illərdə fond materiallarının rəqəmsallaşdırılması, elektron inventar sistemlərinin yaradılması və bəzi eksponatların 3D formatda sənədləşdirilməsi istiqamətində addımlar atılmışdır. Lakin müqayisəli təhlil göstərir ki, beynəlxalq muzeylərlə müqayisədə rəqəmsal texnologiyaların tətbiqi hələ tam sistemli və inteqrativ xarakter daşımır.

Oxşar cəhətlərə gəldikdə isə, həm beynəlxalq muzeylərdə, həm də yerli praktikada metal artefaktların qorunmasında əsas diqqət fiziki mühit amillərinə – temperatur, rütubət və işıqlandırmaya yönəldilir. Hər iki halda bu parametrlərin optimal səviyyədə saxlanılması artefaktların uzunmüddətli qorunmasının əsas şərti kimi qəbul edilir. Eyni zamanda, konservasiya tədbirlərində minimal müdaxilə prinsipi və orijinal materialın qorunması yanaşması ümumi metodoloji baza kimi çıxış edir.

Fərqli cəhətlər isə əsasən texnoloji təminat və idarəetmə sistemləri ilə bağlıdır. Beynəlxalq muzeylərdə avtomatlaşdırılmış iqlim nəzarət sistemləri, inteqrasiya olunmuş məlumat bazaları və süni intellekt əsaslı analiz alətləri geniş tətbiq olunduğu halda, yerli muzey təcrübəsində bu sistemlər daha çox qismən və ya pilot səviyyədə istifadə olunur. Bundan əlavə, beynəlxalq təcrübədə multidissiplinar komanda işi (restavratorlar, IT mütəxəssisləri, kimyaçılar) daha sistemli şəkildə təşkil olunduğu halda, yerli səviyyədə bu əməkdaşlıq hələ tam institusional xarakter almamışdır.

Empirik müşahidələr əsasında muzey fondlarında saxlanılan zərgərlik nümunələrinin qorunma vəziyyəti təhlil edilmişdir. Müşahidələr göstərir ki, artefaktların əksəriyyəti stabil mühitdə saxlanılsa da, bəzi hallarda mikroiqlim parametrlərinin dəyişməsi metal səthlərdə oksidləşmə və qaralma proseslərinin yaranmasına səbəb olur. Xüsusilə gümüş və mis tərkibli zərgərlik nümunələri bu təsirlərə daha həssasdır.

Saxlanma şəraiti baxımından temperaturun adətən 18–22°C intervalında, nisbi rütubətin isə 40–55% səviyyəsində saxlanılması müşahidə olunmuşdur. Lakin bəzi fond otaqlarında bu göstəricilərin sabitliyinin tam təmin olunmaması müəyyən risklər yaradır. İşıqlandırma sistemi əsasən aşağı intensivlikli və UV filtrli lampalara əsaslansa da, uzunmüddətli ekspozisiya hallarında işığın təsiri tam minimallaşdırılmır.

Konservasiya tədbirləri çərçivəsində mexaniki təmizləmə, kimyəvi stabilizasiya və qoruyucu örtüklərin tətbiqi kimi üsullardan istifadə olunur. Bununla yanaşı, preventiv konservasiya tədbirləri mühitin sabit saxlanılması, artefaktların düzgün qablaşdırılması və müntəzəm monitorinq əsas prioritet kimi çıxış edir.

Sənəd təhlili nəticəsində müəyyən olunmuşdur ki, muzeydə aparılan inventarlaşdırma və arxivləşdirmə prosesi əsasən ənənəvi metodlara əsaslanır, lakin son dövrlərdə elektron sistemlərə keçid istiqamətində müsbət dinamika müşahidə olunur. Mövcud hesabatlar artefaktların texniki vəziyyəti haqqında ümumi məlumat versə də, rəqəmsal monitorinq və analitik məlumatların həcmi hələ məhduddur.

**Müzakirə**

Şəhər mühitində metal artefaktların qorunması çoxşaxəli və kompleks problemlərlə müşayiət olunur və bu problemlər həm təbii, həm də insan fəaliyyəti ilə bağlı amillərin qarşılıqlı təsiri nəticəsində formalaşır. Əvvəla, ekoloji və fiziki təsirlər metal artefaktların deqradasiyasında əsas rol oynayır. Rütubət səviyyəsinin dəyişməsi, temperatur dalğalanmaları və atmosferdəki çirkləndirici maddələr metal səthlərdə kimyəvi reaksiyaların intensivləşməsinə səbəb olur ki, bu da korroziya və oksidləşmə proseslərini sürətləndirir. Xüsusilə sənaye zonalarına yaxın şəhər mühitində havadakı kükürd birləşmələri, azot oksidləri və digər zərərli maddələr metal artefaktların strukturuna ciddi ziyan vurur. Qədim zərgərlik nümunələri isə daha həssas olduqlarına görə mikroiqlim şəraitindəki ən kiçik dəyişikliklərə belə reaksiya verir və bu, onların uzunmüddətli qorunmasını çətinləşdirir.

Bununla yanaşı, antropogen faktorlar da metal artefaktların vəziyyətinə əhəmiyyətli təsir göstərir. Muzeylərdə və sərgi məkanlarında ziyarətçi axınının yüksək olması, artefaktların düzgün olmayan şəraitdə saxlanması və daşınması, eləcə də qeyri-peşəkar bərpa müdaxilələri onların fiziki bütövlüyünün pozulmasına səbəb olur. Bəzi hallarda konservasiya prosesində istifadə olunan materialların və metodların düzgün seçilməməsi artefaktın ilkin vəziyyətinin daha da pisləşməsinə gətirib çıxarır. Bundan əlavə, qoruma standartlarının bütün müəssisələrdə eyni səviyyədə tətbiq olunmaması bu sahədə sistemli problemlərin mövcudluğunu göstərir.

Digər mühüm problem texnoloji və idarəetmə sahəsində özünü göstərir. Ənənəvi inventarlaşma üsulları və kağız əsaslı qeydiyyat sistemləri artefaktların izlənməsi və idarə olunması baxımından məhdud imkanlara malikdir. Bu cür sistemlər məlumatların itməsi, səhvlərin yaranması və operativ monitorinqin aparılmasında çətinliklər yaradır. Rəqəmsal texnologiyaların yetərincə tətbiq olunmaması isə artefaktların vəziyyətinin davamlı şəkildə izlənməsini və risklərin vaxtında müəyyən edilməsini məhdudlaşdırır.

Belə mürəkkəb problemlər fonunda rəqəmsal transformasiya metal artefaktların qorunması sahəsində yeni imkanlar və yanaşmalar formalaşdırır. Müasir texnologiyalar vasitəsilə artefaktların qorunması prosesi daha sistemli, dəqiq və davamlı xarakter alır. Xüsusilə 3D modelləşdirmə və rəqəmsallaşdırma texnologiyaları artefaktların yüksək dəqiqliklə rəqəmsal surətlərinin yaradılmasına imkan verir. Bu yanaşma həm onların virtual mühitdə saxlanmasını və tədqiqini asanlaşdırır, həm də fiziki obyektlərin istifadəsini minimuma endirərək zədələnmə riskini azaldır.

Sensor və IoT texnologiyalarının tətbiqi isə muzey mühitində mikroiqlim şəraitinin real vaxt rejimində izlənməsinə imkan yaradır. Temperatur, rütubət və işıqlandırma kimi göstəricilərin avtomatik nəzarətdə saxlanılması artefaktların qorunması üçün optimal şəraitin təmin edilməsində mühüm rol oynayır. Bu sistemlər vasitəsilə yaranan hər hansı kənarlaşma dərhal aşkar edilir və vaxtında müdaxilə etmək mümkün olur.

Rəqəmsal arxivlərin və məlumat bazalarının yaradılması da bu sahədə mühüm irəliləyiş hesab olunur. Artefaktlar haqqında bütün məlumatların vahid platformada toplanması onların daha səmərəli idarə olunmasına, elmi tədqiqatların genişləndirilməsinə və məlumatların təhlükəsiz saxlanmasına şərait yaradır. Bu, eyni zamanda müxtəlif tədqiqatçılar və mütəxəssislər arasında məlumat mübadiləsini asanlaşdırır.

Virtual və artırılmış reallıq texnologiyaları isə mədəni irsin təqdimatında yeni mərhələ açır. Bu texnologiyalar vasitəsilə istifadəçilər artefaktlarla fiziki təmas olmadan onları interaktiv şəkildə öyrənə və “ziyarət” edə bilirlər. Nəticədə orijinal eksponatların fiziki yüklənməsi azalır, onların qorunma səviyyəsi yüksəlir və mədəni irs daha geniş auditoriya üçün əlçatan olur.

Milli Azərbaycan Tarixi Muzeyi fondlarında qorunan metal zərgərlik nümunələri Azərbaycanın çoxəsrlik sənətkarlıq ənənələrinin, estetik zövqünün və texnoloji inkişaf səviyyəsinin mühüm göstəricisi kimi çıxış edir. Bu artefaktlar yalnız dekorativ əhəmiyyət daşımır, eyni zamanda sosial-iqtisadi münasibətlərin, ticarət əlaqələrinin və mədəni identikliyin formalaşmasını əks etdirən tarixi mənbə rolunu oynayır. Muzey kolleksiyalarında saxlanılan bu nümunələrin təhlili göstərir ki, onların bir qismi zamanla müxtəlif deqradasiya proseslərinə, xüsusilə korroziya və oksidləşmə təsirlərinə məruz qalmışdır. Bu hallar əsasən saxlanma mühitinin qeyri-sabitliyi, rütubət və temperatur balansının pozulması, eləcə də əvvəlki dövrlərdə tətbiq edilmiş qeyri-standart konservasiya metodları ilə bağlıdır [3, s. 32].

Mövcud saxlanma şəraitinin müasir tələblərə uyğunlaşdırılması məsələsi də aktual olaraq qalır. Metal artefaktların qorunması üçün sabit mikroiqlim parametrlərinin təmin edilməsi, xüsusi vitrin və saxlama sistemlərinin tətbiqi, həmçinin müntəzəm monitorinq mexanizmlərinin qurulması zəruridir. Hazırda müəyyən səviyyədə rəqəmsallaşdırma işləri aparılsa da, bu proses daha çox inventar səviyyəsində qalır və kompleks rəqəmsal idarəetmə sistemlərinin tətbiqinə ehtiyac duyulur. Artefaktların yüksək dəqiqlikli 3D modellərinin yaradılması, onların rəqəmsal pasportlaşdırılması və vahid elektron bazada toplanması həm qoruma, həm də elmi tədqiqat baxımından yeni imkanlar açır [8, s. 40].

Muzeydə rəqəmsal inventar sistemlərinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə sistemlər artefaktların hərəkətinin izlənməsi, onların texniki vəziyyətinin qeydiyyatı və risk faktorlarının operativ qiymətləndirilməsi üçün effektiv alət rolunu oynaya bilər. Eyni zamanda, 3D arxivlərin yaradılması və virtual kolleksiyaların formalaşdırılması nadir eksponatların fiziki istifadəsini azaltmaqla onların qorunmasına töhfə verir. Avtomatlaşdırılmış sensor və monitorinq sistemlərinin tətbiqi isə temperatur, rütubət və işıqlandırma kimi mühüm göstəricilərin real vaxt rejimində nəzarətdə saxlanmasına imkan yaradaraq konservasiya prosesini daha effektiv edir [6, s. 21].

Mədəni irsin davamlı qorunması yalnız texniki tədbirlərlə məhdudlaşmayan, eyni zamanda sosial, iqtisadi və institusional komponentləri özündə birləşdirən kompleks bir prosesdir. Bu baxımdan rəqəmsal transformasiya yalnız alət deyil, həm də yeni idarəetmə fəlsəfəsi kimi çıxış edir. Müasir yanaşmalar göstərir ki, mədəni irsin effektiv qorunması üçün müxtəlif səviyyələrdə inteqrasiya olunmuş sistemlərin qurulması vacibdir.

İnteqrasiya olunmuş idarəetmə sistemlərinin tətbiqi muzeylər və digər mədəniyyət müəssisələri arasında məlumat mübadiləsini gücləndirir və vahid informasiya məkanının formalaşmasına şərait yaradır. Bu, həm milli, həm də beynəlxalq səviyyədə mədəni irs obyektlərinin koordinasiyalı şəkildə qorunmasını təmin edir. Süni intellekt əsaslı analiz texnologiyalarının tətbiqi isə artefaktların vəziyyətinin proqnozlaşdırılması, potensial risklərin əvvəlcədən müəyyən edilməsi və preventiv tədbirlərin planlaşdırılması baxımından yeni imkanlar açır. Bu cür sistemlər böyük verilənlər əsasında işləyərək daha dəqiq və operativ qərarların qəbuluna şərait yaradır.

**Nəticə**

Rəqəmsal transformasiya şəraitində metal artefaktların qorunması ənənəvi metodlarla yanaşı innovativ texnologiyaların tətbiqini tələb edir. Şəhər mühitində mövcud olan risk faktorları nəzərə alınaraq, kompleks və davamlı qoruma strategiyalarının hazırlanması zəruridir. Xüsusilə Milli Azərbaycan Tarixi Muzeyi kimi mədəniyyət müəssisələrində rəqəmsal həllərin geniş tətbiqi Azərbaycanın zəngin mədəni irsinin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayacaqdır.

**Ədəbiyyat siyahısı**

1. Əliyeva, N. A. (2017). Milli Azərbaycan Tarixi Muzeyi: Tarix, elm və mədəniyyət (məqalə və məruzələr toplusu). Bakı: Elm və təhsil.
2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. (2020). Azərbaycan Respublikasında mədəniyyət sahəsinin inkişafı üzrə fəaliyyət hesabatı. Bakı. https://admin.culture.gov.az
3. Nəbiyev, Ə. (2019). Azərbaycan xalq sənətkarlığı və tətbiqi incəsənət nümunələri. Bakı: Elm nəşriyyatı.
4. Quliyev, R. (2021). Muzey işi və mədəni irsin qorunmasının müasir problemləri. Mədəniyyət dünyası jurnalı, 38, 45–52.
5. Addison, A. C. (2020). Emerging trends in virtual heritage. IEEE Computer Graphics and Applications, 40(3), 108–112. https://doi.org/10.1109/MCG.2020.2972746
6. Bekele, M. K., Pierdicca, R., Frontoni, E., Malinverni, E. S., & Gain, J. (2018). A survey of augmented, virtual, and mixed reality for cultural heritage. Journal on Computing and Cultural Heritage, 11(2), 1–36. https://doi.org/10.1145/3145534
7. Bolognesi, C. M., & Aiello, D. (2021). Digital technologies for cultural heritage: New perspectives. Heritage, 4(2), 847–859. https://doi.org/10.3390/heritage4020047

8. Bruno, F., Barbieri, L., Muzzupappa, M., & Ritacco, G. (2019). 3D documentation and virtual navigation for cultural heritage. ISPRS International Journal of Geo-Information, 8(10), 456. https://doi.org/10.3390/ijgi8100456

**Narmin Mukhtarova Azar gizi**

**PROBLEMS OF PRESERVING METAL ARTIFACTS IN URBAN ENVIRONMENT UNDER DIGITAL TRANSFORMATION: SUSTAINABILITY OF CULTURAL HERITAGE IN THE CONTEXT OF JEWELRY SAMPLES STORED IN THE NATIONAL MUSEUM OF HISTORY OF AZERBAIJAN**

**Summary**

The article analyzes the problems of preserving cultural heritage in urban environments under digital transformation based on metal artifacts, especially jewelry samples stored in the National Museum of History of Azerbaijan. The aim of the study is to comprehensively investigate the processes of physical and chemical degradation of metal products, the impact of urbanization and environmental factors, as well as the opportunities and limitations created by digital technologies in this area.

The study shows that atmospheric pollution, humidity changes and anthropogenic impacts in urban environments are the main factors accelerating the corrosion of metal artifacts. Despite protection measures in museum conditions, micro-changes occur in the structure of the material during long-term storage. In this regard, along with modern conservation methods, the application of digital technologies (3D scanning, digital archiving, monitoring systems) plays an important role in the protection of cultural heritage.

The study also examined the interaction of traditional and modern conservation approaches in the urban environment, the technical and institutional problems faced by museums in the process of digitization, as well as the formulation of sustainable conservation strategies.

**Key words:** metal artifacts, cultural heritage, digital transformation, conservation, jewelry samples, museum work, urban environment, corrosion.

**Нармин Мухтарова Азер кызы**

**«ПРОБЛЕМЫ СОХРАНЕНИЯ МЕТАЛЛИЧЕСКИХ АРТЕФАКТОВ В УСЛОВИЯХ ГОРОДСКОЙ СРЕДЫ НА ФОНЕ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ: УСТОЙЧИВОСТЬ КУЛЬТУРНОГО НАСЛЕДИЯ В КОНТЕКСТЕ ОБРАЗЦОВ ЮВЕЛИРНЫХ ИЗДЕЛИЙ, ХРАНЯЩИХСЯ В НАЦИОНАЛЬНОМ МУЗЕЕ ИСТОРИИ АЗЕРБАЙДЖАНА»**

**Резюме**

В статье анализируются проблемы сохранения культурного наследия в условиях городской среды на фоне цифровой трансформации на основе металлических артефактов, в частности образцов ювелирных изделий, хранящихся в Национальном музее истории Азербайджана. Цель исследования – всестороннее изучение процессов физико-химической деградации металлических изделий, влияния урбанизации и факторов окружающей среды, а также возможностей и ограничений, создаваемых цифровыми технологиями в этой области.

Исследование показывает, что основными факторами, ускоряющими коррозию металлических артефактов, являются загрязнение атмосферы, изменения влажности и антропогенное воздействие в городской среде. Несмотря на меры защиты в музейных условиях, при длительном хранении происходят микроизменения в структуре материала. В этом контексте, наряду с современными методами консервации, важную роль в защите культурного наследия играет применение цифровых технологий (3D-сканирование, цифровое архивирование, системы мониторинга).

В исследовании также рассматривалось взаимодействие традиционных и современных подходов к консервации в городской среде, технические и институциональные проблемы, с которыми сталкиваются музеи в процессе цифровизации, а также разработка устойчивых стратегий консервации.

**Ключевые слова:** металлические артефакты, культурное наследие, цифровая трансформация, консервация, образцы ювелирных изделий, музейная работа, городская среда, коррозия.

UOT 574
ORCID: 0009-0000-3747-9463

Gülsurə Şamxallı Azad qızı
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Magistrant
gulushamkhalli@gmail.com

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİ İRSİN FORMALAŞMASI

**Xülasə**

Məqalədə qloballaşma və rəqəmsallaşma şəraitində mədəni irsin qorunması və transformasiyası məsələləri araşdırılır. Qloballaşmanın mədəniyyətlərarası əlaqələri gücləndirməklə yanaşı, homogenləşmə riskini artırdığı qeyd olunur. Rəqəmsal texnologiyalar və süni intellektin tətbiqi mədəni irsin sənədləşdirilməsi, bərpası və geniş auditoriyaya çatdırılmasında mühüm rol oynayır. AR və VR texnologiyaları interaktiv təcrübələr yaradaraq mədəni irsə marağı artırır. Bununla yanaşı, süni intellektin istifadəsi autentiklik və etik məsələlər baxımından müəyyən risklər yaradır. Məqalədə texnoloji imkanlarla yanaşı, mədəni irsin qorunmasında balanslı və məsuliyyətli yanaşmanın vacibliyi vurğulanır.

**Açar sözlər:** Qloballaşma, mədəni irs, rəqəmsallaşma, süni intellekt, virtual reallıq, artırılmış reallıq.

Qloballaşma bir tərəfdən mədəniyyətlər arasında qarşılıqlı əlaqəni gücləndirərək xalqların inanclarını, ənənələrini və təcrübələrini sərhədlərdən kənara yaymağa imkan verir və beləliklə qlobal mədəni anlayışı artırır. Qloballaşma anlayışı 20-ci əsrin 80-ci illərində yaranmışdır. Şahgəldiyev Eldar qeyd etmişdir ki, "Qloballaşma Terminin yaranması T.Levitin adı ilə bağlıdır. O, 1983-cü ildə "Harvard biznes revyu" jurnalında çap etdirdiyi məqaləsini böyük və çoxmillətli korporasiyaların istehsal etdiyi ayrı-ayrı məhsulların bazarlarının bir-birilə qovuşması nəticəsində yaranmış fenomenə həsr etmişdi" [3, s. 12]. Bu proses yalnız iqtisadi və sosial sahələrdə deyil, həm də mədəniyyətin qorunması və ötürülməsi mexanizmlərində köklü dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi olaraq maddi və qeyri-maddi mədəni irsin qorunması fiziki mühafizə, arxivləşdirmə və nəsildən-nəslə ötürmə vasitəsilə həyata keçirilirdisə, bu gün rəqəmsal texnologiyalar həmin prosesləri həm genişləndirir, həm də transformasiya edir. Qeyd etmək lazımdır ki, rəqəmsal texnologiyalar mədəni irsə həm müsbət, həm də mənfi cəhətdən təsir edir.

Mədəni irs dedikdə bir toplumun tarixi inkişafı nəticəsində formalaşmış maddi və qeyri-maddi dəyərlər sistemi başa düşülür. M. Süleymanlının fikrinə görə, mədəni irs "Mədəni irs, keçmişlə bu gün arasında bağlantı quraraq, içində yaşanılan mədəniyyətə və dünyaya bir təməl yaradır" [4, s. 16]. Hal-hazırda cəmiyyətin dəyərləri, davranış normaları və estetik baxışları keçmişdən miras qalan elementlər üzərində qurulur. Yəni bizi əhatə edənlərin hamısı memarlıq üslubları, ailə münasibətləri və sosial ənənələr əvvəlki dövrlərin təsiri ilə formalaşır və davam edir.

Qloballaşma və rəqəmsallaşma şəraitində mədəni irsin itirilməsi riski artdıqca, onun qorunması məsələsi daha da aktual hal alır. Rəqəmsal texnologiyaların mədəni irs sahəsində tətbiqi bu anlayışın necə dərk olunmasından asılıdır. Onun çoxşaxəli və mürəkkəb təbiəti isə müxtəlif məqsədlərə uyğun fərqli yanaşma və tətbiqlərin formalaşmasına şərait yaradır. Rəqəmsal mədəni irs

layihələrini inkişaf etdirərkən istifadəçilərin ehtiyaclarının nəzərə alınması, müxtəlif auditoriyaların mədəni irsə çıxışını asanlaşdırmaq və daha zəngin rəqəmsal təcrübələr yaratmaq baxımından əhəmiyyətlidir.

Qloballaşma və mədəni irsin qorunması arasındakı qarşılıqlı təsir göstərir ki, yerli və ənənəvi mədəni irslərin zəifləmə riski mövcud olsa da, eyni zamanda onların bərpası və yenidən formalaşdırılması üçün imkanlar yaranır. Qlobal bilik və texnologiya mübadiləsi mədəni irsə aid tarixi məlumatları sənədləşdirməyə, ənənələri paylaşmağa və yerli ilə qlobal elementləri birləşdirərək yeni, hibrid mədəni kimliklərin formalaşmasına şərait yaradır. G.Urbaitin araşdırması əsasında deyə bilərik ki, "Avstraliya və Şimali Amerikadakı yerli qruplar dillərini sənədləşdirmək və öyrətmək üçün onlayn resurslar hazırlamışlar ki, gələcək nəsillər öz dil miraslarını qoruya bilsinlər" [6, s. 6]. Bu fikrə əsasən deyə bilərik ki, Avstraliya və Şimali Amerikadakı yerli qruplar dillərini sənədləşdirmək və öyrətmək üçün onlayn resurslar hazırlayırlar ki, gələcək nəsillər yalnız dil mirasını deyil, eyni zamanda bu dillərə bağlı mədəni irsi-folklor, ənənələr, hekayələr və ictimai praktikaları da qoruya bilsinlər.

Qloballaşmanın siyasi, iqtisadi və sosial aspektləri ənənəvi mədəniyyətlər üzərində artan təsir göstərir və bu, mədəni dəyərlərin homogenləşməsi üçün təzyiq yaradır. Arcun Appadurai qeyd edir ki, "Müasir qlobal qarşılıqlı təsirlərin əsas problemi mədəni homogenləşmə ilə mədəni heterogenləşmə arasındakı gərginlikdir" [2, s. 32]. Arcun Appadurainin fikrinə əsasən, düşünə bilərik ki, Müasir qlobal qarşılıqlı təsirlər mədəniyyətlərin qarşılıqlı əlaqəsini gücləndirsə də, eyni zamanda onların gələcəyi ilə bağlı iki ziddiyyətli təsir yaradır. Bir tərəfdən, qloballaşma mədəni homogenləşməyə səbəb olur, yəni fərqli mədəniyyətlərin oxşar, qlobal standartlara yaxınlaşması və yerli ənənələrin zəifləməsi riski artır. Digər tərəfdən, qloballaşma mədəni heterogenliyi də təşviq edə bilər, yəni yerli mədəni dəyərlərin qorunması, ənənələrin yaşadılması və fərqlərin saxlanması üçün imkanlar yaradır. Bu iki tendensiya arasında yaranan gərginlik müasir qlobal mədəni proseslərin əsas problemini təşkil edir. Qloballaşma prosesləri Qərb mədəniyyətinin yayılması və standartlaşdırılması ilə müxtəlif ənənəvi mədəniyyətlərin homogenləşməsi riskini artırır, eyni zamanda hibridləşmə və mədəniyyətlərin qarşılıqlı təsiri bəzi yerlərdə yerli mədəni dəyərlərin adaptasiyası və yenidən canlanması üçün imkanlar yaradır.

Qloballaşma nəticəsində baş verən texnoloji yeniliklər mədəni irslə əlaqə qurma üsullarını əsaslı şəkildə dəyişmişdir. Rəqəmsal texnologiyaların inkişafı sayəsində maddi mədəni irsin qorunması, sistemli şəkildə sənədləşdirilməsi və fiziki məkan məhdudiyyətlərindən kənara çıxaraq geniş ictimaiyyətə çatdırılması mümkün olmuşdur. Xüsusilə virtual muzeylər, onlayn sərgilər və interaktiv tədris platformaları istifadəçilərə daha cəlbedici və dinamik təcrübə təqdim edir.

Mədəni irs sahəsində süni intellektin tətbiqi müxtəlif dərin öyrənmə modelləri vasitəsilə həyata keçirilir. Konvolyusion neyron şəbəkələri (CNN), region əsaslı CNN (R-CNN) və generativ adversarial şəbəkələr (GAN) vizual məlumatların emalı, obyektlərin tanınması və hətta yeni vizual materialların yaradılması üçün istifadə olunur. Bu sistemlər incəsənət nümunələrinin avtomatik təsviri və kateqoriyalaşdırılması funksiyasını da yerinə yetirə bilir. Lakin bu bəzən təhlükə yarada bilir. Çünki, süni intellektin yaradıcı sahədə getdikcə geniş istifadəsi nəticəsində texniki baxımdan çox yüksək səviyyəli əsərlər meydana çıxa bilər. Bu isə insanların həmin məhsulların insan əməyinin nəticəsi yaxud süni intellekt məhsulu, yoxsa hər ikisinin sintezi olduğunu müəyyən etməsini çətinləşdirir. Oktavio Kuleszin fikrinə görə "Belə bir vəziyyət "saxta incəsənət" nümunələrinin

sürətlə artmasına və özünəməxsusluğu, dəyərləri və məzmunu zəif olan əsərlərin çoxalmasına səbəb ola bilər [5, s. 44].

AR və VR texnologiyaları qədim dillərin oxunması, zədələnmiş mətnlərin bərpası və tarixi obyektlərin tanınması kimi sahələrdə də mühüm rol oynayır. Artırılmış reallıq texnologiyası smartfonlar, planşetlər və virtual reallıq eynəkləri vasitəsilə kompüter tərəfindən yaradılmış səs, vizual təsvir, animasiya və holoqram kimi rəqəmsal komponentləri real mühitə anlıq şəkildə inteqrasiya edərək istifadəçi üçün yeni bir qavrayış mühiti formalaşdırır. Virtual reallıq istifadəçini tamamilə kompüter tərəfindən yaradılmış süni bir mühitlə tanış edən texnologiyadır. AR (artırılmış reallıq), AI (süni intellekt) və VR (virtual reallıq) texnologiyalarının mədəni irs obyektlərinin bərpasında istifadəsi bir neçə əsas məqsədə yönəldilmişdir:

1. Bərpa proseslərinin dəqiqliyini və effektivliyini artırmaq.
2. Təhlükəsiz və müdaxiləsiz diaqnostika və analiz metodları vasitəsilə mədəni irs obyektlərinin qorunmasını təmin etmək.
3. Mədəni irs obyektlərinin üçölçülü surətlərini yaratmaq, gələcək vizuallaşdırma, müdaxilələrin modelləşdirilməsi və obyektlər haqqında biliklərin paylaşılması üçün istifadə etmək.
4. Mədəni irsə geniş ictimaiyyət üçün təhsil və qarşılıqlı öyrənmə imkanlarını yaxşılaşdırmaq.
5. Virtual və artırılmış reallıq vasitəsilə unikal təcrübələr təqdim edərək yeni auditoriyalar cəlb etmək və tarixi-mədəni irsə marağı artırmaq.
6. Gələcək nəsillər üçün irs obyektlərinin vəziyyətinin sənədləşdirilməsini təmin etmək [1, s.175].

Bu yeniliklər 3D rəqəmsallaşdırma proseslərini sürətləndirərək həm vaxt, həm də resurs baxımından qənaət yaradır. Virtual rekonstruksiya metodları tarixi obyektlərin daha real modellərini təqdim edir və istifadəçilərə daha təsirli təcrübə yaşadır.

Süni intellekt həmçinin yeni mədəni irs obyektlərinin aşkarlanmasına, mövcud obyektlərdə dəyişikliklərin izlənməsinə və vaxtında müdaxilə edilməsinə imkan verir. Bununla yanaşı, oğurlanmış və ya qeyri-qanuni dövriyyəyə çıxarılmış mədəni nümunələrin müəyyən olunmasında da bu texnologiyalardan istifadə edilir. Eyni zamanda, süni intellekt təbii fəlakət risklərinin proqnozlaşdırılmasında da mühüm rol oynayır.

Nəticə olaraq deyə bilərik ki, rəqəmsal texnologiyalar, süni intellekt (AI), artırılmış (AR) və virtual reallıq (VR) mədəni irsin qorunması, sənədləşdirilməsi və təqdim edilməsində əvəzsiz imkanlar yaradır. Bu texnologiyalar tarixi və mədəni obyektlərin üçölçülü modellərinin yaradılmasını, onların bərpasını və geniş ictimaiyyət üçün əlçatan olmasını təmin edir. Həmçinin virtual sərgilər, interaktiv tədris platformaları və immersiv təcrübələr vasitəsilə insanların mədəni irslə qarşılıqlı əlaqəsini artırır, yaradıcılıq və öyrənmə imkanlarını genişləndirir. Bununla yanaşı, texnologiyalardan istifadə edərkən əsərlərin orijinallığı, mənası, etik prinsiplər və gələcək nəsillər üçün mədəni irsin qorunması da diqqətdə saxlanmalıdır. Beləliklə, müasir dövrdə mədəni irsin qorunması və ötürülməsi həm texnoloji yeniliklərin, həm də etik və metodoloji yanaşmaların birlikdə tətbiqini tələb edir.

**Ədəbiyyat siyahısı**

1. Абрукова Е. Р. Использование технологий AR, AI, VR в реставрации объектов культурного наследия в России и мире. Culture and Civilization, 2023, Vol. 13, Is. 12A. 226 s.
2. Arjun Appadurai. Modernity at Large: Cultural Dimensions of Globalization, 1996, 229 s.

3. Eldar Şahgəldiyev. Qloballaşma və fəlsəfə (Dərs vəsaiti). – Bakı: 2017, 34 s.
4. M. Süleymanlı. Mədəni İrs. – Bakı: 2019, 424 s.
5. Octavio Kulesz. Brazilian Network Information Center. Artificial intelligence and culture: Perspectives for cultural diversity in the digital age. Brazilian Internet Steering Committee-CGI.br – São Paulo: 2022, 206 s.
6. Urbaite, G. The impact of globalization on cultural identity: Preservation or erosion? Global Spectrum of Research and Humanities, 2024, 13 s.

**Gulsura Shamkahlli Azad gizi**

**FORMATION OF CULTURAL HERITAGE UNDER GLOBALIZATION**

**Summary**

The article examines the preservation and transformation of cultural heritage in the context of globalization and digitalization. It highlights that while globalization strengthens intercultural connections, it also increases the risk of cultural homogenization. The application of digital technologies and artificial intelligence plays a significant role in documenting, restoring, and disseminating cultural heritage to wider audiences. AR and VR technologies enhance engagement by creating interactive experiences. However, the use of AI also raises concerns related to authenticity and ethical issues. The study emphasizes the importance of a balanced and responsible approach that integrates technological advancements with the preservation of cultural heritage.

**Key words:** globalization, cultural heritage, digitalization, artificial intelligence, virtual reality, augmented reality.

**Гюлсура Шамхаллы Азад кызи**

**ФОРМИРОВАНИЕ КУЛЬТУРНОГО НАСЛЕДИЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ**

**Резюме**

В статье рассматриваются вопросы сохранения и трансформации культурного наследия в условиях глобализации и цифровизации. Отмечается, что глобализация, усиливая межкультурные связи, одновременно увеличивает риск культурной гомогенизации. Применение цифровых технологий и искусственного интеллекта играет важную роль в документировании, реставрации и распространении культурного наследия среди широкой аудитории. Технологии дополненной и виртуальной реальности способствуют созданию интерактивного опыта и повышению интереса к культурному наследию. Вместе с тем использование ИИ вызывает вопросы, связанные с аутентичностью и этическими аспектами. В статье подчеркивается необходимость сбалансированного и ответственного подхода к использованию технологий.

**Ключевые слова:** глобализация, культурное наследие, цифровизация, искусственный интеллект, виртуальная реальность, дополненная реальность.

**UOT 902**

**Aylan Kələntərli Emin qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**aylanklntrli731@gmail.com**

# RƏQƏMSAL TRANSFORMASİYA ŞƏRAİTİNDƏ ŞƏHƏR MÜHİTİNDƏ MEMARLIQ ABİDƏLƏRİNİN MƏDƏNİ DƏYƏRİNİN QORUNMASI VƏ İNKİŞAFI (HACI ZEYNALABDİN TAĞIYEV VƏ MURTUZA MUXTAROVUN ŞƏXSİ MÜLKLƏRİ NÜMUNƏSİNDƏ)

**Xülasə**

Bu tədqiqat rəqəmsal transformasiya şəraitində şəhər mühitində memarlıq abidələrinin mədəni dəyərinin qorunmasını araşdırır. Təhlil Hacı Zeynalabdin Tağıyev və Murtuza Muxtarovun mülkləri əsasında aparılır. Araşdırmada bu tikililərin memarlıq və sosial-mədəni əhəmiyyəti göstərilir. Onların şəhər yaddaşındakı rolu və identiklik formalaşdırmadakı təsiri vurğulanır. Tarixi abidələrin cəmiyyət üçün simvolik dəyəri əsaslandırılır. Məqalədə rəqəmsal texnologiyaların rolu ayrıca qiymətləndirilir. 3D modelləşdirmə, virtual turlar və GIS sistemləri əsas vasitələr kimi təqdim olunur. Bu texnologiyalar mədəni irsin sənədləşdirilməsini və qorunmasını asanlaşdırır. Eyni zamanda, bu yanaşmalar geniş ictimaiyyət üçün əlçatanlığı artırır. Urbanizasiya və kommersiyalaşmanın təsiri də təhlil edilir. Bu proseslərin abidələrin autentikliyinə təsiri qiymətləndirilir. Mövcud risklər və məhdudiyyətlər ümumiləşdirilir. Tədqiqatda müqayisəli və sistemli yanaşmalardan istifadə olunur. Nümunələr əsasında praktik nəticələr çıxarılır. Nəticədə müəyyən edilir ki, rəqəmsal yanaşmalar irsin qorunmasını gücləndirir. Eyni zamanda turizm və təhsil imkanlarını artırır. Bu yanaşmalar mədəni irsin davamlı inkişafına xidmət edir.

**Açar sözlər:** rəqəmsal transformasiya, mədəni irs, memarlıq abidələri, şəhər mühiti, rəqəmsal texnologiyalar, Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov

## Giriş

Müasir dövrdə rəqəmsal transformasiya cəmiyyətin bütün sahələrində struktur dəyişikliklərə səbəb olmuşdur. Bu proses mədəni irsin qorunması və idarə olunması sahəsində yeni yanaşmaların formalaşmasını zəruri etmişdir. Şəhər mühitində sürətli urbanizasiya və məkanın funksional dəyişməsi memarlıq abidələrinin qorunmasını mürəkkəbləşdirir. Ənənəvi mühafizə metodları bu çağırışları tam qarşılamadığından, rəqəmsal texnologiyaların tətbiqi aktuallaşır.

Rəqəmsallaşma yalnız texniki vasitə deyil, həm də mədəni irsin təqdimatı və ötürülməsi üçün strateji platformadır. Rəqəmsal alətlər memarlıq abidələrinin vizuallaşdırılmasını və sənədləşdirilməsini təmin edir. Bu yanaşma elmi tədqiqatlar üçün əlçatanlığı artırır. Nəticədə mədəni irsin qorunması daha aktiv və davamlı xarakter alır.

Qloballaşma və rəqəmsal kommunikasiya şəhər mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılmasına şərait yaradır. Bu kontekstdə memarlıq abidələri qlobal mədəni irsin tərkib hissəsi kimi qiymətləndirilir. Bu isə onların qorunmasına sistemli və kompleks yanaşma tələb edir.

Hacı Zeynalabdin Tağıyev və Murtuza Muxtarovun mülkləri Azərbaycanın şəhər memarlıq irsinin ən mühüm nümunələrindəndir. Bu tikililər yalnız memarlıq üslubu və estetik xüsusiyyətləri ilə

seçilmir. Onlar XIX–XX əsrlərdə Bakının sosial-iqtisadi yüksəlişini və neft sənayesinin inkişafını əks etdirir. Həmin dövrdə formalaşan şəhər mühiti, sahibkar təbəqəsinin rolu və Avropa memarlıq təsirlərinin yerli ənənələrlə sintezi bu abidələrdə aydın müşahidə olunur.

Bu tikililərin rəqəmsal mühitdə qorunması onların uzunmüddətli saxlanmasına xidmət edir. Bu proses tarixi məlumatların sistemləşdirilməsinə və gələcək nəsillərə ötürülməsinə imkan yaradır. Rəqəmsal modellər və virtual platformalar vasitəsilə bu abidələrin geniş auditoriyaya təqdim olunması təmin edilir. Bu isə həm turizm potensialının artmasına, həm də maarifləndirmə fəaliyyətinin güclənməsinə şərait yaradır.

Memarlıq abidələri çoxqatlı mədəni dəyər sisteminə malikdir. Onlar cəmiyyətin sosial yaddaşını və tarixi inkişaf mərhələlərini əks etdirir. Bu abidələr vasitəsilə insanların həyat tərzi, dünyagörüşü və sosial münasibətləri haqqında dolğun təsəvvür əldə olunur. Şəhər mühitinin formalaşması və inkişaf dinamikası da bu kontekstdə aydın görünür.

Xüsusilə Bakı şəhərinin XIX–XX əsrlərdə keçdiyi inkişaf yolu mühüm elmi əhəmiyyət daşıyır. Neft sənayesinin sürətli inkişafı şəhərin memarlıq simasının dəyişməsinə səbəb olmuşdur. Bu dövrdə inşa edilən tikililər yalnız funksional obyektlər deyil, həm də mədəni və estetik dəyərlərin daşıyıcısı kimi çıxış etmişdir. Bu xüsusiyyətlər onların müasir dövrdə qorunmasını və rəqəmsal mühitdə yenidən təqdim olunmasını daha da aktuallaşdırır.

Tədqiqatın məqsədi rəqəmsal transformasiya şəraitində şəhər mühitində memarlıq abidələrinin qorunması və inkişafı mexanizmlərinin təhlilidir.

Tədqiqatın obyekti kimi Hacı Zeynalabdin Tağıyev və Murtuza Muxtarovun şəxsi mülkləri və ümumilikdə şəhər memarlıq irsi çıxış edir.

Tədqiqatda sistemli yanaşma, müqayisəli təhlil, elmi ümumiləşdirmə və rəqəmsal modelləşdirmə metodlarından istifadə olunmuşdur.

**Memarlıq abidələrinin mədəni dəyəri**

Memarlıq abidələri cəmiyyətin mədəni irsinin ən mühüm tərkib hissələrindən biridir və onların mədəni dəyəri çoxşaxəli xarakter daşıyır. Bu abidələr yalnız fiziki tikililər deyil, həm də müəyyən tarixi dövrün sosial, iqtisadi və estetik xüsusiyyətlərini özündə əks etdirən kompleks mədəni daşıyıcılardır. Onlar vasitəsilə keçmiş nəsillərin həyat tərzi, dünyagörüşü və dəyərlər sistemi haqqında dolğun məlumat əldə etmək mümkündür.

Memarlıq abidələrinin mədəni dəyəri ilk növbədə onların tarixi əhəmiyyəti ilə müəyyən olunur. Hər bir abidə müəyyən bir dövrün izlərini daşıyır və həmin dövrün ictimai-siyasi hadisələrini, iqtisadi münasibətlərini və texnoloji səviyyəsini əks etdirir. Memarlıq irsi cəmiyyətin kollektiv yaddaşının formalaşmasında mühüm rol oynayır və tarixi identikliyin qorunmasına xidmət edir.

Memarlıq abidələri estetik və bədii dəyərə malikdir. Onların memarlıq üslubu, dekorativ elementləri, planlaşdırma xüsusiyyətləri və tikinti texnologiyaları müəyyən mədəni ənənələrin və sənətkarlıq bacarıqlarının göstəricisidir. Bu xüsusiyyətlər abidələri yalnız tarixi obyekt deyil, həm də sənət nümunəsi kimi qiymətləndirməyə imkan verir.

Memarlıq abidələrinin mədəni dəyəri həm də sosial funksiyası ilə bağlıdır. Bu tikililər cəmiyyətin sosial həyatında mühüm yer tutur, ictimai münasibətlərin formalaşmasına təsir edir və insanların mədəni identikliyinin əsas komponentlərindən biri kimi çıxış edir. Xüsusilə şəhər mühitində bu abidələr məkanın simvolik məzmununu formalaşdırır və şəhər yaddaşının qorunmasında əsas rol oynayır.

Müasir dövrdə memarlıq abidələrinin mədəni dəyəri onların iqtisadi və turizm potensialı ilə də əlaqələndirilir. Tarixi tikililər turizm resursu kimi çıxış edərək şəhərlərin iqtisadi inkişafına töhfə verir və mədəni turizmin inkişafını stimullaşdırır. Bu isə onların qorunmasının yalnız mədəni deyil, həm də iqtisadi baxımdan əhəmiyyətini artırır.

**Tağıyev və Muxtarov mülklərinin təhlili**

Tağıyev və Muxtarov mülkləri Azərbaycanın şəhər memarlıq irsinin ən dəyərli nümunələri sırasında xüsusi yer tutur. Bu tikililər yalnız estetik və memarlıq xüsusiyyətləri ilə deyil, həm də XIX–XX əsrlərdə Bakının sosial-iqtisadi inkişafını əks etdirməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Neft sənayesinin yüksəlişi dövründə formalaşan bu mülklər şəhər mühitində yeni sosial təbəqənin – sahibkar və sənayeçi elitanın meydana çıxmasını nümayiş etdirir.

Hacı Zeynalabdin Tağıyevin mülkü klassik Avropa memarlıq üslubunun yerli elementlərlə sintezini əks etdirir. Binanın fasadında simmetriya, dekorativ ornamentlər və zəngin interyer həlləri diqqət çəkir. Bu tikili yalnız yaşayış evi kimi deyil, həm də xeyriyyəçilik fəaliyyəti ilə bağlı sosial məkan kimi çıxış etmişdir. Tağıyevin fəaliyyəti nəticəsində bu mülk şəhər həyatında mədəni və ictimai funksiyaya malik olmuşdur. Məsələn, Hacı Zeynalabdin Tağıyevin Bakı şəhərində yerləşən sarayı hazırda Azərbaycan Milli Tarix Muzeyi kimi fəaliyyət göstərir. Bu fakt memarlıq abidəsinin funksional transformasiyasına nümunədir. Tarixi yaşayış məkanı müasir dövrdə ictimai və elmi mərkəzə çevrilmişdir. Bu yanaşma abidənin həm qorunmasını, həm də aktiv istifadəsini təmin edir.

Digər nümunə kimi Murtuza Muxtarovun sarayı göstərilə bilər. Bu tikili hazırda Səadət Sarayı kimi tanınır və nikah mərasimləri üçün istifadə olunur. Belə funksional dəyişiklik abidənin sosial həyatla əlaqəsini qoruyur. Eyni zamanda, onun memarlıq dəyərinin gündəlik həyatın bir hissəsinə çevrilməsinə imkan yaradır.

Rəqəmsal transformasiya sahəsində də bu abidələr üzrə konkret nümunələr mövcuddur. Məsələn, muzey formatında fəaliyyət göstərən Tağıyev sarayının interyerinin 3D modelləşdirilməsi və virtual turların yaradılması ziyarətçilərə məsafədən tanışlıq imkanı verir. Bu, xüsusilə beynəlxalq auditoriyanın cəlb olunmasında mühüm rol oynayır.

Murtuza Muxtarovun mülkü isə daha çox Avropa neoqotik və eklektik memarlıq üslubunun təsiri ilə seçilir. Bu tikili özünün fərqli memarlıq forması, qülləvari elementləri və konstruktiv həlləri ilə Bakı memarlıq mühitində unikal mövqe tutur. Muxtarovun mülkü həm estetik baxımdan, həm də mühəndislik yanaşmaları baxımından dövrün yüksək texnoloji səviyyəsini əks etdirir.

Hər iki mülkün təhlili göstərir ki, bu tikililər yalnız fərdi yaşayış obyektləri deyil, həm də şəhər mühitinin formalaşmasında mühüm rol oynamış mədəni abidələrdir. Onlar vasitəsilə dövrün memarlıq meylləri, sosial münasibətləri və iqtisadi inkişaf səviyyəsi haqqında ətraflı təsəvvür əldə etmək mümkündür.

Müasir şəraitdə bu abidələrin qorunması və idarə olunması xüsusi yanaşma tələb edir. Rəqəmsal texnologiyaların tətbiqi onların sənədləşdirilməsi, monitorinqi və bərpası prosesini daha səmərəli edir. Eyni zamanda, virtual təqdimatlar və rəqəmsal platformalar vasitəsilə bu abidələrin geniş ictimaiyyətə çatdırılması mümkün olur.

**Rəqəmsal yanaşmaların tətbiq imkanları**

Hacı Zeynalabdin Tağıyevin Bakıda yerləşən möhtəşəm sarayı (hazırda Azərbaycan Milli Tarix Muzeyi kimi fəaliyyət göstərir) və Murtuza Muxtarovun memarlıq baxımından seçilən iqamətgahı (Muxtarov sarayı kimi tanınır) xüsusi əhəmiyyət kəsb edir. Bu tikililər yalnız fərdi yaşayış məkanları

deyil, həm də Azərbaycanın neft bumu dövründə formalaşan şəhər mədəniyyətinin və milli burjuaziyanın simvolik göstəriciləridir [6, s. 39].

Tağıyevin sarayı öz zəngin interyer dizaynı, Avropa memarlıq elementləri və milli ornamentlərin sintezi ilə seçilir. Bu bina yalnız memarlıq baxımından deyil, həm də sosial funksiyası baxımından mühüm rol oynamışdır. Belə ki, Hacı Zeynalabdin Tağıyev Azərbaycanın ilk qız məktəbinin yaradılmasına, maarifçiliyin inkişafına və mədəni həyatın zənginləşməsinə böyük töhfələr vermişdir. Onun fəaliyyəti nəticəsində Bakı yalnız sənaye şəhəri deyil, həm də mədəni və intellektual mərkəz kimi formalaşmağa başlamışdır.

Murtuza Muxtarovun sarayı (indiki Səadət Sarayı) memarlıq baxımından Avropa qotik üslubunun nadir nümunələrindən biri hesab olunur. Bu tikili yalnız estetik xüsusiyyətləri ilə deyil, həm də Bakının sosial həyatında oynadığı rolla seçilir. Tarixən burada mühüm ictimai tədbirlər keçirilmiş, müasir dövrdə isə nikah sarayı kimi fəaliyyət göstərərək öz funksional əhəmiyyətini qoruyub saxlamışdır.

Bu abidələr həmçinin Zeynalabdin Taghiyev və Murtuza Mukhtarov kimi tanınan şəxslərin xeyriyyəçilik fəaliyyəti, sosial məsuliyyət prinsipləri və şəhər inkişafına verdikləri töhfələrlə sıx bağlıdır. Onların fəaliyyəti nəticəsində Bakı şəhərində təhsil, səhiyyə və mədəniyyət sahələrində mühüm irəliləyişlər əldə edilmişdir [4, s. 71].

Rəqəmsal transformasiya memarlıq irsinin qorunması və idarə olunması sahəsində keyfiyyətcə yeni mərhələ formalaşdırır. Əgər ənənəvi yanaşmalar əsasən fiziki bərpa, konservasiya və qoruma tədbirləri ilə məhdudlaşırdısa, müasir rəqəmsal texnologiyalar bu prosesi daha sistemli, çevik və çoxşaxəli edir. Xüsusilə Bakı kimi tarixi-mədəni irsi zəngin olan şəhərlərdə bu yanaşma memarlıq abidələrinin həm qorunması, həm də qlobal miqyasda tanıdılması baxımından böyük əhəmiyyət kəsb edir.

**Rəqəmsal transformasiya və müasir texnologiyalar**

Müasir texnologiyalar vasitəsilə abidələrin yüksək dəqiqlikli rəqəmsal modellərinin yaradılması onların uzunmüddətli qorunmasını təmin edən mühüm vasitələrdən biridir. 3D modelləşdirmə və lazer skanlama texnologiyaları memarlıq obyektlərinin ən xırda detallarına qədər rəqəmsal surətlərini yaratmağa imkan verir. Bu texnologiyalar sayəsində abidələrin struktur xüsusiyyətləri, ornamentləri və memarlıq elementləri tam dəqiqliklə sənədləşdirilir [7, s. 43]. Beləliklə, hər hansı zədələnmə və ya təbii fəlakət halında həmin abidələrin bərpası üçün etibarlı məlumat bazası formalaşır. Məsələn, Azərbaycan Milli Tarix Muzeyi və Səadət Sarayı kimi tarixi tikililərin rəqəmsal modellərinin hazırlanması onların gələcək nəsillər üçün qorunmasına xidmət edir [5, s. 58].

Virtual və artırılmış reallıq (VR/AR) texnologiyaları memarlıq irsinin təqdimatında inqilabi dəyişikliklər yaradır. Bu texnologiyalar vasitəsilə istifadəçilər fiziki olaraq həmin məkanda olmasalar belə, tarixi abidələri interaktiv şəkildə “ziyarət” edə, onların daxili və xarici quruluşunu, memarlıq xüsusiyyətlərini və tarixini daha dərindən öyrənə bilirlər. Bu yanaşma xüsusilə turizm və təhsil sahəsində geniş imkanlar açır, həm yerli, həm də beynəlxalq auditoriyanın mədəni irsə marağını artırır.

Rəqəmsal arxivləşdirmə sistemləri memarlıq abidələri ilə bağlı bütün məlumatların sistemli şəkildə toplanmasına və qorunmasına imkan verir. Tarixi sənədlər, memarlıq planları, fotoşəkillər, video materiallar və digər məlumatlar vahid rəqəmsal platformalarda saxlanılaraq həm tədqiqatçılar,

həm də ictimaiyyət üçün əlçatan olur. Bu isə mədəni irsin öyrənilməsi prosesini asanlaşdırır və məlumatların itirilməsi riskini minimuma endirir.

Coğrafi informasiya sistemlərinin (GIS) tətbiqidir. GIS texnologiyaları vasitəsilə memarlıq abidələrinin yerləşdiyi ərazilər, onların mühafizə zonaları, ətraf mühitlə qarşılıqlı əlaqəsi və potensial risk faktorları kompleks şəkildə təhlil edilir. Bu yanaşma şəhər planlaşdırılması prosesində mədəni irsin qorunması ilə urbanizasiya arasında balansın təmin olunmasına kömək edir [3, s. 89].

Bu texnologiyalar vasitəsi ilə mədəni irs daha əlçatan, daha təhlükəsiz və daha geniş auditoriya üçün maraqlı olur. Beləliklə, rəqəmsal transformasiya memarlıq abidələrinin yalnız qorunmasına deyil, həm də onların yenidən canlandırılmasına, təbliğinə və gələcək nəsillərə innovativ yollarla ötürülməsinə xidmət edir.

**Nəticə**

Rəqəmsal transformasiya şəraitində memarlıq abidələrinin qorunması və inkişafı ənənəvi yanaşmalarla yanaşı innovativ texnologiyaların tətbiqini tələb edir. Hacı Zeynalabdin Tağıyev və Murtuza Muxtarovun şəxsi mülkləri nümunəsində aparılan təhlil göstərir ki, rəqəmsal yanaşmalar bu abidələrin yalnız qorunmasını deyil, həm də onların sosial, mədəni və iqtisadi potensialının artırılmasını təmin edir.

Beləliklə, mədəni irsin rəqəmsal mühitdə inteqrasiyası şəhər mühitində davamlı inkişafın və milli identikliyin qorunmasının mühüm amilidir.

**Ədəbiyyat siyahısı**

1. Abbasov, İ. (2020). Şəhər mühitində memarlıq abidələrinin qorunması məsələləri. Memarlıq və İnşaat, 12(1), 23–30.
2. Əliyev, N. (2018). Azərbaycanda memarlıq irsinin qorunması problemləri və perspektivləri. Bakı: Elm nəşriyyatı.
3. Fangi, G. (2015). The multi-image spherical photogrammetry as a tool for architectural survey. ISPRS Annals of the Photogrammetry, Remote Sensing and Spatial Information Sciences.
4. Həsənov, R. (2016). Şəhər mühitində tarixi-mədəni abidələrin qorunması. Bakı: Təhsil nəşriyyatı.
5. Quliyev, S. (2021). Rəqəmsallaşma və mədəni irsin qorunması problemləri. Mədəniyyət və incəsənət jurnalı, 5(2), 45–52.
6. Məmmədov, A. (2019). Azərbaycan memarlıq tarixi. Bakı: Şərq-Qərb nəşriyyatı.
7. Remondino, F., & Campana, S. (2014). 3D recording and modelling in archaeology and cultural heritage. Archaeopress.

**Aylan Kalantarli Emin gizi**

**PRESERVATION AND DEVELOPMENT OF CULTURAL VALUE OF ARCHITECTURAL MONUMENTS IN THE URBAN ENVIRONMENT UNDER DIGITAL TRANSFORMATION (on the example of Haji Zeynalabdin Taghiyev and MURTUZA MUKHTAROV`S PERSONAL ESTATES)**

**Summary**

This study examines the preservation of the cultural value of architectural monuments in the urban environment under digital transformation. The analysis is conducted on the basis of the estates of Haji Zeynalabdin Taghiyev and Murtuza Mukhtarov. The study shows the architectural and socio-cultural significance of these buildings. Their role in urban memory and their impact on identity

formation are emphasized. The symbolic value of historical monuments for society is substantiated. The article separately assesses the role of digital technologies. 3D modeling, virtual tours and GIS systems are presented as the main tools. These technologies facilitate the documentation and preservation of cultural heritage. At the same time, these approaches increase accessibility for the general public. The impact of urbanization and commercialization is also analyzed. The impact of these processes on the authenticity of monuments is assessed. Existing risks and limitations are summarized. The study uses comparative and systematic approaches. Practical conclusions are drawn based on examples. As a result, it is determined that digital approaches strengthen heritage preservation. At the same time, they increase tourism and educational opportunities. These approaches serve the sustainable development of cultural heritage.

**Key words:** digital transformation, cultural heritage, architectural monuments, urban environment, digital technologies, Haji Zeynalabdin Taghiyev, Murtuza Mukhtarov

**Айлан Келентерли Эмин гызы**

## СОХРАНЕНИЕ И РАЗВИТИЕ КУЛЬТУРНОЙ ЦЕННОСТИ АРХИТЕКТУРНЫХ ПАМЯТНИКОВ В ГОРОДСКОЙ СРЕДЕ В УСЛОВИЯХ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ (НА ПРИМЕРЕ УСАДЕБ ГАДЖИ ЗЕЙНАЛАБДИНА ТАГИЕВА И МУРТУЗЫ МУХТАРОВА)

### Резюме

В данном исследовании рассматривается вопрос сохранения культурной ценности архитектурных памятников в городской среде в контексте цифровой трансформации. Анализ проводится на основе усадеб Гаджи Зейналабдина Тагиева и Муртузы Мухтарова. Исследование показывает архитектурное и социокультурное значение этих зданий. Подчеркивается их роль в городской памяти и влияние на формирование идентичности. Обосновывается символическая ценность исторических памятников для общества. В статье отдельно оценивается роль цифровых технологий. В качестве основных инструментов представлены 3D-моделирование, виртуальные туры и ГИС-системы. Эти технологии облегчают документирование и сохранение культурного наследия. В то же время эти подходы повышают доступность для широкой публики. Также анализируется влияние урбанизации и коммерциализации. Оценивается влияние этих процессов на подлинность памятников. Обобщаются существующие риски и ограничения. В исследовании используются сравнительный и системный подходы. Практические выводы сделаны на основе примеров. В результате установлено, что цифровые подходы усиливают сохранение культурного наследия. В то же время они расширяют возможности для туризма и образования. Такие подходы способствуют устойчивому развитию культурного наследия.

**Ключевые слова:** цифровая трансформация, культурное наследие, архитектурные памятники, городская среда, цифровые технологии, Гаджи Зейналабдин Тагиев, Муртуза Мухтаров.

**UOT 719**

**Zümrüd Kazımova Əzim qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**kazimovazumrud18@gmail.com**

# ŞƏHƏR MÜHİTİNDƏ QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI PROBLEMLƏRİ (ƏNƏNƏLƏR VƏ FESTİVALLAR KONTEKSTİNDƏ)

**Xülasə**

Bu məqalədə müasir şəhərləşmə və qlobal təsirlərin gücləndiyi şəraitdə Azərbaycanda qeyri-maddi mədəni irsin qorunması məsələləri geniş şəkildə araşdırılır. Araşdırmanın məqsədi şəhər həyatının təsiri altında ənənələrin, festivalların və sənətkarlıq fəaliyyətlərinin qarşılaşdığı çətinlikləri müəyyən etməkdir. İşdə mədəni irsin qorunmasına dair hüquqi yanaşmalar və bu sahədə mövcud milli və beynəlxalq təcrübələr ümumiləşdirilərək təhlil edilir. Məqalədə xüsusilə gənc nəslin milli dəyərlərə marağının formalaşdırılması, müasir rəqəmsal vasitələrin təbliğat imkanları və yenidən qurulan ərazilərdə mədəni dirçəliş proseslərinin şəhər mühitinə təsiri diqqətə çatdırılır. Aparılan araşdırmalar göstərir ki, bəzi hallarda mədəni irs nümunələrinin kommersiya məqsədilə istifadə olunması onların ilkin məzmununa mənfi təsir göstərə bilər. Nəticə olaraq, qeyri-maddi mədəni irsin qorunmasında elmi yanaşmaların tətbiqi və yerli icmaların prosesə fəal şəkildə cəlb olunmasının əhəmiyyəti vurğulanır. Məqalə mədəniyyət sahəsi üzrə tədqiqat aparan mütəxəssislər və bu mövzu ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.

**Açar sözlər:** qeyri-maddi mədəni irs, şəhər mühiti, festivallar, urbanizasiya, mədəni yaddaş, sənədləşdirmə

Mədəni irs, bir xalqın tarix süzgəcindən süzülüb gələn, onun kollektiv şüurunun və mənəvi varlığının ən ali təzahür forması, milli identikliyin sarsılmaz təməl sütunudur. Azərbaycanın çoxəsrlik şəhərsalma ənənələri, maddi memarlıq nümunələri ilə qeyri-maddi dəyərlər sistemini unikal bir vəhdətdə birləşdirərək, bəşər sivilizasiyası üçün nadir bir irs modeli formalaşdırmışdır [Süleymanlı, 2019]. Lakin müasir dövrün sürətli və çox vaxt aqressiv xarakter alan urbanizasiya prosesləri şəhər mühitində ənənəvi həyat tərzinin sıxışdırılmasına, lokal kimliklərin unifikasiyasına və nəticə etibarilə milli-mənəvi yaddaşın “fraqmentləşməsi” təhlükəsinə yol açır. Belə bir mürəkkəb sosiokulturoloji şəraitdə, milli-mədəni irsin mühafizəsi, onun müasir infrastruktur daxilində yenidən istehsalı və gələcək nəsillərə ötürülməsi müasir kulturologiya elminin qarşısında duran ən mühüm strateji çağırışlardan biridir [Eyvazlı, 2023]. Xüsusilə dinamik şəhər mərkəzlərində festivalların, xalq sənətkarlığının və mənəvi ritualların canlı saxlanılması sadəcə keçmişin mexaniki təkrarlanması deyil, həm də qlobal standartlara söykənən institusional, hüquqi və metodoloji yanaşma tələb edir. UNESCO tərəfindən müəyyən edilmiş qeyri-maddi mədəni irsin qorunması prinsipləri, Azərbaycanın bu zəngin xəzinəsinin bəşəri əhəmiyyətini ön plana çəkir və onun qlobal miqyasda elmi əsaslarla mühafizəsini zəruriləşdirir [UNESCO, 2015]. XX əsrin əvvəllərindən etibarən Azərbaycanın kulturoloji fikir tarixində formalaşan milli özünüdərk ideologiyası, bu gün də dövlətçilik

prinsiplərinin və milli identikliyin qorunmasında fundamental intellektual istinad bazası rolunu oynamaqdadır [Süleymanlı, 2011].

Şəhər mühiti, öz funksional mahiyyəti etibarilə yüksək ictimai dəyişkənliyə malik, müxtəlif tərkibli və daim təkamül edən mürəkkəb bir sistemdir. Belə bir mühitdə qeyri-maddi mədəni irsin qorunması məsələsi həm texnoloji inqilabın gündəlik həyata dərin sirayət etməsi, həm də cəmiyyətin sosial-demoqrafik strukturundakı köklü transformasiyalarla birbaşa bağlıdır. İrs anlayışına fundamental aspektdən yanaşdıqda, onu yalnız statik, cansız abidələr toplusu və ya keçmişin qalığı kimi deyil, cəmiyyətin tarixi inkişaf boyu yaratdığı və nəsildən-nəslə ötürdüyü dinamik, yaşayan mənəvi dəyərlər sistemi kimi qəbul etmək lazımdır [Süleymanlı, 2019]. Bakı, Gəncə, Şəki və Şuşa kimi tarixi mərkəzlərdə qloballaşmanın gətirdiyi “mədəni standartlaşma” təsirləri altında ənənəvi həyat tərzi ciddi bir ekzistensial sınaq dövrünü yaşayır. Müasir şəhər insanının yüksək sürətli həyat ritmi, rəqəmsal medianın manipulyativ təsirləri və transmilli kütləvi mədəniyyətin dominantlığı milli festivalların, adət-ənənələrin və lokal ritualların ictimai şüurda “arxaik element” kimi qəbul edilməsinə münbit şərait yaradır. XX əsrin əvvəllərindəki intellektual elitanın milliliyin qorunmasını bir varlıq mübarizəsi kimi təqdim etməsi [Süleymanlı, 2011], bugünkü yüksək texnoloji və kosmopolit şəhər mühitində artıq daha geniş miqyaslı, multidissiplinar və kütləvi bir problemə çevrilmişdir. Bu problemin həlli irsin müasir şəhər estetikasına və sosial tələblərinə uyğunlaşdırılmasından, onun gündəlik sosial praktikalara daxil edilməsindən keçir.

Şəhər festivalları və ənənəvi mərasimlər müasir dövrdə özünün toxunulmaz, rəmzi və mənəvi mahiyyətini itirərək, sadəcə vizual bir dekorasiyaya, estetik nümayişə və ya “turistik performans”a çevrilmək təhlükəsi ilə üz-üzədir. Məsələn, Novruz bayramı şəhər mühitində möhtəşəm meydan şənlikləri və rəsmi tədbirlərlə müşayiət olunsa da, onun daxilindəki qədim fəlsəfi təbəqələrdən gələn ritual elementlərin və mifoloji inancların gənc nəsil tərəfindən dərk edilmə dərinliyi nəzərəçarpan dərəcədə zəifləmişdir. UNESCO-nun müvafiq konvensiyalarında xüsusi vurğulanır ki, irsin “canlı” qalması üçün o, mütləq icma tərəfindən real həyatda yaşanmalı, fərdi şəkildə icra olunmalı və hər bir vətəndaşın mənəvi ehtiyacına çevrilməlidir [UNESCO, 2015]. Əgər şəhər sakini bir mədəni festivalda özünü iştirakçı deyil, yalnız passiv müşahidəçi statusunda hiss edirsə, bu, irsin “muzeyləşməsi” və ya “donması” deməkdir ki, bu da onun gələcək adaptasiya qabiliyyəti üçün ən mühüm risk faktorudur. Şəhər inkişafının bəzən plansız və sırf kommersiya yönümlü xarakter alması isə şəhərin "məkan yaddaşının" pozulmasına gətirib çıxarır. Tarixi məhəllələrin arxitektura toxumasının dəyişməsi həmin ərazilərə xas olan lokal folklorun, qədim məhəllə adətlərinin və spesifik sənətkarlıq ənənələrinin də sosial mühitdən silinməsi ilə nəticələnir. Milli-mədəni irsin mühafizəsi kontekstində bu, bərpası qeyri-mümkün olan sosiokulturoloji itkidir [Eyvazlı, 2023]. Sənətkarlıq ənənələrinin şəhər bazarlarında həddindən artıq kommersiyalaşması onların bədii keyfiyyətinə və tarixi orijinal mahiyyətinə xələl gətirir. Müasir suvenir sənayesi çox vaxt qədim naxış sistemlərinin və texniki üsulların təhrif olunmuş formalarını təqdim edir ki, bu da “süni irs” anlayışının formalaşmasına rəvac verir. Təcrübə sübut edir ki, mənəvi irsin qorunması həm də onun müasir iqtisadi ekosistemdəki funksionallığından və dayanıqlığından birbaşa asılıdır [Şakiroğlu, 2017].

Rəqəmsal transformasiya dövründə irsin qorunmasında elektron arxivləşmə və virtual resursların yaradılması həm mühüm bir həll yolu, həm də yeni ontoloji suallar doğuran amil kimi çıxış edir. Azərbaycan xalqının zəngin folklor nümunələri, musiqi yaddaşı və etnoqrafik bilikləri bu gün yüksək texnoloji imkanlarla rəqəmsal bazalara köçürülür [Milli Kitabxana, 2014]. Bu proses irsin gələcəyə sənədləşdirilmiş şəkildə ötürülməsi üçün misilsiz bir texnoloji imkandır, lakin rəqəmsal

format heç bir zaman irsin canlı, emosional və sosial təcrübəyə söykənən icrasını tam mənada əvəz edə bilməz. Əsas strateji hədəf, qeyri-maddi mədəni irsi müasir şəhər insanının gündəlik həyat ssenarisinə, təhsilinə və asudə vaxtına inteqrasiya etməkdir [Azərbaycan Respublikası, 2018]. Mədəniyyət Nazirliyinin (2020) müvafiq strateji sənədlərində də vurğulandığı kimi, festivallar və mərasimlər elə bir formatda təşkil edilməlidir ki, onlar şəhər sakini üçün xarici, rəsmi bir tədbir deyil, onun daxili mənəvi tələbatı kimi qəbul olunsun. Hüquqi aspektdən yanaşdıqda, QMMİ-nin mühafizəsi dövlətin formalaşdırdığı kamil normativ-hüquqi baza ilə təmin olunmalıdır. Azərbaycanın bu sahədəki qanunvericilik sistemi, irsin beynəlxalq səviyyədə hüquqi status alması və tanınması üçün fundamental zəmin təklif edir [Azərbaycan Respublikası, 2018]. Lakin hüquqi bazanın mövcudluğu hələ problemin tam həlli demək deyil; əsas məsələ həmin qanunların şəhər daxilindəki sənətkarlıq emalatxanalarına, yaradıcı studiyalara və kütləvi mədəni proseslərə necə faktiki təsir göstərməsidir.

Muzey, kitabxana və mədəniyyət mərkəzlərinin təşkilati potensialı rəqəmsal dövrün çağırışlarına uyğun olaraq yenidən strukturlaşdırılmalıdır. Milli Kitabxananın (2014) tədqiqatları və təcrübəsi göstərir ki, müasir dövrdə arxivləşdirmə işi yalnız passiv qoruma deyil, həm də irsin interaktiv, cəlbedici təqdimatını əhatə etməlidir. Problem ondadır ki, regional ənənələr şəhərə köçən əhali vasitəsilə mərkəzə daxil olsa da, mövcud şəhər institutları bu spesifik bilikləri sistemli şəkildə “ictimai yaddaş bazasına” çevirmək üçün kifayət qədər çevik deyil. Eyvazlı (2023) vurğulayır ki, sosiokulturoloji elmi tədqiqatların yetərsizliyi və müvafiq qurumlar arasındakı koordinasiya boşluqları irsin qorunmasında hələ də mühüm maneələr sırasındadır. Gənc nəslin bu dəyərləri mənimsəməsi və onlara özününkü kimi baxması irsin gələcək taleyini müəyyən edən ən kritik amildir. UNESCO-nun (2015) tövsiyə etdiyi kimi, irs canlı qalmaq üçün müasir yaradıcılıqla – məsələn, muğamın və ya milli naxışların innovativ dizaynla sintezi vasitəsilə gənclər üçün yenidən kəşf olunmalıdır. Şakiroğlu (2017) qeyd edir ki, orta və ali təhsil müəssisələri ilə mədəniyyət ocaqları arasında əlaqə elə qurulmalıdır ki, gənclər özlərini bu irsin sadəcə passiv istehlakçısı deyil, həm də aktiv yaradıcısı kimi hiss etsinlər.

**Nəticə**

Aparılan təhlillər və mövcud sosiokulturoloji vəziyyətin tədqiqi mənə belə bir fundamental qənaətə gəlməyə əsas verir ki, şəhər mühitində qeyri-maddi mədəni irsin mühafizəsi statik bir müdafiə aktı deyil, dinamik bir inkişaf prosesidir. Hesab edirəm ki, urbanizasiyanın gətirdiyi yaddaş aşınmasına qarşı ən effektiv mexanizm, irsi sadəcə xüsusi günlərdə xatırlanan bir “keçmiş qalığı” kimi deyil, şəhər sakininin estetik dünyagörüşünün və gündəlik sosial fəaliyyətinin ayrılmaz bir parçası kimi yenidən formalaşdırmaqdır. Mənim fikrimcə, qeyri-maddi mədəni irsin qorunması strategiyasında “passiv seyrçilik” modelindən “aktiv iştirakçılıq” modelinə keçid həlledici əhəmiyyət kəsb edir. Xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrinin mənəvi irsinin müasir şəhər həyatına inteqrasiyasını yalnız bir mədəniyyət layihəsi kimi deyil, həm də milli suverenliyin və mənəvi birliyin möhkəmləndirilməsi faktoru kimi dəyərləndirirəm [Eyvazlı, 2023].

Gəlinən digər mühüm nəticə rəqəmsal texnologiyalarla bağlıdır; rəqəmsal arxivlərin yaradılması [Milli Kitabxana, 2014] sənədləşdirmə baxımından zəruri olsa da, əsl mühafizənin gənc nəslin bu dəyərləri müasir yaradıcılıq formaları – virtual reallıq, rəqəmsal sənət və oyunlaşdırma vasitəsilə mənimsəməsində olduğunu düşünürəm. Yekun olaraq qeyd edə bilərəm ki, dövlətin sistemli dəstəyi ilə cəmiyyətin fərdi məsuliyyəti vəhdət təşkil etdikdə, Azərbaycanın milli identikliyi qlobal çağırışlar qarşısında öz orijinallığını qoruya biləcəkdir. İrsin autentikliyi ilə onun modern

adaptasiyası arasındakı həssas balansın tapılması, mədəniyyət siyasətimizin gələcək uğurunu müəyyən edən əsas meyar olmalıdır.

## Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası. (2018). *Qeyri-Maddi Mədəni İrs anlayışı və tətbiqi*. Bakı.
2. Eyvazlı, A. R. (2023). Azərbaycanın milli-mədəni irsinin qorunması problemləri. *Məqalə PDF*.
3. Mədəniyyət Nazirliyi. (2020). *Qeyri-maddi mədəni irsin qorunması üzrə sənədlər*. Bakı.
4. Milli Kitabxana. (2014). *Azərbaycan xalqına məxsus qeyri-maddi mədəni irs nümunələri*. Bakı.
5. Süleymanlı, M. (2011). *Azərbaycan kulturoloji fikir tarixindən: XX əsrin əvvəlləri*. Bakı: Nafta-Press.
6. Süleymanlı, M. (2019). *Mədəni irs*. Bakı: Elm və Təhsil.
7. Şakiroğlu, C. (2017). Azərbaycan təcrübəsi: Qeyri-maddi mədəni irs. *Bakı Dövlət Universiteti Elmi Məcmuəsi*.
8. UNESCO. (2015). *Intangible Cultural Heritage in Azerbaijan*. Paris/Baku.

**Kazimova Zumrud Azim gizi**

## PROBLEMS OF PRESERVING INTANGIBLE CULTURAL HERITAGE IN THE URBAN ENVIRONMENT (IN THE CONTEXT OF TRADITIONS AND FESTIVALS)

**Summary**

This article provides a comprehensive analysis of the issues related to the preservation of intangible cultural heritage in Azerbaijan under the conditions of modern urbanization and increasing global influences. The main objective of the study is to identify the challenges faced by traditions, festivals, and craftsmanship activities as they adapt to urban lifestyles. The paper examines legal approaches to heritage preservation as well as summarizes and analyzes both national and international practices in this field. Special attention is given to fostering young people's interest in national values, the use of modern digital tools for cultural promotion, and the impact of cultural revitalization processes in newly reconstructed areas on the urban environment. The analysis shows that, in some cases, the commercialization of cultural heritage elements may negatively affect their original meaning and authenticity. In conclusion, the study highlights the importance of applying scientific approaches to heritage documentation and ensuring the active participation of local communities in the preservation process. The article is intended for specialists in cultural studies, as well as researchers and readers interested in this field.

**Key words:** intangible cultural heritage, urban environment, festivals, urbanization, cultural memory, documentation.

**Кязимова Зумруд Азим гызы**

## ПРОБЛЕМЫ СОХРАНЕНИЯ НЕМАТЕРИАЛЬНОГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ В ГОРОДСКОЙ СРЕДЕ (В КОНТЕКСТЕ ТРАДИЦИЙ И ФЕСТИВАЛЕЙ)

**Резюме**

В данной статье комплексно рассматриваются вопросы сохранения нематериального культурного наследия в Азербайджане в условиях современной урбанизации и усиливающегося влияния глобализации. Основной целью исследования является выявление проблем, с которыми сталкиваются традиции, фестивали и ремесленные практики в процессе адаптации к городскому образу жизни. В работе анализируются правовые подходы к охране культурного наследия, а также обобщается и рассматривается национальный и международный опыт в данной сфере. Особое внимание уделяется формированию интереса молодежи к национальным ценностям, использованию современных цифровых средств популяризации, а также влиянию процессов культурного возрождения на освобожденных территориях на городскую среду. Проведённый анализ показывает, что в ряде случаев коммерциализация элементов культурного наследия может отрицательно сказаться на их первоначальном содержании и подлинности. В заключение подчеркивается значимость применения научных методов документирования наследия и активного участия местных сообществ в процессе его сохранения. Статья предназначена для специалистов, проводящих исследования в области культурологии, а также читателей, интересующихся данной тематикой.

**Ключевые слова:** нематериальное культурное наследие, городская среда, фестивали, урбанизация, культурная память, документирование

**UOT 008 (091)**

**Təhminə Əliyeva Rəhman qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**aliyevatahmina290@gmail.com**

# MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ MƏSƏLƏLƏRİ KONTEKSTİNDƏ QƏRBİ AZƏRBAYCANIN MADDİ İRSİNİN KULTUROLOJİ ASPEKTLƏRİ

**Xülasə**

Bu məsələ müasir kulturologiya və irsşünaslıq çərçivəsində xüsusi aktuallıq kəsb edir. Qərbi Azərbaycanın maddi irsi (memarlıq abidələri, yaşayış məskənləri, dini tikililər, qəbiristanlıqlar, maddi-məişət nümunələri və s.) yalnız tarixi faktların daşıyıcısı deyil, həm də milli kimliyin, kollektiv yaddaşın və mədəni kontinuallığın əsas komponentlərindən biri kimi çıxış edir. Kulturoloji yanaşma göstərir ki, maddi irs obyektləri simvolik məna yükünə malik olub, müəyyən ictimai-tarixi mərhələlərdə formalaşmış dəyərlər sistemini əks etdirir. Qərbi Azərbaycan ərazisində mövcud olmuş maddi mədəniyyət nümunələri regionun etnomədəni strukturunu, sosial münasibətlər sistemini və estetik dünyagörüşünü təcəssüm etdirir. Bu baxımdan, onların tədqiqi yalnız arxeoloji və ya tarixi analizlə məhdudlaşmamalı, həm də semiotik, antropoloji və kulturoloji metodlarla kompleks şəkildə aparılmalıdır. Müasir dövrdə mədəni irsin mühafizəsi məsələləri qlobal çağırışlarla üz-üzədir. Bu baxımdan Qərbi Azərbaycanın maddi irsinin qorunması problemi də siyasi, hüquqi və mədəni aspektlərdə çoxşaxəli yanaşma tələb edir.

**Açar sözlər:** mədəni irs, maddi mədəniyyət, kulturoloji yanaşma, irsin mühafizəsi, milli kimlik

Qərbi Azərbaycanın maddi irs nümunələri regionun tarixi-coğrafi şəraiti ilə sıx bağlı şəkildə formalaşmışdır [1, s. 18]. Bu irs elementləri yalnız lokal xüsusiyyətləri deyil, həm də ümumtürk və Qafqaz mədəni məkanına inteqrasiya proseslərini əks etdirir. Xüsusilə memarlıq üslublarında müşahidə olunan sintez xarakteri müxtəlif dövrlərdə baş vermiş mədəni qarşılıqlı təsirlərin nəticəsi kimi qiymətləndirilə bilər. Digər tərəfdən, maddi irsin interpretasiyası məsələsi də mühüm elmi problem kimi çıxış edir. Müasir kulturoloji diskursda irs obyektlərinin yalnız fiziki varlığı deyil, onların mənalandırılması, təqdimatı və ictimai şüurda necə qavranılması da əsas tədqiqat istiqamətlərindən biridir.

Kulturoloji baxımdan bu irsin əsas xüsusiyyətlərindən biri onun simvolik identiklik funksiyasıdır. Məsələn, Göy məscid (XVIII əsr) yalnız dini ibadət məkanı deyil, həm də İrəvan şəhərində yaşamış azərbaycanlı müsəlman icmasının mədəni və sosial həyatının əsas mərkəzlərindən biri olmuşdur. Bu abidə Səfəvi memarlıq ənənələrinin təsiri ilə formalaşaraq zəngin kaşı ornamentləri, günbəz quruluşu və həyət planı ilə seçilmişdir. Məscidin daxilində yerləşən kitabxana, dini tədris məkanları və ictimai yığıncaq sahələri onun çoxfunksiyalı mədəni institut kimi fəaliyyət göstərdiyini göstərir. Bu xüsusiyyətlər onu sadəcə dini obyekt deyil, həm də mədəni identikliyin simvolu kimi xarakterizə etməyə imkan verir [2, s. 60].



Eyni zamanda Zəngəzur mahalı və Göyçə mahalı ərazilərində yerləşən qədim qəbiristanlıqlar bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu məkanlarda rast gəlinən qoç və sandıq formalı qəbir daşları türk-islam mədəniyyətinin simvolik kodlarını özündə əks etdirir. Məsələn, qoç fiqurlu qəbir daşları igidlik, qəhrəmanlıq və sosial status göstəricisi kimi çıxış edərək mərhumun cəmiyyət içindəki mövqeyini simvolizə etmişdir. Sandıq formalı qəbir daşları isə daha çox ailəvi və sosial yaddaşın qorunmasına xidmət etmiş, üzərindəki həkk olunmuş ornamentlər və yazılar vasitəsilə etnik kimlik, dini inanclar və estetik dəyərlər nəsildən-nəslə ötürülmüşdür.



Qərbi Azərbaycanın maddi irsinin digər mühüm kulturoloji aspekti onun kollektiv yaddaş və tarixilik funksiyası ilə bağlıdır. Bu kontekstdə İrəvan şəhəri ətrafındakı qədim azərbaycanlı məhəllələrinin plan quruluşu, eləcə də Basarkeçər rayonu və Qarakilsə kimi yaşayış məntəqələrində mövcud olmuş ənənəvi kənd strukturları xüsusi diqqət çəkir. Bu ərazilərdə evlərin yerləşmə prinsipi, küçə şəbəkəsi və ictimai məkanların təşkili kollektiv həyat tərzinin mühüm göstəricisi olmuşdur.

Ənənəvi yaşayış evləri adətən daş, çiy kərpic və palçıq materiallarından inşa edilirdi. Bu evlərdə daxili planlaşdırma, mətbəx, qonaq otağı, anbar və təsərrüfat sahələrinin yerləşməsi ailə strukturunu və sosial münasibətləri əks etdirirdi. Həyətlərin geniş olması, su quyularına və bulaqlara yaxınlıq isə kənd təsərrüfatı və gündəlik həyatın təşkili baxımından mühüm rol oynayırdı. Məsələn, Göyçə ətrafı kəndlərdə evlərin gölə və su mənbələrinə uyğun yerləşdirilməsi həm təsərrüfat, həm də məişət ehtiyaclarının təmin olunmasına xidmət edirdi.



Bu baxımdan, Qərbi Azərbaycana aid maddi mədəniyyət nümunələrinin elmi dövriyyəyə daxil edilməsi, sənədləşdirilməsi və rəqəmsallaşdırılması mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, mədəni irsin qorunması yalnız dövlət siyasəti çərçivəsində deyil, həm də ictimai iştirakçılıq və mədəni yaddaşın yaşadılması vasitəsilə həyata keçirilməlidir. Bu prosesdə təhsil, maarifləndirmə və mədəni diplomatiya alətləri xüsusi rol oynayır. Belə yanaşma maddi irsin yalnız qorunmasını deyil, həm də onun davamlı şəkildə ötürülməsini təmin edir. Qərbi Azərbaycanın maddi irsinin öyrənilməsi kontekstində məkan və yaddaş münasibətləri xüsusi elmi əhəmiyyət kəsb edir. Maddi irs obyektləri müəyyən coğrafi arealda formalaşmış sosial yaddaşın "daşıyıcıları" kimi çıxış edir və bu baxımdan onların itirilməsi yalnız fiziki yox, həm də simvolik-mənəvi boşluq yaradır [3, s. 66]. Bu yanaşma irsə yalnız obyekt kimi deyil, həm də mədəni kommunikasiya vasitəsi kimi baxmağı zəruri edir. Bundan əlavə, qloballaşma şəraitində mədəni irsin identifikasiya və reprezentasiya problemləri də aktuallaşır. Müasir dövrdə müxtəlif mədəniyyətlər arasında qarşılıqlı təsirin intensivləşməsi bəzi hallarda lokal irs nümunələrinin ya assimilyasiyasına, ya da yanlış təqdimatına gətirib çıxara bilir [5, s. 20]. Bu isə Qərbi Azərbaycanın maddi irsinin orijinal kontekstinin qorunması və düzgün elmi əsaslarla təqdim olunmasını daha da vacib edir [4, s. 254].

Digər mühüm məsələ irsin hüquqi mühafizəsi ilə bağlıdır. Maddi mədəniyyət nümunələrinin beynəlxalq hüquq normaları çərçivəsində qorunması, onların qeydiyyata alınması və müvafiq siyahılara daxil edilməsi bu sahədə atılmalı olan əsas addımlardandır. Eyni zamanda, irs obyektlərinin monitorinqi və vəziyyətinin qiymətləndirilməsi üçün müasir texnologiyaların tətbiqi (məsələn, 3D modelləşdirmə, coğrafi informasiya sistemləri) elmi-praktik baxımdan böyük perspektivlər açır.

**Nəticə**

Qərbi Azərbaycanın maddi irsinin kulturoloji aspektdən araşdırılması bir neçə mühüm nəticəyə gətirib çıxarır. İlk növbədə, bu irs yalnız tarixi obyektlər toplusu kimi deyil, eyni zamanda regionun sosial, estetik və mənəvi təcrübəsinin daşıyıcısı kimi qiymətləndirilməlidir. Maddi irs nümunələrinin tədqiqi lokal icmaların həyat tərzini, etnik və mədəni xüsusiyyətlərini anlamağa imkan verir, onların kollektiv yaddaşının formalaşmasında rol oynayır. Bundan başqa, mədəni irsin qorunması məsələsi yalnız fiziki mühafizə ilə məhdudlaşmamalı, onun interpretasiyası, təqdimatı və gələcək nəsillərə ötürülməsi baxımından da sistemli yanaşma tələb edir. Bu prosesdə elmi araşdırmalar, rəqəmsal sənədləşdirmə və ictimai maarifləndirmə vasitələri əvəzsiz rol oynayır. Sonda qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanın maddi irsi həm milli, həm də regional mədəni kimliyin formalaşmasında strateji əhəmiyyətə malikdir. Onun kompleks şəkildə öyrənilməsi və qorunması yalnız tarixi və mədəni irsin davamlılığını təmin etmir, həm də regionun mədəni turizm potensialının inkişafına və beynəlxalq mədəni dialoqa töhfə verir.

**Ədəbiyyat siyahısı**

1. Adalat Valiyev (Ed.). (2025). Western Azerbaijan heritage: Reports and materials on the consequences of the systematic destruction of the tangible and cultural heritage of Azerbaijanis in Armenia (Vol. 1). Baku. https://www.preslib.az/en/news/4BRKPiI9SQqp
2. Aghamoghlanov, H. (2025). Qərbi Azərbaycandakı dini maddi-mənəvi mirasımız və onların araşdırılmasının əhəmiyyəti [Conference paper]. III Quba Symposium: Parks and Museums – Bridge from Past to Future. https://www.researchgate.net/publication/396509117_QRBI_AZRBYCANDAKI_DINI_MADDI-MNVI_MIRASIMIZ_V_ONLARIN_ARASDIRILMASININ_HMIYYTI
3. Huseynov, S., & Alakbarli, A. (2025). Heritage of Western Azerbaijan research series. Vol. 1: The systematic destruction of Azerbaijani cemeteries in Armenia: Consequences and international legal responsibility. SSRN. https://papers.ssrn.com/sol3/papers.cfm?summary_id=5481906
4. Karimov, E. (2021). Protection of cultural heritage in Azerbaijan. In International cultural heritage law: Special issue of Gdańsk International Studies (pp. 254–268). Gdańsk University Press. https://www.researchgate.net/publication/356191195_Protection_of_Cultural_Heritage_in_Azerbaijan
5. Nazarova, G. (2024). Cultural analysis of the current situation of the historical and cultural heritage of Western Azerbaijan. International Journal of Research and Scientific Innovation, 11(11), 1002–1007. https://rsisinternational.org/journals/ijrsi/articles/cultural-analysis-of-the-current-situation-of-the-historical-and-cultural-heritage-of-western-azerbaijan/

**Tahmina Aliyeva Rahman gizi**

**CULTUROLOGICAL ASPECTS OF THE TANGIBLE HERITAGE OF WESTERN AZERBAIJAN IN THE CONTEXT OF ISSUES OF CULTURAL HERITAGE PROTECTION**

**Summary**

This issue is of particular relevance within the framework of modern culturology and heritage studies. The material heritage of Western Azerbaijan (architectural monuments, residential buildings, religious buildings, cemeteries, material and household items, etc.) is not only a carrier of historical facts, but also acts as one of the main components of national identity, collective memory and cultural continuity. The culturological approach shows that the objects of material heritage have a symbolic meaning and reflect the system of values formed at certain socio-historical stages. The examples of material culture that existed on the territory of Western Azerbaijan embody the ethnocultural structure of the region, the system of social relations and the aesthetic worldview. In this regard, their study should not be limited only to archaeological or historical analysis, but should also be carried out in a complex manner using semiotic, anthropological and culturological methods. In modern times, the issues of protecting cultural heritage are facing global challenges. In this regard, the problem of protecting the material heritage of Western Azerbaijan also requires a multifaceted approach in political, legal and cultural aspects.

**Key words:** cultural heritage, material culture, culturological approach, heritage protection, national identity.

**Тахмина Алиева Рахман гызы**

## КУЛЬТУРОЛОГИЧЕСКИЕ АСПЕКТЫ МАТЕРИАЛЬНОГО НАСЛЕДИЯ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ ВОПРОСОВ ОХРАНЫ КУЛЬТУРНОГО НАСЛЕДИЯ

**Резюме**

Данная проблема имеет особое значение в рамках современной культурологии и изучения культурного наследия. Материальное наследие Западного Азербайджана (архитектурные памятники, жилые дома, религиозные сооружения, кладбища, материально-бытовые предметы и т. д.) является не только носителем исторических фактов, но и одним из главных компонентов национальной идентичности, коллективной памяти и культурной преемственности. Культурологический подход показывает, что объекты материального наследия имеют символическое значение и отражают систему ценностей, сформировавшуюся на определенных социально-исторических этапах. Примеры материальной культуры, существовавшие на территории Западного Азербайджана, воплощают этнокультурную структуру региона, систему социальных отношений и эстетическое мировоззрение. В этой связи их изучение не должно ограничиваться только археологическим или историческим анализом, а должно проводиться комплексно с использованием семиотических, антропологических и культурологических методов. В современную эпоху вопросы охраны культурного наследия сталкиваются с глобальными вызовами. В этом контексте проблема охраны материального наследия Западного Азербайджана также требует многогранного подхода в политическом, правовом и культурном аспектах.

**Ключевые слова:** культурное наследие, материальная культура, культурологический подход, охрана наследия, национальная идентичность.

**UOT 73/76**
**ORCID:0009-0005-3164-2246**

**Əli Həsənov Elşən oğlu**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**Magistrant**
**ahasanov203@gmail.com**

# AZƏRBAYCANDA MEMORİAL ABİDƏLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Bu tədqiqat çərçivəsində Azərbaycanda memorial abidələrin bədii xüsusiyyətlərinin tarixi inkişafını və estetik xüsusiyyətlərini araşdırmağa həsr olunmuşdur. Araşdırmanın məqsədi memorial abidələrin formalaşmasında istifadə olunan ornamentlər, kompozisiya prinsipləri və texniki icra üsullarının elmi təhlilidir. Tədqiqatda müqayisəli analiz və ədəbiyyat icmalı metodlarından istifadə edilmişdir. Nəticələr göstərir ki, Azərbaycanda memorial abidələr qədim dövrlərdən başlayaraq zəngin bədii ənənələr əsasında inkişaf etmişdir. Qobustan qayaüstü rəsmləri bu inkişafın ilkin mərhələsini təşkil edir, orta əsrlərdə isə həndəsi, nəbati və epiqrafik ornamentlərin geniş tətbiqi müşahidə olunur. Memorial abidələrdə oyma, yonma, tökmə və cızma kimi texniki üsullar geniş istifadə olunmuş, bu da onların estetik və semantik dəyərini artırmışdır. Tədqiqat həmçinin göstərir ki, memorial abidələr yalnız dekorativ funksiya daşımır, eyni zamanda tarixi və sosial məlumatların ötürülməsində mühüm rol oynaması vurğulanmışdır. Lakin bəzi abidələrin qorunması və bərpasında problemlər mövcuddur. Bu baxımdan, onların sistemli şəkildə tədqiqi və mühafizəsi xüsusi əhəmiyyət kəsb edir.

**Açar sözlər:** Memorial abidələr, bədii xüsusiyyətlər,mədəni irs, həndəsi ornamentlər,tarixi abidələr.

## Giriş

Bəşəriyyətin ilkin mədəniyyət ocaqlarından biri hesab edilən Azərbaycanda ümumdünya incəsənətinin ən gözəl memarlıq nümunələri, dekorativ və təsviri sənət əsərləri geniş yayılmışdır. Bu abidələrin üzərində həkk olunmuş bəzək elementləri ornamentlər, rəsmlər, rəng çalarları və digər dekorativ motivlər onlara xüsusi estetik möhtəşəmlik bəxş edir. Aparılan elmi tədqiqatlar göstərir ki, həmin bəzək elementləri müəyyən qanunauyğunluqlar əsasında formalaşdırılmış, eyni zamanda dövrün bədii-estetik dünyagörüşünün ifadə vasitəsi olmuşdur. Azərbaycanın memarları və ustaları yüksək sənətkarlıq xüsusiyyətlərinə malik, ornamental və təsviri naxışlarla zəngin olan nadir sənət nümunələri yaratmışlar. Abidələrin estetik dəyərini artıran bu bəzəklər əsasən həndəsi, nəbati və müxtəlif formalı yazı elementlərindən ibarət olmuşdur. Məlumdur ki, hələ qədim dövrlərdən ibtidai insanlar tərəfindən istifadə olunan ilk yazı və izah vasitələrindən biri sayılan həndəsi naxışlar daş, metal və taxta üzərində hazırlanmış abidələrdə geniş tətbiq edilmişdir.

Araşdırmalar göstərir ki, memarlıq abidələrinin səthlərində ən geniş istifadə olunan bəzək forması məhz həndəsi naxışlar olmuşdur. Kvadrat formalı naxışlara Qəzvin, Marağa, Həmədan, Naxçıvan, Şəki və Ordubad memarlığında rast gəlinir, altıbucaqlı və səkkizbucaqlı ornamentlər isə Bakı, Naxçıvan, Urmiya, Ərdəbil kimi şəhərlərin memarlıq abidələrində geniş yayılmışdır. Memarlıq dekorunda istifadə edilən yazı tipli naxışlar – kufi, süls, nəsx xətti və fiqurlu yazılar – İsfahan, Bərdə,

Təbriz, Mərənd və Bakı abidələrində müşahidə olunur. İslam dövrünün ilkin mərhələlərindən etibarən memarlıqda mürəkkəb formalı, uçan quş qanadını xatırladan “islimi” tipli bitkisəl naxış nümunələri geniş yayılmışdır. Bu həndəsi və nəbati ornamentlər çox vaxt müxtəlif yazı formaları ilə birlikdə kompozisiya şəklində təqdim olunurdu. Kompozisiya xüsusiyyətlərinə görə bitkisəl naxışlar üç əsas qrupa bölünürdü: lentvari, bağlı və torlu. Lentvari naxışlar müxtəlif bitki motivlərinin ardıcıl düzülməsi ilə formalaşaraq abidə səthində simmetrik zolaqlar şəklində yerləşdirilirdi və daha çox yelənlərdə tətbiq olunurdu. Bağlı bitkisəl naxışlar kvadrat, düzbucaqlı, dairəvi və oval formalı sahələrin daxilində, həmçinin medalyonlarda yerləşirdi. Torlu naxışlar isə əsasən köçürmə oxları boyunca yerləşərək bütün istiqamətlərdə hərəkət effekti yaradırdı. Sadə islimi ornamentlərə Naxçıvanda Möminə xatun türbəsinin tağ hissəsində və medalyonlarında, Şeyx Xorasan türbəsinin mehrabında, butalı islimi nümunələrinə Mərənd məscidinin mehrabında, qanadlı islimi ornamentlərinə isə Savə məscidində rast gəlinir. Azərbaycanda daş üzərində oyma və cızma üsulları ilə bəzək işləmə ənənəsi xüsusilə XI–XV əsr memarlığı üçün səciyyəvi olmuşdur. XI–XII əsrlərə aid abidələrdə daha çox həndəsi ornamentlərə və stilizə edilmiş nəbati formalara bənzər kufi yazılara üstünlük verilmişdir. XIII əsrdən etibarən isə nəbati ornamentlərin inkişafı müşahidə olunmuş, bu dövrdə gül və çiçək motivləri daha geniş yayılaraq dekorativ kompozisiyalarda üstün mövqe tutmağa başlamışdır.

**Ədəbiyyat icmalı**

İncəsənətin digər istiqamətlərində olduğu kimi, memorial abidələrə də düzgün və obyektiv qiymət yalnız onların kompleks, hərtərəfli tədqiqi və sistemli təhlili nəticəsində verilə bilər. Bu baxımdan dünya xalqlarının əksəriyyətində artıq elmi şəkildə araşdırılmış bu sahənin – XX əsrin ikinci yarısından başlayaraq bu günədək inkişaf edən Azərbaycan memorial heykəltəraşlığının – bədii xüsusiyyətlərinin geniş şəkildə öyrənilməsi mühüm əhəmiyyət kəsb edir [Azerbaijan.az, 2023]. Həmin abidələrin yapma, yonma, tökmə kimi müxtəlif texniki icra üsullarının, eləcə də onların dini-mənəvi və bədii-estetik xüsusiyyətlərinin müəyyənləşdirilməsi xüsusi aktuallıq daşıyır. Bu səbəbdən monumental heykəltəraşlığın ayrılmaz hissəsi olan memorial abidələrin elmi tədqiqata cəlb olunmasının vacibliyini qeyd etmək zəruridir.

Göstərilən dövr çərçivəsində memorial abidələrin kompozisiya quruluşu, məna və məzmun xüsusiyyətləri, epiqrafik elementləri, texniki icra formaları və digər parametrlər üzrə sistemli şəkildə araşdırılması mühüm nəticələrə gətirib çıxara bilər. Bu istiqamətdə aparılan tədqiqatlar abidələrin sənətşünaslıq baxımından təhlilinə, onların ümumi təsnifatının hazırlanmasına və gələcək mərhələdə qəbirüstü abidələrin inkişaf ənənələrinin müəyyən edilməsinə müsbət təsir göstərir. Şübhəsiz ki, XX–XXI əsrlərdə memorial heykəltəraşlığın davamlı inkişafında dövlətin bu sahəyə göstərdiyi xüsusi diqqət mühüm rol oynamışdır. Xüsusilə Azərbaycan SSR Nazirlər Sovetinin 27 avqust 1948-ci il tarixli 680 nömrəli sərəncamı ilə Bakının dağlıq hissəsində, Yasamal rayonu ərazisində Fəxri Xiyabanın salınması memorial abidələrin formalaşmasına və onların bədii-estetik prinsiplərinin inkişafına güclü təkan vermişdir [Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). 2021].

Azərbaycan memarlıq sənətinin çoxsaylı qiymətli nümunələri dünya memarlıq inciləri sırasında xüsusi yer tutmuşdur. Paytaxtımız Bakı şəhərində yerləşən qədim memarlıq abidələri isə xalqımızın zəngin tarixinin və mədəni irsinin mühüm rəmzlərinə çevrilmişdir. Milli sərvətimiz hesab olunan İçərişəhər hələ yüzillər əvvəl formalaşmış şəhərsalma sənətinin möhtəşəm nümunəsi kimi diqqəti cəlb edir. Bu ərazidə inşa edilmiş Qız qalası, qala divarları və Şirvanşahlar sarayı kompleksi dünya miqyasında şöhrət qazanmışdır. Orta əsr şəhər həyatının təcəssümü olan bu kompleksə daxil

olan məscidlər, karvansaralar, zorxanalar, bazar meydanları və digər tikililər mühəndislik və memarlıq baxımından yüksək kamillik nümayiş etdirir. Bakının müasir və özünəməxsus şəhər simasının formalaşmasına XIX əsrin ortalarından etibarən neftin sənaye üsulu ilə hasil olunması mühüm təsir göstərmişdir. Sürətli inkişaf nəticəsində böyük sənaye mərkəzinə çevrilən şəhərdə memarlıq və şəhərsalma sahəsi spesifik inkişaf yolu keçmişdir. Azərbaycan milli memarlıq məktəbinin nümayəndələri ilə yanaşı, Avropanın tanınmış memarlarının fəaliyyəti nəticəsində Qərb və Şərq memarlıq üslublarının sintezi əsasında unikal tikililər ərsəyə gətirilmişdir. Bu proses şəhərin yeni memarlıq simasının formalaşmasına, onu estetik baxımdan daha zəngin və cəlbedici etməyə imkan vermişdir. Sovet dövründə müxtəlif üslublarda tikilmiş inzibati binalar, teatrlar, muzeylər, kitabxanalar, konsert salonları, idman kompleksləri, yaşayış massivləri, parklar və bağlar XX əsr Bakısının ümumi panoramasını tamamlamışdır. Paytaxtın memarlıq görünüşünün inkişafında Zivərbəy Əhmədbəyov, Mikayıl Hüseynov və digər tanınmış memarların mühüm rolu olmuşdur [Bakı-Xəbər. 2024].

Müasir dövrdə Bakının ümumi görkəmi onun unikal relyefi ilə memarlıq incilərinin harmonik vəhdətini əks etdirir. Lakin uzun illər ərzində Azərbaycanın bir sıra tarixi-memarlıq abidələri lazımi səviyyədə qorunmamışdır. Baxımsızlıq səbəbindən bir çox tikililər yararsız vəziyyətə düşmüş, bəzilərinin bərpası isə peşəkar yanaşmanın olmaması nəticəsində onların tarixi görünüşünə və memarlıq ənənələrinə ciddi zərər vurmuşdur. Təmir və bərpa işləri zamanı ümumi prinsiplərə əməl olunmaması, binaların fasadlarına yerləşdirilən zövqsüz reklam lövhələri, çəkilən elektrik xətləri və digər kommunikasiya şəbəkələri, həmçinin razılaşdırılmadan aparılan dəyişikliklər tarixi abidələrin estetik görünüşünü əhəmiyyətli dərəcədə pozmuşdur [Seyfəddin, Ə. F., Mesrizadeh, A., 2019, s. 35]. Bir çox hallarda isə nadir gözəlliyə və böyük tarixi dəyərə malik olan bu abidələr ümumiyyətlə diqqətdən kənarda qalmış, lazımi qayğı göstərilməmişdir.

Daş insan həyatında ən qədim və təbii nemətlərdən biri hesab olunur. İnsanlar ilkin dövrlərdə qida əldə etmək, məişət alətləri hazırlamaq üçün məhz daşdan istifadə etmişlər. İlk yaşayış məkanları – mağaralar və s. – daşdan ibarət olmuşdur. İlk qadın bəzəkləri, ilk yazı vasitələri və yazı lövhələri də daş materialı əsasında hazırlanmışdır. Daş həmçinin insanın təsviri bacarıqlarının və estetik zövqünün formalaşmasında mühüm rol oynamışdır. Alimlər daş və qaya üzərində ilk bəzək və təsvir nümunələrini müəyyən etmişlər. Bəzədilmiş daş abidələrin tarixi isə olduqca qədim dövrlərə gedib çıxır. Azərbaycanda oyma, yonma və cızma üsulları ilə hazırlanmış ən qədim daş təsvir nümunələri Ordubad (Gəmiqaya), Abşeron (Mərdəkan və Şüvəlan kəndləri), həmçinin Xəzər dənizi sahilindən 60 km cənubda yerləşən Qobustan qayalarında aşkar edilmişdir. Qobustan qayaüstü rəsmləri mövzu zənginliyi, bədii xüsusiyyətləri və say çoxluğu baxımından daha diqqətəlayiqdir. Burada alimlər tərəfindən insan, heyvan, məişət alətləri və müxtəlif səhnələri əks etdirən 3000-dən artıq təsvir qeydə alınmışdır [Bayramov, R., 2013,s.68]. Tədqiqatlar göstərir ki, bu rəsmlər müxtəlif dövrlərdə icra olunduğuna görə ölçü, kompozisiya və texnika baxımından fərqlənir. Arxeoloqların fikrincə, bu təsvirlərin ən qədim nümunələri daş dövrünün sonlarına, tunc alət və silahların meydana gəldiyi dövrə aiddir. Həmin dövrün təsvirləri daha iri həcmli, sxematik və real proporsiyalardan uzaq olmuşdur [Azerbaijan.az. 2023].

Qayaüstü təsvirlərin əsas mövzusu ov səhnələridir. Xüsusilə vəhşi öküz, maral və keçi təsvirləri geniş yer tutur. Bu hal təbiidir, çünki ovçuluq qədim Azərbaycan ərazisində yaşayan ibtidai insanların həyatında əsas yaşayış mənbələrindən biri olmuşdur. Arxeoloji qazıntılar nəticəsində əldə edilən materiallar göstərir ki, orta əsrlərin başlanğıcında daş yalnız tikinti və məişət aləti kimi deyil,

eyni zamanda bəzək və zərgərlik elementlərinin hazırlanmasında da istifadə olunmuşdur. Bu dövrdə daş üzərində işlənən naxışlar texniki baxımdan zənginləşsə də, süjetli təsvirlərə az rast gəlinir. Orta əsrlərin əvvəlində daş üzərində daha çox bitki motivləri, həndəsi fiqurlar, quş və heyvan təsvirləri üstünlük təşkil etmişdir. Yerli ənənələrə əsaslanan nəbati ornamentlər geniş yayılmış, X–XI əsrlərdən etibarən isə İslamın qəbulundan sonra həndəsi ornamentlər daha geniş istifadə olunmağa başlanmışdır. Bu dövrə aid ən mühüm tapıntılardan biri 1948-ci ildə Mingəçevirdə arxeoloji qazıntılar zamanı aşkar edilən və elmi ədəbiyyatda “Alban kapiteli” kimi tanınan abidədir. V–VI əsrlərə aid edilən bu nümunə sonrakı dövrlərdə xalq sənətində rast gəlinən ornamental kompozisiyaların ilkin formalarını özündə əks etdirir.

Həmin abidə üzərində iki tovuz quşu simmetrik şəkildə yerləşdirilmiş, onların arasında isə yuxarıya doğru uzanan bitki motivi təsvir olunmuşdur. Quşların boynunda yerləşən halqalar alimlərin fikrincə müqəddəslik rəmzi olmuşdur. Qədim dövrlərdə tovuz quşu müqəddəs sayılır, od və günəş ilahəsinin simvolu kimi qəbul edilirdi. Bu motivə böyük Azərbaycan şairi Nizami Gəncəvi də “İskəndərnamə” əsərində toxunmuş, Bərdədə yerləşən Nüşabənin sarayında tovuz təsvirli ipək parçaların müqəddəs sayıldığını qeyd etmişdir. Kompozisiyada mərkəzdə yerləşən bitki motivi də xüsusi simvolik məna daşıyır. Araşdırmalar göstərir ki, qədim insanlar bitkini kainatın dörd ünsürünün – su, od, torpaq və havanın vəhdəti kimi qəbul etmişlər. Zaman keçdikcə bu inanc müxtəlif formalarda inkişaf etmiş, müqəddəs ağac anlayışı palıd, zeytun, əncir, sərv və digər bitkilərlə ifadə olunmuşdur. Bu səbəbdən bitki motivi dekorativ-tətbiqi sənətdə kompozisiyanın mərkəzi elementi kimi çıxış etmişdir. Onun ətrafında yerləşdirilən quş, heyvan və insan fiqurları isə adətən simmetrik və müxtəlif cinsləri təmsil edən formada təsvir olunmuşdur [Presidential Library of Azerbaijan. 2026]. Mənbələr göstərir ki, orta əsrlərin başlanğıcında xalq ustaları daş üzərində oyma və cızma ilə yanaşı, heykəltəraşlıq nümunələri də yaratmışlar. XV əsrdən etibarən memarlıq abidələrində canlı varlıqların təsvirinə az rast gəlinmiş, onların yerini daha çox nəbati ornamentlər tutmuşdur. Bu dəyişiklik həm bədii üslubun transformasiyası, həm də memarlıqda rəngli şirli plitələrin geniş tətbiqi ilə bağlı olmuşdur.

**Cədvəl 1. Azərbaycanda memorial abidələrinin bədii xüsusiyyətləri**

| Bədii xüsusiyyət | Təsviri | İstifadə forması | Simvolik və estetik əhəmiyyəti |
|---|---|---|---|
| Həndəsi ornamentlər | Kvadrat, səkkizbucaqlı, çoxbucaqlı naxışlar | Türbələrdə, qəbirüstü abidələrdə, divar səthlərində | Nizam, harmoniya və sonsuzluq ideyasını ifadə edir |
| Nəbati naxışlar (islimi) | Bitki motivləri, yarpaq və budaq kompozisiyaları | Türbə və məzar daşlarının dekorunda | Həyat, dirçəliş və təbiətlə bağlılıq simvoludur |
| Epiqrafik elementlər | Kufi, süls, nəsx xətti ilə yazılar | Abidələrin üzərində yazılar və kitabələr | Dini-mənəvi mesajların ötürülməsi və informativ funksiya |
| Fiqurlu təsvirlər | İnsan, heyvan və quş təsvirləri | Qəbirüstü abidələrdə və qədim daş nümunələrində | Sosial status, peşə və həyat tərzini göstərir |

| | | | |
|---|---|---|---|
| Texniki icra üsulları | Oyma, yonma, tökmə, cızma texnikaları | Daş və digər materiallar üzərində tətbiq olunur | Estetik görünüşü və sənətkarlıq səviyyəsini artırır |
| Kompozisiya quruluşu | Simmetrik və balanslı düzülüş | Ornamentlərin və təsvirlərin yerləşdirilməsi | Vizual harmoniya və estetik bütövlük yaradır |
| Material seçimi | Daş, mərmər və digər təbii materiallar | Abidələrin əsas konstruksiyası və dekoru | Davamlılıq və tarixilik xüsusiyyəti verir |
| Simvolika və məzmun | Dini, sosial və mədəni məna daşıyan elementlər | Bütün abidə strukturu boyunca | Tarixi yaddaşın və milli kimliyin ifadəsi |

**Mənbə:** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. 2026

Azərbaycanda memorial abidələrin bədii xüsusiyyətləri çoxşaxəli və zəngin sənət ənənələrinə əsaslanır. Bu abidələrdə ən geniş istifadə olunan elementlərdən biri həndəsi ornamentlərdir. Kvadrat, səkkizbucaqlı və digər çoxbucaqlı formalar memarlıq kompozisiyalarında nizam və harmoniya yaradır, eyni zamanda əbədilik ideyasını ifadə edir. Nəbati naxışlar, xüsusilə islimi motivləri isə həyatın davamlılığını, təbiətlə bağlılığı və dirçəlişi simvolizə edir. Bu ornamentlər memorial abidələrin dekorativ görünüşünü zənginləşdirərək onların estetik dəyərini artırır. Epiqrafik elementlər memorial abidələrin mühüm hissəsini təşkil edir. Kufi, süls və nəsx xətti ilə yazılmış kitabələr həm dini-mənəvi məzmun daşıyır, həm də abidələr haqqında tarixi məlumat verir. Bu yazılar abidələrin informativ funksiyasını gücləndirir.

**Nəticə**

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanda memorial abidələr yalnız memarlıq və heykəltəraşlıq nümunəsi kimi deyil, həm də xalqın tarixi yaddaşını, mənəvi dəyərlərini və estetik dünyagörüşünü əks etdirən mühüm mədəni irs komponentidir. Bu abidələrin bədii xüsusiyyətləri müxtəlif dövrlərdə formalaşmış sənət ənənələrinin, dini inancların və ictimai inkişafın təsiri altında inkişaf etmişdir. Xüsusilə həndəsi, nəbati və epiqrafik ornamentlərin geniş tətbiqi memorial abidələrin həm dekorativ, həm də semantik baxımdan zənginləşməsinə səbəb olmuşdur. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, memorial abidələrin formalaşmasında istifadə olunan texniki üsullar – oyma, yonma, tökmə və cızma onların estetik dəyərinin yüksəlməsində mühüm rol oynayır. Bu texnikalar vasitəsilə yaradılan kompozisiyalar yalnız vizual gözəllik yaratmaqla kifayətlənmir, eyni zamanda abidənin funksional və simvolik mahiyyətini də ifadə edir. Xüsusilə qəbirüstü abidələrdə istifadə olunan təsvir və ornamentlər dəfn olunan şəxsin sosial statusu, peşəsi və həyat tərzi haqqında məlumat verərək onların informativ funksiyasını ön plana çıxarır.

Daş üzərində işlənmiş qədim təsvirlərdən başlayaraq orta əsr və müasir dövr memorial abidələrinə qədər uzanan inkişaf xətti Azərbaycan sənətinin davamlılığını və zənginliyini nümayiş etdirir. Qobustan qayaüstü rəsmlərindən başlayaraq Möminə xatun türbəsi kimi monumental abidələrə qədər olan nümunələr bu sahənin yüksək sənətkarlıq səviyyəsini sübut edir. Bu baxımdan memorial abidələr yalnız estetik obyekt deyil, həm də tarixi və mədəni informasiyanın daşıyıcısı kimi çıxış edir. Lakin aparılan təhlillər göstərir ki, bəzi hallarda bu abidələrin qorunması və bərpası lazımi səviyyədə həyata keçirilmir. Bu isə onların bədii-estetik görünüşünə və tarixi dəyərinə mənfi təsir göstərir. Nəticə etibarilə, memorial abidələrin sistemli şəkildə tədqiqi, qorunması və gələcək nəsillərə ötürülməsi üçün elmi əsaslara söykənən yanaşmaların tətbiqi zəruri hesab olunur. Bu istiqamətdə dövlət dəstəyi və elmi araşdırmaların genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

### Ədəbiyyat siyahısı

1. Azerbaijan.az. (2023). The history, development and models of stone carvings. https://azerbaijan.az/en/related-information/53
2. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2021, September 24). Mədəniyyət Nazirliyi abidələrin, xatirə-memorial və memarlıq komplekslərinin ucaldılması və demontajı qaydasını açıqlayıb.
3. Bakı-Xəbər. (n.d.). https://www.baki-xeber.com/layihe/13432.html
4. Bayramov, R. (2013). XI–XVIII əsrlər Azərbaycan memarlıq abidələrinin tipoloji təsnifatı. Bakı: Şərq-Qərb.
5. Presidential Library of Azerbaijan. (n.d.). Baku: Historical and cultural overview. https://bakucity.preslib.az/en/page/FkpgwKV1bU
6. Seyfəddin, Ə. F., & Mesrizadeh, A. (2019). TARİXİ ABİDƏLƏRİN YENİDƏN CANLANDIRILMASI. *Scientific Works/Elmi Eserler*, (1).
7. TOMBS, A. C. O. N. NAXÇIVAN TÜRBƏLƏRİNİN BƏDİİ TƏRTİBATI. *SCIENTIFIC WORKS AZERBAIJAN*

**Ali Hasanov Elshan oghlu**

## ARTISTIC FEATURES OF MEMORIAL MONUMENTS IN AZERBAIJAN

### Summary

This study is devoted to the study of the historical development and aesthetic characteristics of the artistic features of memorial monuments in Azerbaijan. The purpose of the study is the scientific analysis of the ornaments, compositional principles and technical execution methods used in the formation of memorial monuments. The study used the methods of comparative analysis and literature review. The results show that memorial monuments in Azerbaijan have developed on the basis of rich artistic traditions since ancient times. Gobustan rock paintings constitute the initial stage of this development, and in the Middle Ages, geometric, floral and epigraphic ornaments were widely used. Technical methods such as carving, chiseling, casting and drawing were widely used in memorial monuments, which increased their aesthetic and semantic value. The study also shows that memorial monuments do not only carry a decorative function, but also play an important role in transmitting historical and social information. However, there are problems in the protection and restoration of some monuments. In this regard, their systematic study and preservation are of particular importance.

**Key words:** memorial monuments, artistic features, cultural heritage, geometric ornaments, historical monuments.

**Али Гасанов Эльшан оглу**

## ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ МЕМОРИАЛЬНЫХ ПАМЯТНИКОВ В АЗЕРБАЙДЖАНЕ

### Резюме

Данное исследование посвящено изучению исторического развития и эстетических характеристик художественных особенностей памятников в Азербайджане. Цель исследования – научный анализ орнаментов, композиционных принципов и методов технического исполнения, используемых при создании памятников. В исследовании

использованы методы сравнительного анализа и обзора литературы. Результаты показывают, что памятники в Азербайджане развивались на основе богатых художественных традиций с древних времен. Наскальные рисунки Гобустана составляют начальный этап этого развития, а в Средние века широко использовались геометрические, цветочные и эпиграфические орнаменты. В памятниках широко использовались такие методы, как резьба, высекание, литье и роспись, что повысило их эстетическую и смысловую ценность. Исследование также показывает, что памятники выполняют не только декоративную функцию, но и играют важную роль в передаче исторической и социальной информации. Однако существуют проблемы в защите и реставрации некоторых памятников. В этой связи их систематическое изучение и сохранение имеют особое значение.

**Ключевые слова:** Мемориальные памятники, художественные особенности, культурное наследие, геометрические орнаменты, исторические памятники.

UOT 31

**Eşqin Yusifov Ramil oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**esqinyusif2@gmail.com**

# MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏSİNDƏ RƏQƏMSAL YENİLİKLƏR VƏ İDARƏETMƏ MODELLƏRİ

**Xülasə**

Bu məruzə rəqəmsal transformasiya dövründə mədəniyyətin üzləşdiyi fundamental çağırışları, o cümlədən qlobal bərabərsizlik, etik dilemmalar və texniki riskləri araşdırır. Tədqiqatda Qlobal Şimal və Cənub arasındakı rəqəmsal uçurum, mədəniyyət xərcləri və internetə çıxışdakı kəskin fərqlər təhlil edilir. Süni intellektin bədii müəllifliyə, dil müxtəlifliyinə təsiri və “model süqutu” (model collapse) riski elmi şəkildə analiz olunur. Həmçininalqoritmik kurasiya və “filtr qabarcıqları”nın mədəni identikliyin aşınmasındakı rolu geniş işıqlandırılır. Rəqəmsal irsin texniki kövrəkliyi və qeyri-maddi mədəniyyətin rəqəmsallaşdırılması zamanı yaranan “emosional boşalma” (emotional drain) problemi xüsusi diqqət mərkəzindədir. Sənəddə rəqəmsal piratçılığın iqtisadi təsirləri qiymətləndirilir və Azərbaycanın bu çağırışlara cavab olaraq hazırladığı “e-Mədəniyyət” strategiyası (2024–2026) təqdim olunur.

**Açar sözlər:** Rəqəmsal transformasiya, mədəni irs, süni intellekt, rəqəmsal uçurum, müəllif hüquqları, alqoritmik kurasiya, e-Mədəniyyət.

## Giriş

Müasir sivilizasiya mədəniyyətin rəqəmsal transformasiyası ilə səciyyələnən fundamental bir keçid dövrünü yaşayır. Bu transformasiya təkcə texnoloji vasitələrin tətbiqi ilə məhdudlaşmır, həm də yaradıcılıq, istehlak, qorunma və mədəni identikliyin dərk edilməsi formalarını kökündən dəyişdirir. UNESCO-nun son qlobal hesabatları mədəniyyəti artıq “kənar bir sektor” deyil, Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) mərkəzi qüvvəsi kimi xarakterizə edir [UNESCO, 2025, s. 190]. Bununla belə, rəqəmsal mühit mədəni müxtəliflik üçün həm görünməmiş imkanlar, həm də ciddi ekzistensial təhdidlər yaradır. Texnoloji inkişafın sürəti mədəni idarəetmə mexanizmlərini geridə qoyur ki, bu da suverenlik, plüralizm və demokratik nəzarət üçün yeni risklər formalaşdırır. Rəqəmsal dünyada mədəniyyətin qarşılaşdığı ən fundamental problem rəqəmsal uçurumdur**.** Bu uçurum təkcə texniki infrastruktura çıxışla deyil, həm də mədəni məzmunun yaradılması və yayılması imkanlarındakı kəskin fərqlərlə ifadə olunur.

Regional Bərabərsizlik: Qlobal şimal və cənub arasındakı bərabərsizlik mədəniyyət sahəsindəki rəqəmsal iştirakın xarakterini müəyyən edən əsas amildir. Dünya əhalisinin təxminən 66.6%-i internetə çıxış əldə etsə də, Afrika regionlarında bu göstərici hələ də 50%-dən aşağıdır.

Maliyyə Disbalansı: Adambaşına düşən mədəniyyət xərcləri arasındakı fərq heyrətamizdir: Avropa və Şimali Amerikada bu göstərici orta hesabla 418.56 dollar olduğu halda, dünyanın qalan hissəsində bu məbləğ dəfələrlə aşağıdır. İqtisadi resursların çatışmazlığı rəqəmsal mühitdə mədəni təmsilçiliyin zəifləməsinə və yerli mədəni ifadələrin dominant mədəniyyətlərin kölgəsində itməsinə səbəb olur.

Gender Uçurumu: Qlobal miqyasda internet istifadəçiləri arasında kişilər qadınlardan təxminən 189 milyon nəfər çoxdur. Bu disbalans qadınların rəqəmsal mədəni həyatda iştirakını, yaradıcılığını və sahibkarlıq fəaliyyətini ciddi şəkildə məhdudlaşdırır [UNESCO, 2025, s. 602-605].

Süni intellekt (Sİ) texnologiyaları mədəniyyət sahəsində həm innovasiya dalğası yaradır, həm də sənətin mahiyyətinə dair fundamental suallar doğurur [Ritter, L. A., 2025, s. 27].

Alqoritmik Qərəzlilik və Linqvistik Hegemonluq:Sİ modellərinin təlimində istifadə olunan məlumatların qeyri-bərabər paylanması dominant dillərin hegemonluğunu gücləndirir. Dünyadakı dillərin yalnız 5%-dən az hissəsi böyük dil modellərinin (LLM) təlimində istifadə olunur ki, bu da dünya dillərinin 95%-nin rəqəmsal ekosistemdən faktiki olaraq kənarlaşdırılması riskini yaradır. “Model Süqutu” (Model Collapse): Sİ sistemlərinin insan tərəfindən yaradılan orijinal məlumatlar əvəzinə, özlərinin istehsal etdiyi sintetik məlumatlarla təlim keçməsi mədəni zənginliyin itməsinə və estetik hamarlanmaya səbəb olur.

İnsan Müəllifliyinin Üstünlüyü: Araşdırmalar göstərir ki, auditoriya hələ də insan tərəfindən yaradılan əsərlərə kəskin üstünlük verir. İnsan müəllifliyi olan əsərlər orta hesabla 5.72 balla, Sİ əsərləri isə 4.99 ballaqiymətləndirilir. İnsanlar sənətdə emosional dərk və yaradıcı niyyət axtarır ki, Sİ bunlardan fundamental olaraq məhrumdur.

Hüquqi Boşluqlar: Sİ şirkətlərinin mədəni məzmunu müəlliflərin razılığı olmadan “scraping”(avtomatik yığım) etməsi ciddi etik və hüquqi mübahisələr yaradır. Yalnız mədəniyyət peşəkarlarının 9%-i öz hüquqlarının rəqəmsal mühitdə adekvat qorunduğunu bildirir [UNESCO, 2025, s. 607-609].

Platformaların tövsiyə alqoritmləri müasir dövrün “mədəni qapıçıları”na çevrilmişdir. Filtr Qabarcıqları (Filter Bubbles) – Alqoritmlər istifadəçiyə yalnız onun əvvəlki maraqlarına uyğun məzmun təqdim edərək onu yeni və çətin mədəni təcrübələrdən məhrum edir. Bu, proqnozlaşdırılan tanışlıq mühiti yaradaraq sənətin provokativ və transformativ gücünü azaldır. Kontekstin İtirilməsi – Sənət əsərinin tarixi və sosial fonu alqoritmik təsnifatda itir. Sənət əsəri sadəcə “kontent”ə (məzmuna) çevrilir, onun transformativ gücü kommersiya effektivliyinə və “viral” potensiala qurban verilir. Mədəni Amneziya – Gənc auditoriyalar tarixi davamlılıqdan məhrum olan, yalnız anlıq trendlərə əsaslanan bir mədəniyyətlə qarşılaşırlar. Bu, TikTok kimi platformalarda eyni tipli trendlərin təkrarı ilə müşahidə olunan mədəni homogenləşməyə yol açır [Smith, M. Y., 2025, s. 795-800].

Mədəni irsin rəqəmsal qorunması “fəal idarəetmə”tələb edən mürəkkəb bir prosesdir. Texniki Kövrəklik –Rəqəmsal məlumatların fiziki obyektlər kimi əsrlərlə sağ qalma qabiliyyəti yoxdur. Fayl formatlarının sürətlə dəyişməsi, proqram təminatından asılılıq və bit səviyyəsində çürümə rəqəmsal irsin gələcəkdə oxuna bilməməsi riskini yaradır [Digital Preservation Coalition, 2026, s. 489]. Qeyri-maddi Mədəni İrs və “Emosional Boşalma” – Ənənəvi rəqslərin və ritualların rəqəmsallaşdırılması zamanı texnologiyanın dominantlığı emosional boşalma (emotional drain)problemini yaradır. Texniki vasitələr irsin vizual formasını qeyd edə bilsə də, onun “canlı” xarakterini və irsi daşıyan icmanın daxili enerjisini ötürməkdə aciz qalır [Wang, J., 2022, s. 151]. İrsi Daşıyanların Kənarlaşdırılması – İcma üzvlərinin texnoloji bacarıqlarının olmaması onların rəqəmsallaşma prosesində öz sözünü deyə bilməməsinə və irsin yalnız texniki komandaların subyektiv interpretasiyasına məruz qalmasına gətirib çıxarır. Rəqəmsal dünyada yaradıcı fəaliyyətin iqtisadi dayanıqlığı ciddi risk altındadır. Sİ tərəfindən yaradılan kütləvi kontent peşəkar sənətçilərin əməyini dəyərsizləşdirir. 2028-ci ilə qədər musiqi və audiovizual sahə mütəxəssisləri milyardlarla avro itki ilə

üzləşə bilərlər. Rəqəmsal piratçılıq qlobal yaradıcı iqtisadiyyata hər il 75-125 milyard dollar civarında zərər vurur. Piratçılıq təkcə maliyyə itkisi deyil, həm də yaradıcı risklərin götürülməməsinə və məzmunun keyfiyyətinin azalmasına səbəb olur [U.S. Chamber of Commerce, 2025, s. 784]. Araşdırmalar göstərir ki, iqtisadi çətinliklər zamanı istehlakçılar qanuni abunəlikləri qeyri-qanuni alternativlərlə əvəz etməyə meyil edirlər. Piratçılığın geniş yayılması onu cəmiyyətdə “normallaşdırır” ki, bu da intellektual mülkiyyət mədəniyyətini sarsıdır.

Yuxarıda təqdim olunan qlobal kontekst yalnız statistik göstəricilər və institusional yanaşmalarla deyil, həm də alimlərin nəzəri baxışları ilə də təsdiqlənir. Belə ki, rəqəmsal transformasiyanın mədəniyyətə təsirini izah edən müasir tədqiqatçılar bu prosesi həm struktur dəyişiklik, həm də simvolik məkanın yenidən qurulması kimi dəyərləndirirlər. Məsələn, Ritter (2025) süni intellektin mədəni istehsala müdaxiləsini sənətin ontoloji mahiyyətinə yönəlmiş çağırış kimi şərh edir, Smith (2025) isə alqoritmik platformaların mədəni seçimi necə istiqamətləndirdiyini vurğulayaraq “mədəni qapıçı” fenomenini önə çəkir. Bu nəzəri çərçivə göstərir ki, rəqəmsal mühitdə mədəniyyətin inkişafı təkcə texniki deyil, həm də dərin sosial və fəlsəfi ölçülərə malikdir.

Məhz bu nəzəri yanaşmalar fonunda milli səviyyədə həyata keçirilən siyasətlərin təhlili daha sistemli xarakter alır. Azərbaycan nümunəsi qlobal problemlərə lokal cavab mexanizmi kimi çıxış edir və bir sıra alimlərin irəli sürdüyü konsepsiyalarla uyğunluq təşkil edir.

**Azərbaycanın Rəqəmsal Mədəniyyət Strategiyası: Hədəflər və Çətinliklər**

Azərbaycan rəqəmsal transformasiyanı dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyən etmiş və bir sıra strateji addımlar atmışdır.

**1. “e-Mədəniyyət” (2024-2026): Mədəniyyət Nazirliyinin tərəfindən təsdiqlənmiş bu strategiya rəqəmsal inkişafın 10 prioritet istiqamət üzrə 100-dən çox tədbiri nəzərdə tutur. Strategiyanın əsas hədəfi məlumat əsaslı rəqəmsal idarəetmə modelinə keçməkdir [Hasanova, N., 2023, s. 121]. Bu yanaşma Ritter-in qeyd etdiyi kimi, mədəni istehsal və idarəetmənin texnoloji mühitə adaptasiyasını təmin etməklə yanaşı, rəqəmsal transformasiyanın yalnız texniki deyil, həm də institusional səviyyədə idarə olunmalı olduğunu təsdiqləyir.**

**2. İnfrastruktur layihələri: Regionlarda rəqəmsal uçurumu aradan qaldırmaq üçün genişzolaqlı internet şəbəkəsinin genişləndirilməsi (Aztelekom tərəfindən 280,000-dən çox ev təsərrüfatı) davam etdirilir [EBRD, 2025, s. 43]. Bu təşəbbüs, qlobal səviyyədə vurğulanan rəqəmsal bərabərsizlik probleminə cavab olaraq, Smith-in qeyd etdiyi “mədəni iştirakın struktur məhdudiyyətləri”nin aradan qaldırılmasına yönəlmiş praktiki addım kimi qiymətləndirilə bilər.**

**3. Kiçik və Orta Biznes (KOB): Yaradıcı sənaye subyektlərinin rəqəmsallaşması üçün həm maliyyə, həm də məsləhət dəstəyi təmin edilir. Bununla belə, KOB-lar arasında hələ də ciddi rəqəmsal bacarıqlar kəsiri mövcuddur. Bu vəziyyət əvvəlki dönəmlərdəki kimi, texnologiyanın mövcudluğunun avtomatik olaraq yaradıcılıq potensialına çevrilmədiyini göstərir. İnsan kapitalının və rəqəmsal savadlılığın inkişafı bu prosesdə həlledici rol oynayır.**

**4. Qanunvericilik və İdarəetmə: "Azərbaycan 2030" hədəflərinə uyğun olaraq, rəqəmsal iqtisadiyyatın qurulması üçün süni intellektin etik tətbiqi və kiber-təhlükəsizlik sahəsində islahatlar sürətləndirilir. Bu istiqamət Ritter-in süni intellektin etik və hüquqi aspektləri ilə**

**bağlı irəli sürdüyü narahatlıqlarla birbaşa səsləşir və Smith-in qeyd etdiyi alqoritmik gücün tənzimlənməsi zərurətinə cavab verir.**

**Bu nəticəyə gəlmək olarki, Azərbaycanın rəqəmsal mədəniyyət strategiyası yalnız praktik siyasət sənədi deyil, həm də müasir elmi-nəzəri yanaşmaların tətbiq olunduğu kompleks bir model kimi çıxış edir. Bu isə göstərir ki, rəqəmsal transformasiyanın uğurlu idarə olunması üçün həm qlobal təcrübə, həm də akademik düşüncə paralel şəkildə nəzərə alınmalıdır.**

**Strateji Tövsiyələr: Mədəniyyətin Gələcəyi Üçün Yol Xəritəsi**

Rəqəmsal dünyada mədəniyyətin dayanıqlığını təmin etmək üçün insan mərkəzli və etik yanaşma zəruridir. Rəqəmsal infrastruktur və savadlılıq proqramlarına investisiyalar artırılmalıdır ki, regional və gender bərabərsizliyi aradan qaldırılsın. Sİ təlimlərində müəllif hüququ olan kontentin istifadəsi üçün şəffaf, razılığa əsaslanan və kompensasiyalısistemlər yaradılmalı, platformaların mədəni kurasiya alqoritmləri üzərində demokratik nəzarət mexanizmləri qurulmalı, mədəni plüralizm təşviq edilməli, vətəndaşların alqoritmik qərəzləri, dezinformasiyanı və mədəni stereotipləri tanıması üçün savadlılıq proqramları təhsil kurikulumlarına inteqrasiya edilməli, rəqəmsallaşma zamanı icmaların iştirakı təmin edilməli, texnologiya yalnız vasitə kimi istifadə olunmalı, emosional və mənəvi dəyərlərin ötürülməsi əsas məqsəd olmalıdır.

Nəticə olaraq, mədəniyyətin rəqəmsal dünyadakı gələcəyi yalnız texnoloji tərəqqidən deyil, həm də bu prosesin nə dərəcədə etik və inklüziv idarə olunmasından asılıdır. UNESCO-nun təklif etdiyi kimi, mədəniyyətin müstəqil qlobal məqsəd kimi tanınması rəqəmsal çağırışların həlli üçün zəruri olan resursları və ambisiyanı təmin edə bilər.

## Ədəbiyyat siyahısı

1. UNESCO. (2025). *UNESCO Global Report on Cultural Policies, Culture: The Missing SDG*.. Creatives Unite. (2025, October 1). *Culture: the missing SDG, UNESCO's landmark report is out!* https://creativesunite.eu/article/culture-the-missing-sdg-unescos-landmark-report-is-out.

2. UNESCO Independent Expert Group. (2025, September). *Report of the Independent Expert Group on Artificial Intelligence and Culture*. https://www.unesco.org/sites/default/files/medias/fichiers/2025/09/CULTAI_Report%20of%20the%20Independent%20Expert%20Group%20on%20Artificial%20Intelligence%20and%20Culture%20%28final%20online%20version%29%201.pdf.

3. Ritter, L. A. (2025). Artificial Intelligence in the Creative Media: Aesthetic, Ethical, and Educational Dimensions. *International Journal of Research and Review*, 12(10), 176-187. https://doi.org/10.52403/ijrr.20251018.

4. Whitman, K. M., & Cox, J. (2025). The rising tide of piracy: The influence of social roles, risks and norms on illegal consumption. *Frontiers in Behavioral Economics*, 4, 1631329. https://doi.org/10.3389/frbhe.2025.1631329.

5. U.S. Chamber of Commerce. (2025, June 24). *Unlocking Creativity: The Socioeconomic Benefits of Copyright*. https://www.uschamber.com/intellectual-property/unlocking-creativity-copyright-report.

6. Wang, J. (2022). Barriers to sustainable development in digital communication of intangible cultural heritage: Emotion drain under the technology dominance. *SDMC 2022*..

7. Digital Preservation Coalition. (2026). *Preservation issues - Digital Preservation Handbook*. https://www.dpconline.org/handbook/digital-preservation/preservation-issues.

8. Chan, J., Choi, F., Saha, K., & Chandrasekharan, E. (2025, February 27). *Examining Algorithmic Curation on Social Media: An Empirical Audit of Reddit's r/popular Feed*. arXiv. https://arxiv.org/html/2502.20491v1. Smith, M. Y. (2025, November 4). When Algorithms Curate Culture, What Do We Lose? *Observer*. https://observer.com/2025/11/ai-pop-culture-curation/.

9. European Bank for Reconstruction and Development.(2025, January 29). *Azerbaijan Country Strategy 2025-2030*. https://www.ebrd.com/content/dam/ebrd_dxp/assets/pdfs/country-strategies/azerbaijan/azerbaijan-country-strategy-2025.pdf.

10. Hasanova, N. (2023, December 22). Azerbaijani Culture Ministry initiates digitalisation of culture. *AzerNews*. https://www.azernews.az/nation/219305.html.

11. OECD. (2022). *Promoting Enterprise Digitalisation in Azerbaijan*. OECD Publishing. https://doi.org/10.1787/6a612a2a-en.

12. Ali, J. (2024, July 31). Azerbaijan's Journey to Digital Excellence: A Comprehensive Analysis. *Caspian – Alpine Society*. https://caspian-alpine.org/azerbaijans-journey-to-digital-excellence-a-comprehensive-analysis/.

**Eshgin Yusifov Ramil oghlu**

## DIGITAL INNOVATIONS AND MANAGEMENT MODELS IN THE FIELD OF CULTURE AND ART

### Summary

This report examines the fundamental challenges facing culture in the digital age, focusing on global inequality, ethical dilemmas, and technical risks. It highlights the digital divide between the Global North and South, where cultural expenditure and internet access vary significantly. The research analyzes the impact of artificial intelligence on artistic authorship and linguistic diversity, warning of “model collapse” and algorithmic bias. Furthermore, it addresses the erosion of cultural identity through algorithmic curation and “filter bubbles” on social platforms. Special attention is given to the technical vulnerability of digital heritage and the “emotional drain” experienced during the digitization of intangible culture. The report also discusses the economic impact of piracy and highlights Azerbaijan’s “e-Culture”strategy (2024-2026) as a proactive response to these transformations.

**Key words:** digital transformation, cultural heritage, artificial intelligence, digital divide, copyright, algorithmic curation, e-Culture.

**Эшгин Юсифов Рамил оглу**

## ЦИФРОВЫЕ ИННОВАЦИИ И МОДЕЛИ УПРАВЛЕНИЯ В СФЕРЕ КУЛЬТУРЫ И ИСКУССТВА

### Резюме

В данном докладе рассматриваются фундаментальные проблемы, с которыми сталкивается культура в эпоху цифровой трансформации, с акцентом на глобальное неравенство, этические дилеммы и технические риски. В работе подчеркивается цифровой разрыв между Глобальным Севером и Югом, выражающийся в значительной разнице

культурных расходов и доступа к интернету. Анализируется влияние искусственного интеллекта на авторство и лингвистическое разнообразие, предупреждая о «коллапсе моделей» и алгоритмической предвзятости. Кроме того, рассматривается эрозия культурной идентичности из-за алгоритмической курации и «фильтров-пузырей». Особое внимание уделяется технической уязвимости цифрового наследия и «эмоциональному истощению» при оцифровке нематериальной культуры. В докладе также обсуждается экономическое влияние пиратства и освещается стратегия Азербайджана «э-Культура» (2024–2026) как проактивный ответ на эти глобальные трансформации.

**Ключевые слова:** цифровая трансформация, культурное наследие, искусственный интеллект, цифровой разрыв, авторское право, алгоритмическая курация, электронная культура.

UOT 31

**Günel Həsənova Mehman**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**gunellhasanova24@gmail.com**

## MƏDƏNİYYƏT VƏ RƏQƏMSAL İDARƏETMƏ: SOSİOLOJİ BAXIŞ

**Xülasə**

Bu məruzədə mədəniyyət və rəqəmsal idarəetmə arasındakı münasibətlər sosioloji baxımdan təhlil edilir. Rəqəmsal idarəetmənin mədəniyyət sahəsində tətbiq formaları – mədəni irsin rəqəmsallaşdırılması, onlayn xidmətlər, alqoritmik distribusiya – qısaca izah edilir. Məruzənin əsas hissəsində üç problem sahəsi araşdırılır: rəqəmsal bərabərsizlik, alqoritmik qərəzlər nəticəsində mədəni müxtəlifliyin azalması, həmçinin məlumat təhlükəsizliyi və nəzarət kapitalizmi. Azərbaycan kontekstində muğam, aşıq sənəti kimi ənənəvi mədəniyyət nümunələrinin qlobal platformalarda marginallaşması problemi qeyd edilir. Perspektiv bölməsində blokçeyn texnologiyasına əsaslanan paylanmış idarəetmə modelləri, mədəni müxtəlifliyi təşviq edən süni intellekt alqoritmləri və rəqəmsal-fiziki hibrid modellər təklif olunur. Məruzə rəqəmsal idarəetmənin gələcəyinin texnologiyadan çox cəmiyyətin nəzarət mexanizmlərindən asılı olduğu qənaəti ilə yekunlaşır.

**Açar sözlər.** Mədəniyyət, rəqəmsal idarəetmə, sosiologiya, alqoritmik qərəzlər, rəqəmsal bərabərsizlik.

Müasir cəmiyyətin inkişafında iki əsas amil – mədəniyyət və rəqəmsal texnologiyalar – getdikcə daha sıx qarşılıqlı əlaqəyə girir. Rəqəmsal idarəetmə (digital governance) anlayışı təkcə dövlət qurumlarının və korporasiyaların fəaliyyətində deyil, həm də mədəni proseslərin təşkili, yayılması və qiymətləndirilməsində əsas rol oynayır. Son iyirmi ildə informasiya-kommunikasiya texnologiyalarının inkişafı mədəniyyət sahəsində idarəetmə mexanizmlərini əsaslı şəkildə dəyişdirmişdir [Castells, M. 2010, s. 412]. Bu məruzənin məqsədi mədəniyyət və rəqəmsal idarəetmə arasındakı münasibətləri sosioloji prizmadan təhlil etmək, mövcud problemləri üzə çıxarmaq və gələcək perspektivləri müəyyənləşdirməkdir. Məruzədə ilk növbədə rəqəmsal idarəetmənin mədəniyyət sahəsində tətbiqinin nəzəri əsaslarına, sonra isə bu proseslərin sosial nəticələrinə diqqət yetiriləcək.

Rəqəmsal idarəetmə dedikdə informasiya-kommunikasiya texnologiyalarına əsaslanan qərarvermə, resursların bölüşdürülməsi və nəzarət mexanizmləri başa düşülür. Kastels (Castells, M. 2010, s. 412) qeyd edir ki, şəbəkə cəmiyyətində hakimiyyət və idarəetmə funksiyaları getdikcə rəqəmsal platformalar üzərindən həyata keçirilir. Rəqəmsal idarəetmə üç əsas komponentdən ibarətdir: məlumatlaşdırma (mədəni obyektlərin rəqəmsal formata çevrilməsi), alqoritmikləşmə (qərarların avtomatlaşdırılmış alqoritmlər vasitəsilə qəbul edilməsi) və platformalaşma (xidmətlərin vahid rəqəmsal platformalar üzərindən təşkili). Mədəniyyət sahəsində rəqəmsal idarəetmə özünü bir neçə istiqamətdə göstərir: mədəni irsin rəqəmsallaşdırılması (virtual muzeylər, rəqəmsal arxivlər), onlayn mədəni xidmətlər (tamaşaların translyasiyası, virtual sərgilər), dövlət mədəniyyət siyasətinin elektron platformalar vasitəsilə həyata keçirilməsi (qrant müsabiqələri, elektron reyestrlər), həmçinin mədəni məhsulların alqoritmik distribusiyası (Netflix, Spotify tövsiyə sistemləri). UNESCO-nun

"Rəqəmsal irs" konsepsiyasına əsasən, mədəni irsin rəqəmsal formada qorunması beynəlxalq səviyyədə prioritet hesab edilir [UNESCO 2015, s. 27]. Sosioloji baxımdan bu proses ikitərəflidir. Bir tərəfdən, rəqəmsal idarəetmə mədəniyyətə əlçatanlığı artırır. Digər tərəfdən, idarəetmənin alqoritmikləşməsi mədəni müxtəlifliyin azalmasına gətirib çıxara bilər. Benkler (Benkler, Y., 2016, s. 89) vurğulayır ki, rəqəmsal platformaların tövsiyə sistemləri istifadəçiləri ən populyar məzmuna yönləndirərək, "kütləvi mədəniyyət"in dominantlığını gücləndirir. Zuboff (Zuboff, S. 2019, s. 212) isə bu prosesi "nəzarət kapitalizmi" kontekstində təhlil edərək göstərir ki, mədəni zövqlər haqqında toplanan məlumatlar kommersiya məqsədləri üçün istifadə edilir.

Rəqəmsal idarəetmənin mədəniyyətə inteqrasiyası bir sıra ciddi problemlər doğurur. Bunları üç əsas qrupa ayırmaq olar:

Birinci problem – rəqəmsal bərabərsizlik (digital divide). Hər bir cəmiyyətin üzvlərinin rəqəmsal texnologiyalara çıxış imkanları eyni deyil. Noris [Norris, P. 2011, s. 156] tədqiqatlarında göstərir ki, rəqəmsal bərabərsizlik üç səviyyədə özünü göstərir: texnologiyalara fiziki çıxış, rəqəmsal bacarıqlar və rəqəmsal mühitdə əldə edilən nəticələr. Bu, xüsusilə yaşlı nəsil, kənd yerlərində yaşayanlar, əlillər və aşağı gəlirli ailələr üçün əngəl törədir. Mədəni xidmətlərin rəqəmsal platformalara köçürülməsi əhalinin müəyyən təbəqələrinin faktiki olaraq mədəni həyatdan kənarlaşmasına səbəb ola bilər. Avropa İttifaqı ölkələrində belə əhalinin təxminən 15-20%-i əsas mədəni xidmətlərə çıxışda çətinlik çəkir [Eurostat 2021, s. 34].

İkinci problem – alqoritmik qərəzlər (algorithmic bias) və mədəni müxtəlifliyin azalması. Alqoritmlər – xüsusilə də maşın öyrənməsinə əsaslananlar – onların təlim keçdiyi verilənlər dəstində mövcud olan qərəzləri avtomatik olaraq təkrar edir və gücləndirir. Noble (Noble, S. U. 2018, s. 105) göstərir ki, axtarış sistemləri və tövsiyə alqoritmləri çox vaxt irqi, cinsi və sinfi qərəzləri əks etdirir. Mədəniyyət sahəsində bu, dominant mədəniyyətin güclənməsinə, azlıq mədəniyyətlərinin kənarlaşmasına gətirib çıxarır. Həmçinin "filtr qabarcığı" (filter bubble) effekti istifadəçiləri onların artıq tanıdığı mədəni məzmun daxilində qapayır, yeni mədəni təcrübələrlə qarşılaşma ehtimalını azaldır [Pariser, E. 2011, s. 95].

Üçüncü problem – məlumat təhlükəsizliyi, şəxsi həyatın qorunması və nəzarət kapitalizmi. Mədəniyyət tədbirlərinə qatılan, onlayn muzeyləri ziyarət edən, rəqəmsal kitabxanalardan istifadə edən şəxslər haqqında böyük həcmdə məlumat toplanır. Bu məlumatlara şəxsi identifikasiya məlumatları, mədəni zövqlər və vərdişlər, məkan məlumatları və sosial şəbəkə əlaqələri daxildir. [Zuboff, S. 2019, s. 250]. Mədəni zövqlər insanın şəxsiyyətinin dərin təbəqələri ilə bağlı olduğundan, bu cür məlumatların ələ keçirilməsi ciddi diskriminasiya riskləri yaradır. Dördüncü problem – idarəetmənin şəffaflığı və hesabatlılıqdır. Alqoritmlər çox vaxt "qara qutu" xarakteri daşıyır; onların necə işlədiyi hətta onları hazırlayan mühəndislər üçün belə tam aydın olmaya bilər [Pasquale, F. 2015, s. 78]. Azərbaycan kontekstində bu problemlərə misal olaraq muğam, aşıq sənəti, milli rəqslər kimi ənənəvi mədəniyyət nümunələrinin qlobal rəqəmsal platformalarda "daha az tövsiyə" almasını göstərmək olar. Bunun səbəbi təkcə tələbin azlığı deyil, həm də alqoritmlərin "qərb mərkəzli" verilənlər dəsti üzərində təlim keçməsidir.

Yuxarıda sadalanan problemlərin mövcudluğuna baxmayaraq, rəqəmsal idarəetmə mədəniyyət sahəsi üçün yeni imkanlar da yaradır. Bu bölmədə üç perspektiv istiqamət müzakirə olunacaq.

Birinci perspektiv – blokçeyn (blockchain) və paylanmış idarəetmə modelləri. Blokçeyn – mərkəzləşdirilməmiş, şəffaf və dəyişdirilə bilməyən reyestr sistemi – rəqəmsal idarəetmənin ən radikal alternativlərindən biridir. Tapscott və Tapscott [Tapscott, D. & Tapscott, A. 2018, s. 267]

blokçeyni “etibar protokolu” adlandırır. Mədəniyyət sahəsində blokçeyn tətbiqlərinə misallar: mədəni irsin tokenləşdirilməsi (kolleksiyaların blokçeyn üzərində rəqəmsal tokenlər şəklində təqdim edilməsi), ağıllı müqavilələr (smart contracts) vasitəsilə avtomatlaşdırılmış qrant bölgüsü, həmçinin mədəniyyət təşkilatlarının DAO (Decentralized Autonomous Organization – mərkəzləşdirilməmiş muxtar təşkilat) kimi təşkili. DAO modelində muzey, teatr və ya mədəniyyət mərkəzinin idarə edilməsində bütün maraqlı tərəflər (sənətçilər, işçilər, tamaşaçılar, donorlar) şəffaf səsvermə yolu ilə iştirak edə bilər.

İkinci perspektiv – süni intellektin mədəni müxtəlifliyin qorunmasında istifadəsi. Alqoritmik qərəzlər problemi o demək deyil ki, süni intellekt (Sİ) mahiyyətcə mədəni müxtəlifliyə ziddir. Əksinə, Sİ mədəni müxtəlifliyin qorunması və təbliği üçün güclü alət ola bilər – lakin bunun üçün alqoritmlərin təlim keçdiyi verilənlər dəsti və optimallaşdırma meyarları diqqətlə seçilməlidir. Mədəni müxtəlifliyi təşviq edən tövsiyə alqoritmləri “oxşarlıq” əvəzinə “müxtəlifliyi” optimallaşdırır. Təbii dil emalı (NLP) texnologiyaları nadir dillərin rəqəmsal qorunması üçün perspektiv imkanlar yaradır. Həmçinin Sİ hər bir şəxs üçün fərdiləşdirilmiş mədəni təhsil proqramları yarada bilər. Məsələn, Azərbaycanın muğam irsini öyrənmək istəyən bir şəxs üçün Sİ onun artıq tanıdığı musiqi janrlarını təhlil edərək, muğamın ona ən yaxın olan məqamlarından başlayan fərdi təlim planı tərtib edə bilər.

Üçüncü perspektiv – hibrid modellər: rəqəmsal və fiziki məkanın sintezi. Bəlkə də ən real perspektiv tamamilə rəqəmsal idarəetməyə keçid deyil, rəqəmsal və ənənəvi (fiziki, şəxsiyyətlərarası) idarəetmə formalarını birləşdirən hibrid modellərdir. Hannerz [Hannerz, U. 2016, s. 198] bu cür modellərin üstünlüklərini qeyd edir: onlar rəqəmsal texnologiyaların səmərəliliyindən faydalanır, eyni zamanda fiziki məkanda birgə olmanın, canlı ünsiyyətin dəyərini qoruyur. Hibrid modelin nümunələri: muzeylərdə QR kodlar və artırılmış reallıq (AR) tətbiqləri (fiziki eksponatın yanında əlavə rəqəmsal məlumat); icma əsaslı rəqəmsal platformalar (platformanın idarə edilməsində yerli icma üzvləri iştirak edir); mədəniyyət pasportu (rəqəmsal giriş sistemi, lakin istifadəçilərin məlumatlarının toplanmasından imtina etmək hüququ ilə). Azərbaycan kontekstində də hibrid modellər mümkündür: İçərişəhər kimi tarixi məkanlarda artırılmış reallıq tətbiqləri, Heydər Əliyev Mərkəzində ziyarətçi axınının rəqəmsal monitorinqi əsasında iş saatlarının optimallaşdırılması.

Mədəniyyət və rəqəmsal idarəetmə arasındakı əlaqə müasir sosiologiyanın ən aktual mövzularından biridir. Bu məruzədə göstərildi ki, rəqəmsal idarəetmə mədəniyyətə əlçatanlığı artırsa da, rəqəmsal bərabərsizlik, alqoritmik qərəzlər, məlumat təhlükəsizliyi problemləri və idarəetmənin şəffafsızlığı kimi ciddi problemlər yaradır. Bununla yanaşı, blokçeyn texnologiyasına əsaslanan paylanmış idarəetmə modelləri, mədəni müxtəlifliyi təşviq edən süni intellekt alqoritmləri və rəqəmsal-fiziki hibrid modellər gələcək üçün ümidverici perspektivlər təqdim edir. Yekun olaraq vurğulamaq lazımdır ki, rəqəmsal idarəetmə texnologiyaları mahiyyətcə nə yaxşı, nə də pisdir – onların mədəniyyətə təsiri onlardan necə istifadə edildiyindən, hansı sosial dəyərlərə xidmət etdiyindən və kimin nəzarəti altında olduğundan asılıdır. Mədəniyyət sahəsində rəqəmsal idarəetmənin gələcəyi texnoloji imkanlardan çox, cəmiyyətin bu prosesə nə dərəcədə nəzarət edə biləcəyi, şəffaflığı, hesabatlılığı və mədəni müxtəlifliyi nə dərəcədə təmin edə biləcəyi ilə müəyyən olunacaq.

**Ədəbiyyat siyahısı**

1. Benkler Y. 2016. *The Wealth of Networks: How Social Production Transforms Markets and Freedom*. Yale University Press, New Haven. səh. 89.
2. Castells M. 2010. *The Rise of the Network Society*. 2nd ed. Wiley-Blackwell, Oxford. səh. 412.
3. Eurostat. 2021. *Digital Economy and Society Statistics – Cultural Participation*. Publications Office of the European Union, Luxembourg. səh. 34.
4. Hannerz U. 2016. *Transnational Connections: Culture, People, Places*. Routledge, London. səh. 198.
5. Noble S. U. 2018. *Algorithms of Oppression: How Search Engines Reinforce Racism*. New York University Press, New York. səh. 105.
6. Norris P. 2011. *Digital Divide: Civic Engagement, Information Poverty, and the Internet Worldwide*. Cambridge University Press, Cambridge. səh. 156.
7. Pariser E. 2011. *The Filter Bubble: How the New Personalized Web Is Changing What We Read and How We Think*. Penguin Press, New York. səh. 95.
8. Pasquale F. 2015. *The Black Box Society: The Secret Algorithms That Control Money and Information*. Harvard University Press, Cambridge, MA. səh. 78.
9. Tapscott D., Tapscott A. 2018. *Blockchain Revolution: How the Technology Behind Bitcoin and Other Cryptocurrencies Is Changing the World*. Portfolio/Penguin, New York. səh. 267.
10. UNESCO. 2015. *Concept of Digital Heritage. In: Memory of the World: General Guidelines to Safeguard Documentary Heritage*. UNESCO Publishing, Paris. səh. 27.
11. Zuboff S. 2019. *The Age of Surveillance Capitalism: The Fight for a Human Future at the New Frontier of Power*. Profile Books, London. səh. 212/250.

**Gunel Hasanova Mehman gizi**

**CULTURE AND DIGITAL MANAGEMENT: A SOCIOLOGICAL PERSPECTIVE**

**Summary**

This paper analyzes the relationship between culture and digital governance from a sociological perspective. The forms of application of digital governance in the cultural sphere—digitization of cultural heritage, online services, and algorithmic distribution—are briefly explained. The main part of the paper examines three key problem areas: digital inequality, the reduction of cultural diversity due to algorithmic bias, as well as data security and surveillance capitalism. In the context of Azerbaijan, the marginalization of traditional cultural elements such as mugham and ashig art on global platforms is highlighted. The perspective section proposes distributed governance models based on blockchain technology, artificial intelligence algorithms that promote cultural diversity, and digital-physical hybrid models. The paper concludes that the future of digital governance depends more on societal control mechanisms than on technology itself.

**Key words:** culture, digital governance, sociology, algorithmic bias, digital inequality.

**Гюнель Гасанова Мехман гызы**

## КУЛЬТУРА И ЦИФРОВОЕ УПРАВЛЕНИЕ: СОЦИОЛОГИЧЕСКИЙ ВЗГЛЯД

**Резюме**

В данной работе с социологической точки зрения анализируются отношения между культурой и цифровым управлением. Кратко рассматриваются формы применения цифрового управления в сфере культуры – оцифровка культурного наследия, онлайн-услуги и алгоритмическое распределение. В основной части исследования выделяются три проблемные области: цифровое неравенство, сокращение культурного разнообразия вследствие алгоритмических предвзятостей, а также вопросы безопасности данных и надзорного капитализма. В контексте Азербайджана отмечается проблема маргинализации традиционных культурных форм, таких как мугам и ашугское искусство, на глобальных платформах. В разделе перспектив предлагаются модели распределённого управления на основе блокчейн-технологий, алгоритмы искусственного интеллекта, способствующие культурному разнообразию, а также гибридные цифрово-физические модели. Работа завершается выводом о том, что будущее цифрового управления зависит больше от общественных механизмов контроля, чем от самих технологий.

**Ключевые слова.** культура, цифровое управление, социология, алгоритмическая предвзятость, цифровое неравенство.

**UOT 069**

**Aysun Quliyeva Ariz qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**quliyeva.aysun03@icloud.com**

## İŞĞALDAN SONRA QARABAĞDA MUZEY İNFRASTURUKTURUNUN FORMALAŞMASI: PROBLEM VƏ PERSPEKTİVLƏR

**Xülasə**

İşğaldan azad edilmiş Azərbaycanın bir bölgəsi olan Qarabağda mədəni irsin bərpası çox vacib və mürəkkəb bir vəzifədir. UNESCO ilə də daxil olmaqla beynəlxalq əməkdaşlıq bu səylərin sürətləndirilməsində mühüm rol oynayır. Dini yerləri bərpa etməklə, mədəniyyət mərkəzləri tikməklə və rəqəmsal texnologiyalardan istifadə etməklə Azərbaycan təkcə tarixi irsini canlandırmaqla deyil, həm də bu canlanma yolu ilə mədəni turizmi və regional sabitliyi artırmağa çalışır. Bu məqalədə işğaldan azad olunmuş Qarabağ iqtisadi rayonunda muzey infrastrukturunun yenidən formalaşdırılması məsələləri araşdırılır. Regionda mədəni irsin qorunması, dağıdılmış muzeylərin bərpası və yeni muzey konsepsiyalarının yaradılması əsas prioritetlərdən biri kimi çıxış edir. Tədqiqat zamanı mövcud problemlər və gələcək inkişaf istiqamətləri təhlil olunur.

**Açar sözlər:** Qarabağ, muzey infrastrukturu, mədəni irs, bərpa, turizm, innovativ muzeylər.

**Giriş.** Bu məqalədə Qarabağdakı mədəni yerlərin bərpasında tətbiq olunan çoxşaxəli strategiyalar araşdırılır, hökumət təşəbbüslərinin, beynəlxalq əməkdaşlığın, rəqəmsal texnologiyaların və mədəni diplomatiyanın rolunu vurğulayır. Ənənəvi bərpa metodları və müasir innovasiyaların birləşməsi ilə Qarabağ dözümlülük, mədəni dirçəliş və irsin qorunmasında beynəlxalq əməkdaşlığın simvoluna çevrilmək yolundadır. Mədəni irsə vurulan zərər əsasən 1992–1993-cü illərdə intensiv xarakter almışdır. Xüsusilə 1993-cü il bu baxımdan ən kritik mərhələ hesab olunur. Həmin dövrdə Ağdam Tarix-Diyarşünaslıq Muzeyi, Füzuli Tarix-Diyarşünaslıq Muzeyi, Zəngilan Tarix-Diyarşünaslıq Muzeyi, Qubadlı Tarix-Diyarşünaslıq Muzeyi və Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi kimi bir sıra mühüm mədəniyyət ocaqları tamamilə dağıdılmışdır. Bu fakt göstərir ki, dağıntılar sistemli xarakter daşımış və qısa zaman ərzində geniş əraziləri əhatə etmişdir [Qarabağ münaqişəsi ilə bağlı açıq statistik və tarixi məlumatlar, 1992–1993].

**Əsas hissə.** İşğaldan azad edilmiş Qarabağ bölgəsi həmişə Azərbaycan mədəniyyətinin və tarixinin ayrılmaz hissəsi olub. İşğal illərində bu ərazilərdəki mədəni abidələr, məscidlər, qəbiristanlıqlar və digər dəyərli irs obyektləri dağıdılıb. Qarabağda mədəniyyətin bərpasında əsas çətinliklərdən biri bölgədə geniş mina sahələrinin olmasıdır. Bu təhlükə həm yerli əhalinin geri qayıtması prosesinə, həm də bərpa işlərinə mane olur. Mina təmizləmə işlərinin sürətləndirilməsi çox vacibdir, çünki bu prosesdə gecikmələr mədəni irsin bərpasına mənfi təsir göstərir. ANAMA-nın məlumatına görə, 2024-cü ildə Qarabağda və Şərqi Zəngəzurda 62.000 hektardan çox torpaq minalardan təmizlənib, 6500-dən çox mina zərərsizləşdirilib [Ötən ay 5 min hektardan çox ərazi minalardan təmizlənib | İqtisadiyyat.az].

**Diaqram 1. Qarabağda muzeylərin dağıdılma və bərpa vəziyyəti**




*Mənbə: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. (2022). Qarabağda mədəni irsin vəziyyəti.*

Qlobal təcrübə göstərir ki, müharibə və işğal nəticəsində məhv edilmiş mədəni irsin bərpası hərtərəfli yanaşma tələb edir. Misal üçün, İkinci Dünya Müharibəsindən sonra bir çox Avropa şəhərlərinin mədəni irsinə ciddi ziyan dəysə də, sistemli səylər nəticəsində bu şəhərlərdə mədəni mühitin bərpası təmin edilib. Buna bariz nümunə Polşanın Varşava şəhəridir. Müharibə zamanı şəhərin təxminən 85%-i dağıdılıb, lakin əhalinin və beynəlxalq təşkilatların dəstəyi ilə Varşava qədim memarlığına əsaslanaraq yenidən qurulub [Falk, J., Dierking, L. (2016)].

Bu təcrübələrdən çıxış edərək demək olar ki, Qarabağda mədəni mühitin bərpası üçün beynəlxalq təcrübələrə əsaslanan strategiyalar da hazırlanmalıdır.

Şuşa şəhərində Mədəniyyət Nazirliyinin və digər qurumların təşəbbüsləri ilə artıq bir neçə mühüm bərpa layihəsi həyata keçirilib. Məsələn, Yuxarı Gövhər Ağa məscidi və Mir Möhsün Nəvvabın evi kimi qədim memarlıq nümunələri bərpa edilib. Bu abidələrin bərpası UNESCO və digər beynəlxalq təşkilatların dəstəyi ilə sürətləndirilir. Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığı mədəni irsin daha effektiv qorunmasına imkan verir.

Şuşanın 2021-ci ildə Azərbaycanın “Mədəniyyət Paytaxtı” elan edilməsi bu istiqamətdə mühüm addım idi. Şuşada keçirilən “Xaribülbül” festivalı və digər mədəni tədbirlər onun bölgədə mədəniyyət və incəsənət mərkəzi kimi rolunu gücləndirib. 2022-ci ildə rəsmi olaraq bərpa edilən Xari Bülbül Musiqi Festivalı o vaxtdan bəri hər il may ayında Şuşada keçirilir və bu da şəhərin Azərbaycanın mədəniyyət paytaxtı kimi imicini möhkəmləndirir [https://en.wikipedia.org/wiki/Khari_Bulbul_Music_Festival].

Qarabağda mədəni mühitin bərpası çoxşaxəli yanaşma tələb edir. Birincisi, tarixi abidələrin inventarlaşdırılması və bərpa planlarının hazırlanması vacibdir. İşğal zamanı dağıdılmış və ya zədələnmiş mədəni irs obyektlərinin vəziyyətini aydın şəkildə göstərən hərtərəfli siyahısı tərtib edilməlidir. Bundan əlavə, bu abidələrin tarixi əhəmiyyətinin qiymətləndirilməsi və onların bərpası üçün tələb olunan texniki imkanların müəyyən edilməsi vacib amillərdir [Balmond, C. (2008)].

Qarabağda dağıdılmış dini abidələrin və qəbiristanlıqların bərpası da mədəni dirçəlişin vacib elementidir. Bərpa səyləri tarixi mahiyyətini qorumalı, orijinal strukturları mümkün qədər qorumalıdır. Şuşadakı Yuxarı Gövhər Ağa məscidinin bərpası bunun uğurlu nümunəsidir. UNESCO tərəfindən dəstəklənən bu layihə dini və tarixi dəyərlərin qorunmasına və mədəniyyətlərarası dialoqun təşviqinə töhfə verir [UNESCO, (2021)].

Qarabağda mədəni mühitin inkişafında müasir texnologiyaların tətbiqi mədəni turizmin inkişafında həlledici rol oynayacaq. Virtual turizm layihələri, interaktiv mədəni proqramlar və rəqəmsal sərgilər Qarabağ bölgəsinə marağın artırılması üçün təsirli vasitələrdir. Müasir texnologiyalar vasitəsilə Qarabağda bərpa edilmiş abidələr və muzeylər dünyaya təqdim edilə bilər.

Digər mühüm problem eksponatların itirilməsi və talan edilməsidir. İşğal dövründə Qarabağda yerləşən muzeylərin fondlarında saxlanılan minlərlə qiymətli eksponatın talan edilməsi və ya qanunsuz dövriyyəyə çıxarılması faktları qeydə alınmışdır. Bu isə yalnız maddi deyil, həm də elmi və tarixi baxımdan böyük itki hesab olunur. Muzeyşünaslıq üzrə müasir yanaşmalara görə, eksponatların itirilməsi milli irsin bütövlüyünə ciddi zərbə vurur və onların bərpası uzunmüddətli araşdırma və beynəlxalq əməkdaşlıq tələb edir [ICOM, (2019), s. 6].

Qarabağda mədəni mühitin bərpası üçün strateji inkişaf planları vacibdir. Bu planlar qısa və uzunmüddətli məqsədləri əhatə etməli, konkret hərəkətlər və fəaliyyətlər üçün ətraflı təlimatlar verməlidir. Hökumət tərəfindən təsdiq edilmiş Qarabağın bərpa planları çərçivəsində mədəni irsin qorunması və mədəni infrastrukturun inkişafı ilə bağlı fəaliyyətlərin əlaqələndirilməsi çox vacibdir.

İnkişaf planlarının effektivliyini təmin etmək üçün davamlı monitorinq və qiymətləndirmə sistemi yaradılmalıdır. Bu sistem hər bir layihənin gedişatını izləyəcək və ortaya çıxan problemləri vaxtında həll edəcək. Verilənlər bazaları və Coğrafi İnformasiya Sistemləri (CİS) kimi rəqəmsal texnologiyalardan istifadə monitorinq sisteminin səmərəliliyini artıra bilər. Bu texnologiyalar bərpa prosesinin yaxından izlənməsinə və nəticələrin daha dəqiq qiymətləndirilməsinə imkan verəcəkdir. Bərpa prosesinin maliyyələşdirilməsi üçün dövlət-özəl tərəfdaşlığı (DÖT) də vacibdir. Bu cür tərəfdaşlıqlar mədəni bərpada dövlət-özəl tərəfdaşlıq modellərinin tətbiqinə imkan verir. Məsələn, yerli şirkətlər dövlət dəstəyi ilə yanaşı, Şuşada keçirilən mədəni tədbirlərə maliyyə dəstəyi də göstəriblər. Bu cür modellərin tətbiqi bərpa prosesini daha sürətli və daha davamlı edə bilər.

**Cədvəl 1. Qarabağda muzey infrastrukturunun vəziyyəti (işğaldan əvvəl və sonra)**

| **Göstəricilər** | **İşğaldan əvvəl (təxmini)** | **İşğal dövründə vəziyyət** | **İşğaldan sonra (bərpa mərhələsi)** |
|---|---|---|---|
| Muzeylərin ümumi sayı | 30-an çox | Demək olar fəaliyyət göstərmir | Bərpa və yenidən qurulur |
| Muzey binalarının vəziyyəti | Normal fəaliyyət | 80–90%-i dağıdılıb | Tədricən bərpa edilir |
| Eksponatların sayı | Minlərlə eksponat | Əhəmiyyətli hissəsi talan olunub | Qismən bərpa və geri qaytarılma prosesi |
| Kadr təminatı | Kifayət qədər | Demək olar yoxdur | Yeni kadr hazırlığı aparılır |
| Ziyarətçi sayı (illik) | Minlərlə turist | 0 | Artım potensialı yüksək |
| İnfrastruktur səviyyəsi | Orta | Tam dağıdılmış | Yenidən qurulur |
| Dövlət investisiyası | Məhdud | Yoxdur | Yüksək səviyyədə artırılıb |

***Mənbə: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi (2022).***
***İşğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası üzrə hesabat.***

Qarabağ regionunda muzey infrastrukturunun vəziyyəti işğaldan əvvəlki dövrlə müqayisədə işğal illərində kəskin şəkildə pisləşmişdir. İşğaldan əvvəl bölgədə 30-dan artıq muzey fəaliyyət göstərmiş və bu müəssisələr regionun mədəni həyatında mühüm rol oynamışdır. Lakin işğal dövründə bu muzeylərin demək olar ki, hamısı fəaliyyətini dayandırmış, onların böyük əksəriyyəti fiziki olaraq məhv edilmişdir [Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, (2022)].

**Nəticə**

Qarabağda muzey infrastrukturunun yenidən qurulması geniş inkişaf perspektivləri ilə müşayiət olunur. Müasir muzey konsepsiyalarının tətbiqi bu baxımdan xüsusi önəm daşıyır. Rəqəmsal texnologiyalar, interaktiv ekspozisiyalar və multimedia vasitələrinin tətbiqi ilə yaradılan muzeylər ziyarətçilər üçün daha cəlbedici və maarifləndirici mühit formalaşdırır. Müasir muzeyşünaslıqda bu yanaşma “təcrübə əsaslı muzey modeli” kimi xarakterizə olunur və geniş tətbiq olunur.

“Ağıllı şəhər” konsepsiyası ilə inteqrasiya müasir yanaşmalardan biri kimi xüsusi diqqətə layiqdir. Qarabağda həyata keçirilən “ağıllı şəhər” və “ağıllı kənd” layihələri çərçivəsində muzeylərin də rəqəmsal sistemlərə inteqrasiyası, virtual turların təşkili və innovativ idarəetmə mexanizmlərinin tətbiqi mümkün olur. Bu isə regionda müasir və dayanıqlı muzey şəbəkəsinin formalaşmasına zəmin yaradır. Beləliklə, Qarabağda muzey infrastrukturunun yenidən qurulması prosesi mövcud çətinliklərə baxmayaraq, düzgün strategiya və innovativ yanaşmalar tətbiq edildiyi təqdirdə regionun mədəni və turizm potensialının tam şəkildə reallaşdırılmasına imkan verəcəkdir.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi (2022). İşğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası üzrə hesabat. Bakı
2. Balmond, C. Architecture and Historical Memory / C.Balmond. University of Warsaw, 2008, -p. 180
3. Falk, J. H., & Dierking, L. D. (2016). The Museum Experience Revisited. Routledge
4. ICOM (2019). Museum standards and guidelines. Paris, s. 6
5. Qarabağ münaqişəsi ilə bağlı açıq statistik və tarixi məlumatlar (1992–1993 işğal xronologiyası)
6. UNESCO (2021). Damage and destruction to cultural heritage in conflict areas. Paris: UNESCO Publishing
7. Ötən ay 5 min hektardan çox ərazi minalardan təmizlənib. İqtisadiyyat.az. https://iqtisadiyyat.az/az/post/ot-n-ay-5-min-hektardan-cox-razi-minalardan-t-mizl-nib-169007
8. Khari Bulbul Music Festival (Xarıbülbül Musiqi Festivalı). https://en.wikipedia.org/wiki/Khari_Bulbul_Music_Festival

**Aysun Guliyeva Ariz gizi**

**FORMATION OF MUSEUM INFRASTRUCTURE IN KARABAKH AFTER THE OCCUPATION: PROBLEMS AND PROSPECTS**

**Summary**

The restoration of cultural heritage in Karabakh, a region of Azerbaijan liberated from occupation, is a very important and complex task. International cooperation, including with

UNESCO, plays an important role in accelerating these efforts. By restoring religious sites, building cultural centers, and using digital technologies, Azerbaijan is not only trying to revive its historical heritage, but also to increase cultural tourism and regional stability through this revival. This article examines the issues of reshaping museum infrastructure in the Karabakh economic region liberated from occupation. The preservation of cultural heritage in the region, the restoration of destroyed museums, and the creation of new museum concepts are among the main priorities. The research analyzes current problems and future development directions.

**Key words:** Karabakh, museum infrastructure, cultural heritage, restoration, tourism, innovative museums.

**Айсун Гулиева Ариз, магистрант**

**ФОРМИРОВАНИЕ МУЗЕЙНОЙ ИНФРАСТРУКТУРЫ В КАРАБАХЕ ПОСЛЕ ОККУПАЦИИ: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ**

**Резюме**

Восстановление культурного наследия в Карабахском регионе Азербайджана, освобожденном от оккупации, является очень важной и сложной задачей. Международное сотрудничество, в том числе с ЮНЕСКО, играет важную роль в ускорении этих усилий. Восстанавливая религиозные объекты, строя культурные центры и используя цифровые технологии, Азербайджан стремится не только возродить свое историческое наследие, но и увеличить культурный туризм и региональную стабильность посредством этого возрождения. В данной статье рассматриваются вопросы перестройки музейной инфраструктуры в освобожденном от оккупации Карабахском экономическом регионе. Сохранение культурного наследия в регионе, восстановление разрушенных музеев и создание новых музейных концепций входят в число главных приоритетов. В исследовании анализируются текущие проблемы и будущие направления развития.

**Ключевые слова:** Карабах, музейная инфраструктура, культурное наследие, реставрация, туризм, инновационные музеи

UOT 008

**Lamiyə Tağıyeva Vüsal qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**tagiyevalamiy2@gmail.com**

# TÜRK XALQLARININ ORTAQ MƏDƏNİ İRSİNİN RƏQƏMSALLAŞDIRILMASININ ÜSTÜNLÜKLƏRİ VƏ PROBLEMLƏRİ

**Xülasə**

XXI əsr texnologiya dövrü və qloballaşmanın daha güclənməsi ilə xarakterizə olunur.Rəqəmsallaşmanın sürətli inkişafı mədəniyyət sahəsində özünü göstərməkdədir. Bu mövzuda milli mədəniyyətin qorunması, onların günümüzə uyğunlaşdırılması, rəqəmsallaşdırılması kimi məsələlər aktuallıq qazanmışdır. Türk dünyası ortaq mədəni dəyərlərə malikdir. Bu dəyərləri qorumaq əsrlər boyu nəsildən-nəslə ötürülür və sosial yaddaş, mədəni davamlılığı təmin edir. Rəqəmsallaşma dövründə bu proseslər internet, rəqəmsal vasitələrlə aparılır. Bu dəyişikliklər mədəniyyəti geniş kütləyə çatdırsa da, onun əsilliyinin mühafizəsi baxımından müəyyən problemlər yaratmaqdadır. Türk dünyasının ortaq mədəni dəyərlərdən biri də Novruz bayramıdır. Bu mədəniyyət nümunəsi rəqəmsal mühitdə geniş təbliğ olunur. Bu nə qədər geniş auditoriyaya çatsa da, mədəniyyətin vizual tərəflərini ortaya qoyaraq onun sadələşməsinə gətirib çıxarıb. Qloballaşmanın sürətlə inkişafı mədəniyyətlərin qarşılıqlı təsirini, sintezini artırsa da, bəzən onların öz milli xüsusiyyətlərinin itməsinə səbəb olur. Mədəniyyətin rəqəmsallaşması nə qədər imkan kimi qiymətləndirilsədə bir o qədər riskli prosesdir.

Bu məqalənin əsas məqsədi türk dünyasının ortaq mədəni dəyərlərini rəqəmsal formada qorunması və qloballaşma dövründə transformasiya problemlərini təhlil etməkdir. Bu məqalədə türk dünyasının ortaq mədəni dəyərləri rəqəmsal formada və nümunələr əsasında araşdırılacaq. Bununla bərabər, rəqəmsallaşmanın bu ortaq mədəni dəyərlərə müsbət və mənfi tərəfləri təhlil olunacaq. Türk dünyasının mədəni irsininin qorunması və ortaya çıxan problemlər üçün müəyyən istiqamətlər müəyyənləşdiriləcək.

**Açar sözlər:** türk dünyası, mədəniyyət, mədəni dəyər, rəqəmsallaşma, qloballaşma, sosial yaddaş

## Giriş

Türk xalqları geniş coğrafi ərazini əhatə edir. Bu xalqların ortaq mədəni elementlərinə bayramlar xüsusilə Novruz, folklor nümunələri, dil, musiqi, toy, yas mərasimləri və s. aiddir. Rəqəmsallaşdırma dövrü bu mədəniyyətlərin qorunmasında yeni yollar açır. Bununla da rəqəmsallaşdırma göstərir ki, mədəniyyət yanlız məkanla məhdudlaşdırılmamalı, onu müasir texnologiyalarla da yaymaq mümkündür. Buna nümunə olaraq, Türk xalaqlarının kitab abidələrinin rəqəmsal formasını göstərmək olar. “Türk xalqlarının kitab abidələri. Elektron kitabxana” – Prezident tərəfindən yaradılmış www.turklib.az portalına məxsus yeni resusrdur [12]. Bu layihənin əsas məqsədi türk dünyasının ortaq mədəni dəyərlərini yaşatmaq, tarixi kökləri dərindən öyrənməkdir. Bu platforma vasitəsilə çətin tapılan əsərlər artıq daha əlçatan forma almaqdadır. Burada türk xalqlarının

tarixi, ədəbiyyatı və mədəniyyəti öz əksini tapır. “Ümumtürk yazılı abidələri” bölməsində “Bilqamış” dastanı, “Oğuznamə”, “Kitabi Dədə Qorqud” və s. kitabları yer alır ki, bunlar türk xalqlarının tarixini, mədəniyyətini və qohumluq bağlarını yaxşı başa düşməyə imkan verir [Kaya, S, 2023, s.5]. Rəqəmsallaşmanın bu sahədə mənfi və müsbət tərəfləri özünü göstərməkdədir. Müsbət tərəflərinə gəldikdə, türk xalqlarının mədəniyyəti, ədəbiyyatı dünyanın müxtəlif yerlərinə rahat şəkildə çatır. Bu da türk xalq mədəniyyətinin yayılmasını sürətləndirir. Həmçinin müəyyən zaman keçdikdən sonra kitablar məhvə doğru gedir. Rəqəmsallaşdırma isə bu prosesi bir az azaldır. Mənfi tərəfləri isə bu resurslara çıxış yanlız internet vasitəsilə mümkündür. Həmçinin məlumat təhlükəsizliyi baxımından müəyyən problemlər ortaya çıxır. Bu problemlərə məlumatların silinəsi, əlavələrin olunması və dəyişikliklər aiddir. Qeyd etmək lazımdır ki, müəllif hüquqlarının qorunmasında da boşluqlar mövcuddur. Yuxarıda qeyd olunanlarla yanaşı Türk Dövlətləri Təşkilatının bu sahə üzrə gördüyü işləri qeyd etmək lazımdır. Belə işlərdən biri də türk dünyasının maddi və qeyri-maddi mədəni irsinin rəqəmsal formatda siyahı və kataloqların hazırlanmasıdır. Bu kataloqda milli geyimlər, əlyazmalar, folklor nümunələri və s. rəqəmsal formatda qorumaq və beynəlxalq səviyyədə tanıtmaqdır. Həmçinin əlçatanlıq baxımından ictimaiyyət üçün onlayn giriş yaratmaqdadır.

Rəqəmsal Novruz bayramı festivalı. Novruz bayramı türk xalqlarının qeyri-maddi irs nümunələrindən biridir. Bu bayram türk xalqlarının adət-ənənələrini özündə əks etdirir. Novruz təkcə bayram yox, həmçinin yenilənmə simvoludur. Rəqəmsallaşdırma dövründə ənənə və müasirliyi sintez edərək Qazaxıstanda yeni layihə ortaya çıxmışdır. Xüsusilə də Almatıda Novruz bayramı rəqəmsal formatda təşkil olunub. “Rəqəmsal Nauryz” proqramı çərçivəsində rəqəmsal texnologiya və süni intellektdən geniş istifadə olunaraq yüksək səviyyədə festival keçirilib [11]. Festivalda robot sərgisi insanların geniş marağına səbəb olub. Həmçinin robotlar tərəfindən baursaklar hazırlayaraq gələn qonaqlara təqdim olunub. Almatının Piyada Panfilov küçəsi süni intellekt elementləri ilə Nauryz üslubunda dizayn olunmuşdur [Əliyev, K, 2001, s. 4-5].

Novruz bayramının rəqəmsal formada tərtibi gənclərin marağını artırmasına, əhatə dairəsinin genişlənməsinə səbəb olur. Lakin bu gənc və yaşlı nəsil arasında müəyyən fərqlərə yol açır. Yaşlı nəsil bayramın rəqəmsal texnologiyalarla təqdimatına tam uyğunlaşmaya bilər. Bunun səbəbi də yaşlı nəsildə bayram ab-havasının tam təmin oluna bilməməsidir.

TÜRKSOY ortaq mədəni dəyərlərin rəqəmsallaşdırılmasında mühüm rol oynayır. Belə ki, Türk Mədəniyyəti Təşkilatı TÜRKSOY və Qlobal Jurnalistlər Şurası (GCJ) media, mədəniyyət və kommunikasiya sahəsində əməkdaşlığı gücləndirməyə yönəlmiş Əməkdaşlıq Protokolu buna bariz nümunədir [10]. İmzalanmış protokolda rəqəmsallaşdırmanın, medianın türk xalqlarının ortaq dəyərlərini gücləndirdiyi əsas komponentlərdən olduğu kimi fikirlər yer almaqdadır. Bu Əməkdaşlıq Protokolu türk xalqlarının və onların mədəniyyətlərinin beynəlxalq səviyyədə tanınmasını, rəqəmsal dəyişməni, müxtəlif media layihələri və s. əhatə etməkdədir. Türk xalq mədəniyyətinə yanlız mədəni irs kimi baxmaq olmaz. Bu mədəni irs nümunəsi gələcəyə doğru uzanan körpüdür. Bu gün Lefkoşada mədəniyyətin, düşüncənin və həmrəyliyin vahid bir məkanda birləşdiyini, həmçinin “Manas” dastanını buna nümunə göstərmək olar [Korkmaz, R, 2012, s.66, 203]. TÜRKSOYun bu sahədə biri də rəqəmsal türk dünyası sistemi yaratmaqdır. Müasir texnologiyaların inkişafı mədəni irs nümunələrinin mühafizəsində yeni formalar ortaya qoymaqdadır. Bu həm mədəni irsi mühafizə edir, həm də geniş kütləyə çatdırır. Təşkilatın bu sahədə fəaliyyəti nəticəsində virtual muzeylər, rəqəmsal kitabxana, arxiv və festivallar (xüsusilə Novruz bayramı) daha da artmaqdadır. Türk xalqlarının

mədəni irsi rəqəmsallaşma ilə birləşərək yeni forma almaqdadır və bunun qlobal səviyyə alacağı gözlənilir.

**Nəticə**

Türk xalqlarının ortaq mədəniyyətlərinin rəqəmsallaşdırılması mədəni irsin mühafizəsində böyük rol oynayır. İnkişaf etməkdə olan rəqəmsal texnologiyalar sayəsində mədəniyyətin bütün sahələr demək olar ki, elektronlaşdırılmaqdadır. Bu da mədəni inteqrasiyanın sürətlə yayılmasına və geniş kütləyə çatmasına şərait yaradır. Rəqəmsallaşdırma türk xalqları arasında mədəniyyətin itməsinin qarşısını alaraq bağlılığı möhkəmləndirir. Bütün bunlarla yanaşı,müəyyən problemlər özünü göstərməkdədir. Bu problemlərə texniki, əsillik, məlumatların nə dərəcədə doğruluğu kimi məsələlər aiddir.

Nəticə olaraq, türk dünyasının ortaq dəyərlərinin rəqəmsallaşdırılması həm imkanlar açır, həm də maneələr yaratmaqdadır. Bu sahə üzrə müxtəlif dövlər qanunları qəbul edilir və proses beynəlxalq səviyyəyə çatdırılır. Bütün bunların düzgün əməl olunması bu prosesi uğurlu və əlçatan edə bilər.

**Ədəbiyyat siyahısı**

*Azərbaycan dilində*

1. Cəfərov, N. (2010). Türk dünyası: Problemlər və Perspektivlər. Bakı: Elm Nəşriyyatı, s. 93-95, 108.
2. Əliyev, K. (2021, 20 aprel). Türk xalqlarının mədəni irsinin qorunmasında rəqəmsal texnologiyalar. *Azərbaycan qəzeti*, s. 6.
3. Məmmədov, R. (2022, 15 mart). Türk dünyasının mədəni əlaqələri genişlənir. *Azərbaycan qəzeti*, s. 5.
4. Türk dünyasında rəqəmsallaşma prosesi sürətlənir. (2023, 10 iyun). *Azərbaycan qəzeti*, s. 7.

*Türk dilində*

5. Demir, A. (2023, 15 Nisan). Türk Dünyasının Kültürel Mirası Dijital Ortamda Korunuyor. *Yeni Nesil*, s. 6.
6. Kaya, S. (2023, 5 Haziran). Türk Dünyası Folklorunun Dijital Arşivlenmesi Üzerine. *Milliyet*, s. 7.
7. Korkmaz, R. (2012). Türk Dünyası Kültürü ve Edebiyyatı. Türkiyə: Akçağ Yayınları, s. 33, 65-68, 203.
8. Türkmen, F. (2015). Türk dünyası folkloru. Türkiyə: Atatürk Kültür Merkezi Yayınları, s. 25, 175-179.

*İngilis dilində*

9. Peter B. Golden. (1992). An İntroduction to the Turkic Peoples. Otto Harrassowitz Verlag, p.75-77, 325-328.

*İnternet resursları*

10. TÜRKSOY və Qlobal Jurnalistlər Şurasının Əməkdaşlıq Protokolu. (2025). https://www.turksoy.org/ru-RU/novosti/tyurksoj-i-globalnyj-sovet-zhurnalistov-ukreplyayut-kulturnyj-most-tyurkskogo-mira
11. Almatı bölgəsində Novruz bayramı yeni rəqəmsal formatı. (2026). https://mail.kz/ru/news/kz-news/cifrovoi-nauryz-kak-tehnologii-izmenili-glavnyi-vesennii-prazdnik

12. Türk xalqlarının kitab abidələri. Elektron kitabxana.(2014). https://turklib.preslib.az/

**Taghiyeva Lamiya Vusal gizi**

**ADVANTAGES AND PROBLEMS OF DIGITALIZATION OF TURKIC PEOPLES` COMMON CULTURAL VALUES**

**Summary**

The 21st century is characterized by the era of technology and the strengthening of globalization. The rapid development of digitalization is manifesting itself in the field of culture. In this regard, issues such as the preservation of national culture, their adaptation to the present day, and digitalization have gained relevance. The Turkic world has common cultural values. Preserving these values has been passed down from generation to generation for centuries and ensures social memory and cultural continuity. In the era of digitalization, these processes are carried out using the Internet and digital means. Although these changes bring culture to a wide audience, they create certain problems in terms of preserving its authenticity. One of the common cultural values of the Turkic world is the Novruz holiday. This cultural example is widely promoted in the digital environment. No matter how wide an audience it reaches, it has led to the simplification of culture by revealing its visual aspects. Although the rapid development of globalization increases the mutual influence and synthesis of cultures, it sometimes leads to the loss of their own national characteristics. The more the digitalization of culture is evaluated as an opportunity, the more risky it is. The main purpose of this article is to analyze the problems of transformation in the era of globalization and the preservation of the common cultural values of the Turkic world in digital form. In this article, the common cultural values of the Turkic world will be examined in digital form and based on examples. At the same time, the positive and negative aspects of digitalization on these common cultural values will be analyzed. Certain directions will be determined for the preservation of the cultural heritage of the Turkic world and the emerging problems.

**Key words:** Turkic world, culture, cultural value, digitalization, globalization, social memory.

**Тагиева Ламия Вюсал гызы**

**ПРЕИМУЩЕСТВА И ПРОБЛЕМЫ ЦИФРОВИЗАЦИИ ОБЩЕГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ ТЮРКСКИХ НАРОДОВ.**

**Резюме**

XXI век характеризуется эпохой технологий и усилением глобализации. Быстрое развитие цифровизации проявляется в сфере культуры. В этом контексте такие вопросы, как сохранение национальной культуры, ее адаптация к современности и цифровизация, приобрели актуальность. Тюркский мир обладает общими культурными ценностями. Сохранение этих ценностей передавалось из поколения в поколение на протяжении веков и обеспечивает социальную память и культурную преемственность. В эпоху цифровизации эти процессы осуществляются с использованием Интернета и цифровых средств. Хотя эти изменения делают культуру доступной для широкой аудитории, они создают определенные проблемы с точки зрения сохранения ее подлинности. Одной из общих культурных ценностей тюркского мира является праздник Новруз. Этот культурный пример широко продвигается в цифровой среде. Независимо от того, насколько широкую аудиторию он охватывает, это приводит к упрощению культуры за счет раскрытия ее визуальных аспектов. Хотя

стремительное развитие глобализации усиливает взаимное влияние и синтез культур, оно иногда приводит к утрате их собственных национальных особенностей. Чем больше цифровизация культуры оценивается как возможность, тем больше рисков она влечет за собой. Главная цель данной статьи – анализ проблем трансформации в эпоху глобализации, сохранения общих культурных ценностей тюркского мира в цифровой форме. В статье общие культурные ценности тюркского мира будут рассмотрены в цифровой форме на примерах. Одновременно будут проанализированы положительные и отрицательные аспекты цифровизации для этих общих культурных ценностей. Будут определены направления сохранения культурного наследия тюркского мира и возникающие проблемы.

**Ключевые слова:** тюркский мир, культура, культурные ценности, цифровизация, глобализация, социальная память

UOT 316.73

**Nurcan Hümbət qızı Abdullayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**abdullayevanurcan9@gmail.com**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİYYƏTLƏRİN QARŞILIQLI TƏSİRİ VƏ RƏQƏMSAL DÜNYADA MƏDƏNİYYƏTİN ÜMUMİ PROBLEMLƏRİ

**Xülasə**

Qloballaşma prosesi dünya ölkələrini iqtisadi, siyasi və mədəni sahələrdə daha sıx əlaqələndirir. Bu proses mədəniyyətlər arasında qarşılıqlı təsirin sürətini artırır və müxtəlif mədəni elementlərin bir-birinə nüfuz etməsinə şərait yaradır. Belə təsir nəticəsində bəzi mədəniyyətlər zənginləşir, yeni ideya və ənənələr formalaşır, amma eyni zamanda mədəni homogenləşmə təhlükəsi də yaranır, yəni dominant mədəniyyətlərin zəif mədəniyyətləri əvəz etməsi riski mövcuddur. Rəqəmsal dünya isə mədəniyyətlərin qarşılıqlı təsirini daha da sürətləndirir. İnternet, sosial şəbəkələr və rəqəmsal media vasitəsilə mədəni məzmunun yayılması global ölçüdə asanlaşır. Lakin bu sahədə bir sıra problemlər də ortaya çıxır: informasiya bolluğu səbəbindən yerli mədəniyyətlərin görünməməsi, müəllif hüquqlarının qorunmasında çətinliklər, dezinformasiya və stereotiplərin yayılması. Qloballaşmanın mədəniyyətlərə təsiri həm imkanlar, həm də çağırışlar yaradır. Bir tərəfdən, insanlar fərqli mədəniyyətləri öyrənir, yeni ideya və texnologiyalarla tanış olur, incəsənət və ədəbiyyat sahəsində zənginlik yaranır. Digər tərəfdən, qlobal mədəni axın lokal mədəniyyətlərin itirilməsinə, ənənələrin unudulmasına və homogenləşməyə səbəb ola bilər.

**Açar sözlər:** qloballaşma, mədəni qarşılıqlı təsir, rəqəmsal mədəniyyət, homogenləşmə, mədəni müxtəliflik

Qloballaşma prosesi yalnız iqtisadi və siyasi sahələrdə deyil, mədəni sahədə də böyük dəyişikliklər yaradır. Dünyanın müxtəlif ölkələri arasında sərhədlərin getdikcə zəifləməsi, insanların və ideyaların daha sürətli hərəkət etməsi mədəniyyətlərin bir-birinə təsirini artırır. Bu proses nəticəsində fərqli mədəni elementlər, musiqi, ədəbiyyat, incəsənət, adət-ənənələr, bir-birinə nüfuz edir və yeni, qarışıq mədəni formalar meydana gəlir. Eyni zamanda, qloballaşma bəzi mədəniyyətlərin digər mədəniyyətlər üzərində dominantlaşmasına səbəb ola bilər ki, bu da yerli mədəniyyətlərin unudulması riskini doğurur [3, s. 66].

Rəqəmsal texnologiyaların inkişafı mədəniyyətin qloballaşma prosesində rolunu daha da gücləndirir. İnternet və sosial şəbəkələr vasitəsilə mədəni məzmunlar sürətlə paylaşılır, insanlar dünyanın istənilən nöqtəsində digər mədəniyyətlərlə tanış ola bilir. Bu, mədəni mübadiləyə şərait yaratsa da, müəyyən problemləri də ortaya çıxarır. Məsələn, rəqəmsal məzmun bolluğu və keyfiyyətsiz informasiyanın yayılması, müəllif hüquqlarının qorunmasında çətinliklər və stereotiplərin güclənməsi kimi məsələlər ortaya çıxır [1, s. 44]. Bundan əlavə, hər kəsin rəqəmsal texnologiyalardan istifadə imkanlarının bərabər olmaması bəzi cəmiyyətləri bu mədəni axından kənarda qoyur və “rəqəmsal boşluq” problemini meydana gətirir. Mədəniyyətlərin qloballaşması həm də innovasiyaları təşviq edir. Müasir incəsənət, ədəbiyyat və musiqi formaları fərqli mədəni təsirlərin

qarışması nəticəsində zənginləşir. Eyni zamanda, mədəniyyətlərin qarşılıqlı təsiri insanların tolerantlıq və anlayış səviyyəsini artırır, dünya mədəni irsinin qorunması və paylaşılması üçün imkanlar yaradır. Lakin bu prosesdə əsas diqqət yerli mədəniyyətlərin qorunmasına, mədəni müxtəlifliyin təşviqinə və rəqəmsal etik normaların tətbiqinə yönəlməlidir [5, s. 16].

Qloballaşma yalnız iqtisadi və texnoloji sahədə deyil, mədəni sahədə də dərindən təsir göstərir. Bu proses ölkələr arasında sərhədləri yumşaldır, insanların, ideyaların və informasiya axınının sürətini artırır. Nəticədə mədəniyyətlər bir-birinə daha sıx təsir göstərir, yeni mədəni formalar yaranır, fərqli adət-ənənələr, incəsənət, musiqi və ədəbiyyat elementləri bir-birinə qarışır. Mədəni mübadilə insanların dünyagörüşünü genişləndirir və fərqli mədəniyyətlərə qarşı anlayış və tolerantlığı artırır. Lakin qloballaşmanın mənfi tərəfi də vardır: dominant mədəniyyətlər bəzən zəif mədəniyyətləri əvəz edir, bu isə yerli ənənələrin unudulmasına və homogenləşməyə səbəb olurn [2, s. 24].

Rəqəmsal texnologiyalar mədəniyyətlərin qarşılıqlı təsirini daha da sürətləndirir. İnternet, sosial şəbəkələr və rəqəmsal media vasitəsilə mədəni məzmunlar qlobal səviyyədə asanlıqla paylaşılır. İnsanlar dünyanın istənilən nöqtəsində başqa mədəniyyətlərlə tanış ola bilir, yeni ideya və üslublar qavranılır. Bu, mədəni mübadilə və innovasiya üçün böyük imkanlar yaratsa da, problemlər də yaradır. İnformasiya bolluğu və keyfiyyətsiz məzmun, müəllif hüquqlarının pozulması, stereotiplərin və dezinformasiyanın yayılması kimi məsələlər rəqəmsal mədəniyyətin qarşısında duran əsas problemlərdir. Bundan əlavə, hər kəsin rəqəmsal texnologiyalardan bərabər istifadə edə bilməməsi rəqəmsal boşluq yaradır və bəzi mədəniyyətləri qlobal mədəni axından kənarda saxlayır. Qloballaşma və rəqəmsal dünya mədəniyyətin zənginləşməsini təmin edir. Müasir incəsənət, musiqi və ədəbiyyat fərqli mədəni təsirlərin qarışması ilə inkişaf edir, yeni ifadə və yaradıcılıq formaları ortaya çıxır. Eyni zamanda, mədəniyyətlərin qarşılıqlı təsiri beynəlxalq əməkdaşlığı, mədəni turizmi və qlobal dialoqu gücləndirir. Lakin bu prosesdə əsas məsələ yerli mədəniyyətlərin qorunmasıdır [7, s. 12]. Mədəni müxtəliflik yalnız qorunduqda və təşviq edildikdə, qloballaşmanın faydalı tərəfləri tam reallaşa bilər.

Lakin rəqəmsal dünyada mədəniyyətin inkişafı ilə yanaşı bir sıra problemlər də ortaya çıxır. İlk növbədə, informasiya bolluğu və filtrsiz kontent axını mədəni keyfiyyətin aşağı düşməsinə səbəb ola bilər. Sosial media platformalarında yayılan stereotiplər, yanlış məlumatlar və səthi məzmun mədəni dəyərlərin təhrif olunmasına gətirib çıxarır. Bundan əlavə, rəqəmsal platformalarda “kütləvi mədəniyyətin” üstünlük qazanması fərdi və milli xüsusiyyətlərin arxa plana keçməsinə səbəb olur [9, s. 13].

**Cədvəl 1. Qloballaşma və rəqəmsal dünyada mədəniyyətin əsas problemləri**

| **Problem** | **Təsviri** | **Nəticələri** |
|---|---|---|
| Mədəni assimilyasiya | Güclü mədəniyyətlərin zəif mədəniyyətləri sıxışdırması | Milli kimliyin zəifləməsi, ənənələrin itməsi |
| Kütləvi mədəniyyətin üstünlüyü | Populyar (mass culture) məhsulların dominant olması | Yerli mədəni dəyərlərin arxa plana keçməsi |
| Rəqəmsal bərabərsizlik | Texnologiyalara çıxış imkanlarının qeyri-bərabər olması | Bəzi mədəniyyətlərin görünməməsi və təcridi |
| Dil baryerləri | Qlobal platformalarda bəzi dillərin üstünlük təşkil etməsi | Kiçik dillərin istifadəsinin azalması |
| Mədəni təhrif və stereotiplər | Sosial mediada yanlış və səthi təqdimatlar | Mədəniyyətlərin yanlış qavranılması |

| | | |
|---|---|---|
| Məlumat bolluğu (info overload) | Filtrsiz və həddindən artıq informasiya axını | Keyfiyyətsiz kontentin yayılması |
| Müəllif hüquqlarının pozulması | Rəqəmsal mühitdə kontentin icazəsiz paylaşılması | Yaradıcı fəaliyyətin zəifləməsi |
| Rəqəmsal etik problemlər | Şəxsi məlumatların qorunmaması, etik normaların pozulması | Etimadın azalması, sosial risklər |
| Lokal mədəniyyətlərin zəifləməsi | Qlobal təsirlər altında yerli ənənələrin unudulması | Mədəni müxtəlifliyin azalması |
| Alqoritmik təsir | Sosial media alqoritmlərinin kontenti yönləndirməsi | Mədəni müxtəlifliyin süni şəkildə məhdudlaşdırılması |

**Mənbə:** ***Müəllifin tərtibi***

Dünyanın müxtəlif regionlarında texnologiyalara çıxış imkanlarının fərqli olması mədəniyyətlərin rəqəmsal mühitdə təmsil olunmasında qeyri-bərabərlik yaradır. Bu isə bəzi mədəniyyətlərin qlobal informasiya məkanında kifayət qədər görünməməsinə səbəb olur. Eyni zamanda, dil baryerləri də rəqəmsal mədəni inteqrasiyanı məhdudlaşdıran amillərdən biridir.

Bu problemin mahiyyəti yalnız texniki infrastruktur fərqləri ilə məhdudlaşmır. İnternet sürəti, cihazlara çıxış, rəqəmsal savadlılıq səviyyəsi və texnologiyalardan istifadə bacarıqları kimi amillər də mühüm rol oynayır. İnkişaf etmiş ölkələrdə genişzolaqlı internet və rəqəmsal platformalara asan çıxış mövcud olduğu halda, inkişaf etməkdə olan və ya ucqar bölgələrdə bu imkanlar məhdud qalır. Nəticədə həmin regionların mədəni irsi, folkloru və yaradıcılıq məhsulları rəqəmsal mühitdə kifayət qədər təqdim olunmur və qlobal auditoriyaya çatmır.

Rəqəmsal bərabərsizlik mədəni istehsal prosesinə də təsir edir. Texnologiyalara çıxışı məhdud olan cəmiyyətlərdə rəqəmsal kontentin yaradılması və yayılması imkanları zəif olur. Bu isə qlobal mədəni bazarda təmsilçilik balansını pozur və müəyyən mədəniyyətlərin dominantlığını gücləndirir. Belə şəraitdə "rəqəmsal mədəni hegemonluq" anlayışı formalaşır ki, bu da əsasən güclü texnoloji və iqtisadi resurslara malik ölkələrin mədəniyyətlərinin üstünlük qazanması ilə xarakterizə olunur [8, s. 2].

Dil baryerləri isə bu qeyri-bərabərliyi daha da dərinləşdirir. Qlobal internet məkanında əsasən ingilis dili üstünlük təşkil etdiyindən, digər dillərdə yaradılan kontentin görünürlüğü və əlçatanlığı məhdudlaşır. Bu vəziyyət kiçik dillərin və lokal mədəniyyətlərin rəqəmsal platformalarda təmsilini zəiflədir, bəzi hallarda isə həmin dillərin istifadəsinin azalmasına gətirib çıxarır. Avtomatik tərcümə texnologiyalarının inkişafına baxmayaraq, semantik dəqiqlik və mədəni kontekstin tam ötürülməsi hələ də problem olaraq qalır [10, s. 4].

Alqoritmik sistemlər də bu prosesi dolayı yolla təsirləndirir. Sosial media və axtarış platformaları daha çox populyar və geniş istifadə olunan dillərdə olan kontenti ön plana çıxarır. Bu isə az tanınan mədəniyyətlərin rəqəmsal görünürlüğünü daha da məhdudlaşdırır və mədəni müxtəlifliyin balansına mənfi təsir göstərir.

Rəqəmsal mühitdə müəllif hüquqlarının qorunması da aktual problemlər sırasındadır. Mədəni məhsulların asanlıqla kopyalanması və yayılması yaradıcı şəxslərin hüquqlarının pozulmasına səbəb olur. Bu isə mədəni istehsalın davamlılığına mənfi təsir göstərə bilər. Bununla yanaşı, rəqəmsal mühitdə şəxsi məlumatların qorunması və etik məsələlər də mədəniyyətin inkişafına təsir edən vacib faktorlar kimi çıxış edir.

**Nəticə**

Qloballaşma və rəqəmsal texnologiyalar mədəniyyətlərin inkişafında həm imkanlar, həm də çağırışlar yaradır. Onlar mədəni mübadiləni sürətləndirir, fərqli ənənə və ideyaların bir-birinə nüfuz etməsini təmin edir, yeni yaradıcılıq formaları ortaya çıxarır. Eyni zamanda, bu proses bəzi mədəniyyətlərin digər mədəni təsirlər altında zəifləməsi və homogenləşmə təhlükəsini də gündəmə gətirir. Rəqəmsal mühitdə mədəniyyətin paylaşılması asan olsa da, keyfiyyətsiz informasiya, müəllif hüquqları və rəqəmsal boşluq kimi problemlər ortaya çıxır. Buna görə, qloballaşmanın gətirdiyi fürsətləri mədəni müxtəlifliyi qorumaq və təşviq etmək üçün istifadə etmək vacibdir. Dövlət və cəmiyyət səviyyəsində həyata keçirilən tədbirlər yerli mədəni irsin qorunmasına, rəqəmsal etik normaların tətbiqinə və innovativ mədəni mübadilənin davamlı olmasına şərait yaradır. Beləliklə, qloballaşma şəraitində mədəniyyətlər arasında qarşılıqlı təsir həm zənginləşmə, həm də davamlılıq perspektivini birləşdirə bilər.

**Ədəbiyyat siyahısı**

1. Əliyeva, G. R. (2018). Dünya xalqları və çoxmədəniyyətlilik [World Peoples and Multiculturalism]. Bakı: İqtisad Universiteti Nəşriyyatı. Dünya xalqları və çoxmədəniyyətlilik – UNEC Elektron Kitabxana
2. Biouaraine, H. (2024). Cultural globalization in the era of modern technology and its impact on the individual and society. Cultural Globalization and Technology – ResearchGate PDF
3. Dowd, T. J., & Janssen, S. (2011). Globalization and diversity in cultural fields: Comparative perspectives on television, music, and literature. American Behavioral Scientist, 55(5).
4. James, P., & Szeman, I. (Eds.). (2025). Globalization and culture (Central Current in Globalization series). SAGE Publications.
5. King, A. D. (1991). Culture, globalization and the world system: Contemporary conditions for the representation of identity. University of Minnesota Press. Culture, Globalization and the World-System – Google Books Preview
6. Robertson, R., & White, K. E. (Eds.). (2003). Globalization: Culture and identity. Taylor & Francis. Globalization: Culture and Identity – Google Books Preview
7. Sadykova, R., Myrzabekov, M., & Myrzabekova, R. (2014). The interaction of globalization and culture in the modern world. Procedia – Social and Behavioral Sciences, 122, 8–12. The Interaction of Globalization and Culture in the Modern World – ResearchGate PDF
8. UNESCO. (2022). Re|Shaping policies for creativity: Addressing culture as a global public good. UNESCO Publishing. https://unesdoc.unesco.org/ark:/48223/pf0000380479
9. UNESCO. (2023). Global report on cultural policies and digital transformation. UNESCO. https://www.unesco.org
10. World Bank. (2021). World development report 2021: Data for better lives. World Bank Publications. https://www.worldbank.org/en/publication/wdr2021

**Nurjan Humbat gizi Abdullayeva**

**THE INTERACTION OF CULTURES IN THE CONTEXT OF GLOBALIZATION AND THE GENERAL PROBLEMS OF CULTURE IN THE DIGITAL WORLD**

**Summary**

The process of globalization is connecting the countries of the world more closely in the economic, political and cultural spheres. This process increases the speed of interaction between cultures and creates conditions for the penetration of different cultural elements into each other. As a result of such an impact, some cultures are enriched, new ideas and traditions are formed, but at the same time there is a threat of cultural homogenization, that is, there is a risk of dominant cultures replacing weaker cultures. The digital world, on the other hand, accelerates the interaction of cultures even more. The dissemination of cultural content through the Internet, social networks and digital media is becoming easier on a global scale. However, a number of problems also arise in this area: the invisibility of local cultures due to the abundance of information, difficulties in protecting copyrights, the spread of misinformation and stereotypes. The impact of globalization on cultures creates both opportunities and challenges. On the one hand, people learn about different cultures, get acquainted with new ideas and technologies, and wealth is created in the field of art and literature. On the other hand, the global cultural flow can lead to the loss of local cultures, the forgetting of traditions and homogenization.

**Key words:** globalization, cultural interaction, digital culture, homogenization, cultural diversity.

**Нурджан Гумбат кызы Абдуллаева**
**Азербайджанский государственный университет культуры и искусств**

**Взаимодействие культур в контексте глобализации и общие проблемы культуры в цифровом мире**

**Резюме**

Процесс глобализации всё теснее связывает страны мира в экономической, политической и культурной сферах. Этот процесс ускоряет взаимодействие культур и создаёт условия для проникновения различных культурных элементов друг в друга. В результате такого воздействия некоторые культуры обогащаются, формируются новые идеи и традиции, но одновременно возникает угроза культурной гомогенизации, то есть риск вытеснения более слабых культур доминирующими. Цифровой мир, с другой стороны, ещё больше ускоряет взаимодействие культур. Распространение культурного контента через Интернет, социальные сети и цифровые медиа становится проще в глобальном масштабе. Однако в этой области возникает и ряд проблем: невидимость местных культур из-за обилия информации, трудности в защите авторских прав, распространение дезинформации и стереотипов. Влияние глобализации на культуры создаёт как возможности, так и вызовы. С одной стороны, люди узнают о разных культурах, знакомятся с новыми идеями и технологиями, создаётся богатство в области искусства и литературы. С другой стороны, глобальный культурный поток может привести к утрате местных культур, забвению традиций и гомогенизации.

**Ключевые слова:** глобализация, культурное взаимодействие, цифровая культура, гомогенизация, культурное разнообразие

UOT 379.82
ORCID: 0009-0002-4057-6525

Fuad Mustafayev Rizvan oğlu
Azərbaycan Dövlət Mədəniyyat və İncəsənət Universiteti
Magistrant
mustafayevfuad620@gmail.com

# MÜASİR TƏDBİR TƏŞKİLATÇILIĞINDA ETNOMƏDƏNİ DƏYƏRLƏR VƏ SOSİAL DAVRANIŞ MODELLƏRİ

**Xülasə**

Qloballaşmanın təsiri ilə müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsi intensivləşmiş, bu isə tədbir təşkilatçılığı prosesində etnomədəni komponentlərin nəzərə alınmasını vacib etmişdir. Tədbirin effektiv təşkili yalnız texniki planlaşdırma ilə məhdudlaşmır, həm də iştirakçıların mədəni mənsubiyyəti, dəyər orientasiyaları və sosial davranış xüsusiyyətlərinin düzgün qiymətləndirilməsini tələb edir. Etnomədəni dəyərlər tədbirin ideya və məzmun strukturunun formalaşmasında əsas determinantlardan biri kimi çıxış edir. Milli-mədəni elementlərin, ənənəvi simvolların və kommunikativ davranış formalarının tədbirə inteqrasiyası onun semantik yükünü artırır və iştirakçılar üçün daha qəbulolunan mühit yaradır. Bu kontekstdə təşkilatçılar müxtəlif sosial-mədəni qrupların xüsusiyyətlərini nəzərə alaraq inklüziv və tolerant yanaşma sərgiləməli, mədəni müxtəlifliyin balanslı təqdimatını təmin etməlidirlər.

**Açar sözlər:** tədbir təşkilatçılığı, etnomədəni dəyərlər, sosial davranış modelləri, sosial-mədəni mühit, mədəni müxtəliflik, mədəniyyətlərarası kommunikasiya, qloballaşma, sosial inteqrasiya.

**Giriş.** Müasir qloballaşma və rəqəmsallaşma şəraitində tədbir təşkilatçılığı yalnız təşkilati və texniki fəaliyyət kimi deyil, eyni zamanda mürəkkəb sosial-mədəni sistem kimi formalaşaraq cəmiyyətin mədəni dinamikasının mühüm komponentlərindən birinə çevrilmişdir və bu sistem daxilində etnomədəni dəyərlər ilə sosial davranış modelləri qarşılıqlı təsir mexanizmi əsasında fəaliyyət göstərərək tədbirin semantik, kommunikativ və funksional strukturunu müəyyən edir. Ənənəvi yanaşmalarda tədbir təşkilatçılığı əsasən planlaşdırma, logistika və idarəetmə aspektləri ilə izah olunsa da, müasir elmi yanaşmalar göstərir ki, tədbirin effektivliyi yalnız təşkilati göstəricilərlə deyil, həm də iştirakçıların mədəni identikliyi, sosial davranış xüsusiyyətləri və kommunikativ uyğunlaşma səviyyəsi ilə sıx bağlıdır və bu amillərin nəzərə alınmaması tədbirin konseptual bütövlüyünün zəifləməsinə, kommunikativ boşluqların yaranmasına və nəticə etibarilə sosial təsirin azalmasına səbəb olur [Donald G., 2012]. Etnomədəni dəyərlər cəmiyyətin tarixi inkişafı prosesində formalaşmış normativ, simvolik və identiklik yönümlü sistem kimi çıxış edərək sosial münasibətlərin tənzimlənməsində fundamental rol oynayır və bu dəyərlər tədbir təşkilatçılığı kontekstində yalnız dekorativ və ya atributiv element kimi deyil, tədbirin ideya-nəzəri əsasını təşkil edən struktur komponent kimi qiymətləndirilməlidir, çünki mədəni elementlərin səthi və formal istifadəsi onların semantik yükünü zəiflədir və tədbirin konseptual dəyərinin deformasiyasına səbəb olur.Sosial davranış modelləri isə fərdlərin və sosial qrupların müəyyən sosial və kommunikativ mühitdə

nümayiş etdirdikləri davranış strategiyalarının sistemli məcmusu olmaqla tədbir mühitində qarşılıqlı münasibətlərin qurulması, etik normaların tətbiqi və kommunikasiya prosesinin effektivliyinin təmin edilməsində əsas rol oynayır və bu baxımdan sosial davranış tədbir təşkilatçılığında idarə olunan dəyişən kimi nəzərdən keçirilməlidir [Goldblatt Joe, 2010]. Mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, etnomədəni dəyərlər və sosial davranış modelləri çox vaxt ayrı-ayrı tədqiqat obyektləri kimi öyrənilir və onların qarşılıqlı əlaqəsinin sistemli, inteqrativ və modelləşdirilmiş şəkildə izahı kifayət qədər işlənməmişdir ki, bu da təqdim olunan tədqiqatın aktuallığını və elmi yeniliyini müəyyən edir. Bu tədqiqat çərçivəsində etnomədəni dəyərlərlə sosial davranış modellərinin qarşılıqlı əlaqəsini izah edən üçsəviyyəli inteqrativ konseptual model irəli sürülür və bu model konseptual, davranış və operativ səviyyələrin qarşılıqlı əlaqəsi əsasında qurulur, belə ki, konseptual səviyyədə etnomədəni dəyərlər tədbirin ideya və məna strukturunu formalaşdıraraq onun semantik istiqamətini müəyyən edir, davranış səviyyəsində sosial davranış modelləri iştirakçıların kommunikativ fəaliyyətini və sosial qarşılıqlı təsir mexanizmlərini müəyyən edir, operativ səviyyədə isə təşkilati və kommunikativ mexanizmlər bu iki komponentin praktiki realizasiyasını təmin edir və nəticə etibarilə bu səviyyələr arasında determinasiya, qarşılıqlı təsir və adaptasiya prinsiplərinə əsaslanan dinamik sistem formalaşır. Bu model çərçivəsində müəyyən edilir ki, tədbirin effektivliyi yalnız təşkilati planlaşdırmanın keyfiyyəti ilə deyil, həm də mədəni uyğunluq səviyyəsi ilə ölçülməlidir və bu uyğunluq tədqiqat daxilində "mədəni rezonans" anlayışı ilə əsaslandırılır, yəni tədbirin məzmunu ilə iştirakçıların mədəni gözləntiləri, dəyərləri və identiklik xüsusiyyətləri arasında uyğunluq səviyyəsi nə qədər yüksəkdirsə, tədbirin sosial təsiri, kommunikativ effektivliyi və iştirakçı məmnuniyyəti bir o qədər artır. Eyni zamanda müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı tədbir təşkilatçılığı sahəsində yeni kommunikativ mühit formalaşdırmış və bu mühitdə sosial davranış modellərinin transformasiyası müşahidə olunmuşdur, belə ki, virtual və hibrid tədbirlərdə iştirakçıların davranış xüsusiyyətləri ənənəvi mühitdən fərqli olaraq daha çox interaktivlik, vizual kommunikasiya və yazılı ünsiyyət elementləri ilə xarakterizə olunur və bu vəziyyət sosial davranışın statik deyil, dinamik və kontekstə bağlı sistem olduğunu göstərir. Bu kontekstdə tədqiqat çərçivəsində sosial davranış modellərinin normativ, adaptiv və interaktiv formaları fərqləndirilir və bu təsnifat tədbir mühitində davranışın çoxsəviyyəli strukturunu izah etməklə yanaşı, onun idarə olunması üçün metodoloji əsas yaradır. Bununla yanaşı, rəqəmsal mühitdə etnomədəni dəyərlərin qorunması və transformasiyası problemi aktuallaşır və bu proses tədqiqat daxilində "rəqəmsal etnomədəni adaptasiya" anlayışı ilə izah olunur ki, bu anlayış tədbirin virtual mühitdə də mədəni identikliyini, semantik bütövlüyünü və kommunikativ effektivliyini qoruma qabiliyyətini ifadə edir və bu yanaşma tədbir təşkilatçılığının rəqəmsal transformasiyası kontekstində yeni nəzəri istiqamət kimi qiymətləndirilə bilər. Hofstede-nin mədəni ölçülər nəzəriyyəsinə əsasən müxtəlif mədəniyyətlər fərqli davranış modelləri formalaşdırır və bu fərqliliklər tədbir mühitində kommunikasiya strategiyalarının seçilməsində mühüm rol oynayır, bu baxımdan tədbir təşkilatçılığı yalnız təşkilati fəaliyyət deyil, həm də mədəniyyətlərarası idarəetmə və sosial uyğunlaşdırma mexanizmi kimi qiymətləndirilməlidir [Geert Hofstede, 2011].

Azərbaycan kontekstində aparılan təhlil göstərir ki, ölkənin zəngin mədəni irsi, multikultural mühiti və tolerantlıq ənənələri tədbir təşkilatçılığı üçün spesifik sosial-mədəni model formalaşdırır və bu model çərçivəsində tədbirlər yalnız sosial hadisə deyil, həm də milli identikliyin təqdimatı, mədəni irsin ötürülməsi və sosial inteqrasiyanın gücləndirilməsi vasitəsi kimi çıxış edir, eyni zamanda bu yanaşma beynəlxalq müstəvidə ölkənin mədəni imicinin formalaşmasına və mədəni

diplomatiyanın inkişafına da töhfə verir [Geert Hofstede, 2011]. Bununla yanaşı qeyd etmək lazımdır ki, tədbir təşkilatçılığı sosial-iqtisadi sistemin tərkib hissəsi kimi də çıxış edir və mədəni tədbirlər turizmin inkişafına, regional iqtisadi aktivliyin artmasına və sosial kapitalın formalaşmasına müsbət təsir göstərir ki, bu da bu sahənin yalnız mədəni deyil, həm də iqtisadi əhəmiyyətini artırır. Beləliklə aparılan tədqiqat nəticəsində müəyyən olunur ki, etnomədəni dəyərlər və sosial davranış modelləri arasında qarşılıqlı əlaqənin sistemli və inteqrativ şəkildə öyrənilməsi tədbir təşkilatçılığı sahəsinin nəzəri əsaslarının inkişafına mühüm töhfə verir və təklif olunan üçsəviyyəli model bu sahədə yeni metodoloji yanaşma kimi çıxış edərək tədbirlərin planlaşdırılması, idarə olunması və qiymətləndirilməsi prosesində tətbiq oluna bilər, eyni zamanda "mədəni rezonans" və "rəqəmsal etnomədəni adaptasiya" anlayışları bu sahədə gələcək tədqiqat istiqamətlərinin formalaşdırılmasına xidmət edən əsas elmi nəticələr kimi qiymətləndirilə bilər.

**Ədəbiyyat siyahısı**

1. Donald Getz, D. (2012). Event Studies: Theory, Research and Policy for Planned Events. London: Routledge.

2. Joe Goldblatt, J. (2010). Special Events: A New Generation and the Next Frontier (5th ed.). Hoboken, NJ: Wiley.

3. Geert Hofstede. (2011). Dimensionalizing Cultures: The Hofstede Model in Context.

4. Fuad Məmmədov. (2016). Kulturologiya Mədəniyyat Sivilizasiya. Bakı: Elm və Təhsil.

5. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, Azərbaycan folkloru antologiyası. Bakı (2005-2010)

**Фуад Мустафаев Ризван оглу**

**ЭТНОКУЛЬТУРНЫЕ ЦЕННОСТИ И МОДЕЛИ СОЦИАЛЬНОГО ПОВЕДЕНИЯ В СОВРЕМЕННОЙ ОРГАНИЗАЦИИ МЕРОПРИЯТИЙ**

**Резюме**

Под влиянием глобализации взаимодействие различных культур усилилось, что обусловило необходимость учета этнокультурных компонентов в процессе организации мероприятий. Эффективная организация мероприятия не ограничивается только техническим планированием, но также требует правильной оценки культурной принадлежности, ценностных ориентаций и социально-поведенческих характеристик участников. Этнокультурные ценности выступают одним из главных факторов формирования идеи и содержательной структуры мероприятия. Интеграция национально-культурных элементов, традиционных символов и форм коммуникативного поведения в мероприятие повышает его смысловую нагрузку и создает более приемлемую среду для участников. В этом контексте организаторы должны демонстрировать инклюзивный и толерантный подход, учитывая особенности различных социокультурных групп, и обеспечивать сбалансированное представление культурного многообразия.

**Ключевые слова:** организация мероприятий, этнокультурные ценности, модели социального поведения, социокультурная среда, культурное разнообразие, межкультурная коммуникация, глобализация, социальная интеграция.

**Fuad Mustafayev Rizvan oghlu**

## ETHNOCULTURAL VALUES AND MODELS OF SOCIAL BEHAVIOUR IN THE MODERN ORGANIZATION OF EVENTS

**Summary**

Under the influence of globalization, the interaction of different cultures has intensified, which has made it necessary to take into account ethnocultural components in the event organization process. Effective organization of an event is not limited only to technical planning, but also requires a correct assessment of the cultural affiliation, value orientations and social behavioral characteristics of the participants. Ethnocultural values act as one of the main determinants in the formation of the idea and content structure of the event. The integration of national-cultural elements, traditional symbols and communicative behavior forms into the event increases its semantic load and creates a more acceptable environment for the participants. In this context, organizers should demonstrate an inclusive and tolerant approach, taking into account the characteristics of different socio-cultural groups, and ensure a balanced presentation of cultural diversity.

**Key words:** event organization, ethnocultural values, social behavior models, socio-cultural environment, cultural diversity, intercultural communication, globalization, social integration.

**UOT 008**

**Gülsüm Əliyeva Nazim qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
mikayilovaglsm@gmail. com

# ŞƏHƏR MƏDƏNİYYƏTİNİN SEMİOTİKASI: ƏNƏNƏ VƏ MÜASİRLİK DİALOQU (NİYAZİ MEHDİ YARADICILIĞI KONTEKSTİNDƏ)

**Xülasə**

Bu məqalə daxilində, şəhər mədəniyyətinin semiotik xüsusiyyətləri, şəhər simvolunun təhlili, mənası, ənənə və müasirlik çərçivəsində araşdırılır. Şəhərin yalnız məkan kimi deyil, bununla yanaşı, mədəni işarələr sistemi kimi təhlili də göstərilib müzakirə olunur. Niyazi Mehdinin fəlsəfi, dərin yanaşması nəticəsində, meydana çıxmış şəhərin simvolik mənası, şəhər mədəniyyətinin formalaşması, mədəni transformasiya prosesləri ətraflı izah olunur. Şəhər ünsürlərindən bəzilərinin semiotik baxımdan mənası izah edilir. Bakı şəhərinin simasında ənənə və müasirlik dialoqunun fəlsəfi modeli qurulur. Bu tədqiqat müasir kulturologiya və fəlsəfədə mühüm aktuallıq kəsb edir.

**Açar sözlər:** Simvol, şəhər, mədəniyyət, ənənə, müasirlik, Niyazi Mehdi, mədəni transformasiya, mədəniyyət, dialoq

## Giriş

Günümüzdə, cəmiyyətin inkişafının ən əsas göstəricilərindən biri də, məhz şəhər mədəniyyətidir. Şəhər təkcə cəmiyyətin yaşadığı məkan deyil, eyni zamanda, mədəniyyətin yaranıb formalaşdığı, sosial münasibətlərin qurulduğu, inkişaf etdiyi sistemdir. Şəhər mədəniyyətinin semiotik cəhətdən öyrənilməsi isə, bu anlayışa daha dərin və geniş məna qazandırır. Bir çox filosofların da, şəhər anlayışının izahı ilə bağlı öz fikirləri də mövcuddur. "Şəhər mədəniyyəti müxtəlif semiotik elementlərdən ibarət olan mədəni sistem kimi çıxış edir" [Mehdi, N., 2010, səh. 112].

Ümumən, Şəhər mədəniyyəti, ayrı-ayrı adət-ənənələrə malik olan, fərqli mədəniyyətlərdən gələn şəxslərin fərdi vəzifə və hüquqlarının şüuruna vararaq, yaşadıqları şəhərə aid nəzakət və davranış qaydaları daxilində birlikdə yaşadıqları məkandır. Şəhər kimliyi anlayışı, həmin şəhərdə yaşayan insanların məkana yüklədikləri məna və dəyərlər toplusu kimi xarakterizə olunur. Məsələn, Nyu-York şəhəri Azadlıq heykəli və göydələnlərlə tanınır. Paris deyiləndə, ağıla ilk Eyfel qülləsi gəlir. Vatikan dini şəhər kimi xarakterizə olunur. İstanbul isə, əsasən, Ayasofya və Sultan Əhməd məscidi ilə məşhurdur.

Şəhər mədəniyyəti, filosof, fəlsəfə üzrə elmlər doktoru Mehdiyev Niyazi Musa oğlunun da yaradıcılığında xüsusi yer tutur. O, özünün bir çox əsərlərində, şəhər simvolunun adını çəkmiş, izahını vermişdir. Şəhər özündə bir çox semiotik elementləri birləşdirir. Məsələn: memarlıq abidələri, ictimai obyektlər, küçələr, parklar və s. Niyazi Mehdiyə görə, şəhər müxtəlif mədəniyyətlərin bir araya gəldiyi məkandır, bu isə mədəni müxtəliflik, sosial transformasiya, mədəni inteqrasiya kimi prosesləri özündə formalaşdırır.

Ənənənin və müasirlik arasında dialoqun olduğu əsas yer məhz şəhərdir. Bildiyimiz kimi, ənənə dedikdə, ta qədim zamanlardan, bu günümüzə qədər nəsildən-nəsilə ötürülərək, gəlib çatmış

dəyərlər başa düşülür. Hər bir xalqın dəyərləri adət-ənənələrində öz əksini tapır, onlar bizim üçün keçmişimizlə bağlı informasiya əldə etdiyimiz mənbədir, mədəniyyətin mühüm aspektidir. Ənənələr, çox mühüm qeyri-maddi mədəni irs nümunələridir. Niyazi Mehdi, mədəniyyətin davamlılığını təmin edən əsas amillərdən birinin məhz ənənə olduğuna qeyd edirdi. Ənənə – mədəniyyətin təməlidir. Bu gündə, Azərbaycan mədəniyyəti, əsasən, ənənələri ilə tanınır. Müasirlik deyəndə isə, inkişaf, yenilənmə, canlanma, tərəqqi nəzərdə tutulur. Müasirlik köhnə fikirlərdən uzaqlaşma, indiki dövrə məxsus xüsusiyyətləri özündə əks etdirmədir. Bu iki anlayış arasında müəyyən qədər ziddiyyət mövcuddur.

Niyazi Mehdi, ənənə və müasir dövr anlayışlarının geniş izahını verib, onları fərqləndirirdi. Bununla yanaşı, bu anlayışları müasir şəhər mədəniyyətinin, ənənə ilə daim sıx qarşılıqlı əlaqədə olduğun, müasirliyin ənənəni sıxlaşdırmadığını, əksinə, onunla birlikdə, şəhər mədəniyyətinə təsirini də vurğulayırdı. Bu sintez isə, mədəni inkişafın əsas göstəricilərindən hesab olunur. Şəhər mədəniyyəti dinamik sistemdir. Daim hərəkətdə olan, dəyişən, inkişaf edən sistemdir.

Niyazi Mehdi yaradıcılığında şəhər simvolu bir çox aspektdən təhlil olunur. Şəhər əsasən, mədəniyyətlərin qarşılaşdığı məkan kimi izah olunur. Məhz şəhər daxilində mədəniyyət inkişaf edir, yeni-yeni ənənələr formalaşır, inkişaf edir. Müxtəlif adət- ənənələrin toqquşması, yeni maddi və mənəvi dəyərlərin, şəhər mədəniyyətinin yaranmasına səbəb olur. Başqa şəhərdən gələn şəxs özü ilə də, şəhərə nələri isə gətirir və özü ilə öz şəhərinə də nələri isə aparır. Beləcə, mədəniyyətlər sintez olunur. Şəhərdə qərb və şərq dəyərləri, köhnəlik və yenilik, ənənə və modernlik daim bir-birləri ilə müqayisədə, dialoqda olurlar. Bu xüsusiyyətə görə, onun fikrincə şəhər həmçinin, mədəni dialoq simvoludur.

Mehdinin əsərlərində, şəhər modernləşmə simvolu kimi də təhlil olunur. Şəhər müasirliyin yarandığı, günü-gündən inkişaf etdiyi, cəmiyyətin modernləşdiyi, müasir həyat tərzinin formalaşdığı məkandır. Müasir şəhər insanın düşüncə tərzini də dəyişdirir. Müasir şəhər mədəniyyətinin əsas xüsusiyyətləri, memarlıq və infrastruktur, sosial davranış tərzi, populyar incəsənət, texnoloji mühitdir. Şəhər mədəniyyətinin müasirliyi dedikdə, qloballaşma, şəhər həyatının rəqəmsallaşması, teatr, kino, musiqi, bir sözlə, müasir incəsənət nümunələrinin artması, fərqli mədəniyyətlərdən gələn insanların birgə yaşaması başa düşülür. "Şəhər ənənəvi həyat tərzindən müasir həyat tərzinə keçidin simvoludur" [Mehdi, N., 2007, səh. 103]. Şəhəri dinamika, kəndi isə sabitlik məkanı kimi izah edir. Şəhər sosial dinamika, tranformasiya mərkəzi hesab olunur. Kənd isə adətən, sabit qalan, yenilənməyə can atmayan məkandır.

Niyazi Mehdi, öz əsərlərində şəhəri, insan tənhalığının simvolu kimi də qiymətləndirir. O, bildirir ki, kiçik ərazidə, kənddə, insan hamı tərəfindən tanınar, görünər. Lakin şəhəri içində isə çoxluq fərdi görünməz edər. Şəhərdə olan tənhalıq simvolu, özünü arxitektura və memarlıqda da göstərir. Sanki hündür mərtəbəli binalar insanları bir -birindən uzaqlaşdırır. Şəhərdə olan soyuq rənglər, soyuq estetika insanın daxili boşluğunu göstərir. Müəllifə görə, hündür divarlar, izdihamı, səs-küyü gizlədir, insanı öz səssizliyi ilə baş-başa buraxır. Şəhərin süni işıqları isə, insanın içindəki qaranlıqla təzad təşkil edir. Fəlsəfədə şəhər tənhalığının, insanın öz seçimi olduğu vurğulanır, bu tənhalıq bir tərəfdən fəlakət kimi dəyərləndirilsə də, digər tərəfdən isə, fərdin özünü inkişaf etməsi kimi qiymətləndirilir.

Niyazi Mehdi yaradıcılığında və kulturoloji təhlillərində şəhər, eyni zamanda da, işarələr sistemidir. Onun tədqiqatlarında, şəhərin ayrı-ayrı elementlərinin izahına rast gəlinir. Məsələn, yol simvolikasının geniş, anlayışlı izahını verməşdir. "Yol simvolikası dünya mədəniyyətinin ən güclü

arxetiplərindəndir" [Mehdi, N., 2007, s. 93]. O, bu anlayışın bir çox mənada adını çəkmişdir: yola düşmək, yolu azmaq, kiməsə yol tapmaq və s. Müəllif, bir məqsədlə yola çıxıb, başqa yola düşmək fikrininin izahını, Əttarın əsərindən nümunə göstərərək belə vermişdir: Məhəmməd peyğəmbər mərac zamanı Allaha doğru səyahətə çıxdığı zaman, qeybdən "məni başqa yerdə axtarma, mən elə sənəm, özündə axtar məni" deyə səs gəlmişdir. Niyazi Mehdi, yol simvolikasının Azərbaycan incəsənət tarixində, ədəbiyyatda da yerini göstərir. Onun fikrincə, Nizaminin poemalarında, xüsusən də Leyli və Məcnun əsərində yola çıxma ifadəsi, hadisələrin bir-birini əvəz etməsinə, psixoloji vəziyyətlərin yaranmasına şərait yaradır. "Yol hərəkətini nizamlayan, gəmiçilikdə tətbiq olunan nişanlar və riyazi simvollar arbitrerdir" [Veysəlli, F., 2010, səh. 40].

Niyazi Mehdiyə görə, küçələr daim hərəkətdə olan, dəyişən, dinamik həyatı ifadə edir. Küçələr insanların qarşılaşıb ünsiyyət qurduğu yerdir. Burada, insan axımı, davamlı hərəkət, nəqliyyat canlılığı ifadə edir. Həmçinin, küçələr, sosial həyatın aktivliyini simvolizə edir. Küçə özü də bir sıra semiotik işarələri özündə əks etdirir. Məsələn: yol nişanları, reklam lövhələri, mağazaların və digər obyektlərin özlərinə məxsus emblemləri, insanların davranışları və s.

Müəllifin əsərlərində meydanlara da ictimai həyatın simvolu kimi rast gəlmək mümkündür. Belə ki, meydanlar müxtəlif və fərqli məqsədlərə görə fərqlənir, onların hər birinin oxşar cəhəti isə, sosial məkan, toplaşma yeri, ictimai hadisələrin gerçəkləşdiyi yer olmaqlarıdır. Meydanlar, birlik simvolu kimi də xarakterizə olunur. Belə ki, burada kütləvi tədbirlər, mitinqlər, bayram şənlikləri və s. keçirilə bilər.

Memarlıq isə şəhərin ən önəmli ünsürlərindəndir. Belə ki, tarixi binalar ənənəni, dövlət binaları hakimliyi, müasir binalar modernliyi, hündür binalar tərəqqini, gücü bildirir. Köhnə və yeni binalar keçmiş və çağdaş dövrü, dəyişikliyi təmsil edir. Restavrasiya olunmuş binalar, muzeylər isə mədəniyyətə dəyər verildiyini, ənənələrə sadiq qalındığını, keçmişimizin qorunduğunu vurğulayır.

Şəhərdə olan parklar, istirahət məkanları, əsasən, harmoniya, hüzur, sakitlik, psixoloji rahatlıq mənalarını daşıyır. Parklar sosial məkandır, burada, sosial ünsiyyət, ictimai rifah özünü göstərir. Parklar təbiət və şəhər arasında kommunikasiya vasitəsidir. Bir tərəfdən, təbiət, yaşıllıq simvolizə edilir. Parklarda olan fəvvarələr, heykəllər də daşınmaz mədəni irs nümunələrimizdir.

Şəhərdə ən önəmli ünsürlərdən biri də nəqliyyat sistemləridir. "Yol hərəkət qayadalarını əks etdirən lövhə, yolun müəyyən hissəsi işarələnməsi, işıqfor, qabaqdan gələn maşınların xəbərdaredici işarələri, yol nizamlayıcılar və s. bütöv bunlar hamısı birlikdə yol hərəkəti qaydalarını nizamlayan işarələrdir" [Veysəlli, F., 2010, səh. 59]. Yol nişanları, metro, avtobus yolları hər biri özünə görə simvolik kodlara malikdir. Bu kodlar vasitəsilə insanlara mesaj informasiya ötürülür.

Niyazi Mehdiyə görə, şəhərdəki tarixi abidələr mədəni yaddaş simvoludur. Tarixi abidələr milli irsi, tarixi, mədəni yaddaşı, kimliyimizi qoruyub saxlayır. Tarixi abidələr, həmçinin, zaman simvolu kimi xarakterizə olunur. Belə ki, keçmişi, bu günü, gələcəyi özündə birləşdirərək, keçmiş və müasirlik arasında dialoq qurur.

Araşdırma nəticəsində, şəhər mədəniyyətinin həyatımıza təsiri, şəhərin semiotik məkan kimi çıxışı, simvolikası tədqiq olundu. Şəhər mədəniyyətinin müasir dövr inkişafında rolu mühümdür. Niyazi Mehdinin yaradıcılığında şəhər müasirlik və ənənənin dialoqu kimi təhlil olunur.

## Ədəbiyyat siyahısı

1. Ağayev, T. (2015). Kulturologiyanın əsasları. – Bakı: Elm və təhsil nəşriyyatı
2. Billie T., G. G Schuelze (2006). Culture in Urban and regional development. Elsevier

3. Axundov, İ. (2009). Mədəniyyət fəlsəfəsi. – Bakı: Elm nəşriyyatı
4. Mehdi, N. (2009). Sənətin Arxeologiyası Sənətin Arxitekturası. – Bakı: Qanun nəşriyyatı
5. Mehdi, N. (2010). Seçilmiş əsərləri. – Bakı: Qanun nəşriyyatı.
6. Mehdi, N. (2013). Mədəniyyət haqqında düşüncələr. – Bakı: Təhsil nəşriyyatı
7. Mehdi, N. (2008). Fəlsəfə, mədəniyyət, cəmiyyət. – Bakı: Elm nəşriyyatı
8. Mehdi, N. (1986). Orta əsrlər Azərbaycan estetik mədəniyyəti. – Bakı: İşıq nəşriyyatı

*İnternet resursları*

1. Wikipedia (2025). Şəhər mədəniyyəti. URL: https://az. wikipedia. org/wiki/%C5%9E%C9%99h%C9%99r_m%C9%99d%C9%99niyy%C9%99ti
2. Wikipedia (2026). Adət-ənənə. URL: https://az. wikipedia. org/wiki/Ad%C9%99t-%C9%99n%C9%99n%C9%99

**Gulsum Aliyeva Nazim gizi**

**SEMIOTICS OF URBAN CULTURE: THE DIALOGUE BETWEEN TRADITION AND MODERNITY (IN THE CONTEXT OF NIYAZI MEHDI CREATIVE ACTIVITY)**

**Summary**

This article examines the semiotic characteristics of urban culture, the analysis of the urban symbol, its meaning, within the framework of tradition and modernity. The analysis of the city not only as a place, but also as a system of cultural signs is presented and discussed. The symbolic meaning of the city, the formation of urban culture, and the processes of cultural transformasion that emerged as a result of Niyazi Mehdi`s philosophical and profound approach are explained in detail. The meaning of some city elements is explained from a semiotic perspective. A philosophical model of the dialogue of tradition and modernity is established on the example of the Baku city. This research is of great relevance in modern cultural studies and philosophy.

**Key words:** symbol, urban, culture, tradition, modernity, Niyazi Mehdi, cultural transformasion, culture, dialogue.

**Алиева Гюльсум Назим гызы**

**СЕМИОТИКА ГОРОДСКОЙ КУЛЬТУРЫ: ДИАЛОГ МЕЖДУ ТРАДИЦИЕЙ И СОВРЕМЕННОСТЬЮ (В КОНТЕКСТЕ ТВОРЧЕСТВА НИЯЗИ МЕХДИ)**

**Резюме**

В данной статье рассматриваются семиотические характеристики городской культуры, анализ городских символов, их значения, а также рамки традиции и современности. В статье представлен и обсуждается анализ города не только как места, но и как системы культурных знаков. В результате философского и глубокого подхода Ниязи Мехди подробно объясняется возникшее символическое значение города, формирование городской культуры и процессы культурной трансформации. Значение некоторых элементов города объясняется с семиотической точки зрения. На примере города Баку выстраивается философская модель диалога между традицией и современностью. Данное исследование имеет большое значение для современных культурологических исследований и философии.

**Ключевые слова:** символ, город, культура, традиция, современность, Ниязи Мехди, культурная трансформация, культура, диалог

**UOT 316**

**Saleh İsmayilov Süleyman oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**ismayilovsalehh@gmail.com**

# AZƏRBAYCAN RESPUBLİKASININ İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAFINDA ƏSAS ÇAĞIRIŞLAR VƏ SOSİAL-MƏDƏNİ PROBLEMLƏR: SOSİOLOJİ BAXIŞ

**Xülasə**

Müasir dövrdə informasiya cəmiyyətinin formalaşması Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafının əsas istiqamətlərindən biri kimi çıxış edir. İnformasiya texnologiyalarının sürətli inkişafı, rəqəmsal transformasiya proseslərinin genişlənməsi və e-hökumət mexanizmlərinin tətbiqi cəmiyyət həyatının bütün sahələrinə dərin təsir göstərmişdir. Bununla yanaşı, sosial bərabərsizliyin artması, rəqəmsal uçurum, informasiya təhlükəsizliyi riskləri, kütləvi informasiyanın manipulyasiyası və fərdi məlumatların qorunması kimi problemlər informasiya cəmiyyətinin davamlı inkişafı qarşısında ciddi çağırışlar yaradır. Bu baxımdan proses yalnız texnoloji deyil, həm də sosial mahiyyət daşıyır və ictimai münasibətlərin strukturunda baş verən dəyişikliklərlə sıx bağlıdır.

Sosioloji yanaşma göstərir ki, informasiya cəmiyyətində fərdin rolu, sosial inteqrasiya, dəyərlər sisteminin transformasiyası və virtual mühitdə sosiallaşma kimi məsələlər yeni elmi yanaşmalar tələb edir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Rəqəmsal transformasiya strategiyası" çərçivəsində həyata keçirilir. Tədqiqatlar sübut edir ki, informasiya cəmiyyətinin sosial bazasının möhkəmləndirilməsi üçün rəqəmsal savadlılığın artırılması, informasiya etikası və sosial məsuliyyətin formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Nəticə etibarilə, informasiya cəmiyyətinin inkişafı texnoloji tərəqqi ilə yanaşı, insan kapitalının gücləndirilməsi və sosial institutların yeni reallıqlara uyğunlaşması ilə bağlı kompleks və çoxşaxəli prosesdir.

**Açar sözlər:** informasiya, rəqəmsal, sosial, sosioloji, bərabərsizlik, təhlükəsizlik, dəyişikliklər.

## Giriş

Azərbaycan Respublikasında informasiya cəmiyyətinin formalaşması qlobal rəqəmsallaşma tendensiyalarının təsiri altında gedən mürəkkəb və çoxşaxəli prosesdir. Bu proses həm texnoloji modernləşməni, həm də sosial münasibətlərin transformasiyasını əhatə edir. İnformasiya texnologiyalarının geniş tətbiqi, rəqəmsal xidmətlərin və e-hökumət sistemlərinin inkişafı vətəndaşların gündəlik həyatına, təhsilinə, məşğulluğuna və sosial əlaqələrinə yeni dinamikalar gətirmişdir. Lakin bu inkişafla yanaşı, müxtəlif sosial problemlər də üzə çıxır.

Ən başlıca çağırışlardan biri rəqəmsal bərabərsizlikdir. Ölkədə internetə çıxış imkanlarının bölgələr üzrə fərqli olması, informasiya texnologiyalarından istifadə bacarıqlarının qeyri-bərabər paylanması sosial ədalət prinsipinə təsir edir. İnformasiya təhlükəsizliyi və şəxsi məlumatların qorunması mühüm məsələdən biridir. Bu baxımdan rəqəmsal platformaların genişlənməsi fərdi məlumatların istifadəsində etik və hüquqi problemləri aktuallaşdırır. Sosioloji baxımdan informasiya cəmiyyəti fərdlərin davranış modellərini, ünsiyyət formalarını və ictimai dəyərləri dəyişdirir. Virtual məkanda sosiallaşma, onlayn identiklik, informasiya asılılığı kimi hadisələr yeni sosial reallıqlar

yaradır. Bu mənada, informasiya cəmiyyətinin inkişafı yalnız texnoloji deyil, eyni zamanda sosial, mədəni və etik aspektlərdə də dəyərləndirilməlidir.

Azərbaycan dövləti bu istiqamətdə "Rəqəmsal transformasiya strategiyası", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və digər normativ sənədlər çərçivəsində məqsədyönlü siyasət həyata keçirir. Lakin sosioloji baxımdan əsas hədəf vətəndaşların rəqəmsal savadlılığının artırılması, informasiya mədəniyyətinin formalaşdırılması və ictimai institutların yeni şəraitə adaptasiyasıdır. Bu amillər informasiya cəmiyyətinin dayanıqlı inkişafını təmin edən əsas sosial dayaqları təşkil edir.

**Təhlil**

Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafı prosesində müşahidə olunan əsas problemlərin təhlili göstərir ki, bu sahə həm texnoloji, həm də sosial aspektlərdə qarşılıqlı təsirə malikdir. İnformasiya texnologiyalarının tətbiqi nəticəsində iqtisadi fəaliyyət, idarəetmə və təhsil sistemləri yeni keyfiyyət mərhələsinə qədəm qoysa da, sosial adaptasiya mexanizmləri hələ tam formalaşmamışdır. Rəqəmsallaşma prosesi bir tərəfdən yeni imkanlar yaradır, digər tərəfdən isə mövcud sosial bərabərsizliyi dərinləşdirə bilir.

Rəqəmsal uçurum problemi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Şəhər və kənd əhalisi arasında, eləcə də gənc və yaşlı nəsillər arasında texnoloji savadlılıq səviyyəsində ciddi fərqlər mövcuddur. Bu fərqlər informasiya resurslarına çıxış imkanlarını məhdudlaşdırmaqla yanaşı sosial inteqrasiyaya mənfi təsir göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, informasiya cəmiyyətinin inkişafında etik və mədəni faktorlar da mühüm rol oynayır. İnformasiya axınının sürətlənməsi cəmiyyətin dəyərlər sistemini dəyişir, sosial davranış normalarına yeni formalar gətirir. Virtual məkanda münasibətlərin formalaşması, sosial medianın təsiri və kütləvi kommunikasiya vasitələrinin dominantlığı fərdlərin sosial identikliyini yenidən müəyyənləşdirir [1, s. 27].

İnformasiya təhlükəsizliyi məsələsi də sosioloji baxımdan diqqət tələb edən sahələrdəndir. Kütləvi informasiya manipulyasiyası, saxta xəbərlərin yayılması və fərdi məlumatların qorunmaması cəmiyyətin etimad səviyyəsini azaldır. Bu isə sosial münasibətlərdə qeyri-müəyyənlik və inamsızlıq mühitinin yaranmasına gətirib çıxarır. Sosioloji təhlil göstərir ki, informasiya cəmiyyətinin effektiv inkişafı üçün təkcə texnoloji infrastrukturun deyil, sosial şüurun da müasirləşməsi vacibdir [1, s. 34].

Qrafik 1.1-də 2015–2023-cü illərdə Azərbaycanda informasiya cəmiyyətinin əsas göstəricilərində artım dinamikası əks olunmuşdur. Bu dövrdə internetə çıxış səviyyəsi 61 %-dən 91 %-ə yüksəlmiş, bu artım infrastrukturun və mobil şəbəkələrin genişlənməsi ilə bağlı olmuşdur.

Rəqəmsal savadlılıq 45 %-dən 78 %-ə, elektron hökumət xidmətlərindən istifadə isə 35 %-dən 73 %-ə çatmışdır. Bu göstəricilər İKT-nin təhsildə tətbiqi və dövlət xidmətlərinin rəqəmsallaşdırılması siyasətinin nəticəsi olaraq informasiya cəmiyyətinin əsas komponentlərinin davamlı inkişaf etdiyini göstərir.

**Qrafik 1.1: Azərbaycan Respublikasında İnformasiya Cəmiyyətinin İnkişaf Göstəriciləri (2015–2023)**




**Mənbə:** Dövlət Statistika Komitəsi (DSK) – *Azərbaycan Respublikasında İnformasiya və Rabitə Xidmətlərinin İnkişafına dair illik hesabatlar (2015–2023)*

**Cədvəl 1. 2015–2023-cü illərdə Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişaf göstəriciləri**

| İl | İnternetə çıxış səviyyəsi (%) | Rəqəmsal savadlılıq səviyyəsi (%) | Elektron hökumət istifadə faizi (%) |
|---|---|---|---|
| 2015 | 61 | 45 | 35 |
| 2017 | 70 | 52 | 49 |
| 2019 | 78 | 63 | 57 |
| 2021 | 85 | 71 | 64 |
| 2023 | 91 | 78 | 73 |

**Mənbə:** Dövlət Statistika Komitəsi (2015–2023); Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, *“Rəqəmsal transformasiya strategiyası” (2022).*

Cədvəl 1.1 2015–2023-cü illərdə Azərbaycanda informasiya cəmiyyətinin inkişaf dinamikasını üç əsas göstərici üzrə əks etdirir: internetə çıxış, rəqəmsal savadlılıq və elektron hökumət xidmətlərindən istifadə. Bu dövrdə internetə çıxış 61 %-dən 91 %-ə yüksəlmiş, bu artım informasiya infrastrukturunun genişlənməsi və dövlət investisiyaları ilə bağlı olmuşdur.

Rəqəmsal savadlılıq 45 %-dən 78 %-ə, elektron hökumət xidmətlərindən istifadə isə 35 %-dən 73 %-ə çatmışdır. Bu artım dövlət proqramları, təhsil islahatları, pandemiya dövründə onlayn mexanizmlərin genişlənməsi və ASAN Xidmət, “myGov” kimi platformaların inkişafı ilə əlaqəlidir. Ümumilikdə, göstəricilərin paralel artımı ölkədə rəqəmsal transformasiyanın sosial və institusional əsaslarının möhkəmləndiyini göstərir [6, s. 72].

## Nəticə

Aparılan təhlil göstərir ki, Azərbaycanda informasiya cəmiyyətinin inkişafı istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur. İnternetə çıxışın genişlənməsi, rəqəmsal savadlılığın artması və elektron hökumət xidmətlərindən istifadənin yüksəlməsi rəqəmsal transformasiyanın sosial əsaslarını gücləndirmiş və ölkənin qlobal rəqəmsal iqtisadiyyata inteqrasiyasını sürətləndirmişdir.

Bununla yanaşı, rəqəmsal bərabərsizlik, informasiya təhlükəsizliyi və fərdi məlumatların qorunması kimi problemlər aktual olaraq qalır. Gələcəkdə informasiya cəmiyyətinin davamlı inkişafı texnoloji yeniliklərlə yanaşı, insan kapitalının, sosial inklüzivliyin və informasiya mədəniyyətinin gücləndirilməsi ilə təmin olunmalıdır.

**Ədəbiyyat siyahısı**

1. Aliyev, A. G. (2022). Problems of application of digital technologies in the territories of Azerbaijan liberated from the Armenian occupation. *Problems of Information Society*, 13(1), 27–34. http://doi.org/10.25045/jpis.v13.i1.04 jpis.az
2. Hajiyeva, N. A., Huseynov, R. T., Huseynova, M. R., Mammadova, A. V., & Mammadov, S. J. (2023). Digitalization of education in Azerbaijan. *AGORA International Journal of Economical Sciences*, 17(2), 130–136. ResearchGate
3. Guluzade, T. (2025). Development prospects of the digital economy in Azerbaijan. *Porta Universorum*, 1(7), 51-59. https://doi.org/10.69760/portuni.0107006 egarp.lt
4. European Training Foundation. (2020). *Digital skills and online learning in Azerbaijan: Digital factsheet 2020*. https://www.etf.europa.eu/sites/default/files/2021-03/digital_factsheet_azerbaijan.pdf European Training Foundation
5. EU4Digital. (2021, June 22). Don't get left behind: Developing skills for a digital future in Azerbaijan. https://eufordigital.eu/dont-get-left-behind-developing-skills-for-a-digital-future-in-azerbaijan/ eufordigital.eu
6. Aliyev, M., & Aliyeva, S. (2024). Revisiting digital transformation of Azerbaijan higher education in the new digital era. *Yıldız Social Science Review*, 10(1), 72-83. https://doi.org/10.51803/yssr.1441943 DergiPark+1
7. Alguliyev, R. (2024). ICT problems of the Azerbaijani language: The Azerbaijani language problems of ICT. *Problems of Information Society*, 15(2). http://doi.org/10.25045/jpis.v15.i2.01 jpis.az
8. Guliyev, V. (2022). Azerbaijan's digitalization. *Caspian Studies Journal*, Summer 2022. cspjournal.az

**Saleh Ismayilov Suleyman oghlu**

## MAIN CHALLENGES AND PROBLEMS IN THE DEVELOPMENT OF THE INFORMATION SOCIETY IN THE REPUBLIC OF AZERBAIJAN: A SOCIOLOGICAL VIEW

**Summary**

In modern times, the formation of an information society acts as one of the main directions of the social, economic and cultural development of Azerbaijan. The rapid development of information technologies, the expansion of digital transformation processes and the application of e-government mechanisms have had a profound impact on all spheres of social life. At the same time, problems such as the increase in social inequality, the digital divide, information security risks, manipulation of mass information and the protection of personal data pose serious challenges to the sustainable development of the information society. In this regard, the process is not only technological, but also social in nature and is closely related to changes in the structure of public relations. The sociological

approach shows that issues such as the role of the individual in the information society, social integration, transformation of the value system and socialization in the virtual environment require new scientific approaches. In Azerbaijan, state policy in this direction is implemented within the framework of “Azerbaijan 2030: National Priorities for Socio-Economic Development” and “Digital Transformation Strategy”. Research proves that increasing digital literacy, forming information ethics and social responsibility are of great importance for strengthening the social base of the information society. Consequently, the development of the information society is a complex and multifaceted process involving technological progress, as well as the strengthening of human capital and the adaptation of social institutions to new realities.

**Keywords**: information, digital, social, sociological, inequality, security, changes.

**Салех Исмаилов Сулейман оглу**

## ОСНОВНЫЕ ВЫЗОВЫ И ПРОБЛЕМЫ РАЗВИТИЯ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ: СОЦИОЛОГИЧЕСКИЙ ВЗГЛЯД

### Резюме

В современную эпоху формирование информационного общества является одним из главных направлений социально-экономического и культурного развития Азербайджана. Быстрое развитие информационных технологий, расширение процессов цифровой трансформации и применение механизмов электронного правительства оказали глубокое влияние на все сферы общественной жизни. В то же время серьезные вызовы устойчивому развитию информационного общества представляют такие проблемы, как рост социального неравенства, цифровое неравенство, риски информационной безопасности, манипулирование массовыми информационными ресурсами и защита персональных данных. В этом контексте процесс носит не только технологический, но и социальный характер и тесно связан с изменениями в структуре общественных отношений. Социологический подход показывает, что такие вопросы, как роль индивида в информационном обществе, социальная интеграция, трансформация системы ценностей и социализация в виртуальной среде, требуют новых научных подходов. В Азербайджане государственная политика в этом направлении реализуется в рамках программ «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития» и «Стратегия цифровой трансформации». Исследования доказывают, что повышение цифровой грамотности, формирование информационной этики и социальной ответственности имеют огромное значение для укрепления социальной базы информационного общества. Следовательно, развитие информационного общества — это сложный и многогранный процесс, включающий в себя как технологический прогресс, так и укрепление человеческого капитала и адаптацию социальных институтов к новым реалиям.

**Ключевые слова**: информация, цифровой, социальный, социологический, неравенство, безопасность, изменения.

## MÜNDƏRİCAT

KAMAL ƏHMƏDOVUN YARADICILIQ İRSİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ
**Rumiyə Məmmədova Yaqub qızı** ........ 6

QƏRBİ AZƏRBAYCANIN TARIXI ABIDƏLƏRI VƏ TOPONIMLƏRINƏ DAIR ƏDƏBIYYATIN BIBLIOMETRIK TƏHLILI
**Aysel Həsənova Vaqif qızı** ........ 12

İNTERPRETASİYA VƏ YA STİMULLAŞDIRMA: FRİMEN TİLDENİN PRİNSİPLƏRİNİN RƏQƏMSAL MUZEY OYUNLAŞDIRMASI ŞƏRAİTİNDƏ TRANSFORMASİYASI
**Əli Abuzərov Eldar oğlu** ........ 17

QLOBAL RƏQƏMSALLAŞMANIN MƏDƏNİ DƏYƏRLƏRİN TƏKAMÜLÜNƏ VƏ ŞƏXSİYYƏT İDENTİKLİYİNƏ TƏSİRİ
**Nəzrin Arixova Mobil qızı** ........ 22

İQTİSADİ MOTİVASİYA VƏ MƏNƏVİ DƏYƏRLƏR
**Ülkər Rzayeva Cəmil qızı** ........ 28

KİBER ZORAKILIĞA QARŞI MƏDƏNİYYƏTİN TƏNZİMLƏYİCİ ROLU
**Lalə Məcidova Ədalət qızı** ........ 33

КИНО, ГОРОДСКАЯ КУЛЬТУРА И ЦИФРОВАЯ ТРАНСФОРМАЦИЯ
**Азер Гулиев Алик оглы** ........ 39

ƏZİM ƏZİMZADƏNİN ƏSƏRLƏRİNDƏ ABŞERON MEMARLIĞININ TƏSVİRİ
**Səltənət Əfəndiyeva Zakir qızı** ........ 45

FİLM LAYİHƏLƏRİNDƏ GƏLİR MƏNBƏLƏRİNİN MÜQAYİSƏSİ VƏ ONLARIN İNVESTİSİYA ƏHƏMİYYƏTİ
**Sona Cəmşidli İlham qızı** ........ 49

AŞIQ MUSİQİSİ VƏ XALQ MAHNI YARADICILIĞI
**Amil Səlimli Qiyas oğlu** ........ 55

TEXNOLOJİ YENİLİKLƏRİN TEATR DEKORASİYASINA TƏSİRİ
**Şəlalə Aslanova Şahin qızı** ........ 61

DEKORATİV-TƏTBİQİ SƏNƏTDƏ ŞƏHƏR OBRAZI: XALÇAÇILIQ, QOBELEN, KERAMİKA VƏ VİTRAJ NÜMUNƏLƏRİNDƏ URBAN MOTİVLƏRİN ESTETİK VƏ SEMANTİK TƏHLİLİ

**Günay Məmmədova Adil qızı** ........................................................................................................ 67

NAZİM BƏYKİŞİYEV YARADICILIĞINDA ŞƏHƏR MÖVZUSU
**Ülkər Ələkbərova Səbuhi qızı** ........................................................................................................ 72

ОБРАЗ ГОРОДА ШУША В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЖИВОПИСИ (2020–2025): АРХИТЕКТУРА КАК ВИЗУАЛЬНЫЙ ЯКОРЬ НАЦИОНАЛЬНОЙ ПАМЯТИ
**Тариель-Хиджран Мамедли Ибрагим оглы** .......................................................................... 77

RƏQƏMSAL PLATFORMALAR DÖVRÜNDƏ AZƏRBAYCANDA KONSERT MƏDƏNİYYƏTİ: İSTEHLAK VƏ İŞTİRAK FORMALARININ DƏYİŞMƏSİ
**Gülbadam Bəşirova Emin qızı** ........................................................................................................ 80

KAMANÇA ALƏTİNİN TARİXİ İNKIŞAF YOLU
**Eltac Gözəlov Namiq oğlu** ........................................................................................................ 86

AZƏRBAYCAN BƏSTƏKARLARININ QARMON ÜÇÜN KÖÇÜRÜLMÜŞ MÜRƏKKƏB FORMALI ƏSƏRLƏRİNDƏ İNTERPRETASİYA MƏSƏLƏLƏRİ
**Rəsul Mütəllimov Nazim oğlu** ........................................................................................................ 90

TƏSVİRİ SƏNƏTDƏ ŞƏHƏR MƏNZƏRƏLƏRİ: TARİXİLİK VƏ MÜASİR İNTERPRETASİYA
**Aydan Rüstəmova Fəhrad qızı** ........................................................................................................ 94

ŞƏHƏR MÜHİTİNDƏ NƏQLİYYAT SİSTEMLƏRİNİN SOSİAL-MƏDƏNİ TURİZMİN İNKİŞAFINA TƏSİRİ: AZƏRBAYCAN NÜMUNƏSİNDƏ TƏHLİL
**Tacir Abdurahmanov Səyavuş oğlu** ........................................................................................................ 99

LƏZGİ DİLİNİN QEYRİ-MADDİ MƏDƏNİ İRS KİMİ QORUNMASININ MÜASİR PROBLEMLƏRİ
**Mədinə Babaxayeva Süleyman qızı** ........................................................................................................ 104

MƏDƏNİYYƏT VƏ SƏNƏTŞÜNASLIĞIN ÜMUMİ PROBLEMLƏRİ KONTEKSTİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT TARİXİNDƏ MƏDƏNİ YADDAŞIN FORMALAŞMASININ ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ASPEKTLƏRİ (1990–2025)
**Səbinə Ağayeva Səyyad qızı** ........................................................................................................ 109

TARİXİ YADDAŞ VƏ URBAN MÜASİRLİK: ŞƏHƏR MƏDƏNİ İRSİNİN TRANSFORMASİYA MODELLƏRİ
**Məzirə Ələsgərova Vüqar qızı** ........................................................................................................ 113

ŞƏHƏR MÜHİTİ ƏNƏNƏVİ VƏ MÜASİR MƏDƏNİ İRSİN TRANSFORMASİYA MƏKANI KİMİ (XX ƏSR AZƏRBAYCANINDA MODERNİZM KONTEKSTİNDƏ)
**Ceyran Əliyeva Kəmaləddin qızı** ........................................................................................ 117

MİXAİL ARXANGEL KİLSƏSININ DAXİLİ TƏRTİBATINDA UCAL HAQVERDİYEVİN ROLU
**Ləman Qurbanova Elxan qızı** ............................................................................................ 122

BAKI ŞƏHƏRİ: TARİXİ İNKİŞAF, MƏDƏNİ YADDAŞ VƏ MÜASİR URBANİZASİYA
**Adilə Əhmədova Əli qızı** .................................................................................................. 128

RƏQƏMSAL TRANSFORMASİYA ŞƏRAİTİNDƏ ŞƏHƏR MÜHİTİNDƏ METAL ARTEFAKTLARIN QORUNMASI PROBLEMLƏRİ: MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ SAXLANILAN ZƏRGƏRLİK NÜMUNƏLƏRİ KONTEKSTİNDƏ MƏDƏNİ İRSİN DAVAMLILIĞI
**Nərmin Muxtarova Azər qızı** ............................................................................................ 134

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİ İRSİN FORMALAŞMASI
**Gülsurə Şamxallı Azad qız** ............................................................................................... 143

RƏQƏMSAL TRANSFORMASİYA ŞƏRAİTİNDƏ ŞƏHƏR MÜHİTİNDƏ MEMARLIQ ABİDƏLƏRİNİN MƏDƏNİ DƏYƏRİNİN QORUNMASI VƏ İNKİŞAFI (HACI ZEYNALABDİN TAĞIYEV VƏ MURTUZA MUXTAROVUN ŞƏXSİ MÜLKLƏRİ NÜMUNƏSİNDƏ)
**Aylan Kələntərli Emin qızı** ............................................................................................... 147

ŞƏHƏR MÜHİTİNDƏ QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI PROBLEMLƏRİ (ƏNƏNƏLƏR VƏ FESTİVALLAR KONTEKSTİNDƏ)
**Zümrüd Kazımova Əzim qızı** ............................................................................................ 153

MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ MƏSƏLƏLƏRİ KONTEKSTİNDƏ QƏRBİ AZƏRBAYCANIN MADDİ İRSİNİN KULTUROLOJİ ASPEKTLƏRİ
**Təhminə Əliyeva Rəhman qızı** ......................................................................................... 158

AZƏRBAYCANDA MEMORİAL ABİDƏLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ
**Əli Həsənov Elşən oğlu** .................................................................................................... 163

MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏSİNDƏ RƏQƏMSAL YENİLİKLƏR VƏ İDARƏETMƏ MODELLƏRİ

**Eşqin Yusifov Ramil oğlu** .................................................................................................... 170

MƏDƏNİYYƏT VƏ RƏQƏMSAL İDARƏETMƏ: SOSİOLOJİ BAXIŞ
**Günel Həsənova Mehman qızı** ............................................................................................ 176

İŞĞALDAN SONRA QARABAĞDA MUZEY İNFRASTURUKTURUNUN FORMALAŞMASI: PROBLEM VƏ PERSPEKTİVLƏR
**Aysun Quliyeva Ariz qızı** .................................................................................................... 181

TÜRK XALQLARININ ORTAQ MƏDƏNİ İRSİNİN RƏQƏMSALLAŞDIRILMASININ ÜSTÜNLÜKLƏRİ VƏ PROBLEMLƏRİ
**Lamiyə Tağıyeva Vüsal qız** ................................................................................................ 186

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİYYƏTLƏRİN QARŞILIQLI TƏSİRİ VƏ RƏQƏMSAL DÜNYADA MƏDƏNİYYƏTİN ÜMUMİ PROBLEMLƏRİ
**Nurcan Abdullayeva Hümbət qızı** ........................................................................................ 191

MÜASİR TƏDBİR TƏŞKİLATÇILIĞINDA ETNOMƏDƏNİ DƏYƏRLƏR VƏ SOSİAL DAVRANIŞ MODELLƏRİ
**Fuad Mustafayev Rizvan oğlu** ……………………………………………………………… 196

ŞƏHƏR MƏDƏNİYYƏTİNİN SEMİOTİKASI: ƏNƏNƏ VƏ MÜASİRLİK DİALOQU (NİYAZİ MEHDİ YARADICILIĞI KONTEKSTİNDƏ)
**Gülsüm Əliyeva Nazim qızı** ………………………………………………………...……… 200

AZƏRBAYCAN RESPUBLİKASININ İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAFINDA ƏSAS ÇAĞIRIŞLAR VƏ SOSİAL-MƏDƏNİ PROBLEMLƏR: SOSİOLOJİ BAXIŞ
**Saleh İsmayilov Süleyman oğlu** .......................................................................................... 204